# GƏLİN BİRLƏŞƏK

**De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allah'dan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allah'ı qoyub bir-birimizi ilahiləşdirməyək". Əgər onlar üz döndərsələr, deyin: "Şahid olun ki, biz müsəlmanlarıq!" (Ali-İmran surəsi, 64)**

**HARUN YƏHYA (ADNAN OKTAR)**

**OXUCUYA**

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allah`ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah`ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah`ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allah`ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

## YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah`ın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah`ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah`ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah`ın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# MÜNDƏRİCAT


GİRİŞ

I HİSSƏ

QURAN VƏ SÜNNƏYƏ ƏSASƏN, MÜSƏLMANLARIN KİTAB ƏHLİNƏ MÜNASİBƏTİ NECƏ OLMALIDIR?

II HİSSƏ

İSLAM TARİXİNDƏ MÜSƏLMANLAR VƏ KİTAB ƏHLİ

III HİSSƏ

RADİKALİZM TƏHLÜKƏSİNƏ QARŞI BİRLƏŞMƏK

IV HİSSƏ

İLAHİ DİNLƏRDƏ ORTAQ İNANC ƏSASLARI

V HİSSƏ

İLAHİ DİNLƏRDƏ ORTAQ İBADƏTLƏR, ORTAQ ƏXLAQİ DƏYƏRLƏR

VI HİSSƏ

ORTAQ FİKRİ MÜBARİZƏ

VII HİSSƏ

İLAHİ DİNLƏRDƏ MƏSİH (ƏS) VƏ MEHDİ (ƏS) İNANCI

VIII HİSSƏ

GƏLİN BİRLƏŞƏK

NƏTİCƏ

TƏKAMÜL YALANI

# GİRİŞ

Dünyanın sülhə, dostluq və qardaşlığa ən çox ehtiyac duyduğu dövrdə yaşayırıq. XX əsrə möhürünü vuran qarşıdurma və gərginliklər yeni əsrdə də sürətlə davam edir. Dünyanın hər yerində məsum insanlar bu qarşıdurma və gərginlikdən əzab çəkirlər.

Həmrəyliyin və yardımlaşmanın güclənməsinə duyulan təcili ehtiyaca baxmayaraq, bəzi insanların hələ də qarşıdurmanı (xüsusilə də dünyanın iki böyük və köklü sivilizasiyası arasındakı qarşıdurmanı) qızışdırmaları qarşımızda duran böyük problemdir. Bu insanların tələb etdiyi iki sivilizasiya qarşıdurmasının bütün dünyada böyük fəlakətə səbəb olacağı aydındır.

Bu cür fəlakətin qarşısının alınmasının əhəmiyyətli yollarından biri sivilizasiyalar arasında həmrəyliyin və əməkdaşlığın gücləndirilməsi məsələsidir. Üstəlik, bu, heç də çətin deyil. Çünki İslam sivilizasiyası və Qərb dünyası arasında kəskin fərq yoxdur. Əksinə, (bu kitabda dəlillərlə sübut edəcəyimiz kimi) İslam sivilizasiyası və Qərb sivilizasiyasını meydana gətirən yəhudi-xristian mədəniyyəti arasında bir çox ortaq xüsusiyyət var. Bu ortaq xüsusiyyətləri əsas götürərək dünyadakı problemlərə əməkdaşlıqla çıxış yolu tapmaq heç də çətin olmaz. Xüsusilə yaşadığımız dövrün şəraiti nəzərə alınarsa...

Bu gün dünyada böyük fikri mübarizə hələ də davam edir və dünya iki qütbə bölünmüş vəziyyətdədir. Ancaq bu iki qütbün tərəfləri müsəlmanlar və yəhudi-xristianlar deyil. Bu iki qütbün bir tərəfində Allah’ın varlığına və birliyinə iman gətirənlər, digər tərəfində isə inkarçılar, yəni bir tərəfdə İlahi dinlərə inananlar, digər tərəfində də bu dinlərə qarşı olan ideologiyaları müdafiə edənlər durur. Dini və əxlaqi dəyərləri hədəf alan güc mərkəzləri əllərindəki geniş imkanları birləşdirərək dindarlara qarşı ittifaq halında hərəkət edirlər. Bu ittifaqı fikri mənada zərərsizləşdirmək, darvinist, ateist, dinsiz materialist təlqinlərin mənfi, dağıdıcı nəticələrini aradan qaldırmaq, gözəl əxlaqın, xoşbəxtliyin, rahatlığın, təhlükəsizliyin və rifahın hakim olduğu cəmiyyətləri meydana gətirmək üçün yeganə yol vardır: yer üzündəki vicdanlı insanlar, səmimi iman gətirən xristianlar, dindar yəhudilər və müsəlmanlar bu ortaq məqsəd uğrunda birləşməlidirlər.

Keçmişdə üç İlahi dinin mənsubları arasında müxtəlif bəhanələrlə bəzi qarşıdurma və anlaşılmazlıqların yaranması tarixi həqiqətdir. Ancaq bunlar yəhudilik, xristianlıq və İslamın özündən deyil, dövlətlərin, cəmiyyətlərin və fərdlərin yanlış qərar və düşüncələrindən, çox vaxt da iqtisadi və ya siyasi mənfəətlərindən qaynaqlanır. Çünki hər üç İlahi dinin ortaq məqsədlərindən biri bütün insanların sülh şəraitində, rahat, təhlükəsiz və xoşbəxt yaşamalarıdır. Bu məqsədə zidd olan və qarşıdurma yaradan hər cür düşüncə hər üç dinə görə də yanlışdır.

Bu səbəbdən, dinlər arasında qurulan əməkdaşlıq və ittifaq xristianların, müsəlmanların və yəhudilərin ədalət və sülh axtarışlarının, bəşəriyyətə fayda vermək istəklərinin təbii nəticəsi olar. Üç dinin mənsublarının arasındakı ittifaq yalnız yığıncaq və konfranslarla məhdudlaşan bir əlaqə deyil, ortaq dəyərləri müdafiə edən, eyni məqsəd uğrunda fikri mübarizə aparan, ortaq problemlərə birdəfəlik çıxış yolu tapmağı hədəf alan

inanclı insanların birliyidir. Bu birlik hz. İsanın (əs) yer üzünə ikinci dəfə gəlişini gözlədiyimiz dövrdə və hz. Mehdinin (əs) yer üzündə olduğu dövrdə dünyanı nura və rahatlığa qovuşduracaq.

# I HİSSƏ

# QURAN VƏ SÜNNƏYƏ GÖRƏ MÜSƏLMANLARIN KİTAB ƏHLİNƏ MÜNASİBƏTİ NECƏ OLMALIDIR?

Bu kitabda xristianların, musəvilərin və müsəlmanların ortaq inanc əsaslarına, ortaq ibadətlərə, ortaq əxlaqi dəyərlərə sahib olduqları, eyni təhlükələrlə qarşılaşdıqları bu dinlərin müqəddəs kitabları əsasında izah edilir və kitab əhli (yəhudi və xristianlar) Quranda Rəbbimizin bildirdiyi kimi birləşməyə çağırılır. Bu çağırışın məqsədi bütün inanclı insanları eyni amal uğrunda birləşməyə - darvinizmə, materializmə, ateizmə, din düşmənçiliyinə, ictimai və əxlaqi degenerasiyaya qarşı birlikdə mübarizəyə və əl-ələ tutaraq Allah inancını və gözəl əxlaqı dünyanın hər yerində yaymağa dəvət etməkdir. Bu çağırış səmimi, vicdanlı, şəfqətli, gözəl əxlaqlı, sülhpərvər və ədalətli yəhudi, xristian və müsəlmanlara aiddir. Unutmaq olmaz ki, hamımız bir olan Allah'a iman gətiririk, Rəbbimizin bizə əmr etdiyi gözəl əxlaqı yaşamaq və yaymaq üçün səy göstəririk. Üç İlahi dinin mənsubları da:

-Allah'ın bütün kainatı yoxdan yaratdığına və bütün maddəyə sonsuz qüdrəti ilə hakim olduğuna inanır.

-Allah'ın bütün canlıları möcüzəvi şəkildə yaratdığına və insanın Allah'ın verdiyi ruha sahib olduğuna iman gətirir.

-Tarix boyu Allah'ın insanlara hz. Muhəmməd (səv), hz. İsa (əs) və hz. Musa (əs) ilə birgə hz. Nuh (əs), hz. İbrahim (əs), hz. İshaq (əs), hz. Yusif (əs), hz. Davud (əs) kimi bir çox peyğəmbər göndərdiyinə inanır və bütün peyğəmbərləri sevir.

-Ölümdən sonra dirilişə, Cənnət və Cəhənnəmə, mələklərin varlığına iman gətirir, Allah'ın həyatımızı bir qədər (tale) ilə yaratdığına inanır.

Yalnız inanc mövzusunda deyil, əxlaqi dəyərlərdə də kitab əhlinin inancları müsəlmanlarla uyğundur. Hal-hazırda fahişəlik, homoseksuallıq, narkomaniya kimi əxlaqsızlıqların, eqoist, mənfəətpərəst, mərhəmətsiz insan modelinin sürətlə yayıldığı bir dünyada kitab əhli və müsəlmanlar eyni dəyərlərə inanırlar: namus, iffət, təvazökarlıq, fədakarlıq, dürüstlük, şəfqət, mərhəmət, qarşılıqsız sevgi...

Biz, yəni müsəlmanlar hz. Musaya (əs) da, hz. İsaya (əs) da dərin sevgi və hörmət bəsləyir, onların Allah qatında qiymətli, mübarək insanlar olduqlarını bilir və Rəbbimizin göndərdiyi bütün peyğəmbərlərə iman gətiririk. Allah'ın Quranda bizə öyrətdiyi əxlaqın tələbinə uyğun olaraq, yəhudi və xristianların inanclarına, dəyərlərinə və ənənələrinə hörmət edirik. Allah Quranda müsəlmanlara kitab əhli haqqında belə əmr verir:

**De: "Ey Kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allah'dan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allah'ı qoyub bir-birimizi ilahiləşdirməyək"... (Ali-İmran surəsi, 64)**

Bizim xristianlara və yəhudilərə olan çağırışımız da budur: Allah'a iman gətirən və Onun vəhyinə itaət edən insanlar kimi, gəlin ortaq iman sözündə birləşək. Hamımız Yaradıcımız və Rəbbimiz olan Allah'ı sevək. Onun əmrlərinə itaət edək və Allah'ın bizi doğru yola yönəltməsi üçün dua edək. Müsəlmanlar, xristianlar və yəhudilər ortaq sözdə birləşdikdə, bir-birinin düşməni deyil, dostu olduqlarını anladıqda, darvinizm, materializm, ateizm və dinsizliyə qarşı fikri mübarizənin aparılmasının vacib olduğunu gördükdə dünya daha fərqli bir yer olar. Əsrlərlə davam edən şiddət, qorxu və qarşıdurmalar sona çatar və sevgi, hörmət və rahatlığa əsaslanan yeni sivilizasiya qurular.

# Müsəlmanların iki ilahi dinin mənsublarına sevgisi və şəfqəti

Müsəlmanlar həm yəhudiliyi, həm də xristianlığı Allah'ın vəhyi ilə yaranmış İlahi din kimi qəbul edirlər. Kitablarını tanıyırlar. Onları inkarçılarla, bütpərəstlərlə bir tutmur, əksinə, kitab əhli adlandırır və onların inanclarına anlayış və hörmətlə yanaşırlar.

**Əlif, Lam, Mim. Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir kitabdır. O kəslər ki, qeybə iman gətirir, namaz qılır və Bizim onlara verdiyimiz ruzidən (Allah yolunda) xərcləyirlər; O kəslər ki, sənə nazil olana və səndən əvvəl nazil olanlara iman gətirir, axirətə də yəqinliklə inanırlar. (Bəqərə surəsi, 1-4)**

Bu ayələrdə müsəlmanlar həm hz. Muhəmmədə (səv) endirilən Qurana, həm də ondan əvvəl endirilən kitablara iman gətirən insanlar kimi təsvir edilirlər. Əvvəlki kitablar Quranda hz. İbrahimin (əs) səhifələri, hz. Musaya (əs) endirilən Tövrat, hz. Davuda (əs) endirilən Zəbur və hz. İsaya (əs) endirilən İncil kimi bildirilir. Bu kitablar bəzi insanlar tərəfindən təhrif edilmişdir, bu səbəbdən, bəzi hissələrində haqq dindən uzaq izahlar var. Bununla bərabər,

Allah'a və axirət gününə iman gətirmək, şirk qoşmamaq, gözəl əxlaq göstərmək kimi haqq dinə uyğun əmrləri ehtiva edən hissələr də günümüzə qədər gəlmişdir. Bu kitabların içində nəyin haqq, nəyin təhrif olduğunu isə Qurana və Peyğəmbərimizin (səv) hədislərinə baxaraq asanlıqla anlaya bilərik.

**O, sənə kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi – daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün... (Ali-İmran surəsi, 3-4)**

Başqa ayədə Allah Tövratı belə tanıdır:

**Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. (Allah'a) təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allah'ın kitabından qorunub saxlanılanlarla hökm verirdilər... (Maidə surəsi, 44)**

Quranda bəzi yəhudi dindarların Tövratda kəlmələrin yerlərini dəyişdirib sapdırdıqları (Maidə surəsi, 41) və öz əlləri ilə kitab yazıb sonra da: "Bu, Allah'ın vəhyidir!" dedikləri (Bəqərə surəsi, 79), yəni Allah'ın kitabını təhrif etdikləri xəbər verilir. Bəzi xristianlar isə hz. İsanı (əs) ilahlaşdıraraq (Allah'ı tənzih edirik) böyük səhvə yol veriblər. (Nisa surəsi, 171) Allah Quranda kitab əhlindən olan bəzi insanların əxlaqi səhvlərinə də diqqət çəkir. Amma bunlar Kitab əhlinin hamısının qəflət və yanılma içində olduqları demək deyil. Allah yəhudi və xristianlar arasında da Allah'a səmimiyyətlə bağlı olan dindar insanların olduğunu müxtəlif ayələrdə xəbər verir:

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allah'ın ayələrini oxuyurlar. Belələri Allah'a, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər. Onların etdiyi yaxşılıqlar əvəzsiz qalmayacaqdır. Allah müttəqiləri tanıyır. (Ali-İmran surəsi, 113-115)**

**Həqiqətən, kitab əhlindən elələri də var ki, Allah'a müti olaraq həm Allah'a, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allah'ın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali-İmran surəsi, 199)**

Buna görə də müsəlmanlar kitab əhli içərisində də səmimi iman gətirən bir çox insanın olduğunu bilir və səmimi insanlara sevgi, şəfqət və anlayışla yaxınlaşırlar. Müsəlman hər düşüncə və hər inancdan olan insana şəfqətlə yaxınlaşmalı, ona düşüncəsini ifadə etmə haqqını verməli, ibadətlərinə və ibadətgahlarına hörmət etməli, hər inanc sahibinin istədiyi kimi, azad yaşamasına imkan verməlidir. Bu, həm Quranın hökmü, həm də Peyğəmbərimizin (səv) həyatında nümunəsini gördüyümüz bir həqiqətdir. Unutmaq olmaz ki, hər insanın qəlbindəkini Allah bilir və Allah kitab əhlindən olan insanların da Öz qatında əcrlərinin olduğunu bildirir.

# Hz. İbrahimin (əs) hənif dini

Allah Quranda hər cəmiyyət üçün bir yol və şəriət təyin etdiyini bildirmişdir. Rəbbimiz hər dövrdə peyğəmbərlər göndərərək cəmiyyətlərə fərqli şəriətlər, əmr və qadağalar göndərmişdir. Bütün peyğəmbərlər cəmiyyətlərini yalnız bir olan Allah'a iman gətirməyə, ibadət etməyə və Rəbbimizin əmrlərinə itaət etməyə dəvət etmişlər. Başqa sözlə desək, bütün haqq dinlər Allah'a heç nəyi şərik qoşmamaq, Allah'ın rizası, rəhməti və Cənnəti üçün yaşamaq və çalışmaq üzərində qurulmuşdur. Hər cəmiyyət Allah'ın onlara əmr etdiklərini əskiksiz olaraq yerinə yetirməklə və Allah rizası üçün gözəl davranmaqla məsuliyyət daşıyır. Rəbbimiz ayədə belə buyurmuşdur:

**...Sizlərdən hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin (başqa-başqa olmanız) sizə verdikləri ilə sizi imtahan etməsi üçündür. Yaxşı işlər görməkdə bir-birinizlə yarışın. Hamınızın qayıdışı Allah'a olacaq və O, ziddiyyətə düşəcəyiniz şeylər barəsində sizə xəbər verəcəkdir. (Maidə surəsi, 48)**

Kitab əhli və müsəlmanlar da fərqli şəriətlərə sahibdirlər, ancaq istər yəhudi və xristianlardan, istərsə də müsəlmanlardan səmimi iman gətirənlər Allah'a qəlbən təslim olmaqla, yaxşı və gözəl davranışlar göstərməklə və xeyirli işlərdə yarışmaqla məsuldurlar. Allah'ın varlığına və tək olduğuna inanan, ixlasla axirətə iman gətirən, saleh işlər görən hər üç İlahi dinin mənsubları, əslində, Rəbbimizin hz. İbrahimə (əs) endirdiyi haqq dinə itaət edirlər.

Allah Quranda ilk peyğəmbərin hz. Adəm (əs) olduğunu bildirir. Hz. Adəmdən (əs) sonra hz. İdris (əs) və hz. Nuh, peyğəmbər kimi göndərilmişdir. Hz. İbrahim (əs) isə hz. Nuhdan (əs) sonra yaşamışdır və onun nəslindəndir. Quranda belə bildirilir:

**Aləmlər içərisində Nuha salam olsun! Həqiqətən, Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Həqiqətən, o, Bizim mömin qullarımızdandır. Sonra o birilərini suya qərq etdik. Həqiqətən, İbrahim onun ardıcıllarından idi. (Saffat surəsi, 79-83)**

Quranda hz. İbrahimin (əs) dininin hənif olduğu bildirilir. "Hənif" sözü Allah'ın əmrinə təslim olub, Onun dinindən heç vaxt dönməyən, ixlaslı insan deməkdir. Bir ayədə Allah hz. Muhəmmədə (səv) hz. İbrahimin (əs) hənif dininə tabe olmasını belə bildirmişdir:

**Sonra sənə vəhy etdik: "Hənif İbrahim dininə tabe ol. O, müşriklərdən deyildi". (Nəhl surəsi, 123)**

Hz. İbrahimdən (əs) sonra gələn oğulları, nəvələri və onun nəslindən olan saleh möminlər Allah'ın hz. İbrahimə (əs) vəhy etdiyi haqq dinə tabe olmuşlar. Bu həqiqət Quran ayələrində belə bildirilir:

**Səfeh olanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Biz onu dünyada (elçi) seçdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdən olacaqdır. Rəbbi ona: "Təslim ol!"– dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!"– demişdi. İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!" (Bəqərə surəsi, 130-133)**

Göründüyü kimi, hz. İbrahimin (əs) hənif dini Allah'a iman gətirən yəhudilər, xristianlar və müsəlmanlar arasında ortaq bir sözdür. Hz. İbrahimə (əs) iman etmək, ona sevgi duymaq və hörmət etmək yəhudilər və xristianlar üçün olduğu kimi, müsəlmanlar üçün də

əhəmiyyətlidir. Ancaq unutmaq olmaz ki, Allah'a olan dərin iman və sevgisi, Rəbbimizin bütün əmrlərinə qəlbən boyun əyməsi, itaəti və üstün əxlaqı ilə bütün inananlara nümunə olan hz. İbrahimə (əs) ən yaxın olanlar, heç şübhəsiz, onun gözəl əxlaqını mənimsəyən insanlardır. Rəbbimiz Quranda belə buyurur:

**Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər (Muhəmməd) və iman gətirənlərdir. Allah möminlərin himayədarıdır. (Ali-İmran surəsi, 68)**

Buna görə də Allah'a qəlbən iman gətirən yəhudi və xristianlar hz. İbrahim (əs) və ona tabe olan saleh möminlər kimi yalnız Allah'a yönəlməli, hz. İbrahimin (əs) göstərdiyi gözəl əxlaqı, səmimiyyəti və dərinliyi nümunə götürməlidirlər. Şübhəsiz, inananlar peyğəmbərlərə sevgi, itaət və yaxınlıq göstərmək üçün onlar kimi saleh olmağa səy göstərməlidirlər. Müsəlmanlar isə Rəbbimizin Quranda əmr etdiyi kimi, bütün peyğəmbərlərə verilənlərə iman gətirirlər.

**Deyin: "Biz Allah'a, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" (Bəqərə surəsi, 136)**

# Quran əxlaqının tələb etdiyi şəfqət

Sülh və sevgi dini olan İslam iman gətirənlərin bütün insanlara ədalətli və yaxşı davranmalarını tələb edir. Saleh müsəlmanlar Allah'ın əmr etdiyi əxlaqa uyğun olaraq bağışlayan, təvazökar, həlim xasiyyətli və səmimi insanlardır. Allah iman gətirənlərə özlərinin və ya yaxınlarının əleyhinə olsa da, ədalətli olmağı, ehtiyac içində olsalar belə, əvvəlcə yetimi və əsiri doydurmağı, fədakar olmağı, səbirli davranmağı, gözəl əxlaqda qətiyyətli olmağı əmr etmişdir. Bu əxlaqı daşıyan mömin, eyni zamanda, müxtəlif inanclara və düşüncələrə mənsub olan insanlara qarşı da şəfqətli və anlayışlıdır. Dində məcburiyyət olmadığının şüuru ilə iman gətirməyən insanları haqq yola dəvət edərkən həmişə nəzakətli üslubdan istifadə edir, doğru yolu göstərirlər. Məqsədləri qarşı tərəfin vicdanına xitab etmək və onların gözəl əxlaqa yiyələnməsinə vəsilə olmaqdır. Bu isə ancaq Allah'ın insanlara hidayət verməsi ilə mümkündür. Allah **"...İman gətirənlər hələ bilmirlərmi ki, əgər Allah istəsəydi, bütün insanları doğru yola yönəldərdi?.." (Rəd surəsi, 31)** ayəsi ilə müsəlmanlara qəlblərin ancaq Allah'ın əlində olduğunu, hər kəsin ancaq Onun diləməsi ilə doğru yola yönələcəyini xatırladır. Başqa bir ayədə isə belə buyurulur:

**Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır. (Qəsəs surəsi, 56)**

Müsəlmanın vəzifəsi yalnız həqiqəti izah etmək, insanları bu həqiqətlərə dəvət etməkdir. İnsanların bunu qəbul edib-etməsi isə onların vicdanından asılıdır. Allah bunu Quranda belə xəbər verir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allah'a iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

Müsəlmanların bu əxlaqları Kitab əhli ilə olan əlaqələrinə də aiddir. Rəbbimiz Kitab əhlinə qarşı necə davranılacağını Quranda iman gətirənlərə ətraflı şəkildə təsvir etmişdir. Bu ayələr araşdırıldıqca müsəlman cəmiyyətində xristian və yəhudilərin varlıqlarının tanınması və onların hüquqlarının müsəlmanlar tərəfindən qorunmasının vacibliyi aydın olur. Müsəlmanlar yəhudilərə və xristianlara qarşı mərhəmətli olmalıdırlar. Səmimi iman gətirən yəhudi və xristianlar (inanc və ibadətlərində bəzən səhv olsa da) Allah'ın varlığına və birliyinə iman gətirən, mələklərə, peyğəmbərlərə və hesab gününə inanan və din əxlaqının yaşanmasının lazım olduğunu düşünən insanlardır. Buna görə də müsəlmanlar onlara qarşı mərhəmətli olmalı, onları qorumalıdırlar.

Allah bir ayədə Allah'a iman gətirən və axirət gününə inanaraq yaxşı işlər görən yəhudi və xristianların gözəl əxlaqın əvəzini ən gözəl şəkildə alacaqlarını xəbər vermişdir:

**Şübhəsiz ki, möminlərin, yəhudi, nəsrani və sabiilərdən Allah'a və axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**

Bu ayənin mənası aydındır. İstər müsəlman, istərsə də yəhudi və ya xristian olsun, Allah'a və axirət gününə iman gətirən və yaxşı işlər görənlər müjdələnir, möminlərin Allah qatında əcr qazanacağı xəbər verilir. “Maidə” surəsinin 48-ci ayəsində isə insanların hər biri üçün şəriət və yol təyin edildiyi, məsuliyyətlərinin isə yaxşı işlərdə yarışmaq olduğu ifadə edilmişdir. Bu, yəhudi, xristian və müsəlman olmasından asılı olmayaraq, səmimi olaraq Allah'a və axirət gününə iman gətirən bütün insanların gözəl davranmasının və Allah rizası üçün xeyirlərdə yarışmasının vacib olduğunu göstərir. Bu vəziyyətdə müsəlmanların özləri kimi Allah'a iman gətirən, yaxşı işlər görən və gözəl əxlaq göstərənlərə sərt və ya mərhəmətsiz davranması düzgün deyil. Bunu İslam tarixi də sübut edir.

Bu məlumatların göstərdiyi həqiqət budur ki, İslam əxlaqını yaşayan müsəlmanlar yəhudi və xristianlara qarşı anlayışlı davranmaqla, onlara ibadət və inanc azadlığı təmin etməklə, mədəniyyət və ənənələrinə hörmət etməklə, səmimi olaraq iman gətirən kitab əhlinə mərhəmət və sevgi ilə yaxınlaşmaqla məsuldurlar. Bunun əksinə davranmaq həm Quran əxlaqına, həm də Peyğəmbərimizin (səv) sünnəsinə uyğun deyil.

# Quranda bütün peyğəmbərlər təriflənir, müsəlmanlar hz. Musa (əs) və hz. İsanı (əs) qəlbən sevirlər

Allah tarixin hər dövründə Öz vəhyini insanlara elçiləri vasitəsilə çatdırmışdır. Peyğəmbərlər Allah qatında seçilən və Rəbbimiz tərəfindən nemət verilən mübarək insanlardır. Üstün əxlaqı ilə bütün insanlara nümunə göndərilən peyğəmbərlər göndərildikləri cəmiyyətlərə Allah'ın dinini izah etmiş, onları pisliklərdən çəkindirərək yaxşılığı əmr etmiş, insanların imanına vəsilə olmuşlar. Quranda bir çox ayədə keçmişdə yaşayan cəmiyyətlərdən və bu cəmiyyətlərə göndərilən peyğəmbərlərin həyatından nümunələr verilir. Quranda bildirilən peyğəmbər hekayələrində bu mübarək insanların

Allah'ın varlığını və dinini təbliğ etmələri, inkar edənlərə qarşı apardıqları fikri mübarizə, təbliğ etdikləri insanların münasibəti ətraflı izah edilmiş və elçilərin göstərdiyi səbir, fədakarlıq, səmimiyyət, insaniyyət kimi üstün əxlaq xüsusiyyətləri bütün inananlara nümunə göstərilmişdir. Bütün peyğəmbərlərin Rəbbimizin seçdiyi müqəddəs insanlar olduğunun şüurunda olan müsəlmanlar da onlara iman gətirirlər. Allah Quranda hz. Nuha (əs) və hz. İbrahimə (əs) vəhy etdiyi dini hz. Musaya (əs), hz. İsaya (əs) və hz. Muhəmmədə (səv) də vəhy etdiyini bildirmişdir:

**(Allah) Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin (tövhid) müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və (Ona) üz tutanı Özünə tərəf yönəldər. (Şura surəsi, 13)**

Müsəlmanlar **"..."Biz Allah'a, bizə nazil olana, İbrahimə, İsmayıla, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!"** (Bəqərə surəsi, 136) ayəsində buyurulduğu kimi, bütün peyğəmbərlərə iman gətirir, hamısını dərin sevgi ilə sevir və bu müqəddəs insanların həyatını və əxlaqını tərifləyərək xatırlayırlar.

Peyğəmbərlər qövmlərinə Rəbbimizin qatındakı haqq dini təbliğ etmiş, onları bir və tək olan Allah'a iman gətirməyə çağırmış, axirət günü ilə xəbərdar edib qorxutmuşlar. Müsəlmanların nümunə götürəcəyi və hörmətlə xatırlayacağı peyğəmbərlər üstün əxlaqlı, dərin imanlı mübarək insanlardır. Allah'ın Quranda bu mübarək insanları təriflədiyi kimi, müsəlmanlar da hz. Muhəmmədlə (səv) yanaşı, hz. İsanın (əs), hz. Musanın (əs), hz. Yaqubun (əs), hz. Nuhun (əs), hz. Yusifin (əs), hz. İbrahimin (əs), hz. İlyasın (əs), hz. Şüeybin (əs), hz. Lutun (əs) və digər peyğəmbərlərin nümunəvi əxlaqını və imanını şövq və həyəcanla tərifləməlidirlər. Bu, Allah'ın Quranda təriflədiyi ibadətdir. Bütün peyğəmbərlərin həyatında möminlərin düşünüb nümunə götürməsi üçün hikmətlər vardır. Bu hikmətlərə etinasız yanaşmaq, ya da düşünməmək səmimi müsəlmanlara yaraşmaz. Əlbəttə, Allah'a və axirət gününə iman gətirən saleh müsəlmanlar üçün "Əhzab" surəsinin 21-ci ayəsində buyurulduğu kimi, Allah'ın elçisi hz. Muhəmməddə (səv) ən gözəl nümunələr vardır. Lakin saleh müsəlman üçün Peyğəmbərimizin (səv) əxlaqına yiyələnmək nə qədər əhəmiyyətlidirsə, digər peyğəmbərlərimizin əxlaqını götürmək və onlar kimi Allah'ın razı olduğu insanlardan olmaq da o qədər əhəmiyyətlidir.

Allah Quranda hz. Musa (əs) və hz. Harunun (əs) Öz qatında xeyirli və şərəfli, mübarək insanlar olduğunu belə bildirmişdir:

**Biz Musa ilə Haruna da nemət bəxş etdik. Onların hər ikisini və tayfalarını böyük sıxıntıdan qurtardıq. Onlara kömək göstərdik və qalib gəldilər. Hər ikisinə aydın bir kitab verdik. Hər ikisini də doğru yola yönəltdik. Sonradan gələnlər arasında hər ikisinə (gözəl xatirə) qoyduq. Musaya və Haruna salam olsun! Həqiqətən, Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Həqiqətən, onların ikisi də Bizim mömin qullarımızdandır. (Saffat surəsi, 114-122)**

Allah hz. Musanı (əs) fironun əsarəti altında olan İsrail oğullarına elçi göndərmiş və ona "Ənam" surəsinin 154-cü ayəsində bildirdiyi kimi: **"yaxşı iş görən kimsəyə (nemətimizi)**

**tamamlamaq məqsədilə, hər şeyi müfəssəl izah edən, doğru yolu göstərən bir rəhbər və mərhəmət olaraq..."** kitabı vermişdir. Hz. Musaya (əs) seçildiyinin vəhy edilməsi Quranda belə bildirilir:

**Musanın əhvalatı sənə gəlib çatdımı? O zaman o, bir od görüb ailəsinə demişdi: "Dayanın! Mən bir od gördüm. Bəlkə, ondan sizə bir köz gətirdim, ya da odun yanında bir bələdçi tapdım!" Oda yaxınlaşdıqda bir səda gəldi: "Ey Musa! Həqiqətən, Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən! Mən səni seçmişəm. (Sənə) vəhy olunanı dinlə! (Taha surəsi, 9-13)**

Hz. Musa (əs) həm firona və ətrafındakılara qarşı, həm də öz cəmiyyətində münafiq xarakterli və zəif imanlılara qarşı böyük mübarizə aparmış, həmişə Allah'a olan təslimiyyəti, təvəkkülü, səbri, cəsarəti, fədakarlığı, ağlı, əzmi və şövqü ilə bütün inananlara nümunə olmuşdur. Müsəlmanlar da hz. Musaya (əs) hörmət edir və ona iman gətirirlər.

İsa Peyğəmbər (əs) isə Quranda Allah'ın elçisi və sözü (Nisa surəsi, 171) kimi tanıdılır, onun aləmlərə bir möcüzə olduğu (Ənbiya surəsi, 91) bildirilir. Bundan başqa, mübarizəsi barədə və Allah'ın ona lütf etdiyi möcüzələri və həyatı haqqında hikmətli məlumatlar verilir. Hz. İsa (əs) bir Quran ayəsində belə təsvir olunur:

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlmə ilə müjdələyir. O, bu dünyada və axirətdə şan-şöhrətli və (Allah'a) yaxınlaşdırılmışlardan olacaqdır. (Ali-İmran surəsi, 45)**

Hz. İsaya (əs) verilən İncilin xüsusiyyətləri isə Quranda belə açıqlanır:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

Quranda bildirildiyi kimi, hz. İsanı (əs) digər peyğəmbərlərdən ayıran bəzi xüsusiyyətlər vardır. Bunlardan ən əhəmiyyətlisi onun hələ də ölmədiyi, Allah qatına yüksəldildiyi və yer üzünə yenidən qayıdacağıdır. Bir çox insanın düşündüyünün əksinə olaraq, hz. İsa (əs) öldürülməmiş, başqa bir səbəblə də ölməmişdir. Quranda nə inkarçıların onu öldürə bilməsi, nə də çarmıxa çəkilməsi (Nisa surəsi, 157) qəti şəkildə bildirilir və Allah'ın onu Öz qatına yüksəltdiyi xəbər verilir. Heç bir ayədə hz. İsanın (əs) öldüyündən və ya öldürüldüyündən danışılmır. Bunlarla bərabər, Quranda hz. İsa (əs) haqqında elə məlumatlar verilir ki, bunlar tarixdə hələ baş verməmişdir və bu hadisələrin reallaşması ancaq hz. İsanın (əs) yer üzünə geri qayıtması ilə mümkün olacaq. Quranda xəbər verilən hadisələrin reallaşacağına isə heç bir şübhə yoxdur (Bu mövzu kitabın sonrakı hissələrində ətraflı şəkildə araşdırılacaq). Buna görə də müsəlmanlar da xristianlar kimi, hz. İsanın (əs) ikinci dəfə yer üzünə gəlməsini böyük şövq və həyəcanla gözləyir, İsa Məsihin (əs) gəlişinə gözəl şəkildə hazırlanmaq üçün cəhd göstərirlər.

Hz. İsanın (əs) mübarək anası hz. Məryəm də Allah'ın Quranda üstün əxlaqı və gözəl davranışları ilə təriflədiyi, aləmlərin qadınlarından üstün etdiyi nümunəvi insandır. Quranda hz. Məryəmlə əlaqədar olaraq belə buyurulur:

**Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi. (Ali-İmran surəsi, 42)**

**Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də (misal çəkdi). Biz onun (paltarının yaxasında olan kəsiyinə) Öz ruhumuzdan üfürdük. O, Rəbbinin sözlərini və Onun kitablarını təsdiq etdi və itaət edənlərdən oldu. (Təhrim surəsi, 12)**

İman gətirənlər Allah'ın ayələrində üstün əxlaq və davranışlarını təriflədiyi mübarək qullarına dərin sevgi və hörmət bəsləməli, onları xatırlamalı və özlərinə nümunə götürməlidirlər.

# PEYĞƏMBƏRİMİZİN (səv) DÖVRÜNDƏ YƏHUDİLƏR VƏ XRİSTİANLAR TƏHLÜKƏSİZ ŞƏRAİTDƏ YAŞAYIRDILAR

***ADNAN OKTAR: Yəhudilər peyğəmbər nəslindəndirlər, bizim peyğəmbərlərimizin nəvələridir.*** *Hz. Musanın (əs) şəriətinə tabe olan insanlardır və o şəriəti, yəni o dini bu ana qədər yaşayıblar. Bu səbəbdən, peyğəmbər nəslindən olan bu tərtəmiz insanların dövlətini məhv etmək, millət olaraq yox etməyə çalışmaq, torpaqlarından çıxartmaq, onlara yaşamaq hüququ verməmək heç də ağıllı və vicdanlı hərəkət deyil.*

***Müsəlman şəfqətlidir, mərhəmətlidir, sevgi bəsləyəndir.*** *Təbii ki, onlar da bizim qardaşımızdır, yaşamaq hüquqları vardır. Birinci dərəcəli insanlardır, o bölgədə istədikləri kimi yaşayarlar, ticarət edərlər, sənətlə məşğul olarlar, elmlə məşğul olarlar. Nə üçün onlar ordan çıxarılsın və niyə narahat yaşasınlar və yaxud dinc həyatları əllərindən alınsın? Bunu normal insan qəbul etməz, mən də qəbul etmirəm. Təbii ki, rahat və xoşbəxt yaşayacaqlar, həyat zəmanətləri olacaq. Türk-İslam Birliyində bərəkət və bolluq içində yaşayacaqlar.*

***Quranın hökmü, Peyğəmbərimizin (səv) sünnəsi, tətbiqləri məlumdur. Peyğəmbərimizin (səv) dövründə kitab əhli çox rahat yaşayırdı, yəhudilər çox hüzurlu idilər.*** *O dövrdə onlar Qüdsdə, İsraildə yaşayırdılar. Xoşbəxtlik və bərəkət içində idilər, Peyğəmbərimiz (səv) onlara qarşı çox şəfqətli və mehriban idi. Yəhudilərdən qız alırdılar, onlarla evlənirdilər, kəsdikləri əti yeyirdilər, süfrələrində otururdular, evlərinə gedirdilər, onlarla dost-tanış olurdular. Bu, Peyğəmbərimizin (səv) dövründə olan tətbiq və sünnədir.*

*Xristianlar üçün də eyni şəkildədir. Peyğəmbərimizin (səv) nökərlərindən biri xristian idi. Bizim anamızdır, yəni hörmətlə, sevgi ilə xatırladığımız bir insandır.* ***Bunu təkcə yəhudilik üçün söyləmirəm. Eyni zamanda, xristianlar da rahat, bərəkət və bolluq içində yaşamağa haqqı olan insanlardır.*** *(Adnan Oktarın Gulf Today müsahibəsindən, 2 noyabr 2008)*

# MÜSƏLMANLAR KİTAB ƏHLİNİ QORUMAQLA MÜKƏLLƏFDİRLƏR

***MÜXBİR:*** *Niyə antisemitizm İslama tamamilə ziddir?*

***ADNAN OKTAR:*** *Bizim peyğəmbər nəslinə sevgimiz var. Hz. İbrahimin (əs) nəslinə sevgimiz var. Peyğəmbərimiz (səv), hz. İbrahimin (əs) nəslindəndir, hz. Mehdi (əs) hz. İbrahimin (əs) nəslindəndir. Əbdülqadir Qeylani, böyük imamlar hz. İbrahimin (əs)*

*nəslindəndirlər. Bu səbəbdən, bizim peyğəmbər nəslinə qəzəbimiz, kinimiz ola bilməz, bu ancaq şeytani düşüncədə ola bilər.*

*Biz ateist-sionist düşüncəyə qarşıyıq.* ***Dindar yəhudiləri şəfqətlə sevirik və peyğəmbər nəslindən olduqları üçün onlara xüsusi sevgimiz var.*** *O mənada onlara qarşı düşmənçiliyimiz olmaz. Bu, haramdır; müsəlmanlıqda belə bir şey yoxdur.* ***Əksinə, mühafizə etmək, qorumaq, şəfqət göstərmək vardır.*** *Biz onları qorumaqla mükəlləfik. Təbii ki, ibadətlərini istədikləri kimi yerinə yetirəcəklər. Xristianlar da elə; bizim onlara mənfi düşüncəmiz yoxdur, ancaq müsbət fikrimiz ola bilər. (Adnan Oktarın Kaçkar TV müsahibəsindən, 22 yanvar 2009)*

# II HİSSƏ

# İSLAM TARİXİNDƏ MÜSƏLMANLAR VƏ KİTAB ƏHLİ

İlk dövrlərdən etibarən İslam tarixini, İslam hakimiyyəti altında olan xristian və yəhudilərin mövqeyini və bu cəmiyyətlərin müsəlmanlarla əlaqələrini bitərəf mövqedə araşdıran hər kəs açıq həqiqətlə qarşılaşacaq: kitab əhli İslam hakimiyyəti altında həmişə rahat və təhlükəsiz mühitdə yaşamışdır. Hətta fərqli dinlərin və ya məzhəblərin idarəsi altında zülm görən xristianlar və yəhudilər İslam torpaqlarına sığınıblar və rahatlığı müsəlman ölkələrində tapıblar. Kitab əhlinin İslam torpaqlarında bu dərəcə rahat və dinc yaşamalarının səbəbi isə müsəlmanların kitab əhlinə olan münasibətlərini Quran əxlaqına görə təyin etməsi idi.

### Hz. Muhəmmədin (səv) şəfqətli və gözəl əxlaqı hər müsəlmana nümunə olmalıdır

Peyğəmbərimizin (səv) dövründə Ərəbistanda bir çox dindən, fərqli sivilizasiyadan və anlayışlardan ibarət cəmiyyətlər var idi. Yəhudilər, xristianlar, sabiilər, atəşpərəstlər və bütpərəstlər birlikdə yaşayırdılar. Eyni inancı mənimsəmələrinə baxmayaraq, bir-birlərinə düşmən olan bir çox fərqli qəbilə vardı. Ancaq Peyğəmbərimiz (səv) hansı dindən və qəbilədən olursa-olsun, hər kəsə şəfqətlə, səbirlə, mərhəmət və sevgi ilə yaxınlaşdı və insanları böyük mehribanlıqla Allah inancına dəvət etdi. Hz. Muhəmmədin (səv) ətrafındakılara göstərdiyi bu gözəl rəftar Quranda belə bildirilir:

**Allah'ın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, (Allah'dan) onların bağışlanmalarını dilə … (Ali-İmran surəsi, 159)**

Əvvəlki hissələrdə də qeyd etdiyimiz kimi, Quranda heç kimin İslam əxlaqını mənimsəməsi üçün məcburiyyətin olmadığı bildirilir. Müsəlman ancaq Allah'ın dinini izah etməklə məsuldur. O insanın hidayət tapması, iman gətirməsi ancaq Allah'ın diləməsi ilə mümkündür. Heç kim başqa birisini iman gətirməyə, ibadət etməyə məcbur edə bilməz. Peyğəmbərimiz (səv) Allah'ın bu əmrinə həmişə riayət etmiş, din əxlaqının ancaq qəlbən istənildiyi zaman yaşana biləcəyini tez-tez vurğulamışdır. Allah bir ayəsində Peyğəmbərimizə (səv) ətrafındakılara qarşı necə davranacağını belə bildirmişdir:

**Biz onların nə dediklərini yaxşı bilirik. Sən onları məcbur edən deyilsən. Sən Mənim təhdidimdən qorxanlara Quranla öyüd-nəsihət ver! (Qaf surəsi, 45)**

Peyğəmbərimiz (səv) isə bir kəlamında: **"Şəfqətli həniflik (Hz. İbrahimin (əs) dinindən olanların xüsusiyyəti) ilə göndərildim, kim mənim sünnəmə müxalif çıxsa, məndən deyil"**[1] - deyə buyurmuş, başqa kəlamında isə möminlərə: **"Mən mərhəmət etmək və sülhpərvər olaraq göndərildim. .."**[2] - deyə səslənmişdir. Peyğəmbərimizin (səv) üstün əxlaqı onun bir hədisində öz əksini belə tapır:

**Qəzəbləndiyi zaman yumşaqlıqla cavab verən şəxs Allah'ın sevgisinə nail olar!** [3]

Peyğəmbərimizin (səv) mərhəmətli, şəfqətli və mehriban əxlaqı ilə əlaqədar bir çox hədis var. *Məsələn, Peyğəmbərimiz (səv):* ***"İnsanlara mərhəmət etməyən şəxsə Allah da mərhəmət etməz"***[4] *- demişdir.* Digər hədislərindən bəziləri bunlardır:

**Mərhəmət edin ki, mərhəmət olunasınız. Əfv edin ki, əfv olunasınız. Təəssüf, sözlə vaxt itirənlərə. Təəssüf, günahlarına bilərək davam edib, bağışlanma istəməyənlərə.**[5]

**Allah rəfiqdir (mərhəmətli və şəfqətli), mərhəməti sevər və mərhəmətin müqabilində verdiyini başqa heç bir şeylə verməz.**[6]

Böyük İslam alimi İmam Qəzali hədis alimlərindən topladığı məlumatlarla Peyğəmbərimizin (səv) ətrafındakılara qarşı mərhəmətli rəftarını belə yekunlaşdırmışdır:

**Heç vaxt qəzəblənməz və tez razılıq verərdi. İnsanların ən şəfqətlisi idi. İnsanların ən xeyirlisi insanlara xeyri toxunan, insanların ən faydalısı da insanlara faydalı olandır.**[7]

Peyğəmbərimizin (səv) ətrafındakıları din əxlaqına bağlayan və qəlblərini imana yönəldən insan sevgisi, incə düşüncəsi və şəfqəti bütün müsəlmanlara nümunədir. Peyğəmbərimizin (səv) bütün insanlara nümunə olan gözəl xüsusiyyətləri "Tövbə" surəsində belə bildirilmişdir:

**Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O, sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir. (Tövbə surəsi, 128)**

Sevgi bəsləyən, şəfqətli, anlayışlı və mərhəmətli olmaq Allah'ın bütün insanlara nümunə olaraq göndərdiyi elçilərinin ortaq xüsusiyyətləridir. Allah Quranda digər peyğəmbərlərin də sevgi həssaslığı ilə şərəfləndirildiyini xəbər verir və qatından hikmət verdiyi hz. Yəhyanı (əs) insanlara nümunə göstərir. Ayədə bu müqəddəs insan üçün: **"Üstəlik, Öz tərəfimizdən bir şəfqət və paklıq da (bəxş etdik). O, müttəqi idi" (Məryəm surəsi, 13)** - deyə bildirilir.

Bu səbəbdən, iman gətirən və elçilərə tabe olan müsəlmanlar şəfqət, mərhəmət və sevgiyə əsaslanan əxlaqı mənimsəməlidirlər. İman gətirənlər Allah'ın əmri olan bu əxlaqı yaşayanda problem kimi görünən bir çox mövzunun asanlıqla həll edildiyini, rahatlıq və hüzurun yayıldığını, bolluq və bərəkətin hakim olduğunu görəcəklər.

# Hz. Muhəmmədin (səv) kitab əhlinə olan nümunəvi münasibəti

Müsəlmanların hər mövzuda olduğu kimi, kitab əhlinə qarşı davranışlarına da ən gözəl nümunə Peyğəmbərimizdir (səv). Hz. Muhəmməd (səv) yəhudi və xristianlarla həmişə mehriban, ədalətli və mərhəmətli davranmış, İlahi dinlərin mənsubları ilə müsəlmanlar arasında sevgi və qarşılıqlı anlaşmaya əsaslanan mühit yaradılmasını istəmişdir. Peyğəmbərimizin (səv) dövründə və ondan sonra xristian və yəhudilərin öz dinlərini istədikləri şəkildə yaşamalarına icazə verən və müstəqil camaatlar kimi varlıqlarını davam etdirmələrinə şərait yaradan  müqavilələr bağlanmış və zəmanətlər verilmişdir. İslamiyyətin ilk illərində Məkkəli müşriklərin əziyyət və təzyiqlərinə məruz qalan müsəlmanların bir qismi Peyğəmbərimizin (səv) nəsihəti ilə Efiopiyadakı xristian Kral Nəcaşiyə sığınmışdılar. Peyğəmbərimizlə (səv) birlikdə Mədinəyə köçən möminlər isə Mədinədə yaşayan yəhudilərlə bir yerdə yaşamışdılar. İslamın yayılması dövründə də Ərəbistandakı yəhudi və xristian birliklərinə göstərilən tolerantlıq prinsipi müsəlmanların kitab əhlinə qarşı anlayış və ədalətinin nümunəsi kimi tarixə yazılmışdır.

Buna nümunə olaraq, sevimli Peyğəmbərimiz hz. Muhəmmədin (səv) xristian olan İbn Harris bin Kəb və qövmünə yazdırdığı sazişin mətnində belə deyilir:

*"Şərqdə və Qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, canları, ismətləri və malları Allah'ın, Peyğəmbərin və bütün möminlərin himayəsindədir. Xristianlıq dinini yaşayanlardan heç kim istəmədən İslamı qəbul etməyə məcbur edilməyəcək. Xristianlardan biri hər hansı bir cinayətə və ya haqsızlığa məruz qalarsa, müsəlmanlar ona kömək etmək məcburiyyətindədirlər".* [8]

Hz. Muhəmməd (səv) Evs və Həzrəc qəbilələri ilə bağladığı Mədinə sazişinə əsasən, yəhudilərin də iştirak etməsinə icazə vermiş, beləliklə, yəhudilərin müsəlmanların arasında ayrı dini qrup kimi varlıqlarını davam etdirməsinə şərait yaradılmışdır. Mədinə sazişinin **"Əvf yəhudiləri inananlarla birlikdə xalq yaratdılar. Yəhudilərin dini özlərinə, müsəlmanların dini özlərinədir"** hökmü ilə müsəlmanların yəhudilərin ənənələrinə və inanclarına göstərdiyi hörmətin bünövrəsi Peyğəmbərimizin (səv) dövründə qoyulmuşdur. Şübhəsiz ki, bu anlayış Allah'ın Quranda bildirdiyi: **"Sizin dininiz sizə, mənim dinim də mənədir" (Kafirun surəsi, 6)** hökmünün ən gözəl təcəllilərindən biridir.

Hz. Muhəmməd (səv) Rəbbimizin əmr etdiyi əxlaqın tələbi olaraq kitab əhlinə qarşı yalnız anlayış və mərhəmət göstərməklə kifayətlənməmiş, İslam hakimiyyəti altındakı yəhudi və xristianların qorunmasının vacib olduğunu səhabələrinə də öyrətmişdir. Şəxsən Peyğəmbərimiz (səv) tərəfindən kitab əhlinə verilən imtiyazlar müsəlmanların kitab əhlinin can və mal təhlükəsizliyini zəmanət altına aldıqlarını və onlara inanc və ibadət azadlığı verdiklərini göstərir. Peyğəmbərimizin (səv) nəcranlılarla bağladığı müqavilədəki maddələr də diqqətəlayiqdir:

*"Nəcranlıların və təəbələrinin canları, malları, dinləri, var-yoxları, ailələri, kilsələri və sahib olduqları hər şey Allah'ın və Peyğəmbərin zəmanəti altına alınacaq.*

*-Heç bir yepiskop və ya keşiş kilsəsindən, ya da monastırından məhrum edilməyəcək və heç bir keşiş keşişlik həyatını tərk etməyə məcbur edilməyəcək. Onlara heç bir əziyyət verilməyəcək, ya da alçaldılmayacaq və torpaqları ordumuz tərəfindən işğal edilməyəcək.*

*Ədalət istəyən ədalət görəcək, nə zalım olacaq, nə də zülm ediləcək".* [9]

Bundan başqa, Rəsulullahın (səv) kitab əhlinin toylarında iştirak etdiyinə, xəstələrinə

baş çəkdiyinə dair rəvayətlər var. Hətta hz. Muhəmməd (səv) xristianların onu ziyarət etməsi zamanı əbasını sərmiş və onlara oturmağı söyləmişdir. Peyğəmbərimizin (səv) vəfatından sonra da müsəlmanların kitab əhlinə göstərdiyi gözəl əxlaqın əsası hz. Muhəmmədin (səv) həyatı boyu bu birliklərə qarşı göstərdiyi şəfqətə əsaslanır.

## MÜSƏLMANLARIN KİTAB ƏHLİNƏ MÜNASİBƏTİ PEYĞƏMBƏRİMİZİN (səv) ŞƏFQƏTLİ MÜNASİBƏTİNƏ UYĞUN OLMALIDIR

***ADNAN OKTAR: Peyğəmbərimiz (səv) xristianlara qarşı çox şəfqətli idi, onların evlərinə də gedirdi, yeməklərini də yeyirdi. Yəhudilərlə alver də edirdi, səhabələrini də təşviq edirdi.*** *O dövrdə xristianlar da, yəhudilər də Cənnət həyatına bənzər həyat yaşayırdılar. Onlar üçün çox dinc və gözəl bir dövr idi. (Adnan Oktarın Tempo TV müsahibəsindən, 10 mart 2009)*

***ADNAN OKTAR:*** *Kitab əhli Allah'ın bizə əmanətidir. Osmanlı dövründə də elə olmuşdur, Peyğəmbərimizin (səv) dövründə də elə olmuşdur. Quranın izahatında da bunu görürük.* ***Biz kitab əhlini qorumaqla, onlara şəfqət göstərməklə, onları sevməklə mükəlləfik.*** *Biz onların yalnız inancına uymuruq. Amma insan olaraq, qardaşımız olaraq çox sevirik, bağrımıza basırıq. Amma, haşa: "Allah üçdür", -deyirsə, təbii ki, biz: "Allah birdir", -deyirik. Yəni o mövzuda itaət etmirik.* ***Amma gözəl əxlaqda ittifaq edirik, təbii ki, qardaşımızdır onlar.*** *(Adnan Oktarın Malatya TV, 7 yanvar 2009)*

***ADNAN OKTAR:*** *Peyğəmbərimiz (səv) də görüşürdü yəhudilərlə, onlarla ticarət edirdi, əlaqə qururdu. Xristianlarla da əlaqəsi olurdu. Bu, günah deyil. (Adnan Oktarın Çay TV müsahibəsindən, 23 iyul 2008)*

# İslam hakimiyyətində din və ibadət azadlığı

Hz. Muhəmmədin (səv) dövründən başlayaraq İslam torpaqlarında həmişə din azadlığı hakim olmuşdur. Yəhudilərin və xristianların inancları, ibadətləri, kilsələri, sinaqoqları, dini təhsil verən məktəbləri müsəlmanların himayəsi altına alınmışdır. Sinaqoq və kilsələrin qorunacağına dair zəmanətlər Peyğəmbərimizin (səv) dövründən başlayaraq kitab əhli ilə bağlanan müqavilələrdə əhəmiyyətli yer tutan hökmlərdir. İlk dövrlərdəki sazişlərdə müsəlmanların səfər zamanı yol üstündə olan monastırlarda qalmasına izn verilməsinə dair maddələr var. Bu da müsəlmanların kitab əhli ilə əlaqələrini qarşılıqlı hörmətlə inkişaf etdirməyə, onlarla dostluq əlaqələri qurmağa diqqət göstərdiklərinə bir işarədir. Buna əsaslanaraq, bir çox müsəlmanın istər yerləşmək, istərsə də yemək ehtiyaclarını ödəmək üçün səfər zamanı və ya fəth əsnasında monastırları ziyarət etdikləri, hətta bəzən ədəbi söhbətlər üçün həmin yerləri seçdikləri tarixi qaynaqlarda öz əksini tapır.

Kitab əhli də çox vaxt müsəlmanların bu yanaşmasına müsbət cavab vermişdir. Suriya xristianlarının Əbu Ubeydəyə təqdim etdiyi və tarixə "Ömər aktı" kimi düşən sənəddəki ifadələr diqqət çəkəndir:

Gecə və ya gündüz kilsələrimizi müsəlmanlardan əsirgəməyəcəyik, onların qapılarını yolçulara və yolda qalanlara açacağıq... Müsəlman yolçunu ənənəvi üsulumuzla qəbul edəcəyik və onları bəsləyəcəyik. Müsəlmanları incitməyəcəyik və hər kim bir müsəlmanı incitsə, öz haqlarını cəza olaraq itirəcək.[10]

Quranda bildirilən **"...Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, içərisində Allah'ın adı çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi..." (Həcc surəsi, 40)** ayəsində də diqqət çəkildiyi kimi, müsəlmanlar üçün kitab əhlinin ibadətgahları Allah'ın adının xatırlandığı müqəddəs məkanlardır və bu məkanlar iman gətirənlər tərəfindən qorunmalıdır. Bu səbəbdən, başda Peyğəmbərimiz hz. Muhəmmədin (səv) dövrü də daxil olmaqla, dörd xəlifə dövrü və  sonrakı İslam idarələrində xristian və yəhudilərin müqəddəs məkanları qorunmuş, inananların məbədlərində istədikləri kimi ibadətlərini yerinə yetirməsi təmin edilmişdir. Məsələn, hz. Əbubəkr (əs) dövründə sülh yolu ilə fəth edilən Təbərriyə şəhərində yaşayan xristianlara kilsələrinə toxunulmayacağına dair zəmanət verildiyi tarixi sənədlərdə göstərilir. Eyni zamanda, Dəməşqin fəthi əsnasında bağlanan sazişdə kilsələrin dağıdılmayacağı və məskən edilməyəcəyi xüsusilə vurğulanmışdır. Hz. Ömərin (əs) Qüds xalqına verdiyi amannamədə də kitab əhlinin ibadətgahlarına toxunulmayacağı bildirilir.

Hz. Osman (əs) dövründə erməni şəhəri olan Dəbilin fəthi əsnasında şəhərdə yaşayan xristian, yəhudi və atəşpərəstlərə verilən amannamədə məbədlərin qorunacağına zəmanət verilmişdir.[11] Bundan başqa, dağılan kilsələrin təmir edilməsinə, yeni sinaqoq və monastırların tikilməsinə də həmişə icazə verilmişdir. Məsələn, Mədain xaricində olan və Patriarx Mar Amme tərəfindən yandırılmış St. Sergius monastırı hz. Osman (əs) dövründə yenidən tikilmişdir. Misir qubernatoru Ükbənin nəsturilərin monastır tikmələrinə kömək etməsi, Müaviyə dövründə Urfa kilsəsinin təmir etdirilməsi, İsgəndəriyyədə Mark kilsəsinin tikdirilməsi kimi daha bir çox nümunə sayıla bilər. Hal-hazırda Fələstin, Suriya, İordaniya, Misir və İraq torpaqlarındakı kilsə və sinaqoqların hələ də varlığını qoruması müsəlmanların digər İlahi dinlərə olan hörmətinin göstəricisidir. Bu gün xristianların müqəddəs ziyarət yeri hesab etdikləri Tur dağındakı Sina monastırı və bu kilsənin yanındakı məscid müsəlmanların kitab əhlinin ibadətgahlarına göstərdiyi hörmətin bariz nümunəsidir.

Kitab əhli ənənələrinin və inanclarının bir qolu olan bayramlarını da müsəlman idarəsində istədikləri məbəddə, istədikləri kimi qeyd ediblər. Hətta bəzən müsəlman idarəçilər də bu bayramlarda iştirak ediblər. Patriarx III Nəsturinin yazdığı məktub müsəlman idarəçilərin kitab əhlinə olan mərhəmətinin və anlayışının gözəl nümunəsidir:

Ərəblər… bizə heç zülm etmədilər. Həqiqətən, onlar dinimizə, dindarlarımıza, kilsə və monastırlarımıza hörmət etdilər...[12]

XII əsrin məşhur yəhudi səyyahlarından biri Tudelalı Benjamin isə müsəlman torpaqlarına ziyarət edərkən gördüyü hörmətə və birlikdə yaşamaq mədəniyyətinə qarşı heyranlığını gizlədə bilməmişdi. Belə bir anlayışa dövrün xristian avropasında rast gəlinmədiyini ifadə etmişdi. Müsəlman və yəhudilərin türbələrdə və müqəddəs məkanlarda

bir yerdə dua etdiklərini ifadə edən Benjamin sinaqoqların yanında məscidlər tikildiyini və hər iki xalqın bir-birinin bayramlarını qeyd etdiklərini vurğulamışdı.[13]

Bu tarixi məlumatlar açıq şəkildə göstərir ki, bəzi insanların təlqinlərinin əksinə, İslam sevgi dinidir. İslam idarəsi altında xristian və yəhudilər dilədikləri kimi yaşamış, din və vicdan azadlığının təmin etdiyi bütün imkanlardan faydalanmışlar.

# Kitab əhlinin İslam hakimiyyəti altında yaşadığı rahat həyat

Xristianlar və yəhudilər müsəlmanların idarəçiliyi altında azad və təhlükəsiz yaşamış və bu cür sevgi və mərhəməti digər dinlərin mənsublarından görməmişlər. Miladdan sonrakı ilk əsrdə yəhudilər xristianlara qarşı təzyiq göstərərkən, sonrakı əsrlərdə güclənən xristianlar da yəhudilərə və hətta fərqli məzhəblərdən olan xristianlara qarşı təzyiq göstərmişlər. Xüsusilə orta əsrlərdə genişlənən bu təzyiq bir çox yəhudi və müxtəlif məzhəbdən olan xristianların müsəlmanların himayəsinə sığınmasına səbəb olmuşdur. İslamiyyətin ilk dövrlərində bizanslıların Misir və digər bölgələrdəki yaqubi xristianlarına, səlib yürüşlərində katoliklərin Qüdsdə, onun ətrafında yaşayan yəhudi və ortodokslara, Avropada xristianların yəhudilərə, İspaniyada xristianların müsəlman və yəhudilərə qarşı tətbiq etdiyi təzyiq və şiddət siyasətinə İslam torpaqlarında heç vaxt rast gəlinməmişdir.

Bu şəfqətli münasibətin əhəmiyyətli nümunələrindən biri, şübhəsiz ki, Osmanlı imperiyasıdır. Antalya Patriarxı Makariosun ortodokslara zülm edən polşalı katolikləri Osmanlı idarəçiliyi ilə müqayisə etməsi diqqətəlayiqdir:

> O imansızlar tərəfindən öldürülən minlərlə insan, qadın, qız və kişilər üçün ağladıq. Lehlilər ortodoks adını bütün dünyada ləğv etmək istəyirlər. Allah türklərin dövlətini əbədi etsin. Çünki türklər vergi alandan sonra xristian və yəhudilərin dinlərinə toxunmurlar.[14]

İspan zülmündən qaçan yəhudilər də axtardıqları rahatlıq və təhlükəsizliyi yalnız Osmanlı torpaqlarında tapdılar. İspaniyadan sürgün edilən və müxtəlif ölkələrə sığınan yəhudilər bu torpaqlarda böyük çətinliklərlə qarşılaşdılar. Onların bir çoxu şəhərlərə girməyə icazə verilmədiyi üçün aclıq və susuzluqdan öldülər. Genuyalıların gəmilərində səfər edənlər isə gəmidə işləyənlər tərəfindən ya zülmə məruz qaldılar, ya da əsir kimi dəniz quldurlarına satıldılar. İmperiyanın sərhədlərini yəhudilərə açan Sultan Bəyazid isə bütün əyalətlərə yəhudilərə lazım olan şəfqət və diqqətin göstərilməsi üçün fərman göndərdi. Fərmanda *"İspan yəhudiləri tam səmimiyyətlə qarşılanmalıdırlar. İmmiqrantlarla pis rəftar və ya kiçik bir zərər ölümlə cəzalandırılacaq..."* kimi bildirilirdi.[15] Dindarlığı ilə tarixə düşən Sultan Bəyazidin bu qonaqpərvərliyi və şəfqəti, şübhəsiz, Quran əxlaqına olan bağlılığından irəli gəlirdi.

Kitab əhlinin İslam idarəçiliyində rahat şəkildə yaşamalarının başqa nümunəsi də Əndəlüsdəki Əməvi dövlətidir. Bu dövlətdə o dövrün avropasında misli görünməmiş yüksək mədəniyyət qurulmuşdur. Fərqli dinlərin mənsublarına göstərilən anlayış isə bu mədəniyyətin əsas xüsusiyyətlərindən biri olmuşdur. Xristian hücumları nəticəsində əsrlərlə kiçilən Əndəlüsün son parçası olan Qranadada yaşayan yəhudilər üçün tarixi qaynaqlarda yer

alan “*Yəhudilərin Qranadadakı möhtəşəm həyatlarını görməyənlər mədəniyyətin nə olduğunu bilmirlər”* ifadəsi diqqət çəkir. O dövrdə Qranada yəhudilər üçün dünyanın ən təhlükəsiz torpağı idi.[16]

İslam idarəsi altında əhalisi hüzur və rahatlıq tapan torpaqlardan biri də Fələstindir. Fələstində yaşayan yəhudi və xristianlar İslamın hakimiyyəti dövrlərində inanc azadlığına sahib olmuş, müsəlmanların rəhbərliyi altında rahat və təhlükəsizlik şəraitində yaşamış, azad ticarətlə məşğul olmuşlar. Nəticədə, Osmanlı imperiyasında təxminən 500 əsrlik sülh və təhlükəsizlik təmin edilmiş, Osmanlının qurduğu nizamı yenidən qurmaq mümkün olmamışdır. Osmanlının Qüds və digər ərazilərə verdiyi azadlıq İsrailin əvvəlki Xarici İşlər Naziri Abba Eban tərəfindən belə ifadə edilir:

> Romalılardan və hər istilaçıdan yalnız zülm, qan və işgəncə görən Qüds və yəhudi xalqı ancaq və ancaq Yavuz Sultan Səlimin Qüdsü fəth etməsindən və bu fəthin Sultan Süleyman Qanuni tərəfindən gücləndirilməsindən sonra insan kimi yaşamağın, bərabərliyin nə demək olduğunu və rahatlığının dadının nə olduğunu öyrəndi. [17]

Yalnız Fələstində deyil, bütün İslam dünyasında müsəlmanlar, yəhudilər və xristianlar əsrlər boyu eyni şəhərlərdə, hətta eyni məhəllələrdə bir yerdə rahat və təhlükəsiz şəraitdə yaşamışlar. Kitab əhli müsəlmanların rəhbərliyi altında olan bölgələrdə istədikləri kimi ticarətlə məşğul olub mal sahibi olmuş, müxtəlif peşə qruplarına daxil olmuş, hətta sarayda da işləmişlər. Fikir və düşüncə azadlığından maksimum faydalanmış, elm və mədəniyyət həyatlarının bir hissəsinə çevrilmiş və günümüzə qədər gəlib çatan əsərlər yaratmışlar. İctimai hüquqlarını tapdalayan heç bir təzyiqlə qarşılaşmadıqları kimi, inanc və ibadət azadlığından da istədikləri kimi faydalanmışlar. Məsələn, Abbasi sarayında işləyən xristian həkim ailələrinin rahat şəkildə İncil oxuması, ibadətlərini yerinə yetirməsi tarixi qaynaqlarda öz əksini tapmışdır.

İslam dünyasında elmə və alimlərə verilən dəyər xristian və yəhudi alimlərinin də şəxsən xəlifələr tərəfindən qorunmasını təmin etmişdir. İslam torpaqlarında fərqli dinlərdən olan alimlər dövlət idarəçiləri tərəfindən təşkil edilən yığıncaqlarda bir yerə toplanır, elmi söhbətlər təşkil edilirdi. Xristian və yəhudi həkimlər müsəlman həmkarları ilə fikirlərini bölüşür, dövrün bir çox əhəmiyyətli tibbi əsəri xəlifənin, ya da dövlət başçısının hüzurunda müzakirə olunurdu.[18]

İslam idarəçiliyi altında kitab əhlinin canlı, mədəni həyatı var idi. Müsəlman dövlət adamları fəth edilən torpaqlardakı mədəni işləri qoruyur və onları İslam imperiyasının paytaxtı olan Bağdada gətirirdilər. Xristianlar və yəhudilər də onlar əsasında hazırladıqları əsərlərini və öz dini inanclarını xalqlarına öyrətmək üçün hazırladıqları işləri çoxaldıb paylaya bilirdilər. Müsəlmanların elmi və fikir azadlığını dəstəklədikləri bir dövrdə xristianlığın mərkəzi olan Avropada isə inkvizisiya məhkəmələri insanları düşüncə və inanclarına görə diri-diri yandıraraq edam edirdi.

Yəhudi və xristianların məhkəmələrində ədalət anlayışı müsəlman liderlərin ədalət prinsipinə uyğun olsa da, müraciətlər, əsasən, İslam məhkəmələrinə edilirdi. Bir dövrdə İslam məhkəmələrinə müraciət edən xristianların sayındakı artıma görə Nəsturi patriarxı Timasav xristianları xəbərdar edən bəyannamə vermişdi.[19]

İslam tarixində görünən bənzərsiz mərhəmət və ədalət anlayışının əsası, əlbəttə ki,

Quran əxlaqıdır. Quran əxlaqını tətbiq edən müsəlmanların idarəçiliyindəki torpaqlarda həmişə təhlükəsizlik, ədalət və sülh hakim olmuşdur. Xalqın xoşbəxtliyini və rifahını əsas götürən bu rəhbərlər özlərindən sonrakı nəslə nümunə olan bir sistem qurmuşlar. Hal-hazırda da mərhəməti, şəfqəti, ədaləti, anlayışı, təvazökarlığı, səbri, fədakarlığı əmr edən əsl Quran əxlaqının İslam dünyasında yayılması ilə həm müsəlmanların, həm də qeyri-müsəlmanların rahatlıq və təhlükəsizliyə qovuşacaqları nizamın qurulması mümkün olacaq.

# MÜSƏLMANLAR KİTAB ƏHLİNƏ SAHİB ÇIXMALIDIR

***ADNAN OKTAR:*** *İsraildəki bütün dindar yəhudilərə ciddi şəkildə sahib çıxılmalıdır. Eynilə Fələstinə sahib çıxdığımız kimi, onlara da sahib çıxmalıyıq. Yəni onların hamısı bizimdir.* ***Bir qismi Yaqub oğulları, bir qismi İsmayıl oğulları. Bir qismi hz. Yaqubdan (əs) gəlir, bir qismi hz. İsmayıldan (əs). Hamısı peyğəmbər nəslindəndir. Oradakı qövmün, nəslin hamısı elədir və çox dindardırlar, təmiz insandır.***

*Onlara ürcah olmuş ateist-sionistlər və masonlar var. Onları bir-birinə qırdırmaq istəyən, onları bir-birinə yox etdirmək istəyən bir qrup var. Onları - şeytanın bu qrupunu geriyə çəkib, eyni atadan olan dindar, tərtəmiz qardaşları xoşbəxt yaşatmalıyıq.* ***Birtərəfli siyasət səhvdir. Həm ədalətə, həm də vicdana uyğun deyil.*** *Bir də belə bir gözəlliyi görməzlikdən gələ bilmərik. Yəhudilər çox dindar insandırlar. Onları mütləq qorumaq lazımdır, amma fələstinliləri də bu bəladan, bu dərddən qurtarmalıyıq. (Adnan Oktarın Mavi Karadeniz TV müsahibəsindən, 3 fevral 2009)*

# Müsəlman cəmiyyətlərində kitab əhlinin hüquqi statusu

Kitab əhli fəth edilən torpaqlarda əsir kimi deyil, zimmi statusunda yaşayır və beləliklə, hüquqi status qazanmış olurdular. Zimmilik cizyə vergisini ödəyən və müsəlman idarəsini tanıyan qeyri-müsəlmanlara verilən ad idi. Bununla bağlı olaraq can və mal təhlükəsizliyi təmin edilir, din və vicdan azadlığından faydalanır, əsgərlikdən azad olurdular. Aralarındakı anlaşılmazlıqları öz hüquqlarına görə həll etmə haqqını əldə edir və bəzən ödədikləri cizyə də geri qaytarılırdı.

Qeyri-müsəlmanlardan cizyə vergisinin alınması bəzən səhv izah edilir və ədalətsizlik kimi göstərilməyə çalışılır. İslam idarəçiliyində müsəlmanlardan cizyə vergisi alınmamışdır, çünki onlara hərbi öhdəlik verilmişdir, qeyri-müsəlmanlar isə bu öhdəlikdən azad edilmişlər. Bundan başqa, qeyri-müsəlmanlardan alınan cizyə vergisi onların hüquqlarının qorunması və gələcəklərinin təminatı, eləcə də möhtac olan qeyri-müsəlmanların qorunması üçün istifadə edilmişdir. Zimmilik statusunu və müsəlman idarəçilərin cizyə ilə əlaqədar üsullarını araşdıranda bu mühakimələrdən uzaq olduqlarını görürük.

Peyğəmbərimiz (səv): **"Kim zimmiyə zülm edər və ya daşımaqda aciz olduğu yükü yükləyərsə, o şəxsin düşməniyəm", -**deyərək zimmilərə mərhəmətli davranmağı tövsiyə

etmişdir. Bu tövsiyəni dinləyən müsəlmanlar öz idarələri altındakı qeyri-müsəlmanların qorunmasını vacib görmüşlər. Müsəlmanların hüquq anlayışlarına görə, zimmilər dövlət tərəfindən qorunmalı idi. Hz. Ömər (əs) dövründə Hira xristianları ilə müsəlmanlar arasında bağlanan sazişdə bildirilmişdir: **"Əgər onlardan biri gücdən düşsə və yaşlansa və ya xəstəlikdən əziyyət çəksə və ya varlı ikən yoxsullaşsa, o və ailəsi İslam torpaqlarında olduğu müddətdə beytül-maldan (cəmiyyət xəzinəsi) kömək görəcək".[20]** Müsəlman olmayanlar vergilərini ödəyə bilməyəndə, dövlət xəzinəsindən onlara kömək edilirdi. Şam xalqı ilə bağlanan sazişdə hz. Ömərin (əs) cizyə və qeyri-müsəlmanlar mövzusunda müsəlmanlara həssaslığını göstərən çox əhəmiyyətli izahı verilmişdir:

> Allah'ın lütf etdiyi torpaqları insanların əllərindən almayın və Allah'ın kitabında ifadə etdiyi kimi, gücləri çatdığı qədər cizyə qoyun. Əgər cizyə onlar tərəfindən ödənsə, daha çoxunu istəməyin... Torpaqları öz aramızda paylaşsaq, övladlarına heç nə qalmayacaq. Əgər torpaqlar əsl sahiblərinə verilsə, müsəlmanlar onların istehsal etdikləri ilə yaşaya bilərlər. Onların üzərinə cizyə qoya bilərsiniz, amma əsla onları əsir ala bilməzsiniz. Onları incidə, ya da onlara zərər verə bilməzsiniz və üzərində haqqınız olmadıqca onların mallarını ala bilməzsiniz. Onlarla etdiyiniz razılaşmalarla qəbul etdiyiniz öhdəçilikləri yerinə yetirmək məcburiyyətindəsiniz. [21]

Göründüyü kimi, Quran əxlaqını yaşayan səmimi müsəlmanlar qeyri-müsəlmanların mal və can təhlükəsizliyini, rahatlığını qorumağı məsuliyyət hesab edirdilər. **Bizans ordusu ilə döyüşdə İslam ordularının xristianları qoruya bilməyəndə aldıqları cizyəni onlara qaytarması Peyğəmbərimizin (səv) müsəlmanlara öyrətdiyi İslam əxlaqının gözəl nümunələrindən biridir.[22]**

Keçmişdə İslam dünyası, yəhudi və xristianlar arasında qurulan dostluq əlaqələri dövrümüz üçün də əhəmiyyətli bir nümunədir. İslam əxlaqı fərqli dinlərə və inanclara mənsub olan insanlara şəfqətlə yanaşmağı, onların dəyər və inanclarına hörmət etməyi, birlikdə rahat yaşanacaq mühit qurmağı tələb edir. Buna görə də bu əxlaqın yayılması və İslam adına ortaya qoyulan, ancaq İslam əxlaqı ilə heç bir əlaqəsi olmayan bəzi yanlış üsulların aradan qaldırılması üçün göstərilən səy dünya sülhünün təmin edilməsində əhəmiyyətli addımdır.

Müsəlmanların sevgi və anlayışı səmimi olaraq iman gətirən yəhudi və xristianlarda da eyni şəkildə olmalıdır. Çünki Allah yəhudi və xristianlara da digər insanları sevmələrini, yaxşılığın və sülhün tərəfdarı olmalarını əmr etmişdir.

# III HİSSƏ

# RADİKALİZM TƏHLÜKƏSİNƏ QARŞI BİRLƏŞMƏK

Hansı qrupa və ya inanca aid olmasından asılı olmayaraq, radikal meyillər dünyada sülh və təhlükəsizliyi təhdid edən ünsürlərin əsas səbəbkarıdır. Radikalizm hər hansı bir mövzuda köklü və ani dəyişiklikləri müdafiə etmək və bu istiqamətdə kəskin siyasət aparmaqdır. Radikallar köklü dəyişikliklər iddiasında olan və bunun üçün sərt, kəskin, hətta bəzən təcavüzkar üslubdan istifadə edən şəxslər kimi tanınırlar. Radikalizmin diqqət çəkən bir xüsusiyyəti qəzəbli üslubdan istifadə etməsidir. Bu üslub radikalların danışıqlarında, yazılarında, nümayişlərində ortaya çıxır. Radikal hərəkatlarda şüurlu rəftarların yerini kor-koranə müdafiələr və bu istiqamətdə inkişaf edən kütlə psixologiyası tutur. Kütlə psixologiyası bəzən elə bir hala gəlir ki, nəyi nə üçün etdiyini belə bilməyən şəxslər ətrafa zərər verən təcavüzkar insanlara çevrilirlər. Sevginin, şəfqətin və anlayışın tamamilə ortadan qalxdığı belə bir mühitdə qarşı tərəfin nə düşündüyünü, nəyi müdafiə etdiyini dinləməyə və anlamağa ehtiyac belə duymadan müxtəlif ideologiyalara, müxtəlif inanclara və irqlərə qarşı düşmənçilik aparırlar.

Zərərli və dağıdıcı hərəkat olmasına baxmayaraq, radikalizmin tərəfdar toplaya bilməsinin əsasında cəhalət durur. Kifayət qədər məlumatlandırılmayan, ya da səhv və ya birtərəfli məlumatlandırılan kütlələr cərəyanların təsiri altına düşür, bu cərəyanların qarşıya qoyduğu fikirləri düşünmədən qəbul edirlər. Bu səbəbdən, radikalizmə qarşı fikri mübarizədə təhsil almaq çox vacibdir.

Hal-hazırda radikalizm xristian və yəhudi cəmiyyətlərində olduğu kimi, İslam dünyasında da mövcuddur və bu vəziyyət iki sivilizasiya arasında qarşıdurma yaratmaq istəyənlər tərəfindən sui-istifadə edilir. Radikalizmin dünya təhlükəsizliyi üçün nə qədər ciddi təhlükə olduğunu isə ABŞ-da 11 sentyabr terroru və bunun nəticəsində yaranan mühit bir daha sübut etdi. Hücumların müsəlmanlar tərəfindən reallaşdırıldığının düşünülməsi qərb dünyasının bir qismində İslam dini haqqında yanlış təəssüratlar doğurdu. Halbuki İslam əxlaqı hər cür şiddəti və təcavüzkarlığı qəti şəkildə qadağan edir. Belə ki, İslam dünyası terroristləri lənətlədi, dünyanın hər yerində müsəlmanlar terror nəticəsində dünyasını dəyişən günahsız insanlar üçün xristianlarla birlikdə dua etdi, amerikalı müsəlmanlar da zərər çəkənlərin köməyinə qaçdı. Buna baxmayaraq, bu bədxah hücumları İslama aid etmək istəyən insanların təsiri ilə Amerikada və bəzi Avropa ölkələrində müsəlmanlara qarşı ayrı-seçkilik başladı və

həttaşiddətli hadisələr baş verdi. Dünyanı bir-birinə zidd olan qütblərə ayırmağı hədəf alan radikalların təlqinləri hər iki sivilizasiyanın insanları üçün  narahat mühit meydana gətirdi.

İstər qərb dünyası, istərsə də İslam dünyası radikalizmi və onun zərərlərini aradan qaldırmaq üçün müxtəlif mədəni proqramlar təşkil etməli, cəmiyyətin hər zümrəsinə çatan təhsil kampaniyaları yaratmalıdır. Bu proqramlarda cəmiyyətin müxtəlif təbəqələrinin üzərinə düşən vəzifələri isə belə sıralaya bilərik:

• Radikalizm din əxlaqına uyğun olmayan cərəyandır. Bu, həqiqətin dəlillərlə göstərilməsi, din adı altında ortaya çıxan radikalların fikrən məğlub olması üçün əhəmiyyətlidir. Hər üç İlahi dinin mənsubları səbirlə, gözəl sözlə və nəzakətlə bunu insanlara izah etməlidirlər. Rəbbimizin zülm və təcavüzkarlığı bütün inananlara haram etdiyini, günahsız insanlara zərər verən hər cür hərəkətin Allah qatında qadağan edildiyini dəlillərlə izah etməli, bu yolda olan insanların böyük səhv etdiyini onlara göstərməlidirlər. Bu iş sayəsində din adı altında ortaya çıxan, ancaq şiddət tərəfdarı olan insanların doğrunu söyləmədikləri, azğın yola uyduqları cəmiyyət tərəfindən dərhal dərk ediləcək, bu insanların özlərinə tərəfdar tapmaları mümkün olmayacaq.

• Tərəflərin bir-biri haqqında eşitdiyi və həqiqətdən uzaq məlumatlara əsaslanaraq gəldiyi qənaətlər sıxıntıya səbəb olur, bu vəziyyətdən qaynaqlanan ön mühakimələr tərəflərarası əməkdaşlığın qarşısında sədd meydana gətirir. Hər üç İlahi dinin mənsublarının bir-birinin inancını, ənənələrini, ibadətlərini daha yaxından tanıyacağı mühitin yaradılması qarşılıqlı əlaqələrin qurulmasında əhəmiyyətli addım olar. Qarşılıqlı təhsil və mədəniyyət proqramları ilə bu mühit asanlıqla yaradıla bilər. Fərqli inanca mənsub olan insanlar bir-birlərini tanıdıqca nə qədər çox ortaq xüsusiyyətlərə sahib olduqlarını görərlər, bu ortaq xüsusiyyətlər üzərində uzlaşma imkanı əldə edərlər. Həm müsəlmanlar, həm də yəhudi və xristianlar Allah'ın müqəddəs kitablarda onlara əmr etdiyi əxlaq çərçivəsində öz dünyagörüşlərini bir-birinə izah etməli, beləliklə, məlumat çatışmazlığından qaynaqlanan anlaşılmazlıqlar aradan qaldırılmalıdır.

• Mədəni işlərin müvəffəqiyyət qazanmasında medianın boynuna götürəcəyi rol böyük əhəmiyyət kəsb edir. Tərəflərarası əməkdaşlıq üçün lazımi zəmin yaradılmasında media mədəni fəaliyyətlərə dəstək verməlidir. Ayrı seçkiliyi və şiddəti qızışdıran, təxribata yol açan hərəkətlərdən çəkinməli,  şəfqəti və anlayışı təşviq edən verilişlər artırılmalıdır. Xüsusilə qərb mətbuatının bu mövzudakı verilişləri müsəlmanlara qarşı yönələn ön mühakimələrin aradan qaldırılmasında mühüm mərhələ olar. İslam dünyasındakı media isə digər dinlərə və mədəniyyətlərə qarşı nifrəti təhrik edən hərəkətlərdən və şiddəti təşviq edən üsullardan çəkinməli, İslam dünyasının mədəni və mənəvi təhsilinə üstünlük verməlidir.

• Bu işlərdə ən əhəmiyyətli məsuliyyət isə cəmiyyətlərin dindarlarının və rəhbərlərin üzərinə düşür. Üç İlahi dinin dindarları bəzi xurafatları və batil inancları din əxlaqının bir hissəsi kimi göstərənlərə qarşı diqqətli olmalıdırlar. Hər cür xurafatın din əxlaqına uyğun olmadığı, Allah'ın inananlara həlim xasiyyətli olmağı əmr etdiyi cəmiyyətlərə bildirilməlidir. Cəmiyyətlərin xurafatlardan qorunması üçün rəhbərlər də bu hərəkatı dəstəkləməli, mülayim, yəni əsl din əxlaqına uyğun olan anlayışın hakim olması üçün lazım olan zəmini hazırlamalıdırlar.

Üç İlahi dinin mənsublarının əməkdaşlıqla görəcəyi bu və buna bənzər işlər radikalizmə zəmin hazırlayan şərtlərin ortadan qaldırılmasına vasitə olar. İnananlar digər tərəfin inanclarını və müqəddəs dəyərlərinə tamamilə etinasızlıq edən və yalnız özünü haqlı görən anlayışdan çəkinməlidirlər. Səmimi olaraq iman gətirənlər bir-birini ittiham etməyin yerinə,

özlərini Allah'a daha çox yaxınlaşdıran yollar axtarmalı, səmimiyyətlərini artırmağa cəhd göstərməli, Allah'ın razılığını və rəhmətini qazanmaq üçün səy göstərməlidirlər. Bunun əksini edənlərin səhv etdiyi ayədə belə açıqlanır:

**Yəhudilər: "Xaçpərəstlər heç bir şeyə əsaslanmırlar!"– deyir, xaçpərəstlər isə: "Yəhudilər heç bir şeyə əsaslanmırlar!"– deyirlər. Halbuki onlar kitab oxuyandırlar. Cahillər də onların danışdığı kimi danışırlar. Allah ixtilafa düşdükləri şey barəsində qiyamət günü onların arasında hökm verəcəkdir. (Bəqərə surəsi, 113)**

Unutmaq olmaz ki, həm İslam, həm də xristian və yəhudi aləmi radikalların verdiyi zərərin aradan qaldırılması, sülhpərvər, mədəni və səmimi dindar insanların ittifaqı ilə mümkündür. Beləliklə, müharibəni və qarşıdurmanı yeganə çıxış yolu kimi göstərən, təhlükəsizliyin ancaq şiddət və güc nümayişi ilə təmin ediləcəyinə inananların təlqinləri təsirsizləşdirilər, daha çox qan, göz yaşı və maddi itkiyə səbəb olan cəhdlərin qarşısı alınar.

Radikalizmə mane olmağın başqa bir yolu da xurafatları təşviq edən cərəyanların və ideologiyaların yanlış olduğunu ortaya qoymaqdır. Kitabın sonrakı səhifələrində xristian və yəhudi dünyasında bəzi radikal hərəkatların yanlış yönlərini araşdıracağıq. Ancaq bundan əvvəl İslam dünyasının da radikalizmə qarşı son dərəcə diqqətli olmasını bir daha xatırlatmalıyıq.

# Müsəlmanlar unutmamalıdır: Quran əxlaqı onları hər cür azğınlıqdan çəkindirir

Əvvəlki hissədə də araşdırdığımız kimi, başda Peyğəmbərimizin (səv) dövrü olmaqla, tarix boyu İslam cəmiyyətləri müsəlman olmayanlar üçün şəfqət və mərhəmətin mərkəzi olmuşdur. Keçdiyimiz 1400 illik tarix digər ölkələrdə zülm görən xristian və yəhudilərin müsəlmanların himayəsinə və mərhəmətinə sığınmalarının nümunələri ilə doludur. Bu həqiqəti unutmayaraq, sülhə ən çox ehtiyac duyulan bu dövrdə müsəlmanlar Quranda əmr edilən əxlaqı və hz. Muhəmmədin (səv) həyatını əsas götürərək bütün dünyaya nümunə olan model qurmalıdırlar.

Radikalizm üslubu Allah'ın möminlərə əmr etdiyi üsluba heç bir şəkildə uyğun gəlmir. Allah Quranda möminləri təsvir edərkən onların gözəl sözlü, müharibə və qarşıdurmadan çəkinən, əleyhlərinə olan insanlara qarşı da mülayim və dostca yaxınlaşan, təvazökar, səbirli, mərhəmətli, mehriban bir xarakteri təsvir edir. Quran ayələrinə baxdıqda mülayim və şəfqətli bir üslubun bütün peyğəmbərlərin ortaq xüsusiyyəti olduğunu görürük. Allah hz. İbrahimi (əs) **"...Həqiqətən, İbrahim (Allah'a) çox yalvaran həlim bir kimsə idi" (Tövbə surəsi, 114)** şəklində təsvir edir. Peyğəmbərimiz hz. Muhəmmədin (səv) əxlaqını təsvir edən bir ayə isə belədir:

**Allah'ın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar... (Ali-İmran surəsi, 159)**

Müsəlmanlar yalnız din əxlaqını izah etməklə məsul olduqlarına, insanları heç bir şəkildə zorla məcbur etmədiklərinə, ən zalım inkarçılara qarşı belə yumşaq söz söyləməklə

məsuliyyət daşıdıqlarına görə radikal ola bilməzlər. Çünki radikalizm bu xüsusiyyətlərin əksini müdafiə və tətbiq edir.

Radikalizm İslam əxlaqına uyğun olmayan bir cərəyan və siyasi qurumdur. Radikalizm kimi təsvir edilən ictimai faktları araşdıranda onların, əslində, darvinistlər və materialistlər tərəfindən istifadə edilən üsul və ifadələrin toplusu olduğunu və ya İslamda heç bir yeri olmayan cahiliyyə təəssübünün (Fəth surəsi, 26) bir ifadəsi kimi ortaya çıxdığını görürük. Bu ideologiyaların ortaq istiqamətlərindən biri olan və radikalizmə zəmin hazırlayan romantik şiddət Allah'ın Quranda bildirdiyi əmrlərə tamamilə ziddir. Quranda müsəlmanlar qəzəbləndikləri zaman qəzəblərini boğan, ağıllı, həlim xasiyyət və mülayim insanlar kimi təsvir edilirlər. Həmişə qarşıdurmaları qarşılıqlı anlayış çərçivəsində həll etməyə və hadisələrin müsbət istiqamətlərini görməyə çalışırlar. Qarşılaşdıqları hər hadisədə sakit davranırlar. Bir ayədə müsəlmanların bu xüsusiyyəti belə bildirilir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi, 134)**

Müsəlmanlar özləri kimi eyni düşüncə və inanca sahib olmayan insanlarla danışarkən və onlara İslam əxlaqını izah edərkən çox nəzakətli üslubdan istifadə etməlidirlər. Buna görə də qarşı tərəfi heç vaxt məcbur etməzlər. Müsəlmanların məsuliyyəti Allah'ın Quranda bildirdiyi əxlaqı ən gözəl şəkildə insanlara izah etmək və seçimi insanların vicdanına buraxmaqdır. Allah aşağıdakı ayədə bir müsəlmanın digər insanlara qarşı üslubunun necə olacağını açıqca bildirir:

**(İnsanları) Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

Bu mövzuda bizə yol göstərən nümunələrdən biri də Allah'ın hz. Musa (əs) və hz. Haruna (əs) fironun yanına getməyi söyləyərkən bildirdiyi "yumşaq danışın" əmridir:

**Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun! (Taha surəsi, 43-44)**

Firon öz dövrünün zülm və inkarda irəli getmiş inkarçısıdır. Allah'ı inkar edib özünü bütləşdirməsi onu azğınlığa yönəltmiş, iman gətirənlərə (dövrün İsrail oğullarına) qorxunc zülmlər vermiş və qırğınlar törətmiş bir despotdur. Buna baxmayaraq, onun yanına gedərkən Allah peyğəmbərlərinə: "Onunla yumşaq danışın",- deyə buyurur. Diqqət yetirilsə, Allah'ın bildirdiyi üsul mülayim üslubdur. İstehzalı, qəzəbli sözlər, həyəcanlı etiraz nümayişləri Allah'ın əmr etdiyi əxlaqa və təbliğ üslubuna uyğun deyil.

Bu səbəbdən, bütün müsəlmanlar Quran əxlaqına zidd olan hər cür kəskin, qəzəbli, qarşıdurma yaradan üslubdan tamamilə uzaqlaşmalı, onun yerinə Allah`ın Quranda təsvir etdiyi mülayim, şəfqətli, sakit və ağıllı üslubu seçməlidirlər. Müsəlmanlar mehribanlıqda, insanpərvərlikdə və təvazökarlıqda bütün dünyaya nümunə olmalı, insanları özlərinə və dolayısilə İslam əxlaqına heyran etməlidirlər. Həmçinin elm, mədəniyyət, sənət və estetikada da irəliləyib İslamı dünyada təmsil etməlidirlər.

# Müsəlmanların terrora münasibəti necə olmalıdır?

Hər cür terrorist hücum İslam dinində şiddətlə lənətlənir. İslam dininə görə günahsız insanı öldürmək böyük günahdır və günahsız insanı öldürən şəxs axirət həyatında əzabla qarşılaşacaq:

**...Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, sanki bütün insanları öldürmüşdür. Kim də onu ölümdən xilas edərsə, sanki bütün insanları xilas etmiş hesab olunar. Elçilərimiz onlara aydın dəlillər gətirdilər. Onların çoxu isə bundan sonra da yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

Yuxarıdakı ayədən də göründüyü kimi, Quranda günahsız bir insanı öldürmək bütün insanları öldürməyə bərabər tutulur. Quranda insan həyatına verilən əhəmiyyət "Furqan" surəsində belə bildirilir:

**Onlar Allah'la yanaşı başqa tanrıya yalvarmaz, Allah'ın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edən kimsə cəzalandırılar. (Furqan surəsi, 68)**

Allah  başqa bir ayəsində insanlara bu şəkildə əmr edir:

**De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç nəyi şərik qoşmayın, valideynlərə yaxşılıq edin və yoxsulluq ucbatından uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Murdar əməllərin aşkarına da, gizlisinə də yaxınlaşmayın. Allah'ın, (öldürülməsini) haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə anlayasınız. (Ənam surəsi, 151)**

Allah'a səmimi qəlblə iman gətirən, Onun əmrlərini tətbiq edən və sonsuz axirət əzabından qorxan müsəlman, bir insana belə zərər verməz. Çünki Allah'ın sonsuz ədalət sahibi olduğunu və hər etdiyinin əvəzini mütləq alacağını bilir. Mübarək peyğəmbərimiz hz. Muhəmməd (səv) bir hədisində Allah'ın məmnun olmadığı insanları belə sadalamışdır:

Hərəm (müqəddəs bölgə) içində zülm və haqsızlıq edənlər, cahiliyyə adətini arzulayanlar və haqsız yerə insan qanı axıtmaq istəyənlər Allah'ın razı olmadığı insanlardır.[23]

Bu mövzuda diqqət yetirilməli cəhət isə ibadət yerlərinə olan münasibətlərdir. Kilsələr, sinaqoqlar, məscidlər Allah'a ibadət edilən evlərdir. Günahsız insanların kilsələrdə, sinaqoqlarda, ya da məscidlərdə Allah'a ibadət edərkən öldürülmələri Allah qatında böyük günahdır. Ora gedən insanlar Allah'a dua edən, dindar insanlardır. Allah'ın adının xatırlandığı bütün evlər isə İslam dinində müqəddəsdir. Bu evlərin ziyarətçiləri yəhudi, xristian və ya müsəlman ola bilər. Lakin vacib olan onların hər birinin Allah'a iman gətirməsi və dindar olmasıdır. Müsəlman kitab əhlinin Allah'a ibadət etdiyi müqəddəs yerlərə hörmət etməli, bu məbədləri qorumalıdır. Bu yerlərin xristian və ya yəhudilərə aid olmasından asılı olmayaraq, orada Allah'ın adı xatırlandığı üçün müsəlmanlar üçün də qiymətlidir və bütün iman gətirənlər tərəfindən qorunmalıdır.

# TERRORUN MƏNŞƏYİ DARVİNİZMDİR, HƏLLİ İSƏ ƏSL DİN ƏXLAQIDIR

***ADNAN OKTAR:*** *İslam dini deyəndə sülh dini başa düşülür. Yəni "İslam" sülh, sevgi, şəfqət, mərhəmət, dostluq, yoldaşlıq, yardımlaşma və yaxşı olan hər şeydir. Amma bunu cahilin əlinə versən, asar, kəsər, bombalayar, darmadağın edər. "Nə üçün edirsən?" - deyə soruşanda: "Allah üçün edirəm", - deyir. Cahilin əlində belə olur, yəni İncili də bəzi xristianlar fərqli şəkildə tətbiq edirlər. Səlib yürüşləri təşkil etdilər, böyük qırğınlar törətdilər. Asdılar, kəsdilər, bəzi yəhudilər də elə. Tövratla etdikləri qırğınların həddi-hüdudu yoxdur. Halbuk, Tövrat hansı dindən olursa-olsun, qonşuya da çox şəfqətli və qoruyucu olmağı əmr edir. Bu, xristianlıqda da vardır. Yəni sevgi dini yəhudilik və xristianlıqda da sevgi dinidir. İslamiyyət də sevgi dinidir.* ***Amma ürəyi qatılaşmış, Avropada təhsil almış, darvinist təhsil almış, partizan təhsili almış, kommunist təhsil almış insanın əlinə Quranı versən, sənin qarşına belə gələr.*** *Çünki o, ürəyindəki kini və nifrəti tətbiq etmək üçün Qurandan istifadə edir. Halbuk, Qurana görə, bir insan cinayət edəndə qatili gətirirlər. Allah deyir ki,* ***qatili bağışla.*** *Ayə var. Bundan böyük nə var? Adam öldürüb qəsdən, bilərəkdən. Quranda:* ***"Onu bağışlayın",*** *- deyilir. Bəlkə düzələr, bəlkə düz yola yönələr.* ***"Bağışlasanız, sizin üçün daha xeyirlidir",-*** *deyir Allah. Belə bir dində şiddəti necə tətbiq edirlər? Yəni bombalama, asma, kəsmə, məsələn, kiçik uşaqlar, qadınlar var; aralarına bombanı qoyur. Darmadağın edir hamısını, birdən havaya uçurur. "Nə üçün etdin?"- deyirsən. "Allah üçün etdim",- deyir. Qardaşım, de ki:* ***mən darvinist təhsil aldım, materialist təhsil aldım, Stalinin pərəstişkarıyam. Amma Quranı da özümə uyğunlaşdırmağa çalışdım, millətin gözünə kül üfürürəm. Bilirəm, İslamiyyətdə belə bir şey yoxdur.*** *Doğrunu söyləsin. Quranda belə bir şey yoxdur. Peyğəmbərimiz (səv) son dərəcə şəfqətli, mərhəmətli bir insan idi. Peyğəmbərin (səv) qucağında pişik yatır, ətəyini kəsir, heyvanı narahat etməmək üçün, oyandırmamaq üçün belə edir. Bizim belə Peyğəmbərimiz (səv) var. İnsanları bombalamaq, uşaqları bombalamaq, aləmi bir-birinə qatmaq nə deməkdir? Bir də psixoloji şiddəti var. Oturma, qalxma, sağa dönmə, sola dönmə, havaya baxma, yemə, içmə, sənət yox, elm yox, texnologiya yox, sevgi yox. Bunun dinlə heç bir əlaqəsi yoxdur.* ***Bunlar öz ruhlarındakı qaranlığı, öz ruhlarındakı şirk düşüncəsini Qurana tətbiq etməyə çalışan insanlardır. Peyğəmbərimizin (səv) həyatı göz qabağındadır. Gözəllikdən xoşlanır, estetikadan xoşlanır, sənətdən xoşlanır, ətrafı təmiz və gözəldir, söhbətləri çox sadədir Peyğəmbərimizin (səv). Həmişə şəfqətli olub, olduğu yer tərtəmiz olub, o dövrün imkanları ilə gül əkdirirdi.*** *Məkkə, Mədinəni düşünün, səhra mühitini. Orada belə gül yetişdirir. Yəni gözəlliyə olan meylini buradan anlayırıq. Nəvələri ilə zarafatlaşır Peyğəmbərimiz (səv). Belə bir insandır Peyğəmbər (səv). Orada isə baxırsan ki, insanın üzündə qatil sifəti var. Elə müsəlman olarmı? Haşa, dini, İslamı insanlara anormal göstərməyə çalışan düşüncənin arxasında bəzi masonlar var və bunların hamısı darvinist, materialist, stalinist təhsil almış insanlardır. Şeytani düşüncə ilə İslamı insanlara qorxunc göstərmək istədilər. 11 sentyabr terror hücumlarını müsəlmanlar etdi. Haranın müsəlmanı, arxasına bir baxaq, arxasından Amerikada təhsil almış, darvinist təhsil almış, marksizmi çox yaxşı bilən, Stalinin bütün tətbiq etdiyi üsulları çox yaxşı bilən insanlar çıxır.* ***Niyə buna müsəlman deyirsən? Yəni beyni yuyulmuş xəstə adamlardır. Onun üçün müsəlmanlığa edilən hər hücum şeytanın etdiyi hücumdur. Biz bu oyuna aldanmarıq.*** *İslamiyyət Peyğəmbərin (səv) tətbiqi ilə göz*

*qabağındadır, Quranın şəfqət dolu izahları, Quran ayələri də göz qabağındadır. Bu oyun da eynilə darvinizm kimi bir saxtakarlıq idi, biz bunu da pozduq və pozacağıq, inşaAllah. (Adnan Oktarın Kırım Gazeteleri müsahibəsindən, 14 noyabr 2008)*

***Adnan Oktar:*** *Müsəlmanların törətdiyi terror kimi göstərilən hadisə, yəni şəxsiyyət vəsiqəsində müsəlman yazılan terroristlərin etdiyi hərəkət kommunistlərin etdiyi hərəkətlərdir. İraqın əvvəlki Baas Partiyasının kommunistləri, Suriya Baas Partiyasının əvvəlki kommunistləri, keçmiş liviyalı kommunistlər, keçmiş yəmənli kommunistlər, keçmiş misirli kommunistlər və bunların idarə olunması, yəni masonlar tərəfindən istiqamətləndirilməsi nəticəsində belə bir quruluş meydana gəlir.* ***Bütün terror fəaliyyətlərini Avropada təhsil almış, darvinist-materialist təhsil almış, müsəlman şəxsiyyəti olan, şəxsiyyət vəsiqəsində müsəlman yazılan insanlar törədir. Amma bunların hamısı darvinist təhsil alıblar. Evlərində Karl Marksın şəkilləri asılıb. Marksa, Leninə pərəstiş edirlər bu insanlar; Ho Şi Minhin pərəstişkarıdırlar. Yəni terrorist pərəstişkarıdır bunlar.*** *Amma soruşanda müsəlman olduqlarını deyirlər.* ***Bunlar müsəlman deyil, bunlar kommunist, anarxist düşüncəni müdafiə edən terrorçulardır.*** *Şəxsiyyət vəsiqəsində müsəlman yazılması vacib deyil. Burada ən vacib məqam odur ki, bu insanların, demək olar ki, hamısı Avropada və yaxud Amerikada darvinist, materialist təhsil alıblar. Yəni bu təhsilin bir oyun olduğu, şeytanın bir oyunu olduğu insanlara izah ediləndə tamamilə bitəcək, bunun bitəcəyi vaxta doğru sürətlə irəliləyirik.*

*Hz. Mehdi (əs) dövrünə gəlirik. Hz. İsa əleyhissalamın zühuruna yaxınlaşırıq. Qarşıdan gələn on-iyirmi ilin içində hz. İsa əleyhissalamın zühurunu bütün dünya görəcək. Mən də buradayam, insanlar da. İnşaAllah, Allah ömür versə, görəcəyik. Bunun həqiqət olduğunu bütün dünya görəcək. Darvinizm ilbəil şam kimi əriyir və əriyəcək. Gələcəkdə uşaqlar bunu tarix kitablarında oxuyacaqlar. Belə gülünc paqan bir dinin insanlar tərəfindən necə qəbul edildiyinə təəccüblənəcəklər. (Adnan Oktarın Hollandiya, Poli Gazette müsahibəsindən, 2 iyul 2009)*

# Radikal xristianların yanlış düşüncəsi

Müasir dövrdə yaşayan xristianların əksəriyyətinin digər dinlərin mənsublarına İncildə olan sevgi və hörmət prinsipi ilə yaxınlaşması çox əhəmiyyətlidir. Xüsusilə XX əsrin ikinci yarısında bu istiqamətdə müsbət hadisələr baş vermişdir. Bu tarixdə xristian dünyasında digər dinlərə qarşı yanlış və əsassız düşüncə tərk edilmiş, digər dinlərə bağlı olan insanların günahkar kimi düşünülməməsi fikri hakim olmuşdur. Xristian yazıçılar, tədqiqatçılar və dindarlar bu fikri geniş şəkildə dilə gətirmişlər. Xristianlığı təmsil edən qurumlar dünyadakı problemlərə qarşı digər dinlərlə ittifaq qurmağı və əməkdaşlıq etməyi qərara almışlar.

Buna baxmayaraq, xristian dünyasında nadir də olsa, fərqli inanclara mənsub şəxslərə qarşı qatı və hətta təcavüzkar yanaşmalara rast gəlinir. Bəzi dini liderlər digər dinlərlə əlaqədar yanlış izahlar gətirir, bu dinlərə inananların günahkar olduqlarını iddia edirlər. Xüsusilə, müsəlmanlara qarşı bəzi haqsız və əsassız iddialar İslam dünyasında da narahatlıq doğurur. Orta əsrlərdəki xaçlı zehniyyətini qoruyan bəzi xristian liderlər Əhdi-Ətiqə bir sıra mənalar verərək yaxın gələcəkdə müsəlmanlarla qərb dünyası arasında müharibə olacağını,

hətta bu müharibənin lazım olduğunu bildirirlər. Əhdi-Ətiqdə keçmişdə yaşayan cəmiyyətlərin həyatlarından bəzi məqamlar və o dövrdə baş verən müharibələr, onların nəticələri izah edilir. Ancaq bu izahların əksəriyyəti o dövrə aiddir, o cəmiyyətlərin yaşadığı hadisələrlə bağlıdır. Bu səbəbdən, Əhdi-Ətiqdə olan bəzi izahlar o dövrə aid edilməli, bu izahlardan müharibəni və qarşıdurmanı dəstəkləyən nəticələr çıxarılmamalıdır.

Radikal xristianların yanlış düşüncələrindən biri də vacib olan müharibəni, yəni Armaqedonu Məsihin (əs) gəlişindən əvvəl reallaşacaq bir hadisə kimi qiymətləndirmələridir. Halbuki bu anlayış hz. İsanın (əs) xristianlara öyrətdiyi əxlaqa tamamilə ziddir. İncilə baxsaq, hz. İsanın (əs) insanlara həmişə sevgi, sülh və dostluq tövsiyə etdiyini görərik.

Xristianlar bilməlidirlər ki, hz. İsa Məsihin ikinci dəfə yer üzünə gəlişini tək xristianlar deyil, müsəlmanlar da böyük həyəcanla gözləyirlər. Çünki bu möcüzə Quranda xəbər verilir və hz. Muhəmmədin (səv) hədislərində də açıq şəkildə bildirilir. Bu səbəbdən, həm xristianlar, həm də müsəlmanlar bu böyük möcüzəni səbirsizliklə gözləyirlər. Unutmamalıyıq ki, hz. İsanın (əs) gəlişi ilə birlikdə Allah'ı inkar edən fəlsəfələr və bütpərəst inanclar fikrən məğlub ediləcək, irqçilik, faşizm kimi ideologiyalar aradan qaldırılacaq, beləliklə, dünya müharibələrdən, qarşıdurmalardan, etnik qarşıdurmadan, zülm və haqsızlıqlardan xilas olacaq, insanlar sülh, xoşbəxtlik və rahatlıq içində yaşayacaqlar. Bu səbəbdən, səmimi olaraq hz. İsanın (əs) gəlişinə hazırlaşan dindarlar belə bir mühitə zəmin hazırlayan işlər görməli, hər cür qarşıdurmaya mane olmaq üçün cəhd göstərməli, ayrılıqları, mübahisələri bir kənara atmalıdırlar.

İki cəmiyyət arasında anlayışa və hörmətə əsaslanan əlaqə qurulmasına mane olan yanaşmalar, şübhəsiz, ən yaxşı şəkildə xristianlar tərəfindən aradan qaldırıla bilər. Bu cür insanların yanıldığı müsbət düşünən xristianlar tərəfindən cəmiyyətə göstərilməlidir. Dünyanı savaş meydanına çevirən, digər mədəniyyətlərin varlığına dözməyənlərin düşüncələri sevgi və sülhü əmr edən xristianlıq təlimlərinə ziddir. İncildəki hökmlər dindar xristianların bütün insanlara yaxşılıq etməsini, düşmənlərini belə sevməsini, onlara nifrət edənlərə belə yaxşılıq etməsini tələb edir. Başda müsəlmanlara qarşı olmaqla, digər dinlərin mənsublarına qarşı ön mühakiməli dünyagörüşü və kinli münasibət xristian təliminin yanlış izah olunmasından və bəzi dindən kənar ideologiyaların təsirindən qaynaqlanır. Mülayim xristianlar radikalların qarşıya qoyduğu iddiaların sülh və sevgini müdafiə edən xristian təlimləri ilə ziddiyyət təşkil etdiyini sübut etməlidirlər. Bu istiqamətdə aparılan işlər radikal təlqinlərin kifayət qədər məlumat sahibi olmayan kütlələri təsir altına almasına mane olacaq. Əvvəl də qeyd etdiyimiz kimi, radikalizm cəhalətdən faydalanır. Bu cəhalətin səbəb olduğu təhlükələri aradan qaldırmaq isə xristian əxlaqının üzərinə düşür. Xristianların bu məsuliyyəti İncildə belə ifadə edilir:

Allah'ın qulları olaraq yaşayın. Hamıya hörmət edin. İmanlı bacı-qardaşları sevin, Allah'dan qorxun... (Peterin birinci məktubu, 2: 16-17)

Mövcud şərtlər bütün vicdanlı xristianların bu məsuliyyəti tamamilə boynuna götürməli olduğunu göstərir. Unutmamaq lazımdır ki, radikalların tələb etdiyi kimi qarşıdurma və müharibə hər iki tərəfə də böyük itki, ağrı, acı və göz yaşı gətirər. Səmimi olaraq iman gətirənlərin ittifaqı ilə bu ehtimal aradan qaldırıla bilər. Buna görə də vacib addımları atmaqdan çəkinmək yanlışdır. Radikallar tərəfindən yaradılan gərgin mühit sağlam

düşüncəli xristianların və müsəlmanların səyi ilə aradan qaldırıla bilər. Ön mühakiməni aradan qaldırıb inananlar arasında ittifaq yaratmaq dindar insanların dünyada sülh və təhlükəsizliyin təsis etməsində böyük rol oynayar. Beləliklə, həm xristianlar, həm də müsəlmanlar Allah'ın bizə əmr etdiyi əxlaqın tələbi olaraq dünyaya sülh və sevgi gətirərlər.

# Radikal yəhudilərin yanlış düşüncəsi

25 fevral, 1994-cü ildə Qərbi Şəriyədəki əl-Xəlil (Hebron) şəhərində hz. İbrahim məscidində ibadət edən müsəlmanlara hücum edildi. Yəhudi sionist Barux Qoldşteyn İsrail əsgərlərinin dəstəyi ilə əlindəki M-16 silahı ilə birlikdə sübh namazı vaxtı məscidə girdi. Məscidin ortasına qədər getdi və 500-ə yaxın müsəlmanı güllələdi. 67 müsəlman hadisə yerində şəhid oldu, 300-ü yaralandı. Əslində, bu hadisə israilli radikal qrupların reallaşdırdığı hərəkətlərdən yalnız biri idi. Həmin qruplar 1980-ci illərdə Qüdsdəki müsəlman məbədlərini (əl-Əqsa məscidi və Qübbətüs-Səxrə) də partlatmışdılar. Odlu silahlarla fələstinlilərə hücum edən radikal yəhudilər də bu qrupların üzvləri idilər.

Bu radikal qrupların düşüncələri arasında yəhudilərin bütün irqlərdən üstün olması, digər irqlərin bir heyvan növü olması, işğal olunan torpaqlardakı bütün ərəblərin etnik təmizliyə ehtiyacının olması kimi Tövrata və yəhudi ənənələrinə zidd olan radikal fikirlər yer tuturdu.

Bunlar yəhudi radikalizmi kimi ciddi bir təhlükənin varlığına işarə edir. Bu radikalizmin ideologiyasını və ağrılı-acılı nəticələrini müxtəlif kitablarımızda araşdırmışıq. Bu araşdırmanın yekunlaşdırılmış nəticəsini belə ifadə edə bilərik:

Bu gün yəhudi dünyasında yəhudi olmayan insanlara qarşı kin və nifrət təlqin edən, xüsusilə də fələstinlilərə qarşı sərt və mərhəmətsiz üsullardan istifadə edilməsini müdafiə edən radikal meyil mövcuddur. Bu meyil İsrail dövlətində özünü daha qabarıq büruzə verir və İsrailin yarım əsrdən çox fələstinlilərə və digər ərəb qonşularına qarşı təcavüzkar, işğalçı siyasətinin ortaya çıxmasında əhəmiyyətli rol oynayır. Şübhəsiz, yəhudi xadimlər İsrail yəhudi cəmiyyətində (və bütün dünya yəhudiləri arasında) çox kiçik azlığı meydana gətirirlər. Amma bu azlığı fikirlə müdafiə edən radikalizm mədəniyyəti də mövcuddur ki, bu da Yaxın Şərq və dünyanın təhlükəsizliyi üçün böyük təhlükədir.

Bunun qarşısını almaq üçün:

1) Yəhudi dindarlar Əhdi-Ətiqdə olan sevgiyə, hörmətə, ədalətə, mərhəmətə əsaslanan əxlaq anlayışını mənimsəməli və insanlar tərəfindən tətbiq edilməsi üçün cəhd etməlidirlər. Belə ki, bu istiqamətdə bir çox yəhudi dindar səy göstərir.

2) Sionizmin din əxlaqına uyğun bir şəkildə tətbiq olunması təmin edilməlidir. Şübhəsiz, İsrailin mövcud olmaq və torpaqlarının təhlükəsizliyini təmin etmək hüququ vardır. Üstəlik, yəhudilərin ulu babalarının torpaqları olan Fələstində müsəlman və xristianlarla bir yerdə, sülh şəraitində yaşamaq istəkləri qanunidir. Amma bir milləti yarım əsrdən çox təzyiq altında saxlamaq haqqı yoxdur. Fələstin torpaqları bu xalqların bir yerdə rahat və sülh şəraitində yaşaya biləcəkləri qədər genişdir. Bu səbəbdən, Yəhudi dövləti 1967-ci ildən bəri işğal etdiyi bütün torpaqlardan çəkilməli, Qərbi Şəriyə və Qəzzada suveren Fələstin dövlətinin

qurulmasını qəbul etməli və bu dövlətlə dostluq münasibətləri quraraq həm fələstinlilərlə, həm də bütün ərəb dünyası ilə barışmalıdır.

Bununla yanaşı, dindar yəhudilərin Rəbbimizin Quranda da bildirdiyi nəsihətlərə itaət etməsi və bütün yəhudiləri Allah'ın əmr etdiyi gözəl əxlaqa dəvət etməsi böyük əhəmiyyət daşıyır.

Allah xristianlara və müsəlmanlara olduğu kimi, yəhudilərə də ədaləti, dürüstlüyü, məzlumun haqqını qorumağı, sülh və sevgini əmr etmişdir. Buna görə də bəzi radikal yəhudilərin radikallığı Tövratla ziddiyyət təşkil edir: qatillərin sui-qəsdinə fikir verməmək və pisliyə göz yummaq Tövratda yəhudilərə bildirilən hökmlərdir (Yeşaya, 33: 15). Unutmaq olmaz ki, şiddət və təcavüzkarlıq ehtiva edən, rahatlıq və nizamı pozan heç bir ideologiyanın müvəffəqiyyət qazanması mümkün deyil. Şiddət həmişə dağıntı gətirir. Radikalların yanlış davrandıqlarının ifşa edilməsi bir çox insanı təsir altına salmalarına mane olar və hətta özlərinin də doğrunu görmələrinə vəsilə olar.

Bu səbəbdən, səmimi olaraq Allah'a iman gətirən yəhudilər radikal yəhudiləri də bu təhlükədən qorumaq üçün kitablarındakı haqq hökmlərə itaət etməli və sülh tərəfdarı olmalıdırlar. Tövratda sülh, sevgi, mərhəmət və gözəl əxlaq belə bildirilir:

Məhkəmədə haqsızlıq etməyin. Nə yoxsula üstünlük verin, nə də varlıya meyil salın, amma bir-birinizi ədalətlə mühakimə edin. Xalq arasında xəbərçilik etməyin; qonşunun qanının tökülməsini istəməyin... Öz xalqınızdan olan heç kəsdən qisas almayın, heç kimə kin saxlamayın. Lakin qonşunuzu özünüz kimi sevin... (Levililər, 19: 15-18)

Ey insanlar, Allah sizə yaxşı olanı bildirdi. Rəbb sizdən bundan başqa nə istəyir ki? (Mikeya, 6: 8)

Qətl törətmə. Zina etmə. Oğurluq etmə. Heç kimə qarşı yalan şahidlik etmə. Heç kimin evinə tamah salma... (Çıxış, 20: 13-17)

Hal-hazırda istər sülh tərəfdarı olan İsrail vətəndaşlarının, istərsə də dünyanın digər ölkələrində yaşayan yəhudilərin əksəriyyətinin radikalizmə qarşı çıxması çox əhəmiyyətlidir. Səmimi olaraq iman gətirən yəhudilər qətl törətməməyin, hökmdə haqsızlıq etməməyin, qisas almamağın, qan tökməməyin Tövratdakı əmrlər olduğunu unutmayaraq, yəhudilik adı altında davam etdirilən radikallığa qarşı mədəni və fikri mübarizədə iştirak etməli, bu mövzuda vicdanlı xristian və müsəlmanlarla birləşməlidirlər. Yəhudi radikalizminə qarşı fikri mübarizə aparmaq yarım əsrdən artıq davam edən Fələstin probleminin ədalətli şəkildə həll edilməsinin əhəmiyyətli yollarından biridir. Ancaq o zaman yəhudilərin və müsəlmanların (və əlbəttə, xristianların) bölgədə rahat və bir yerdə yaşaya biləcəkləri bir mühit yaradıla bilər. Hüzuru, sevgini, mehribanlığı, anlayışı əmr edən əsl din əxlaqının yaşanması ilə Fələstin və İsrail torpaqlarında sülh mühiti bərqərar olar. Unutmamalıyıq ki, həm yəhudilər, həm də müsəlmanlar tarix boyu ən böyük zülmü din əxlaqına uyğun olmayan ideologiyaların müdafiəçilərindən görmüşlər. Müqəddəs kitab bütpərəstlərin yəhudilərə etdikləri qorxunc zülmləri izah edən keçidlərlə doludur. Ateist və dinsizlərin (məsələn, nasistlərin, antisemit irqçilərin və ya Stalin Rusiyası kimi kommunist rejimlərin) yəhudilərə tətbiq etdiyi soyqırım və zülmlər göz qabağındadır. Dinsiz qüvvələr yəhudilərdən Allah'a inandıqları üçün nifrət edirlər

və buna görə onlara zülm edirlər. Həm müsəlmanlara, həm də yəhudilərə düşmən olan din əleyhdarına qarşı iki dinin mənsubları bir yerdə olmalı, bu birliyə mane olan radikalların təlqinlərinə aldanmamalıdırlar.

# IV HİSSƏ
# İLAHİ DİNLƏRDƏ ORTAQ İNANC ƏSASLARI

İnsanlar "həyatımın mənası və məqsədi nədir; ölümdən sonra nə olacaq; Cənnət və Cəhənnəm necə yerdir; hər şey necə var olub, həyatın mənbəyi nədir, mən daxil olmaqla, bütün varlıqları yaradan üstün Yaradıcını necə tanıya bilərəm; uca Yaradıcının məndən istədiyi nədir; yaxşı, pis, doğru, yanlış nədir?" kimi sualların cavablarını əsrlərlə axtarmış və bu haqda düşünmüşlər. Mütəfəkkirlər bu mövzularda nəzəriyyələr yaratmış, müxtəlif fikirlər irəli sürmüşlər. Ancaq bu sualların cavabları mütəfəkkirlərin təlimlərində deyil, İlahi dinlərdə mövcuddur. Çünki insanın ağıl və məlumatı çox məhduddur. Yuxarıdakı sualların ən doğru cavabları Rəbbimizin endirdiyi haqq dinlərdədir.

Belə ki, Allah, müxtəlif dövrlərdə elçilər və kitablar göndərərək insanlara yol göstərmişdir. Beləliklə, ilk insan olan hz. Adəmdən (əs) etibarən insanlar Allah'ın varlığından və əmrlərindən xəbərdar edilmişlər, həyatla bağlı sualların ən doğru və hikmətli izahını haqq dinlərdə tapmışlar.

Burada əhəmiyyətli bir mövzunun üzərində dayanmaq lazımdır. Haqq dinlər göndərildikləri dövrlərin mühit və şərtlərinə görə fərqli hökmlərdə olsalar da, əsasən, eyni inanc və əxlaq modelini insanlara təqdim etmişlər. Hamısı Allah'ın varlığını, təkliyini, sifətlərini, insanın və bütün varlıqların yaradılış məqsədini, Allah'a necə qul olacağını, Allah'ın bəyəndiyi ideal rəftarı, davranış və həyat formasını, yaxşını-pisi, doğrunu-yanlışı, insanın dünyadakı həyatını necə tənzimləməsini, sonsuz həyatı üçün nə edəcəyini və bunun kimi mövzularda eyni həqiqətləri insanlara çatdırmışlar.

Hal-hazırda dünya əhalisinin böyük əksəriyyətini üç İlahi dinin mənsubları - yəhudilər, xristianlar və müsəlmanlar təşkil edir. Yəhudilərin müqəddəs kitabı "Əhdi-Ətiq" 39 kitabdan ibarətdir. Bunların beşinin hz. Musaya (əs) vəhy edilən Tövratın hissələri olduğu qəbul edilir. Digər kitablar isə Tövratdan sonra digər yəhudi peyğəmbərlərinə vəhy edilən və ya onların işlərini izah edən yazılardır. "Tövrat" sözünün Əhdi-Ətiqin hamısına aid edildiyi də məlumdur. Bu kitab ümumi qəbul edilmiş və bütün Əhdi-Ətiq kitabları "Tövrat" kimi xarakterizə edilmişdir. Əhdi-Cədid adlandırılan İncil isə xristianların müqəddəs kitabıdır və dörd İncil və məktublar hissələrindən ibarətdir. Yəhudilik və xristianlıq zaman ərzində bəzi dəyişikliklərə məruz qalsa da, burada haqq dinə aid bir çox inanc əsasının və əxlaqi dəyərin qorunduğu görünür. Üç İlahi dinin müqəddəs kitabları arasındakı ortaq inanc əsasları və əxlaqi dəyərlərin təsbit edilməsi üç dinin mənsublarının bir-birini daha yaxından tanımasına və bir-birinə daha çox yaxınlaşmasına vasitə olar. Beləliklə, Allah'a səmimi iman gətirənlərin ittifaqı üçün lazım olan mühit də meydana gələr.

İndiki zamanda bir çox xristianın və yəhudinin İslam haqqında və bir çox müsəlmanın da xristianlıq və yəhudilik haqqındakı düşüncələri şifahi məlumatlara əsaslanır. Ümumiyyətlə, bu məlumatlar ailə və yoldaşlardan, televizor və qəzet xəbərlərindən əldə edilən məlumatlardan ibarətdir. Ancaq bu qaynaqlar insanlara çox vaxt yanlış məlumatlar verir. Şübhəsiz, müraciət ediləcək qaynaqlar yəhudiliyin əsası olan Tövrat, xristianlığın əsası olan İncil və Rəbbimizin göndərdiyi son haqq kitab olan Quran olmalıdır. Sonrakı səhifələrdə Tövrat və İncildəki inanc əsasları ilə Allah'ın Quranda bizə bildirdiyi hökmlər və əmrlər ölçü götürülərək, xristianlıq, yəhudilik və İslamın ortaq inanc əsaslarından bəziləri araşdırılacaq. Bu ortaq inanc əsasları yer üzündəki fikri mübarizənin üç İlahi din arasında deyil, bu dinlərlə darvinist, materialist və ateist ideologiyalar arasında getdiyini göstərir.

Quran ayələrində, İncil və Tövratdakı hissələrdə ortaq inanc əsasları aşağıda verilmişdir.

# Allah hər şeyi yaradandır

Ətrafımızda gördüklərimizi, bədənimizdəki hüceyrələrdən ucsuz-bucaqsız qalaktikalara qədər kainatdakı hər şeyi Allah yaratmışdır. Bütün aləmləri Rəbbimiz yoxdan var etmişdir. Kainatdakı qüsursuzluq, ecazkar sənət, möhtəşəm nizam və mükəmməllik Rəbbimizin yaratmasının dəlilləridir. Hər şeyi uca Allah'ın yaratdığı, bütün kainatı nümunəsiz, yoxdan var etdiyi, ona nizam verdiyi və hər şeyi müəyyən ölçü ilə təqdir etdiyi bəzi Quran ayələrində belə xəbər verilmişdir:

**...Səltənətində də şəriki olan yoxdur. O, bütün şeyləri xəlq etmiş və onlara münasib bir biçim vermişdir.** (Furqan surəsi, 2)

**...Hər şeyi O xəlq etmişdir. O, hər şeyi bilir. Budur Allah – sizin Rəbbiniz. Ondan başqa ilah yoxdur. Hər şeyin Yaradıcısıdır! Elə isə Ona ibadət edin! O, hər şeyə vəkildir.** (Ənam surəsi, 101-102)

**Göyləri və yeri icad edən Odur. O, bir işi yaratmaq istədikdə ona ancaq: "Ol!"– deyər, o da olar.** (Bəqərə surəsi, 117)

Eyni həqiqət İncildə belə keçir:

… Yeri, göyü, dənizi və bunların içindəki hər şeyi yaradan var olan Allah'a tərəf gəlin. (Həvarilərin işləri, 14: 15)

Hər şeyə həyat verən Allah'ın qarşısında sənə buyururam. (Paulun Timoteyə I məktubu, 6: 13)

...Göylərdə və yerdə olan, görünən və görünməyən hər şey – taxtlar, ağalar, başçılar, hakimlər Onda yarandı. Nə varsa, Onun vasitəsilə və Onun üçün yarandı. Hər şeydən əvvəl var olan Odur və hər şey Onda bərqərar olur. (Koloselilər, 1: 16-17)

Dünyanı və onda mövcud olan hər şeyi yaradan, yerin-göyün sahibi olan Allah... (Həvarilərin işləri, 17: 24)

Yoldaşları bunu eşidərkən hamısı bir nəfər kimi Allah'a müraciət etdilər: "Ey Pərvərdigarımız, yeri, göyü, dənizi və bunların içindəki hər şeyi yaradan Sənsən". (Həvarilərin işləri, 4: 24)

Hər şeyi Allah'ın yaratdığı və Rəbbimizin bütün aləmləri yoxdan var etdiyi Tövratda belə bildirilir:

Odur göyləri, yeri, dənizi, dənizdəkiləri yaradan, Odur əbədi sadiq qalan. (Məzmurlar, 146: 6)

Başlanğıcda Allah göyləri və yeri yaratdı. (Yaradılış, 1: 1)

...Yalnız Sən Rəbsən, göyləri, göylərin ən uca qatlarını və bütün səma cisimlərini, yer üzünü və onun məxluqlarını, dənizləri və içindəki hər şeyi Sən yaratdın və hamısına həyat verdin. Səma cisimləri Sənə səcdə edir! (Nehemya, 9: 6)

# Allah'dan başqa ilah yoxdur

Müsəlmanlar Allah'dan başqa İlah olmadığına iman gətirirlər. Hər şeyi yoxdan yaradan, ən gözəl şəkildə və qüsursuz var edən, böyük və üstün olan, hər şeyin batinindən və gizli tərəfindən xəbərdar olan, əzəli və əbədi olan, doğulmamış və doğmamış, hər cür əskiklikdən və nöqsanlardan münəzzəh, diri, hər şeyi bilən və hər şeyə qadir olan, şanı böyük olan, hökm edən, kərəmi bol olan, əsirgəyən və bağışlayan uca Allah'dır. Göylərdə və yerdə olanların hamısı Rəbbimiz Allah'a təslim olmuşdur və Onu təqdir edirlər. Allah Quranda Özündən başqa İlah olmadığını belə bildirmişdir:

**O, Allah'dır. Ondan başqa ilah yoxdur. Dünyada da, Axirətdə də həmd Ona məxsusdur. Hökm Onundur və siz Ona qaytarılacaqsınız.** (Qəsəs surəsi, 70)

**Sizin İlahınız tək olan İlahdır. Ondan başqa ilah yoxdur, Rəhmandır, Rəhimdir.** (Bəqərə surəsi 163)

**Allah Özündən başqa tanrının olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də (şahidlik etdilər). (Allah əbədi olaraq) ədalətli olmaqdadır. Ondan başqa ilah yoxdur, qüdrətlidir, müdrikdir.** (Ali-İmran surəsi, 18)

Tövratda da Allah'dan başqa İlah olmadığı bildirilir. Mövzu ilə əlaqədar bəzi Tövrat hissələrində belə bildirilir:

...Yer üzünün bütün xalqları bilsin: yalnız Rəbb Allah'dır, Ondan başqası yoxdur. (1. Padşahlar, 8: 60)

...Ordular Rəbbi belə deyir: “Mən birinciyəm, Mən sonuncuyam, Məndən başqa Allah yoxdur”. (Yeşaya, 44: 6)

Ey dünyanın bütün ucqar yerlərində yaşayanlar, Mənə tərəf gəlin və xilas olun! Çünki Mən Allah'am və başqası yoxdur! (Yeşaya, 45: 22)

İncildə də Allah'dan başqa İlah olmadığı, Allah'ın tək olduğu və inananların yalnız Allah'a qulluq etmələrinin vacib olduğu bildirilir:

...”Allah'ın Rəbbə sitayiş et və yalnız Ona qulluq et”, - deyə yazılmışdır. (Matta, 4: 10)

...Allah'ımız Rəbb yeganə Rəbdir. Allah'ın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və var gücünlə sev. (Mark, 12: 29-30)

…Sən həqiqəti söylədin. Allah yeganədir. Ondan başqası yoxdur. (Mark, 12: 32)

Əsrlərin Padşahı, ölməz, görünməz və bir olan Allah'a əbədi olaraq hörmət və izzət olsun! Amin. (1 Timoteyə, 1: 17)

Sən Allah'ın bir olduğuna inanırsansa, yaxşı edirsən. Cinlər də buna inanır və əsirlər! (Yaqub, 2: 19)

İsa cavab verdi: "Əmrlərin ən əsası budur: Dinlə, ey İsrail! Allah'ımız Rəbb yeganə Rəbdir. (Mark, 12: 29)

# Allah hər şeyə qadirdir

İnsan əskiklikləri və qüsurları olan aciz varlıqdır. Zamandan və məkandan asılıdır və ancaq Rəbbimizin təqdiri ilə varlığını davam etdirir. Zamanı, məkanı, insanı və bütün aləmləri və varlıqları Allah yaratmışdır. Rəbbimiz hər cür qüsur və əskiklikdən münəzzəhdir. O, üstün və uca olandır. Hər hadisə Rəbbimizin izni və təqdiri ilə reallaşır. Allah diləmədən yer üzündə bir yarpaq belə düşməz, heç bir qadın hamilə qalmaz və heç bir canlı Ondan xəbərsiz doğa bilməz. Allah gizlini və açıqda olan hər şeyi bilir və hər şeyə qadirdir. Göylərdə və yerdə Allah'ı heç bir güc aciz qoya bilməz, Allah dilədiyini etməyə qadirdir, sonsuz güc və qüdrət sahibidir. Kainatdakı bütün iqtidar və qüdrətin yeganə sahibi Allah'dır. Allah'ın üstün güc sahibi olduğu, hər şeyin Onun diləməsi ilə reallaşdığı, ən üstün və ən böyük olduğu bəzi Quran ayələrində belə bildirilir:

**Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allah'dır. Vəhy onların arasında ona görə nazil olur ki, Allah'ın hər şeyə qadir olduğunu və Allah'ın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz.** (Talaq surəsi, 12)

**Göylərdə və yerdə nə varsa, Allah'ındır. Siz içərinizdə olanı üzə çıxarsanız da, gizlətsəniz də, Allah buna görə sizi hesaba çəkəcək. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah hər şeyə qadirdir.** (Bəqərə surəsi, 284)

**Məşriqlərin və məğriblərin Rəbbinə and olsun ki, Biz, həqiqətən, qadirik. (Onları) daha yaxşıları ilə əvəz edə bilərik. (Bunda) qarşımıza çıxa bilən tapılmaz.** (Məaric surəsi, 40-41)

Allah'ın hər şeyə qadir olduğu İncildə belə bildirilir:

...Onlardan biri belə Allah'ın qarşısında unudulmur. Sizin saçınızdakı tüklər belə sayılıb... (Luka, 12: 6-7)

İsa onlara baxıb dedi: "Bu, insanlar üçün mümkün deyil, amma Allah üçün hər şey mümkündür". (Matta, 19: 26)

Allah'ın qarşısında öz taxtlarında oturan iyirmi dörd ağsaqqal üzüstə yerə qapanıb Allah'a səcdə edərək dedi: "Ey var olan, var olmuş külli-ixtiyar Rəbb Allah, Sənə şükür edirik! (Vəhy, 11: 16-17)

Çünki Allah üçün mümkün olmayan şey yoxdur (Luka, 1: 37)

Onlar Allah'ın qulu Musanın nəğməsini və Quzunun nəğməsini oxuyaraq deyir: "Ey külli-ixtiyar Rəbb Allah, Sənin işlərin böyük və heyrətlidir. Ey millətlərin Padşahı, Sənin yolların ədalətli və həqiqidir. Ya Rəbb, kim Səndən qorxmaz, kim Sənin adını izzətli etməz?

Çünki yalnız Sən müqəddəssən. Bütün millətlər gəlib Sənin önündə səcdə edəcək. (Vəhy, 15: 3-4)

Tövratda da Allah'ın hər şeyə qadir olduğu açıq şəkildə bildirilmişdir:

...Allah'ın adı əbədi olaraq izzətli olsun! Çünki hikmət və qüdrət Ona məxsusdur. Vaxtı və dövrü dəyişdirən Odur. O, padşahları taxtdan salar və taxta qoyar, müdriklərə hikmət, aqillərə ağıl verər. Dərin və gizli sirləri O, açar, qaranlıqda qalanı O bilər. İşıqla əhatə olunan Odur. (Daniel, 2: 20-22)

Külli-ixtiyar Allah Mənəm... (Yaradılış, 35: 11)

Evi Rəbb tikməzsə, bənnaların zəhməti boşa gedər. Şəhəri Rəbb qorumazsa, keşikçilər boş yerə orada gözləyər. (Məzmurlar, 127: 1)

Odur dağlara quruluş verən, küləyi yaradan, nə düşündüyünü insana bildirən, dan işığını qaraldan, Yer üzünün yüksək yerlərinə ayaq basan – Onun adı Ordular Allah'ı Rəbdir. (Amos, 4: 13)

# Allah hər şeyi bilir

Allah hər şeydən xəbərdar olandır, hər şeyi eşidir, görür və bilir. Hər hansı bir hadisəni harada olursa-olsun, nə qədər gizli olursa-olsun, Allah incəliyinə qədər bilir. Kimin nə vaxt harada doğulduğu və öldüyü, həyatı boyu nə etdiyi, hansı məqsədlər uğrunda çalışdığı, nə vaxt güldüyü, nə vaxt ağladığı, nə plan qurduğu, içindən nələr keçirdiyi kimi bütün təfsilatlar Rəbbimizin bilgisi daxilindədir. Eyni anda kosmosda baş verən hər hadisə yer üzündəki milyardlarla heyvan və bitkinin vəziyyəti, kainatın bütün qanunları kimi saysız-hesabsız hər cür məlumata hakimdir. Allah Quranda belə buyurur:

**Məgər bilmirsən ki, Allah göydə və yerdə olanları bilir? Həqiqətən, bu, yazıda (Lövhi-məhfuzda) mövcuddur. Şübhəsiz ki, bu, Allah üçün asandır.** (Həcc surəsi, 70)

**Şübhəsiz ki, (Allah) aşkar deyilən sözü də, sizin gizlətdiklərinizi də bilir!** (Ənbiya surəsi, 110)

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Yerdə də, göydə də zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın yazıda (lövhi-məhfuzda) olmasın.** (Yunis surəsi, 61)

Rəbbimizin hər şeyi yaratdığı və bildiyi, bütün məlumatların sahibi olduğu, Onun elmi xaricində heç bir varlığın heç bir şey etməyə qadir olmadığı Quranda bildirilmişdir. Bizim bildiyimiz və ya bilmədiyimiz, açıqda və ya gizli olan, böyük və ya gözlə görülməyəcək qədər kiçik olan hər şey Allah'ın idarəsində və məlumatındadır. İncil və Tövratda isə Allah'ın hər şeyi bildiyi belə ifadə edilmişdir:

Çünki aşkara çıxmayan gizli heç bir şey və bilinib aydın olmayan sirli heç bir şey yoxdur. (Luka, 8: 17)

Siz onlara bənzəməyin! Çünki Allah'ınız nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir. (Matta, 6: 8)

İki sərçə bir qara pula satılmırmı? Onlardan biri belə, Allah'ın izni olmadan yerə düşməz. (Matta, 10: 29)

Oturuşumu-duruşumu Özün bilirsən, fikirlərimi uzaqdan duyursan. Getməyimə, yatmağıma nəzarət edirsən, hansı yollardan keçdiyimi bilirsən. Sözlərimi dilə gətirməmişdən əvvəl, ya Rəbb, hamısını tamamilə bilirsən. (Məzmurlar, 139: 2-4)

...Hər insanın ürəyini yalnız Sən bilirsən… (1. Padşahlar, 8: 39)

Mən gizli bir yerdə yaranarkən, dünyanın dərin yerində yaranarkən bədənim Səndən gizli qalmadı. (Məzmurlar, 139: 15)

Gizlilik Allah'ımız Rəbbə məxsusdur... (Qanunun təkrarı, 29: 29)

# Allah mərhəmətlidir və bağışlayandır

Quranda Rəbbimizin rəhm edənlərin ən rəhimlisi (Yusif surəsi, 92) olduğu bildirilmişdir. Allah sonsuz mərhəmət və lütfünü görünən və görünməyən hər şeydə təcəlli etdirir. İnsanın tənəffüs etdiyi hava, içdiyi su, yediyi yemək, seyr etməkdən xoşlandığı gözəl mənzərə, sevdiyi heyvan, güvəndiyi və sevdiyi dostları, ailəsi, yaxınları, geyindiyi paltarlar, yaşadığı ev, mindiyi avtomobil Allah'ın lütf etdiyi nemətlərdən yalnız bir neçəsidir. İnsan həyatı boyu uca Allah'ın mərhəmətini, himayəsini və şəfqətini üzərində hiss edir. Rəbbimizin verdiyi saysız-hesabsız nemətin əvəzində insan yalnız Ona yönəlməli və Onun razı olacağı qul olmaq üçün var gücü ilə cəhd göstərməlidir. Allah tövbələri qəbul edən, Özünə səmimiyyətlə yönələnə hidayət verən, əfvi çox olandır. Dua edənin duasına cavab verən, insanı çətinliklərdən qurtaran yalnız Allah'dır.

Qurani-kərimdə Rəbbimizin bağışlayıcı olması, insanlara mərhəməti və şəfqəti belə bildirilmişdir:

**...Allah sizin imanınızı puç etməz. Həqiqətən də, Allah insanlara qarşı şəfqətlidir, Rəhmlidir.** (Bəqərə surəsi, 143)

**(Qullarıma mənim bu sözümü) de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allah'ın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, bağışlayandır, rəhmlidir!”** (Zumər surəsi, 53)

**Sizi zülmətlərdən nura çıxartmaq üçün Öz quluna açıq-aydın ayələri nazil edən Odur. Həqiqətən, Allah sizə şəfqətlidir, rəhmlidir.** (Hədid surəsi, 9)

İncildə də Allah'ın sonsuz mərhəmətli olduğu yazılmışdır. Bu ifadələrdən bəziləri belədir:

Axı Allah'ımızın ürəyi mərhəmətlidir, Onun bu mərhəmətinə görə ucalarda bizim üçün Günəş doğacaq... (Luka, 1: 78)

...Rəbb çox rəhimli və mərhəmətlidir. (Yaqubun məktubu, 5: 11)

Onun mərhəməti isə nəsildən-nəslə Ondan qorxanlaradır (Luka, 1: 50)

Axı Allah'ımızın ürəyi mərhəmətlidir, Onun bu mərhəmətinə görə ucalarda bizim üçün Günəş doğacaq ki, zülmətdə və ölüm kölgəsində oturanların üzərinə nur saçsın, ayaqlarımızı sülh yoluna yönəltsin. (Luka, 1: 78-79)

Allah'ın insanlara qarşı mərhəmətli və bağışlayıcı olması Tövratda belə bildirilir:

Rəbb Onu sevənlərin hamısını hifz edər, bütün pis adamların isə kökünü kəsər. (Məzmurlar, 145: 20)

Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir. (Məzmurlar, 103: 8)

Rəbbin məhəbbətinə görə məhv olmadıq, çünki mərhəməti tükənməzdir. (Mərsiyələr, 3: 22)

# Yalnız Allah'a qulluq etmək

**De: "Ey kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allah'dan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allah'ı qoyub bir-birimizi ilahiləşdirməyək... "** (Ali-İmran surəsi, 64)

**Halbuki, onlara, dini məhz Allah'a məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu. Doğru din də elə budur!** (Beyyinə surəsi, 5)

## İncil

İsa dedi: "..."Allah'ın Rəbbə sitayiş et və yalnız Ona qulluq et", - deyə yazılmışdır". (Matta, 4:10)

...Hər şey Ondan gəlir, biz də Onun üçün yaşayırıq. Həmçinin bizim bir Sahibimiz var... Hər şey Onun vasitəsilə yaranır, biz də Onun vasitəsilə yaşayırıq. (1. Korintlilər, 8: 5-6)

Fani olmayan Allah'ın izzətini fani olan insana, quşlara, dördayaqlılara və sürünənlərə bənzəyən bütlərlə əvəz etdilər. (Allah'ı tənzih edirik) ...Onlar Allah'ın həqiqətini yalanla əvəz etdilər, Yaradanın yerinə yaradılışa səcdə və ibadət etdilər; o Yaradana əbədi alqış olsun! Amin. (Romalılar, 1: 23-25)

## Tövrat

Allah'ın Rəbdən qorx və Ona qulluq et. Andı Onun adı ilə et. Yad ilahların – başqa xalqların tapındığı heç bir ilahın ardınca getmə (Qanunun təkrarı, 6: 13-14)

… Allah'ın Rəbb Mənəm. Sən Məndən başqa Allah tanımamalısan, çünki Məndən başqa xilaskar yoxdur. (Huşə, 13: 4)

# Allah'ı tərk edib bütlərə sitayiş etməmək

**(İbrahim) dedi: "Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allah'ı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb lənətləyəcəksiniz. Sığınacağınız od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz".** (Ənkəbut surəsi, 25)

**Rəbbin istədiyini yaradır və seçir. Onların isə seçməyə haqqı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır.** (Qəsəs surəsi, 68)

**Allah'dan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər.** (Əraf surəsi, 194)

# İncil

Onlar Allah'ın həqiqətini yalanla əvəz etdilər, Yaradanın yerinə yaradılışa səcdə və ibadət etdilər; o Yaradana əbədi alqış olsun... (Paulun romalılara məktubu, 1: 25)

Beləliklə, bütlərə təqdim olunan qurban ətinin yeyilməsi barəsində bilirik ki, "büt dünyada heç nədir" və "bir olan Allah'dan başqası yoxdur" [Allahı tənzih edirik]. (1. Korintlilər, 8: 4)

Ey övladlar, özünüzü bütlərdən qoruyun! (1. Yəhya, 5: 21)

Bu bəlalarda həlak olmayıb sağ qalan insanlar öz əlləri ilə düzəltdikləri şeylərdən dönüb tövbə etmədilər. Cinlərə və görməyə, eşitməyə, yeriməyə qadir olmayan qızıl, gümüş, tunc, daş, taxta bütlərə səcdə etməkdən əl çəkmədilər. (Vəhy, 9: 20)

# Tövrat

Sənətkarın düzəldiyi yonma və ya tökmə bütlərin yalan öyrətməkdən başqa nə xeyri var? Bütü düzəldən sənətkar öz işinə güvənir, amma onun düzəltdiyi dilsiz bütdən başqa nədir ki? Taxtaya: "Oyan!", dilsiz daşa: "Qalx!" -deyən insanın vay halına! Büt yol göstərə bilərmi? Budur, o, qızılla, gümüşlə örtülmüşdür, Fəqət içində həyat nəfəsi yoxdur. (Habaqquq, 2: 18-19)

..."Səni Misir torpağından, köləlik diyarından çıxaran Allah`ın Rəbb Mənəm. Məndən başqa tanrın olmasın. Özünə yuxarıda – səmada, aşağıda – yerdə və ya suda yaşayan canlıya bənzər büt düzəltmə. Belə şeylərə səcdə edib ibadət etmə... " (Çıxış, 20: 2-5)

Bütləri düzəldənlərin hamısı boş insanlardır. Dəyər verdiyi əşyalar heç bir işə yaramaz. Bütlərin şahidi onlardır; heç bir şey görmür və heç bir şey bilmirlər. Onlar axırda xəcalət içində olacaq. Kim faydasız ilaha forma verib büt düzəltmək istər? Bunları düzəldənlərin hamısı xəcalət içində olacaq. Ustalar isə özləri də insandır, qoy onların hamısı toplaşıb məhkəmədə dursun, dəhşətə düşüb birlikdə xəcalət çəksin. (Yeşaya, 44: 9-11)

# Allah'ı ucaltmaq

**...Yenilməz izzət (qüvvət) bütövlükdə yalnız Allah'a məxsusdur.** (Yunis surəsi, 65)

**Ərşin sahibidir, şan-şöhrətlidir!** (Büruc surəsi, 15)

**Ən uca Rəbbinin adına təriflər de!** (Əla surəsi, 1)

## İncil

Əsrlərin Padşahı, ölməz, görünməz və bir olan Allah'a əbədi olaraq hörmət və izzət olsun... (Paulun Timoteyə I məktubu,1: 17)

...Allah'a həmd-səna oxuyan çoxsaylı səmavi ordular göründü. Onlar belə deyirdi: "Ən ucalarda Allah'a izzət, Yer üzündə Onun razı olduğu insanlara sülh olsun! (Luka, 2: 13-14)

Çobanlar bütün görüb-eşitdiklərinə görə Allah'ı izzətləndirib həmd edərək geri qayıtdı. Çünki hər şey onlara söylədikləri kimi baş vermişdi. (Luka, 2: 20)

## Tövrat

Ya Rəbb, əzəmət, qüdrət, cəlal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və hökmdar olaraq hər şeydən ucasan. Var-dövlətlə şöhrət Səndən gəlir və Sən hər şeyə hökmranlıq edirsən. Hər kəsi yüksəltmək və gücləndirmək üçün qüdrət və güc Sənin əlindədir. İndi, ey Allah'ımız, biz Sənə şükür edirik və izzətli adına həmd edirik. (I Salnamələr, 29: 11-13)

Ey xalqların tayfaları, Rəbbə verin – ehtişamı, qüdrəti Rəbbə verin (I Salnamələr, 16: 28)

Rəbb əzəmətlidir, bol həmdə layiqdir, Onun əzəməti insan ağlına sığmaz. Əməllərin nəsildən-nəslə qədər mədh ediləcək, qüdrətli işlərin bəyan ediləcək. Əzəmətindən, izzətindən, şərəfindən deyiləcək, qeyri-adi işlərini dərindən düşünəcəyəm. İnsanlar əzəmətli işlərinin qüdrətindən danışacaq, Sənin əzəmətini elan edəcəyəm. İnsanlar Sənin bol xeyirxahlığını bəyan edəcəklər, salehliyini mədh edəcəklər. Rəbb lütfkar və rəhmlidir, hədsiz səbirli və bol məhəbbətlidir. Rəbb hamıya xeyirxahlıq edər, yaratdıqlarının hər birinə mərhəmət göstərər. (Məzmurlar, 145, 3-9)

# Gücü verən Allah'dır

**Ey qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra da Ona tövbə edin ki, göydən sizə bolluca yağış yağdırsın və gücünüzü daha da artırsın. Günahkar olaraq üz çevirməyin".** (Hud surəsi, 52)

**Sonra sizə onların üzərində yenidən qələbə qazandırdıq, var-dövlət və oğullarla sizə yardım etdik və sizin sayınızı çoxaltdıq.** (İsra surəsi, 6)

## İncil

...İsa Rəbbin qüdrəti ilə xəstələrə şəfa verirdi. (Luka, 5: 17)

Amma İsa onlara dedi: "Hər insan bu sözü qəbul edə bilməz, ancaq Allah'ın güc verdiyi insanlar qəbul edə bilərlər". (Matta, 19: 11)

...Səltənət, qüdrət və izzət əbədi olaraq Sənindir!.. (Matta, 6, 13)

## Tövrat

...Rəbb mənə böyük güc verir... (I Şamuel, 2: 1)

Ya Rəbb, əzəmət, qüdrət, cəlal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və hökmdar olaraq hər şeydən ucasan... Sən hər şeyə hökmranlıq edirsən. Hər kəsi yüksəltmək və gücləndirmək üçün qüdrət və güc Sənin əlindədir. (I Salnamələr, 29: 11-12)

# Öldürən və dirildən Allah'dır

**Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol"– deyir, o da olur.** (Mömin surəsi, 68)

**Ondan başqa İlah yoxdur. O, həm dirildir, həm də öldürür. O, həm sizin Rəbbiniz, həm də əcdadlarınızın Rəbbidir.** (Duxan surəsi, 8)

**Öldürən də, dirildən də Odur!** (Nəcm surəsi, 44)

## İncil

… Amma bu, özümüzə deyil, ölüləri dirildən Allah'a güvənməyimiz üçün başımıza gəldi. (Korinflilərə II məktub, 1: 9)

Nəyə görə Allah'ın ölüləri diriltməsini inanılmaz bir şey hesab edirsiniz? (Həvarilərin işləri, 26: 8)

## Tövrat

Rəbb insanı həm öldürür, həm dirildir. (I Şamuel, 2: 6)

Hər yaratdığının canı Onun əlindədir, Bütün insanların nəfəsi Onun əlindədir. (Əyyub, 12: 10)

Üstünüzə vətərlər qoyacaq, ət bitirəcək və sizi dəri ilə örtəcəyəm, daxilinizə ruh qoyacağam və siz diriləcəksiniz. Onda biləcəksiniz ki, Rəbb Mənəm. (Yezekel, 37: 6)

# Allah dilədiyini varlı, dilədiyini yoxsul edir

**Allah Öz qullarından istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. Şübhəsiz ki, Allah hər şeyi bilir.** (Ənkəbut surəsi, 62)

**De: "Ey mülkün sahibi Allah'ım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir (yalnız) Sənin əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən.** (Ali-İmran surəsi, 26)

## Tövrat

Rəbb yoxsulluq və var-dövlət göndərir, alçaldır və yüksəldir. (I Şamuel, 2: 7)

Unutmayın ki, bu sərvəti qazanmaq qabiliyyətini sizə verən Allah'ınız Rəbdir... (Qanunun təkrarı, 8: 18)

Ya Rəbb, əzəmət, qüdrət, cəlal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və hökmdar olaraq hər şeydən ucasan. Var-dövlətlə şöhrət Səndən gəlir və Sən hər şeyə hökmranlıq edirsən... (I Salnamələr, 29: 11-12)

# Allah sadiq olanları qoruyur

**Möminlərin içərisində Allah'a etdikləri əhdə sadiq qalan kişilər vardır. Onlardan kimisi əhdini yerinə yetirib şəhid olmuş, kimisi də gözləyir. Onlar (əhdlərini) əsla dəyişdirməyiblər. Allah doğruları doğruluqlarına görə mükafatlandırsın, münafiqlərə də istəsə əzab versin, yaxud onların tövbələrini qəbul buyursun. Həqiqətən, Allah bağışlayandır**, **rəhmlidir.** (Əhzab surəsi, 23-24)

## Tövrat

Rəbb sadiq qullarının addımlarını qoruyur... (1 Şamuel, 2: 9)

Ey Rəbbi sevənlər, şərə nifrət edin! O, möminlərinin canını qoruyar (Məzmurlar, 97: 10)

Çünki Rəbb ədaləti sevir, heç vaxt möminləri tərk etmir. Salehlər daim müdafiə olunacaq, pislər isə məhv olacaq. (Məzmurlar, 37: 28)

## İncil

Çəkəcəyin əzabdan heç qorxma... Ölüm bahasına olsa da, sadiq qal, Mən sənə həyat tacını verəcəyəm. (Vəhy, 2: 10)

# Allah tərifə layiq olandır, Həmiddir

**Göylərdə və yerdə nə varsa, Onundur. Həqiqətən, Allah ehtiyacsızdır, tərifəlayiqdir.** (Həcc surəsi, 64)

**Ey insanlar! Siz Allah'a möhtacsınız. Allah isə möhtac deyildir. Həmiddir.** (Fatir surəsi, 15)

## İncil

Dilimizlə Rəbbə alqış edirik... (Yaqub, 3: 9)

Yenə deyilir ki: “Ey millətlər, Onun xalqı ilə birgə sevinin!” və “Ey millətlər, Rəbbə həmd edin! Ey bütün ümmətlər, Onu mədh edin!” (Romalılara, 15: 10-11)

## Tövrat

Həmdə layiq olan Rəbbi çağıracağam... (2 Şamuel, 22: 4)

Ya Rəbb, Sən mənim Allah'ımsan, Səni ucaldıram, adına həmdlər oxuyuram... (Yeşaya, 25: 1)

Sənə şükür və həmd olsun ki, mənə hikmət və qüdrət verdin... (Daniel, 2: 23)

# Ən doğru yol Allah'ın yoludur

**Bu, Rəbbinin doğru yoludur. Biz ayələrimizi düşünüb anlayan bir camaat üçün artıq müfəssəl izah etmişik.** (Ənam surəsi, 126)

**Onlar gözəl kəlamlar öyrənməyə nail olmuş və tərifəlayiq (Allah'ın) yoluna yönəldilmişlər.** (Həcc surəsi, 24)

## İncil

Əlindəki ilə kifayətlənərək mömin olmaq böyük qazancdır. (Timoteyə 1 məktub, 6: 6)

## Tövrat

Allah'ın yolu kamildir... (2 Şamuel, 22: 31)

Nə bəxtiyardır öz yolunda kamil olanlar, Rəbbin qanununa görə yaşayanlar. (Məzmurlar, 119: 1)

…Allah'ımızın əzəmətini mədh edin! Onun bütün işləri kamildir, bütün yolları isə haqdır (Qanunun təkrarı, 32: 3-4)

# Doğru yola yönəldən Allah'dır

**Allah, Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir.** (Maidə surəsi, 16)

**De: “Həqiqətən, Rəbbim məni doğru yola, həqiqi dinə, hənif İbrahimin dininə yönəltdi. O, heç vaxt müşriklərdən olmamışdı”.** (Ənam surəsi, 161)

**Doğru yol göstərmək Allah'a aiddir...** (Nəhl surəsi, 9)

## Tövrat

Sığınacağım Allah`dır, mənə qüvvət verər, yolumu kamil edər. (II Şamuel, 22: 33)

Bütün yollarında Onu tanı, O, sənin yollarını nizama salar. (Süleymanın məsəlləri, 3: 6)

Sənə ümid bağlayanlar heç vaxt utanmasınlar... Ya Rəbb, yollarını mənə göstər, ardınca getməyi mənə öyrət. Məni haqq yolu ilə apar, həqiqətini mənə öyrət. Məni qurtaran Allah Sənsən, daim Səni gözləyirəm. (Məzmurlar, 25: 3-5)

# Allah Öz yoluna itaət edənlərə müvəffəqiyyət bəxş edir

**Kim Allah'ı, Onun Elçisini və iman gətirənləri dost tutarsa, (bilsin ki,) qələbə çalanlar da məhz Allah'ın firqəsidir.** (Maidə surəsi, 56**)**

## İncil

Çünki iman vasitəsilə, lütflə xilas oldunuz. Bu, sizin nailiyyətiniz deyil, Allah'ın hədiyyəsidir. (Efeslilərə məktub, 2: 8)

Sınağa səbir edən adam nə bəxtiyardır! Çünki sınaqdan keçdikdə Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaq. (Yaqub, 1: 12)

## Tövrat

Allah'ın Rəbbin verdiyi buyruğu yerinə yetirib Onun yolu ilə get və Musanın Qanununda yazıldığı kimi Allah'ın qaydalarına, əmrlərinə, hökmlərinə və fərmanlarına əməl et ki, gördüyün hər işdə və getdiyin hər yerdə uğur qazanasan. (1 Padşahlar, 2: 3)

# Allah'ın vəhyi: Kitaba bütünlüklə riayət etmək

**Bax, siz o kəslərsiniz ki, onlara məhəbbət bəsləyir, onlar isə sizi sevmirlər. Siz kitabların hamısına inanırsınız. Onlar sizinlə rastlaşanda: "Biz də inandıq!"– deyirlər, təklikdə qalanda isə sizə qarşı qəzəbdən barmaqlarının ucunu gəmirirlər...** (Ali-İmran surəsi, 119)

**Şübhəsiz ki, Allah'ın nazil etdiyi kitabda olanları gizli saxlayanlar və bununla cüzi miqdarda (pul) əldə edənlər öz qarınlarına oddan başqa bir şey doldurmurlar. Qiyamət günü Allah onları danışdırmaz və onları təmizə çıxarmaz. Onlar üçün üzücü bir əzab vardır.** (Bəqərə surəsi, 174)

## İncil

...Müqəddəs Qanunda və peyğəmbərlərin kitablarında yazılan hər şeyə inanıram. (Həvarilərin işləri, 24: 14)

Amma o, mənə dedi: “Yox, olmaz! Mən səninlə, peyğəmbər qardaşlarınla və bu kitabın sözlərinə əməl edənlərlə birgə Allah quluyam. Allah'a səcdə et”. (Vəhy, 22: 9)

## Tövrat

Qulum Musanın sənə tapşırdığı qanuna tam və dəqiq əməl etmək üçün cəsarətli və çox möhkəm ol. Ondan nə sağa, nə də sola çevril ki, hara getsən, uğur qazanasan. (Yeşua, 1: 7)

Musa ilə İsrailin ağsaqqalları xalqa belə dedilər: “Bu gün sizə buyurduğum bütün əmrlərə riayət edin”. (Qanunun təkrarı, 27: 1)

İndi, ey israillilər, sizə öyrədəcəyim qaydalara və hökmlərə qulaq asın... Sizə verəcəyim əmrlərə heç nə artırıb-əskiltməyin. Yalnız Allah'ınız Rəbbin əmrlərinə – sizə verəcəyim əmrlərə riayət edin. (Qanunun təkrarı, 4: 1-2)

# Allah'dan qorxmaq

Allah qorxusu inananların ortaq və əhəmiyyətli xüsusiyyətlərindən biridir. Quranda bu qorxunun necə olacağı açıq şəkildə təsvir edilmişdir. Allah qorxusu dünyəvi qorxulardan tamamilə fərqlənir. Möminlər Allah'a dərin hörmət edir, Onun istəklərinə qarşı çıxmaqdan çəkinir, Rəbbimizin razılığını itirməkdən və əzabına məruz qalmaqdan qorxurlar. Möminlərin bu mövzuda həssas olmaları Allah'a qarşı duyduqları hörmət dolu qorxunun bir göstəricisidir.

Quranda inananlara **“Allah'dan Ona layiq olan tərzdə qorxun”** (Ali-İmran surəsi, 102) və **“Nə qədər bacarırsınızsa, Allah'dan qorxun”** (Təğabun surəsi, 16) şəklində əmr edilmişdir. Möminin üzərinə düşən vəzifə Allah'ın yaratdıqları üzərində düşünmək, Rəbbimizin sərhədsiz ağlını, elmini, sənətini, qüdrətini, böyüklüyünü qavramaqdır. Beləliklə, Allah'a qarşı duyulan hörmət dolu qorxu da artar.

Allah'dan qorxan bir insan pisliklərdən və yanlış hərəkətlərdən qorunub təmizlənir, Allah'ın razılığını qazanmağa mane olan şeylərdən uzaqlaşır. Allah qorxusunun insana ağıl və anlayış qazandırdığı Quranda belə ifadə edilmişdir:

**Ey iman gətirənlər! Əgər Allah'dan qorxsanız, O, sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.** (Ənfal surəsi, 29)

İncildə də yalnız Allah'dan qorxmağın lazım olduğu belə ifadə edilir:

Ey dostlarım, sizə deyirəm: bədəni öldürən və ondan sonra başqa heç nə edə bilməyənlərdən qorxmayın. Amma kimdən qorxmaq lazım olduğunu sizə söyləyim: adamı öldürəndən sonra Cəhənnəmə atan ixtiyar Sahibindən qorxun. Bəli, sizə deyirəm ki, Ondan qorxun! (Luka, 12: 4-5)

İncilin müxtəlif yerlərində inananların Allah'dan qorxmasının lazım olduğu təkrarlanır:

Hamıya hörmət edin. İmanlı bacı-qardaşlarınızı sevin, Allah'dan qorxun. Padşaha hörmət edin. (Peterin 1 məktubu, 2: 17)

...Hər millətə, hər tayfaya, hər dilə və hər xalqa yaymaq üçün əbədi bir müjdə gətirirdi. Mələk uca səslə deyirdi: “Allah'dan qorxun, Ona izzət verin!..” (Vəhy, 14: 6-7)

Tövratda isə: “Rəbb qorxusu hikmətin başlanğıcıdır”, -deyilir (Məzmurlar, 111: 10) və insanın ancaq Allah'dan qorxaraq doğru yolu tapacağı xəbər verilir. Tövratda Allah qorxusu ilə bağlı bəzi izahlar belədir:

Rəbb qorxusu safdır, əbədi yaşayır, Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir. (Məzmurlar, 19: 9)

Rəbdən qorxub Ona xidmət edin, həm titrəyin, həm sevinin. (Məzmurlar, 2: 11)

Nə bəxtiyardır Rəbdən qorxan, Onun yolları ilə gedən insan! (Məzmurlar, 128: 1)

Ordular Rəbbini müqəddəs sayın, Ondan qorxun və lərzəyə gəlin! (Yeşaya, 8: 13)

# Allah sevgisi

Dünyadakı hər gözəllik həm Rəbbimizin bir neməti, həm də Onun sonsuz gözəlliyinin təcəllisidir. Vicdanlı və düşünən hər insan bu gözəlliklərin əsl sahibi olan Allah'a sevgi ilə bağlanır. İman gətirənlər Allah'ı hər kəsdən və hər şeydən daha çox sevirlər, sevdikləri varlıqları və gözəllikləri yaradanın Allah olduğunu bilirlər. Allah sevgisi əsl xoşbəxtliyin və rahatlığın qaynağıdır. Allah'ı çox sevən, Allah'dan çox qorxan, Onun razı olması üçün səmimi səy göstərən hər mömin dünyaya gözəllik gətirən xeyirli insanlardandır. Allah`ı sevən Allah'ın yaratdıqlarını da sevir, onlara qarşı şəfqət və mərhəmət duyur, onları qorumaq, onlara xeyir və gözəllik bəxş etmək istəyir.

Allah'ı unudaraq bütün sevgisini Onun yaratdıqlarına yönəldənlərin, Allah'ın varlığına laqeyd yanaşıb nəyəsə dünyəvi sevgi bəsləyənlərin əldə etdikləri isə yalnız əzab, bədbəxtlik və narahatlıqdır. Müşriklərlə möminlərin sevgi anlayışı arasındakı böyük fərq bir Quran ayəsində belə bildirilmişdir:

**İnsanlardan elələri də vardır ki, Allah'dan qeyrilərini (Ona) tay tutur, onları da Allah'ı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allah'a olan sevgisi daha güclüdür…** (Bəqərə surəsi, 165)

Tövratda Qanunun təkrarı hissəsində belə yazılmışdır:

...Allah'ımız Rəbb yeganə Rəbdir. Allah'ın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, var gücünlə sev. Bu gün sənə əmr etdiyim bu sözlər ürəyində kök salsın. (Qanunun təkrarı, 6, 4-7)

İncildə də eyni hökm belə təkrarlanır:

...Allah'ın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev. (Matta, 22: 37)

Allah'ın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün düşüncənlə və var gücünlə sev. (Mark, 12: 30)

# Allah'a şirk qoşmamaq

**(İbrahim) dedi: “Siz aranızda ancaq dünya həyatına bəslədiyiniz vurğunluğa görə Allah'ı qoyub bütlərə pərəstiş etdiniz. Sonra isə Qiyamət günü bir-birinizi kafir adlandırıb**

**lənətləyəcəksiniz. Sığınacağınız od olacaqdır. Sizə yardım edə bilən kəslər də tapa bilməyəcəksiniz".** (Ənkəbut surəsi, 25)

**Rəbbin istədiyini yaradır və seçir. Onların isə seçməyə haqqı yoxdur. Allah pakdır, müqəddəsdir və onların qoşduqları şəriklərdən ucadır.** (Qəsəs surəsi, 68)

**Allah'dan savayı çağırdıqlarınız da sizin kimi qullardır. Əgər doğru deyirsinizsə, çağırın onları, sizə cavab versinlər.** (Əraf surəsi, 194)

## İncil

Onlar Allah'ın həqiqətini yalanla əvəz etdilər, Yaradanın yerinə yaradılışa səcdə və ibadət etdilər; o Yaradana əbədi alqış olsun!.. (Paulun romalılara məktubu, 1: 25)

İsa cavab verdi: "...Allah'ımız Rəbb, yeganə Rəbdir..." İlahiyyatçı Ona dedi: "...Allah yeganədir. Ondan başqası yoxdur". (Mark, 12: 29-32)

...Bax siz var olan həqiqi Allah'a qulluq edirsiniz; Onun ölülər arasından diriltdiyi oğlunun, yəni bizi gələcək qəzəbdən qurtaran İsanın göylərdən zühurunu gözləyirsiniz. (1 Salonikililərə, 1: 9-10)

## Tövrat

Amma siz Məni atıb başqa ilahlara qulluq etdiniz... (Hakimlər, 10: 13)

İsrail övladları Rəbbin gözündə pis olan işlər görərək Baal bütlərinə qulluq etdilər... Onlar Rəbbi ataraq Baal və Aştoret bütlərinə qulluq etdilər. (Hakimlər, 2: 11-13)

Onların ilahlarına səcdə etməyin, onlara ibadət etməyin və qaydalarına əməl etməyin. O ilahları dağıdıb yox edin, onların daş sütunlarını parça-parça etməlisiniz. Siz Allah'ınız Rəbbə xidmət edin... (Çıxış, 23: 24-25)

Ya Rəbb Allah'ım, Sənə bənzəyən yoxdur! Bizə aid xariqələrin, düşüncələrin çoxdur. Onlardan danışmaq istəsəm, belə deyərdim: "Sayı-hesabı yoxdur". (Məzmurlar, 40: 5)

# Dünya həyatının keçiciliyi

İnkarçılarla inananların dünya həyatına baxışı tamamilə fərqlidir. İnkarçılar dünya nemətlərindən maksimum faydalanmağı həyatın başlıca məqsədi kimi görürlər. Halbuki insan dünyaya aid hər şeyi ölümü ilə birlikdə arxada qoyacaq. Bir insanın dünya həyatında sahib olduğu hər şey keçicidir. Bunun şüurunda olan inananlar gündəlik həyatda dünya nemətlərindən istifadə edirlər, ancaq bunları məqsəd kimi görmürlər. Sahib olduqları hər şeyi Allah'a şükür etmək və Onun razılığını qazanmaq üçün bir vasitə kimi qiymətləndirirlər. İnananlar dəbdəbəli avtomobillərin, göz oxşayan evlərin, gözəl bağçaların, qiymətli ləl-cavahiratların, gözəl insanların, qısası, saysız-hesabsız dünya nemətlərinin keçici olduğunu dərk edirlər. Bunların əslinin sonsuzadək Cənnətdə olduğunu da bilirlər.

Allah insanlara dünyanın keçici bərbəzəyinə aldanmamağı, dünyəvi həvəslərin əsiri olmamağı bildirmişdir. Quranda dünya həyatının keçiciliyi belə bildirilmişdir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır.** (Ali-İmran surəsi, 14)

**Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu, elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o, çör-çöpə dönür. (Kimisini) axirətdə şiddətli əzab, (kimisini də) Allah'dan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir.** (Hədid surəsi, 20)

İncilin “Mark” hissəsində dünyəvi qayğıların, sadəcə dünyaya aid istəklərin və var-dövlətin insanları Allah'ın yolundan uzaqlaşdırdığı belə izah edilir:

Tikanlar arasına səpələnənlər isə belə insanlardır: kəlamı eşidirlər, lakin dünyanın qayğıları, var-dövlətin aldadıcılığı və başqa şeylərə olan həvəs araya girib kəlamı boğur və kəlam bəhrəsiz olur. Münbit torpağa düşənlər isə belə insanlardır: onlar kəlamı eşidib qəbul edir, bəzisi otuz, bəzisi altmış, bəzisi isə yüz qat məhsul verir. (Mark, 4: 18-20)

İncildə inananların dünya həyatının keçici zövqlərinə aldanmamaları bildirilir və dünya həvəsinin insanların qəlbinin qatılaşmasına səbəb olduğu xəbər verilir. İncilin bir çox yerində dünyanın keçiciliyi və dünyaya bağlanmağın böyük səhv olduğu belə bildirilir:

Özünüzə fikir verin! Qoy qəlbləriniz acgözlük və sərxoşluqla, bu həyatın qayğıları ilə qatılaşmasın. Qoy o gün bir tələ kimi üzərinizə qəflətən gəlməsin. Çünki o gün bir tələ kimi yer üzündə yaşayanların hamısının üstünə gələcək... Hər an dua edərək ayıq olun. (Luka, 21: 34-36)

Dünya və ondakı həvəslər keçib-gedir, amma Allah'ın iradəsinə təslim olan əbədi qalır. (1 Yəhya, 2: 17)

...Çünki bu dünyanın indiki vəziyyəti keçicidir. (1 Korinflilərə, 7: 31)

Tövratda isə dünya həyatının keçici olduğu, mal-mülk həvəsinin və axirətdən tamamilə üz çevirib dünyaya bağlanmağın böyük yanlış olduğu və inananların buna aldanmamaları belə izah edilir:

Pul sevən puldan doymaz, var-dövlət sevən də qazancdan. Bu da puçdur. Var-dövlət çoxaldıqca onu yeyənlər də çoxalır. Gözləri ilə görməkdən savayı sahibinə ondan nə fayda var?.. Yığdığı sərvət, sahibinə zərər gətirir... Necə ki, o, anasının bətnindən çılpaq doğulub, eləcə də bu dünyadan gedir. Zəhmətinin bəhrəsindən heç nəyi əlinə götürüb özü ilə apara bilmir. İnsan dünyaya necə gəlirsə, elə də gedir... (Vaiz, 5: 10-16)

Biz bütün atalarımız kimi Sənin önündə bir qərib və qonağıq. Günlərimiz yer üzündə kölgə kimidir və heç nəyə ümidimiz yoxdur. (1 Salnamələr, 29: 15)

Rəbbin qəzəb günündə qızıl-gümüşləri onları qurtara bilməyəcək... (Sefanya, 1: 18)

O, belə dedi: "Bu dünyaya çılpaq gəlmişəm, çılpaq da gedəcəyəm. Verən də Rəbdir, alan da Rəbdir. Rəbbin isminə alqış olsun!" (Əyyub, 1: 21)

Onlar var-dövlətlərinə güvənirlər, bol sərvətləri ilə öyünürlər. Amma heç kim öz ömrünü satın ala bilməz, həyatının haqqını Allah'a ödəyə bilməz. Hamının sərvəti başqasına nəsib olur. Torpaqlara sahib olsalar belə, son mənzilləri qəbirdir, yenə nəsillərdən-nəsillərədək yerləri məzardır. İnsan dəyərli olsa da, qalmır; həlak olan heyvana oxşayır. Qorxma bir adam varlı olanda, evinə sərvət yığılanda. Çünki öləndə heç nə apara bilməz, sərvəti ardınca getməz. (Məzmurlar, 49: 6-17)

# Peyğəmbərlərə iman

Allah insanlara hər dövrdə doğrunu və yanlışı göstərən, Özünün razı olduğu əxlaqı öyrədən elçilər göndərmişdir. Bu elçilər insanları Allah'a iman gətirməyə çağırmış, onlara Allah'ın dinini təbliğ etmişlər. Hz. İbrahim (əs), hz. Süleyman (əs), hz. Davud (əs), hz. Lut (əs), hz. İsa (əs), hz. Musa (əs), hz. Nuh (əs), hz. Yusif (əs), hz. İsmayıl (əs), hz. İshaq (əs) kimi peyğəmbərlərin və elçilərin həyatı Quranda açıqlanır. Rəbbimiz ayədə peyğəmbər hekayələrində inananlar üçün hikmətlər olduğunu bildirmişdir (Yusif surəsi, 111). Peyğəmbərlər Allah'ın seçdiyi, müjdələyən və xəbərdaredici kimi göndərdiyi, üstün əxlaq və imanları ilə bütün insanlara nümunə olan mübarək insanlardır. Müsəlmanlar peyğəmbərlərin hamısına iman gətirir, ayrı-seçkilik etmədən hamısına dərin sevgi duyur və hörmət edirlər. Müsəlmanların peyğəmbərlərə imanı və itaəti ayədə belə bildirilir:

**Peyğəmbər öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də. Hamısı Allah'a, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdilər. (Onlar dedilər): "Biz Onun elçiləri arasında fərq qoymuruq!" Onlar dedilər: "Eşitdik və itaət etdik! Ey Rəbbimiz! Səndən bağışlanma diləyirik, dönüş də yalnız Sənədir!"** (Bəqərə surəsi, 285)

Peyğəmbərlərə iman xristianlıq və yəhudiliyin də əsaslarındandır. Tövratda hz. Adəm (əs), hz. Nuh (əs), hz. Şüeyb (əs), hz. Yaqub (əs), hz. Yusif (əs) və bir çox peyğəmbərin həyatı (bir qismi təhrif olunsa da) ətraflı izah edilir. İncildə göndərilmiş elçilərə itaətin əhəmiyyəti müxtəlif izahlarla vurğulanmışdır. İncildə "Allah'ın istədiyi iş budur: Onun göndərdiyi şəxsə iman gətirin" (Yəhya, 6: 29) açıqlaması buna nümunədir. İncildə digər yerdə inananların elçiləri özlərinə nümunə götürmələri və onların əxlaqına bənzər əxlaqa sahib olub onların rəftarlarına bənzər davranmaları belə bildirilmişdir:

Çünki sizə nümunə göstərdim ki, mənim sizə etdiyimi siz də bir-birinizə edəsiniz. (Yəhya, 13: 15)

Peyğəmbəri peyğəmbər olduğu üçün qəbul edən peyğəmbərə layiq bir mükafat alacaq. Salehi saleh olduğu üçün qəbul edən isə saleh insana layiq bir mükafat alacaq. (Matta, 10: 41)

# İnsanların göndərilən peyğəmbərləri

# qısqanması

**"Məgər içimizdən təkcə onamı zikr vəhy edilmişdir?" Xeyr, onlar Mənim zikrimə şəkk gətirirlər. Xeyr, onlar Mənim əzabımı hələ dadmayıblar.** (Sad surəsi, 8)

**Peyğəmbərləri onlara dedi: "Allah Talutu sizə hökmdar təyin etdi!" Onlar dedilər: "O, necə bizə hökmdar ola bilər ki, biz hökmdarlığa ondan daha çox layiqik və ona heç böyük var-dövlət də verilməmişdir". O dedi: "Allah sizin üzərinizə onu seçdi, elm və bədəncə onun gücünü artırdı. Allah Öz mülkünü istədiyi kəsə verir. Allah əhatə edəndir, biləndir".** (Bəqərə surəsi, 247)

**..."Nə üçün bu Quran iki şəhərdən olan böyük bir adama nazil edilmədi?"** (Zuxruf surəsi, 31)

## İncil

Şənbə günü olanda O, sinaqoqda təlim öyrətməyə başladı. Onu dinləyən adamların çoxu heyrət içində dedi: "Bu adam belə şeyləri haradan bilir? Bu, necə hikmətdir Ona verilib? Bu cür möcüzələr Onun əlindən necə gəlir? Bu adam həmin dülgər deyilmi? Məryəmin oğlu, Yaqubun, Yusifin, Yəhudanın və Şimonun qardaşı deyilmi? Onun bacıları burada- bizim aramızda yaşamırmı?" Onların İsaya acığı tutdu. (Mark, 6: 2-3)

Buna görə də Allah'ın hikməti belə demişdi: Mən onlara peyğəmbərlər və həvarilər göndərəcəyəm, onların bəzisini öldürüb, bəzisini isə təqib edəcəklər. (Luka, 11: 49)

## Tövrat

Ancaq Rəbbin qəzəbi Öz xalqının üzərinə gəldi və onlara heç bir çarə tapılmadı, çünki Allah'ın elçilərini lağa qoydular, Onun sözlərinə xor baxdılar və peyğəmbərlərini təhqir etdilər. (2 Salnamələr, 36: 16)

# Peyğəmbərlərə atılan dəlilik iftirası

**Beləcə, onlardan əvvəlkilərə də elə bir elçi gəlmədi ki, (onun barəsində): "Sehrbazdır, ya da dəlidir!"– deməsinlər. Onlar bunu bir-birinə vəsiyyətmi etmişlər? Xeyr, onlar həddi aşan adamlardır.** (Zariyat surəsi, 52-53)

## İncil

İsanın ailə üzvləri bu barədə eşidəndə Onu aparmağa gəldilər. Onlar fikirləşirdilər ki, O, ağlını itirib. Yerusəlimdən gələn ilahiyyatçılar isə deyirdi: "Onda Baal-Zevul var. O, cinləri cinlər başçısının qüdrəti ilə qovur. (Mark, 3: 21-22)

Çünki Yəhya gəldikdə nə çörək yeyir, nə şərab içirdi və onlar deyirdilər: "Onu cin tutmuşdur". (Matta, 11: 18)

# Peyğəmbərlər öz nəfslərinin istədiklərini danışmırlar

**Sizin yoldaşınız nə (haqdan) azmış, nə də (yoldan) çıxmışdır. O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi.** (Nəcm surəsi, 2-5)

## İncil

Mən özbaşına bir iş görə bilmərəm, eşitdiyim kimi mühakimə edərəm və Mənim hökmüm ədalətlidir. Çünki məqsədim öz iradəmi deyil, Məni Göndərənin iradəsini yerinə yetirməkdir. (Yəhya, 5: 30)

Hər şeydən əvvəl bunu bilməlisiniz ki, müqəddəs yazılardakı peyğəmbərlik sözlərinin heç birini şəxsən izah etmək olmaz. Çünki heç vaxt peyğəmbərlik insan iradəsindən qaynaqlanmamışdır. (2 Peter, 1: 20-21)

O, qulu Davudun nəslindən bizə qüdrətli xilaskar yetirdi. Qədimdən bəri öz müqəddəs peyğəmbərlərinin vasitəsilə bildirdiyi kimi. (Luka, 1: 69-70)

## Tövrat

Onda Rəbb mənə dedi: "...Onlar üçün soydaşları arasından sənin kimi bir peyğəmbər yetirəcəyəm və sözlərimi onun dilindən eşidəcəksiniz. O, əmr etdiyim hər şeyi sizə söyləyəcək. (Qanunun təkrarı, 18: 17-18)

# Cənnət və Cəhənnəmə iman

Allah'ın endirdiyi haqq dini insanlara təbliğ edən peyğəmbərlər insanları Cənnətdəki nemətlərlə müjdələmiş, Cəhənnəm əzabı ilə xəbərdar etmişlər. Dünya həyatında Allah'ın əmrlərinə itaət edənlər, Onun razılığını qazanmaq üçün çalışanlar axirətdə Cənnətlə mükafatlandırılacaqlar. Allah'ın dininə çağırıldıqları və doğru yolu gördükləri halda inkar edənləri isə Cəhənnəmdə sonsuz və dəhşətli bir əzab gözləyir.

Quranda inananları nemətlərlə dolu, sonsuzluq, xoşbəxtlik və sağlamlıq yurdu olan Cənnətin, inkarçıları isə bənzəri olmayan əzab və çətinliklərlə dolu olan əbədi Cəhənnəm həyatının gözlədiyi belə xəbər verilmişdir:

**İman gətirib saleh əməllər edənləri isə altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağlarına daxil edəcəyik. (Bu,) Allah'ın gerçək vədi sayəsində olacaqdır. Sözündə Allah'dan daha doğruçu kim ola bilər?** (Nisa surəsi, 122)

**Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açıq olacaq və onun gözətçiləri onlara deyəcəklər: "Məgər öz içərinizdən Rəbbinizin ayələrini sizə oxuyan və sizi bu gününüzə qovuşacağınızla xəbərdar edən elçilər gəlməmişdi?" Onlar: "Əlbəttə, (gəlmişdi!)"– deyəcəklər. Lakin əzab sözü kafirlər barəsində gerçəkləşdi.** (Zumər surəsi, 71)

Həyatı boyu Allah'ın əmrlərinə itaət edən, Rəbbimizin razılığını qazanmaq üçün cəhd göstərən imanlı insanlar Allah'ın izni ilə Cənnətdə ən ehtişamlı evlər, ən gözəl paltarlar, ən gözəl ləl-cavahiratlar, ən dadlı yeməklər, ən ləzzətli içkilərlə mükafatlandırılacaqlar, sevdikləri insanlarla və dostları ilə birlikdə rahat və sonsuz həyat yaşayacaqlar. Özlərini yaradan və saysız nemət verən Allah'a qarşı üsyan və nankorluq edənlər isə Cəhənnəm cəzasına məhkum olacaqlar. Quranda Cəhənnəmdəki əzabın dünyada bənzəri olmayan çox böyük, əzablı və şiddətli bir əzab olduğu bildirilmişdir. Cəhənnəmdəki yüngülləşdirilməyən və daimi olan fiziki və mənəvi əzab, dar, qaranlıq, tüstülü mühitlər, iyrənc yemək və içkilər, əzablı iniltilər, yandırıcı və qovurucu istilik, zəncirlər, dəmir qamçılar, qaynar su və digər cəzalar ayələrdə ətraflı şəkildə təsvir edilmişdir. Quranda Cəhənnəmdəkilərin günahlarını etiraf etmələri, xor və alçaq qılınmaları, peşmanlıqları, dünyaya geri qayıtmaq istəkləri, yox olmağı istəmələri də bildirilmişdir. Cəhənnəmdə olanlar kömək üçün yalvaracaqlar, ancaq onlara kömək edilməyəcək, əzablarının yüngülləşdirilməsini istəyəcəklər, ancaq bu istəklərinə məhəl qoyulmayacaq.

Yaxşılarla pislərin Allah qatında bir olmadığı və hər kəsin etdikləri ilə əvəz görəcəyi Tövrat və İncildə də bildirilmişdir. Yaxşılarla pislərin ayrılmaları İncildə belə izah edilmişdir:

Yenə səmavi səltənət dənizə atılan və hər cür balıq tutan bir tora bənzəyir. Tor dolduğu zaman onu sahilə çəkdilər və oturub yaxşıları qablara yığdılar, pisləri isə kənara atdılar. Bu, dövrün sonunda da belə olacaq. Mələklər gəlib pisləri salehlərin arasından kənar edəcəklər. Sonra onları soba alovuna atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaq. (Matta, 13: 47-50)

İncildə doğruların sonsuz həyata (Matta, 25: 46), pislərin İblislə birgə sonsuz atəşə (Matta, 25: 41), sonsuz cəzaya (Matta, 25: 46) göndəriləcəkləri bildirilmişdir. “Cəhənnəm cəzasından necə qaçacaqsınız?” (Matta, 23: 33) və “Öldürdükdən sonra Cəhənnəmə atan ixtiyar Sahibindən qorxun” (Luka, 12: 5) kimi izahlarla Cəhənnəm əzabı xatırladılmışdır. Cəhənnəmdəkilərin çəkdikləri əzab, çarəsizlik və peşmançılıq İncildə belə təsvir edilmişdir:

Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni Cəhənnəmdə məhv edə bilən Allah'dan qorxun. (Matta, 10: 28)

Əgər sağ gözün səni pis yola çəkərsə, onu çıxar, at. Çünki sənin üçün bədən üzvlərindən birinin olmaması bütün bədəninin Cəhənnəmə atılmasından yaxşıdır. Əgər sağ əlin səni pis yola çəkərsə, onu kəs at. Çünki sənin üçün bədən üzvlərindən birinin olmaması bütün bədəninin Cəhənnəmə düşməsindən yaxşıdır. (Matta, 5: 29-30)

Tövratda isə yaxşılıq edənlərin yaxşılıqla əvəz görəcəyi, pislik edənlərin də bu pisliklər qarşılığında cəzalandırılacaqları ifadə edilir:

Saleh insanlara söyləyin ki, onlara yaxşılıq ediləcək, çünki onlar xeyirxahlıqlarının bəhrəsini görəcək. Pis insanların vay halına! Çünki onlara pislik olunacaq, elədikləri əməlləri qarşılarına çıxacaq. (Yeşaya, 3: 10-11)

...Dinsizlər lərzəyə gəldi: “Hər şeyi məhv edən alovun yanında hansımız yaşaya bilərik? Əbədi yanan atəşin yanında hansımız dayana bilərik?” Amma salehlik yolu ilə gedən, doğru sözlər danışan, haram yolla əldə edilən qazancı rədd edən, əlini rüşvətdən uzaq tutan, qatillərin qurduğu qəsdə fikir verməyən, pisliyə qarşı yaxşılıqla cavab verən yüksəkliklərdə

yaşayacaq, təpələrin başındakı qalalar onun dayağı olacaq. O, çörəklə, su ilə təmin olunacaq. (Yeşaya, 33: 14-16)

...Çoxu əbədi həyat, bəzisi isə əbədi xəcalət və rüsvayçılıq üçün oyanacaq. Ağıllı insanlar göy qübbəsinin parıltısı kimi, saleh olanlar ulduzlar kimi əbədi və daim parlayacaq. (Daniel, 12: 2-3)

Necə ki, quraqlıq və istilik qarı əridib udur, ölülər diyarı da günahkarları elə götürüb aparacaq. (Əyyub, 24: 19)

Ölülər diyarı həddindən artıq ağzını açıb və doymaq bilmir... Hamı yerə səriləcək, hər kəs diz üstə çökdürüləcək, təkəbbürlü baxışlar alçaldılacaq. (Yeşaya, 5: 14-15)

Pislər yıxılıb məhv olar, salehin evi dağılmaz. (Süleymanın məsəlləri, 12: 7)

# Yenidən dirilişə iman

Allah bütün insanları ölümlərindən sonra yenidən dirildəcək və dünya həyatındakı əməlləri ilə hesaba çəkəcək. Bu həqiqət bütün peyğəmbərlər tərəfindən insanlara bildirilmişdir. Rəbbimizin endirdiyi haqq dini təbliğ edən peyğəmbərlər insanları yenidən diriləcəkləri günlə xəbərdar etmişlər və onlara o gün üçün ciddi hazırlıq görmələrinin lazım olduğunu xəbər vermişlər. Səmimi olaraq iman gətirən hər insan Allah`ın ölümdən sonra onu dirildəcəyini bilərək hərəkət edir. Bəzi insanlar isə ölümdən sonra yenidən dirilişi inkar edirlər. Axirət günündə yenidən diriləcəklərindən şübhə edənlərin və ya bu həqiqəti yalan hesab edənlərin vəziyyəti Quranda belə bildirilmişdir:

**O, Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir.** (Yasin surəsi, 78-79)

**Ey insanlar! Yenidən diriləcəyinizə şübhə edirsinizsə, (bilin ki,) həqiqətən də, Biz sizi torpaqdan, sonra nütfədən, sonra laxtalanmış qandan, daha sonra tam bir şəklə salınmış və ya salınmamış bir parça ətdən yaratdıq ki, (qüdrətimizi) sizə bəyan edək. Bətnlərdə istədiyimizi müəyyən bir vaxt ərzində saxlayırıq. Sonra sizi uşaq kimi çıxardırıq ki, yetkinlik çağına yetişəsiniz. Sizdən kimisi vəfat edir, kimisi də ömrünün ən rəzalətli dövrünə çatdırılır ki, bildiyi şeyləri unutsun. Sən yer üzünü cansız görürsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarır və cürbəcür gözəl bitkilər bitirir. Bunun səbəbi Allah'ın haqq olmasındadır. O, ölüləri dirildir və hər şeyə qadirdir.** (Həcc surəsi, 5-6)

Əlbəttə, hər şeyə qadir olan Allah üçün bütün insanların diriltdilməsi çox asandır. İnsanı heç bir şey deyil ikən yoxdan yaradan, ölü kimi görünən quru torpağı dilədiyi şəkildə canlandıran Allah'dır. Zamanı gələndə insanları da yenidən dirildəcək. İncilin müxtəlif yerlərində ölümdən sonra diriliş olmadığını söyləyənlərə hz. İsanın (əs) təbliği haqqında məlumat verilmişdir. Bunlardan birində belə deyilir:

Buna heyrət etməyin, çünki elə bir zaman gəlir ki, qəbirdə yatanların hamısı Onun səsini eşidib qəbirlərindən çıxacaq, yaxşılıq edənlər dirilib həyat əldə edəcək, pislik edənlər isə dirilib mühakimə olunacaq. (Yuhanna, 5: 28-29)

Onda onlar sənə əvəzini verə bilmədiyinə görə, sən bəxtiyar olacaqsan. Çünki salehlər dirildiyi zaman sənə əvəz veriləcək. (Luka, 14: 14)

Lakin bir nəfər belə deyə bilər: "Ölülər necə diriləcək? Onlar nə cür bədənlə gələcəklər?" Necə də məntiqsiz sualdır!.. (1 Korinflilərə, 15: 35-36)

Ölülərin dirilməsi də belədir. Əkilən toxum çürüyər, ondan əmələ gəlib dirilən bədən çürüməz. (1 Korinflilərə, 15: 42)

Tövratda yenidən dirilişin təsvir edildiyi hissələrdən bir qismi belədir:

Torpağın altında yatanların çoxu əbədi həyat, bəzisi isə əbədi xəcalət və rüsvayçılıq üçün oyanacaq. (Daniel, 12: 2)

Ey xalqım: "Mən qəbirlərinizi açanda, sizi qəbirlərinizdən çıxaranda biləcəksiniz ki, Rəbb Mənəm. Mən daxilinizə Öz Ruhumu qoyacağam və siz diriləcəksiniz"... -Rəbb belə bəyan edir. (Yezekel, 37: 13-14)

...Sənin ölülərin yaşayacaq, bədənləri diriləcək. Ey torpaq altında yatanlar, oyanın, sevinc nəğməsini oxuyun... Rəbb torpaqdakı ölüləri dirildəcək. (Yeşaya, 26: 19)

Sən isə öz aqibətinə qədər yaşa, çünki ölüb rahat olacaqsan və axirət günü dirilib qismətini alacaqsan. (Daniel, 12: 13)

# Hesab gününə iman

Axirətə və hesab gününə iman İslamiyyətin əsaslarından biridir. Bütün insanlar dünya həyatında keçirdikləri hər anın hesabını vermək üçün yenidən dirildiləcəklər. Axirət günündə hər insan tək başına hesab verəcək, heç kim başqasının günahını yüklənə bilməyəcək və ya ona kömək edə bilməyəcək. O gündə iman gətirənlər və yaxşılıq edənlər üçün asan hesab olacaq. İnkar edib pis işlər görənlər üçün isə, şübhəsiz, hesab günü çox çətin bir gün olacaq.

Allah Quranda hesab gününün necə olduğunu ətraflı bildirmişdir. Heç bir şeyin gizli qalmayacağı hesab günündə zərrə qədər belə olsa, bütün insanların yaxşılıq və pislikləri həssas tərəzilərdə çəkiləcək. Bu həqiqət bir Quran ayəsində belə bildirilir:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik.** (Ənbiya surəsi, 47)

O gün inkarçıların eşitmə və görmə duyğuları, dəriləri onların əleyhinə şahidlik edəcək:

**Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir.** (Fussilət surəsi, 20)

İnsanlar dünyada gördükləri işlərə görə Allah qatında hesab verərkən, peyğəmbərlər və şahidlər də olacaqlar. Sonsuz ədalət sahibi olan Allah hər insan haqqında hökm verəcək:

**Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, kitab (ortaya) qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək və onlara haqsızlıq edilməyəcəkdir. Hər kəsə öz əməlinin əvəzi tam veriləcəkdir. Allah onların nə etdiklərini yaxşı bilir.** (Zumər surəsi, 69-70)

Axirət günü veriləcək hesab haqqında İncildə belə deyilir:

Allah'ın qarşısında gizli qalan məxluq yoxdur. Onun gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır. Biz Ona hesab verəcəyik. (İbranilərə, 4: 13)

Allah hər kəsə əməlinə görə əvəzini verəcək: səbirlə, yaxşı əməl sahibi olaraq izzət, hörmət və ölməzlik axtaranlara əbədi həyat, özlərini göstərərək həqiqətə tabe olmayıb haqsızlıq edənlərə isə qəzəb və hiddət göndərəcək. (Romalılara, 2: 6-8)

Mən sizə deyirəm: insanlar söyləyəcəkləri hər boş söz üçün qiyamət günü hesab verəcəklər. (Matta, 12: 36)

...Qanunda deyilənlərin hamısı Qanunun hökmü altında olanlara aiddir; ta ki bütün dillər sussun və bütün dünya Allah'ın hökmünə məruz qalsın. (Romalılar, 3: 19)

Əlbəttə ki, Rəbb Allah yolunda cəhd edənləri sınaqdan necə qurtarmağı, haqsızları isə qiyamət gününədək cəza altında necə saxlamağı bilir. O, ələlxüsus cismani murdar ehtirasına təslim olaraq, ağalığa xor baxanları belə saxlayır. (2 Peter, 2: 9-10)

Tövratda da hesab gününün varlığı və Allah'ın insanları əməllərindən hesaba çəkəcəyi bildirilir. Bu izahlardan biri belədir:

Axı bütün millətlər üçün Rəbbin günü yaxınlaşır, sən nə cür etdinsə, sənə də belə ediləcək, əməllərinin əvəzi öz başına gələcək! (Avdiya, 1: 15)

… Bu insanların günü çatdı, nəhayət, cəza vaxtı gəldi. (Yezekel, 21: 29)

… Peyğəmbərlərin xəbərdarlıq etdiyi kimi cəza günü gəldi. İndi siz çaşbaş qalmışsınız. (Mikeya, 7: 4)

Sən ey murdar və pis olan… günün çatdı, nəhayət, cəza vaxtın gəldi. Xudavənd Rəbb belə deyir: "… Artıq bu, belə olmayacaq. Alçalanı yüksəlt, yüksələni alçalt". (Yezekel, 21: 25-26)

# Qiyamət günü

**O: "Qiyamət günü nə vaxt olacaq!"– deyə soruşur. Gözlər bərələ qalacağı, Ay tutulacağı və Günəşlə Ayın qovuşacağı zaman – o gün insan deyəcəkdir: "Hara qaçaq?" Xeyr, (o gün) pənah aparılacaq yer tapılmayacaq.** (Qiyamət surəsi, 6-11)

**Ulduzlar sönəcəyi zaman; göy yarılacağı zaman; dağlar dağılacağı zaman; elçilərə vaxt təyin olunacağı zaman.** (Mürsəlat surəsi, 8-11)

**Həmin saat hökmən gələcək!..** (Taha surəsi, 15)

**Səndən o saat barəsində soruşurlar ki, nə vaxt qopacaq? De: "Bu haqda bilgi ancaq Rəbbimə aiddir. (Qopacağı) vaxtı yalnız O aşkara çıxara bilər. (Bu bilgi) göylərə və yerə də ağır gəlir. O, sizə qəflətən gələcəkdir". Sanki onu bilirmişsən kimi səndən soruşurlar. De: "Bu haqda bilgi ancaq Allah'a aiddir. Lakin insanların çoxu bilmir".** (Əraf surəsi, 187)

**O gün göy əridilmiş metal kimi olacaqdır. Dağlar da didilmiş yun kimi olacaqdır. Dost dostunun halını xəbər almayacaq.** (Məaric surəsi, 8-10)

**Göy yarılıb dağ edilmiş yağ kimi qıpqırmızı olacaqdır.** (Rəhman surəsi, 37)

## İncil

Amma o günlərdə, o əzab-əziyyətdən sonra Günəş qaralacaq, Ay işıq saçmayacaq, ulduzlar göydən töküləcək... (Mark, 13: 24-25)

O günü və saatı heç kim bilmir... Ehtiyatlı olun, oyaq olun, dua edin. Çünki bilmirsiniz ki, o an nə vaxt gələcək. (Mark, 13: 32-33)

Özünüzə fikir verin! Qoy ürəkləriniz acgözlük və sərxoşluqla, bu həyatın qayğıları ilə yüklənməsin. Qoy o gün bir tələ kimi üzərinizə qəflətən gəlməsin. Çünki o gün bir tələ kimi yer üzündə yaşayanların hamısının üstünə gələcək. (Luka, 21: 34-35)

...O gün göylər böyük gurultu ilə qopub töküləcək. Hər şey yanaraq məhv olacaq. Yer üzü və onun üstündəki hər şey yanıb yox olacaq... O gün göylər də od tutub yanacaq. (2 Peter, 3: 10-12)

## Tövrat

Rəbbin günü yaxındır! Günəş və ay qaralır, ulduzlar işıqlarını gizlədir... Göy və yer sarsılacaq… (Yoel, 3: 14-16)

Qarşılarında yer sarsılır, göylər lərzəyə gəlir, günəş və ay qaralır, ulduzlar işıqlarını gizlədir... Rəbbin günü möhtəşəm və çox dəhşətlidir. Buna kim tab gətirə bilər? (Yoel, 2: 10-11)

...Rəbbin günü yaxınlaşır. O gün Külli-İxtiyarın etdiyi qırğın kimi gəlir! Buna görə hamının əlləri yanına düşəcək, hər kəs qorxub ürəyini yeyəcək. Hər kəsi dəhşət bürüyəcək, dərd və iztirab içində boğulacaq, doğan qadın kimi ağrı çəkəcək, çaşqın-çaşqın bir-birinə baxacaq, üzləri qızaracaq. Budur, Rəbbin amansız, qəzəbli və qeyzlə dolu günü yaxınlaşır ki, yeri səhraya döndərsin, oradakı günahkarları məhv etsin. Göydəki ulduzlar və bürclər işıq verməyəcək, Günəş doğarkən tutulacaq, Ay nurunu saçmayacaq. (Yeşaya, 13: 6-10)

Rəbbin möhtəşəm günü yaxınlaşır, yaxınlaşır, tez gələcək... O gün qəzəb günüdür: hər tərəfi əziyyət və məşəqqətin, viran və talanın, qaranlıq və zülmətin, qara buludların bürüdüyü gündür!.. Rəbb deyir: "İnsanlara elə bəla göndərəcəyəm ki, kor kimi hara gedəcəklərini bilməyəcəklər, çünki Mən Rəbbə qarşı günah ediblər... Rəbbin qəzəb günündə qızıl-gümüşləri onları qurtara bilməyəcək". (Sefanya, 1: 14-18)

# İnsanın imtahanı

**"...Hansınızın daha yaxşı əməl sahibi olduğunu sınamaq üçün... göyləri və yeri altı gündə yaradan Odur..."** (Hud surəsi, 7) ayəsində buyurulduğu kimi, dünyanın yaradılış məqsədlərindən biri də insanların sınanmasıdır. Əslində, hər insan ömrü boyu imtahan olunur və ölümü ilə birlikdə sona çatan bu imtahandan sonra ya gözəlliklə mükafatlandırılacaq, ya da əzabla cəzalandırılacaq.

İnsanın qarşısına çıxan çətinliklərin, müsibətlərin hər biri imtahan vəsiləsidir. Çətinliklər qarşısında Allah'a güvənərək səbir edənlər Allah'ın istədiyi şəkildə davranmış olurlar. İnsanlar mal-mülk, övladlar, gözəllik, sağlamlıq kimi Allah'ın nemətləri ilə də sınanırlar. Belə

vəziyyətdə insan öz eqoist istəklərini reallaşdırmaq üçün deyil, Allah'ın məmnuniyyətini qazanmaq üçün çalışmalıdır.

İnsanın inandığını və iman gətirdiyini dilə gətirməsinin kifayət etmədiyi və mütləq sınanacağı bir Quran ayəsində belə bildirilir:

**İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!"– demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər?** (Ənkəbut surəsi, 2)

Bununla belə, Quranda çətinliklər qarşısında səbir göstərənlər müjdələnirlər. Bu həqiqətə bir ayədə belə diqqət çəkilir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver.** (Bəqərə surəsi, 155)

İncildə sınanmağın sevindirici hal olduğu və insanın kamil imanı qazanmasına səbəb olduğu belə ifadə edilir:

Ey qardaşlarım, müxtəlif sınaqlarla üzləşəndə bunu böyük bir sevinc hesab edin. Çünki bilirsiniz ki, imanınızın sınaqdan keçməsi səbir yetişdirir. Səbir də öz əməlini başa çatdırsın ki, siz yetkin və kamil insanlar olasınız, heç bir çatışmazlığınız olmasın. (Yaqub, 1: 2-4)

Siz hər insanın qarşılaşdığı sınaqdan başqa bir sınaqla qarşılaşmadınız. Allah sadiqdir və O, sizi gücünüz çatmayan şeylə sınağa çəkməz. O, sizə sınaqla yanaşı, bu vəziyyətdən çıxış yolu da göstərəcək ki, tab gətirə biləsiniz. (1 Korinflilər, 10: 13)

Sınağa səbir edən insan necə də xoşbəxtdir! Çünki sınaqdan keçdikdə Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaq. (Yaqub: 1, 12)

Buna görə, hal-hazırda yaşadığınız müxtəlif sınaqlara görə kədərlənməyin, sevinin... (1 Peter, 1: 6)

Allah'ın insanları dünyada müxtəlif sınaqlardan keçirdiyi Tövratın bir neçə yerində belə bildirilir:

Əgər aranızdan... yuxu görən bir şəxs çıxıb sizə bir əlamət, ya da möcüzə olacağını söyləyərsə, sonra: "Tanımadığınız yad ilahların ardınca gedək və onlara sitayiş edək", - deyərsə, bəhs etdiyi əlamət və ya möcüzə həyata keçsə də, ...yuxu görənin sözlərinə qulaq asmayın. Bilin ki, Allah'ınız Rəbb sizi sınayır, görmək istəyir, siz Allah'ınız Rəbbi bütün qəlbinizlə, bütün varlığınızla sevirsinizmi? (Qanunun təkrarı, 13: 1-3)

"Mən Rəbb, ürəyi yoxlayıram, insanın fikrini sınayıram ki, hər kəsə əməllərinə görə, işlərinin bəhrəsinə görə əvəz verim". (Yeremya, 17: 10)

Bir müddət sonra Allah İbrahimi sınağa çəkdi. (Yaradılış, 22: 1)

# Hər iş ancaq Allah'ın diləməsi ilə həyata keçir

İnsanın planlaşdırdığı işlər ancaq Allah dilədiyi zaman reallaşır. İman gətirənlər Rəbbimiz diləmədikcə heç nəyə qadir olmadıqlarını bilirlər. Rəftarlarında və söhbətlərində bu həqiqətin şüurunda olduqları açıq görünür. Allah iman gətirənlərə heç bir mövzu haqqında

qəti danışmamağı, bunu ancaq Allah dilədikdə edə biləcəklərini söyləməyi bildirmişdir. Ayədə belə buyurulur:

**Heç bir şey barəsində: “Mən onu sabah edəcəyəm!”– demə! Ancaq: “Əgər Allah istəsə!” (“inşaAllah”- de!) Unutduğun zaman Rəbbini yada salıb: “Ola bilsin ki, Rəbbim məni haqqa bundan daha yaxın olan bir yola yönəltsin”, – de**. (Kəhf surəsi, 23-24)

İnsanın gələcəklə bağlı düşüncələrində bu həqiqəti unutmaması İncildə də bildirilir:

İndi isə siz: “Biz bu gün, yaxud sabah filan şəhərə gedib orada bir il qalacağıq və ticarətlə məşğul olub pul qazanacağıq”, - deyirsiniz, əslində, sabah nə baş verəcəyini bilmirsiniz. Axı həyatınız nədir ki? O qısa bir müddətə görünüb, sonra yox olan buxardır. Bunun əvəzinə: “Əgər Rəbb istəyərsə, sağ qalıb bu və ya digər işi görərik”, - deməlisiniz. (Yaqub, 4: 13-15)

İki sərçə bir qara pula satılmırmı? Onlardan biri belə Allah'ın izni olmadan yerə düşməz. (Matta, 10: 29)

Tövratda da belə bildirilir:

İnsanın qəlbində çox arzusu var, amma Rəbbin niyyəti həyata keçər. (Süleymanın məsəlləri, 19: 21)

# V HİSSƏ
# İLAHİ DİNLƏRDƏ ORTAQ İBADƏTLƏR, ORTAQ ƏXLAQİ DƏYƏRLƏR

İnsanı yaradan Allah onun ehtiyaclarını və dünyada necə rahat olacağını ən yaxşı biləndir. Bu səbəbdən, insan Rəbbimizin bildirdiyi yolla getməlidir. Belə ki, Allah hər dövrdə elçiləri və kitabları vasitəsilə insanlara yol göstərmiş, razı olacağı düşüncə, davranış, əxlaq və həyat formasını insanlara xəbər vermişdir. Allah'ın öyrətdiyi həyat tərzini və əxlaq modelini tətbiq edənlər həm dünyada, həm də axirətdə xoşbəxt, dinc və gözəl həyata qovuşmağı ümid edən insanlardır.

Müxtəlif dövrlərdə, müxtəlif ərazilərdə yaşayan və müxtəlif İlahi dinlərə mənsub olan insanlar fərqlərə baxmayaraq, eyni əxlaqi dəyərlərə sahibdirlər. Oğurluq etməmək, adam öldürməmək, zina etməmək, yalan danışmamaq, ədalətli olmaq, hər cür haqsızlıqdan çəkinmək, insanlara qarşı nəzakətli və hörmətli üslubdan istifadə etmək kimi dəyərlər bütün inananlar üçün əsaslıdır. Bu, inananların baş verən hadisələrə oxşar reaksiya vermələrinə və oxşar hərəkət etmələrinə səbəb olur.

Bu ortaq əxlaq anlayışı yəhudilik, xristianlıq və İslamiyyətə də aid edilir. Nankorluq, özündən razılıq, azğınlıq, yalançılıq, eqoistlik, acgözlük, hiyləgərlik, qısqanclıq, davakarlıq, itaətsizlik, hörmətsizlik, vəfasızlıq, xəsislik, təcavüzkarlıq, zalımlıq, səbirsizlik, riyakarlıq kimi çirkin xüsusiyyətlər İslam əxlaqına qətiyyən uyğun olmadığı kimi, yəhudilik və xristianlıqda da qadağan edilmişdir. İnsanlar ədalətli, vicdanlı, şəfqətli, xeyirxah, təvazökar, dürüst, fədakar, itaətkar, vəfalı olmaq və s. kimi gözəl xüsusiyyətlərə çağırılmışlar.

Bu İlahi hökmlərə riayət edən səmimi dindarlar seçilmiş və şərəfli insanlardır. Allah'a qəlbən bağlıdırlar. Dərin imana, üstün əxlaqi xüsusiyyətlərə sahibdirlər. Etdiklərinin əvəzində heç nə tələb etmirlər, yalnız Allah'ın razılığını qazanmağa çalışırlar. Həmişə doğrunun, yaxşının, haqqın, gözəl əxlaqın tərəfdarı olurlar. Hər cür pislik və əxlaqsızlıqdan çəkinirlər.

Lakin yer üzündəki bir çox təlim İlahi dinlərin öyrətdiyi əxlaq anlayışına tamamilə zidd olan anlayışları müdafiə edir. Məsələn, son iki əsrdir ki, dünyada hökm sürən darvinist və materialist fəlsəfə insanları yalnız öz mənfəətlərini düşünən və bunda heç bir qayda tanımayan fərdlərə çevirir. Bu batil fəlsəfə həyatı sanki bir arena kimi göstərir, insan həvəslərinin təmin edilməsi üçün hər yoldan istifadə etməyi nəzərdə tutur. Digər tərəfdən, darvinizm və materializm insanın ruha sahib olduğunu və Allah'ın vəhyini inkar etdiyi üçün insanın təbiətinə dair heç bir mütləq meyar qəbul etmir və İlahi dinlər tərəfindən ortaya qoyulan bütün əxlaqi dəyərləri inkar edir. Bu azğın məntiqin bəşəriyyətə nə qədər böyük

fəsad gətirdiyinin nümunələri isə hələ də göz qabağındadır. Qarşıdurmalar və gərginliklər, bir parça torpaq və mövqe üçün mərhəmətsizcə bir-birinə hücum edən insanlar, məzlumların və ehtiyac içində olanların hər gün daha da əzilməsi, ədalətsizliyin yayılması, əxlaqsızlığın artması, degenerasiyanın sürətlənməsi bu fəsadların yalnız bir neçəsidir.

Bu vəziyyət qarşısında İlahi dinlərin mənsubları materializmin aldadaraq öz təsiri altına saldığı insanların qurtulması üçün birləşməlidirlər. Allah'ın varlığına, birliyinə, bizi Onun yaratdığına və bizə doğru yolu göstərmək üçün kitab və peyğəmbərlər göndərdiyinə inanmaq çox əhəmiyyətlidir. Bu həqiqətlərə inanan insanlar (yəhudi, xristian və ya müsəlmanlar) inkar edən insanlardan bir-birlərinə daha yaxındırlar.

Aşağıda üç İlahi din arasındakı ortaq əxlaqi dəyərlərdən başlıqlar altında bəhs ediləcək. Bunların hər biri bu dinlərin mənsublarının niyə birləşmələrinin lazım olduğunun dəlillərindəndir. Unudulmamalıdır ki, yer üzündə bu dəyərlərlə təsvir edilən gözəl əxlaqın hakim olması hər üç dinin inananlarının əl-ələ verməsi ilə mümkündür.

# Təvazökarlıq

Təvazökarlıq inananların ortaq xüsusiyyətidir. Allah ayələrində təkəbbürlü insanları sevmədiyini bildirmişdir.

İnananlar onlara saysız nemətləri verənin Allah olduğunu, hər şeyin yeganə sahibinin O olduğunu bilirlər. Ona görə də təkəbbürlənmirlər. Allah'ın qarşısında nə qədər aciz olduqlarını bilirlər. Ağılın, məlumatın, gözəlliyin, var-dövlətin, etibarın və s. özlərindən qaynaqlanmadığını, onların Allah'ın bir lütfü olduğunu bilirlər.

Allah Quranda inananların təvazökar davranışını belə ifadə etmişdir:

**Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara bir söz dedikdə: “Salam!”- deyərlər.** (Furqan surəsi, 63)

Digər Quran ayəsində də təvazökar möminlər Cənnətlə müjdələnmişlər:

**...Sizin tanrınız tək olan İlahdır. Yalnız Ona itaət edin. Sən itaət edənlərə müjdə ver.** (Həcc surəsi, 34)

Təvazökarlığın əhəmiyyəti və bu cür davranan insanların Allah qatında üstün insanlar olduğu İncildə belə ifadə edilir:

Tamamilə təvazökar və həlim, səbirli olub bir-birinizə məhəbbət və şəfqətlə yaxınlaşın. (Efeslilərə, 4: 2)

Aranızda ən böyük olanların xidmətçisi olsun. Kim özünü yüksəldərsə, alçaldılacaq və kim özünü alçaldarsa, yüksəldiləcək. (Matta, 23: 11-12)

Beləliklə, kim bu uşaq kimi sadəqəlbli olarsa, səmavi səltənətdə ən böyük odur. (Matta, 18: 4)

Tövratda da təkəbbürlü olmaqdan çəkinməyin vacib olduğu, Allah`ın təvazökar qullarından razı olduğu bildirilir. Tövrata görə inananlar təvazökar olmaqla məsuliyyət daşıyırlar, təkəbbürlülər isə mütləq alçaldılacaqlar. Tövratda bəzi yerlərdə mövzu haqqında

belə bildirilir:

...Ey Rəbbin hökmünə əməl edən sizlər, ölkədəki təvazökar insanlar, Rəbbə meyil salın! Salehliyə meyil salın! Təvazökarlığa meyil salın!.. (Sefanya, 2: 3)

Məzlum xalqı qurtarırsan, lovğalara göz qoyursan, onları alçaldırsan. (2 Şamuel, 22: 28)

...Təvazökar olsalar, dua edib Məni axtarsalar və pis yollardan geri qayıtsalar... onların günahını bağışlayacağam və torpaqlarını bərəkətləndirəcəyəm. (2 Salnamələr, 7: 14)

Uca və əzəmətli, əbədi yaşayan, adı müqəddəs olan belə deyir: "...Qırıq qəlbli olanların ruhunu diriltmək, həlimlərin ürəklərini dirçəltmək üçün onlarla birlikdəyəm". (Yeşaya, 57: 15)

# Lovğalanmamaq

**Ona: "Allah'dan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!** (Bəqərə surəsi, 206)

## İncil

...Allah məğrurlara qarşıdır, məzlumlara isə lütf göstərər. (Yaqub, 4: 6)

...Qürurlanmasınlar və gəldi-gedər var-dövlətə yox, zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allah'a ümid bəsləsinlər. (1 Timoteyə, 6: 17)

## Tövrat

Onlara xəbərdarlıq etdin ki, Sənin Qanununa tərəf gəlsinlər. Amma onlar təkəbbürlü olub əmrlərinə qulaq asmadılar və hökmlərini pozub günah etdilər. Halbuki, o hökmlərə əməl edən hər kəs nicat tapar. Onlar inadkarlıqla Sənə arxa çevirib dikbaşlıq və itaətsizlik etdilər. (Nehemya, 9: 29)

Eşidin və qulaq asın, təkəbbürlü olmayın, çünki Rəbb belə söylədi. (Yeremya, 13: 15)

Çünki o gün ordular Rəbbi bütün qürurluları, lovğaları, məğrurları alçaldacaq. Livanın bütün hündür və vüqarlı sidr ağaclarını məhv edəcək, bütün Başanın palıdlarını yox edəcək. (Yeremya, 2: 12-13)

Rəbb deyir: "Pisliyə görə dünyanı, günahlarına görə pis insanları cəzalandıracağam. Təkəbbürlülərin qürurunu qıracağam, məğrur zalımları alçaldacağam. (Yeşaya, 13: 11)

# Allah'ın ayələrinin inkar edildiyi yerdən uzaqlaşmaq

**(Allah) kitabda sizə nazil etmişdir ki, Allah'ın ayələrinin inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman, (günahkarlar) başqa bir söhbətə keçməyincə onlarla bir yerdə oturmayın. Yoxsa siz də onların tayı olarsınız. Şübhəsiz ki, Allah bütün**

**münafiqləri və kafirləri Cəhənnəmə toplayacaqdır.** (Nisa surəsi, 140)

## Tövrat

Pislərin məsləhəti ilə getməyən, günahkarların yolunda dayanmayan, rişxəndçilərin arasında oturmayan insan necə də xoşbəxtdir! O, ancaq Rəbbin qanunundan zövq alar, gecə-gündüz bu qanunu dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi barını mövsümündə verər, yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar. Pis insanlar belə deyil, onlar ancaq yelin sovurduğu saman çöpünə bənzəyər. Buna görə, pis insanlar hökm günündə, günahkarlar salehlərin məclisində dayana bilməz. (Məzmur, 1: 1-5)

# Boş şeylərdən üz çevirmək

**O kəslər ki, lağlağıdan üz döndərərlər.** (Muminun surəsi, 3)

**Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə ləyaqətlə ötüb keçərlər.** (Furqan surəsi, 72)

## İncil

Boşboğazlıqdan uzaq dur... (2 Timoteyə, 2: 16)

## Tövrat

Qoyma gözlərim fani şeylərə baxsın, Öz yolunda mənə həyat bəxş et. (Məzmur, 119: 37)

"Müdrik insan boş sözlərlə cavab verərmi? Köksünü şərq küləyi ilə doldurarmı? Faydasız sözlərlə, dəyərsiz nitqlərlə mübahisə etmək olarmı? (Əyyub, 15: 2-3)

Buna görə də Xudavənd Rəbb belə deyir: "İndi ki boş sözlər söyləyib, yalan şeylər gördünüz, Mən sizə qarşıyam", - Xudavənd Rəbb belə bəyan edir. (Yezekel, 13: 8)

# Hər işdə Allah'ı xatırlamaq

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah'ı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür (və deyirlər:) "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru!** (Ali-İmran surəsi, 191)

**O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allah'ı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar.** (Nur surəsi, 37)

## Tövrat

O, ancaq Rəbbin qanunundan zövq alar, gecə-gündüz bu qanunu dərin düşünər. (Məzmur, 1: 2)

Bütün yollarında Onu tanı, O, sənin yollarını düzəldər. Öz gözündə özünü hikmətli sanma, Rəbdən qorx, şərdən çəkin. Bu, bədəninə şəfa verər, sümüklərinə ilik olar. (Süleymanın məsəlləri, 3: 6-8)

Bu gün sənə əmr etdiyim bu sözlər ürəyində kök salsın. Bunları övladlarının şüuruna yaxşı-yaxşı yerləşdir. Evində oturanda, yol gedəndə, yatanda, duranda bunlar barədə danış. (Qanunun təkrarı, 6: 5-7)

Ya Rəbb, Sənə pənah gətirirəm! Heç vaxt məni xəcalətdə qoyma... Mənimlə birlikdə Rəbbin böyüklüyünü eşitdirin, adını birlikdə ucaldaq. (Məzmur, 31: 1-3)

# Təvəkkül etmək

Allah inananların ən böyük dostu və yardımçısıdır. İnananlar çətinlik və ya sıxıntı ilə qarşılaşanda da, rahat şəraitdə olanda da Allah'ın onlarla bərabər olduğunu bilir, yalnız Allah'a yönəlirlər. Sadəcə Ona güvənirlər. İman gətirən bir şəxs mövcud şəraitlər daxilində bütün tədbirləri görür, hər addımı düşünərək plan qurur, lakin hər şeyin yalnız Allah'ın diləməsi ilə reallaşdığını unutmur. Nəticəsindən asılı olmayaraq, hər şeydə hikmət və gözəllik olduğunu bilir. Məsələn, möminlər tədbir olaraq sağlamlığa zərərli şeylərdən çəkinirlər. Buna baxmayaraq, ölümcül xəstəliyə düçar olanda da onun Allah'dan olduğunu bilirlər, əsla ümidsizliyə qapılmırlar. Səbirli və təvəkküllü davranırlar. İnananlar hadisələr qarşısında kədər, qayğı və narahatlıq keçirmir, təvəkkülün verdiyi rahatlığı yaşayırlar.

Təvəkkül inkarçıların xəbərsiz olduğu, sadəcə inananların yaşadığı gözəllikdir. İnkarçıların dünya həyatındakı sıxıntı və kədərlərinin, stress və depressiyalarının əsas səbəblərindən biri də bu həqiqətdən üz çevirmələridir. Təvəkkülün inananların vacib vəsfi olduğu Quran ayələrində bildirilmişdir:

**...Allah'dan qorxana, (Allah) çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allah'a təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur.** (Talaq surəsi, 2-3)

**De: "Allah'ın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O, bizim himayədarımızdır. Qoy möminlər Allah'a təvəkkül etsinlər!"** (Tövbə surəsi, 51)

Təvəkküllü olmaq yalnız Allah'a güvənmək deməkdir. İnsanların qayğı çəkməsinin mənasız olduğu və hər zaman Allah'a güvənmələri İncildə belə ifadə edilir:

Amma Rəbb etibarlıdır. O, sizi qüvvətləndirib şər olandan qoruyacaq. (2 Salonikililərə, 3: 3)

İsa öz şagirdlərinə belə dedi: "Buna görə də Mən sizə deyirəm: "Nə yeyəcəyik?" - deyib canınız üçün, "Nə geyinəcəyik", -deyib bədəniniz üçün qayğı çəkməyin... Qarğalara baxın. Onlar nə əkir, nə də biçir. Nə anbarları, nə də zirzəmiləri var, amma Allah onları yedizdirir... Sizlərdən hansı biriniz qayğı çəkməklə ömrünüzü bir anlıq belə uzada bilər? Əgər siz elə balaca şeyi etməyi bacarmırsınızsa, nə üçün başqa şeylərin qayğısına qalırsınız? (Luka, 12: 22-26)

Ona görə də siz əvvəlcə Allah'ın səltənətini və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək. Beləliklə, sabahın qayğısını çəkməyin... (Matta, 6: 33-34)

Tövratda isə bildirilir ki, yalnız Allah'a yönələn və Rəbbimizə güvənən şəxsə Allah müvəffəqiyyət bəxş edəcək. İman gətirən yəhudilərin Allah'a təvəkkül etmələri belə ifadə edilir:

Rəbbə güvən… O da səni ürəyinin istəklərinə çatdıracaq. Yolunu Rəbbə ver, Ona güvən, O, edəcək. (Məzmur, 37: 3-5)

Ağlı Sənə yönəlmiş insanlara Sən kamil iman verirsən, çünki onlar Sənə güvənir. Rəbbə həmişə güvənin, çünki Rəbb Allah əbədi gücdür. (Yeşaya, 26: 3-4)

Nə xoşbəxtdir o insan ki Rəbbə güvənir, Rəbbi özünə arxa sayır. O, sular kənarında əkilmiş ağac kimi olacaq. Elə ağac ki, çay kənarında kök salar, isti gələndə qorxmaz, yarpağı həmişə yaşıl qalar, quraqlıq olan il qayğı çəkməz, bəhər verməkdən qalmaz. (Yeremya, 17: 7-8)

...Allah'ınız Rəbbə inanın, onda qorunacaqsınız, onun peyğəmbərlərinə inanın və uğur qazanacaqsınız. (2 Salnamələr, 20: 20)

Bütün qəlbinlə Rəbbə güvən, öz idrakına etibar etmə. (Süleymanın məsəlləri, 3: 5)

# Allah inananların qoruyucusudur

**(Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mənə doğru yol göstərəcəkdir!"** (Şüəra surəsi, 62)

**Həqiqətən də, Allah (Ondan) qorxanlar və yaxşı işlər görənlərlədir.** (Nəhl surəsi, 128)

**Həqiqətən, mənim himayədarım kitabı nazil edən Allah'dır. O, əməlisalehlərə himayəçilik edir.** (Əraf surəsi, 196)

## Tövrat

Sənə cəsarətli və möhkəm olmağı əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan düşmə, çünki Allah`ın Rəbb gedəcəyin hər yerdə səninlədir. (Yeşua, 1: 9)

Qəfil fəlakətdən, pislərə gələn bəladan qorxma. Çünki güvəndiyin Rəbdir... (Süleymanın məsəlləri, 3: 25-26)

İnsandan qorxan özünü tələyə salar, amma Rəbbə güvənən arxayın yaşayar. (Süleymanın məsəlləri, 29: 25)

…Rəbb Ona sığınanların sipəridir. Rəbdən başqa Allah kimdir ki? Allah'ımızdan başqa üstün güc kimdir ki? Allah məni qüvvəsi ilə bürüyər, yolumu kamil edər. Sən mənə qurtuluş qalxanını verdin... köməyinlə məni yüksəltdin... ayaqlarım büdrəməsin. (Məzmur, 18: 30-32, 35-36)

# Ədalət anlayışı

Ədalətli olmaq iman gətirən insanların başlıca xüsusiyyətlərindən biridir. Allah qullarına insanlar arasında ədalətlə hökm verməyi, özlərinin və ya yaxınlarının əleyhinə olsa belə, ədalətli olmağı əmr etmişdir. İnananlar ədaləti qoruyan və haqsızlığa izn verməyən insanlardır. Rəbbimiz Quranda müsəlmanlara ədalətli olmağı belə bildirir:

**Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allah'ın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah eşidəndir, görəndir.** (Nisa surəsi, 58)

Müsəlman üçün qarşısındakı insanın varlı və ya kasıb olması və verəcəyi qərarın mənfəətinə zidd olması heç nəyi dəyişdirməz. Mömin nə olursa-olsun, ədalətdən güzəştə getməz. Bu üstün əxlaq bir Quran ayəsində belə bildirilir:

**Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. (Əleyhinə şahidlik edəcəyiniz şəxslərin) varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Hissiyyata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz (cəfəngiyat) danışsanız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır.** (Nisa surəsi, 135)

Başqa bir ayədə isə kin-küdurətin insanları ədalətsizliyə sövq etdiyi bildirilmişdir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. (Hər hansı bir) camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır...** (Maidə surəsi, 8)

Ədalət İncil və Tövratda da vacib məsələlərdən biridir. Ədalətə laqeyd yanaşanlar İncildə belə qınanırlar:

Vay halınıza..! Çünki siz nanə, şüyüd və zirənin onda birini verirsiniz, lakin Qanunun daha vacib işlərini, ədaləti, mərhəməti və imanı atırsınız. Amma onda birini verməklə yanaşı, bunları yerinə yetirməli idiniz. (Matta, 23: 23)

İncildə başqa fəsillərdə də insanların ədalətli olmaları belə ifadə edilmişdir:

Zahirə görə hökm etməyin, ədalətlə hökm edin. (Yəhya, 7: 24)

Ey ağalar... qullarınıza ədalətli və insaflı olun. (Koloselilərə, 4: 1)

Mühakimə etməyin ki, siz də mühakimə olunmayasınız... Hansı ölçü ilə ölçsəniz, eyni ölçü ilə də sizə ölçüləcək. (Matta, 7: 1-2)

Tövratda da ədalət gözəl əxlaqlı insanın əsas xüsusiyyəti kimi göstərilir və doğru insanın pisliklərdən uzaqlaşdığı, heç kimə haqsızlıq etmədiyi, yoxsulları qoruduğu ifadə edilir:

Ədalətli olanlar, hər zaman əməlisaleh olanlar necə xoşbəxt insanlardır! (Məzmur, 106: 3)

...Mən onu seçdim ki, öz oğluna və özündən sonrakı nəslinə saleh və ədalətli işlər görmək üçün Rəbbin yolu ilə getməyi tapşırsın... (Yaradılış, 18: 19)

Ordular Rəbbi belə deyir: "Düzgün və ədalətlə mühakimə edin. Hər kəs bir-birinə məhəbbət və mərhəmət göstərsin. (Zəkəriyyə, 7: 9)

...Bunların yerinə ədaləti ayırd etmək üçün dərrakə istədin. Mən istəyini yerinə yetirirəm... (1 Padşahlar, 3: 11-12)

Rəbb belə deyir: “Ədaləti qoruyun, salehliyə əməl edin...” (Yeşaya, 56: 1)

Ədalətsiz qanun qoyanların, yoxsullardan ədaləti əsirgəyənlərin, xalqımın kasıblarının haqqını əlindən alanların, dul qadınları soyanların, yetimlərin malını ələ keçirənlərin vay halına! (Yeşaya, 10: 1-2)

# İftira və hücumlardan çəkinmək

Elçilər tarix boyu insanları doğru yola - Allah'ın dininə dəvət etmişlər, onları işıqlandıran və yol göstərən şəxslər olmuşlar. Ancaq hər dövrdə haqq dini izah etdikləri cəmiyyətdə bəzi insanlar Allah'ın elçilərinə qarşı çıxmışlar. Onların təbliğinə mane olmaq üçün bir çox yola baş vurmuşlar. Bu insanlar Allah'ın üstün əxlaqı ilə bütün insanlara nümunə və yol göstərici kimi göndərdiyi elçilərə bir çox böhtan ataraq onlara mane olacaqlarını zənn etmişlər, böhtanlarının istədikləri nəticəni vermədiyini görəndə isə peyğəmbərləri yurdlarından sürgün etməyə, həbs etməyə və hətta öldürməyə də cürət etmişlər.

Qurani-kərimdə keçmişdə yaşamış peyğəmbərlərin mübarizələri və qarşılaşdıqları böhtanlar ətraflı izah edilir. Peyğəmbərimiz hz. Muhəmmədin (səv) də Məkkəli müşriklərlə, münafiqlərlə və inkar edənlərlə mübarizəsi Quranda bildirilmişdir. Tarix boyu bütün peyğəmbərlər və iman gətirənlərin bir-birinə bənzər böhtanlarla qarşılaşdığı Quranda bildirilən həqiqətlərdən biridir. Başqa həqiqət də iman gətirənlərin bu böhtan və hücumlar qarşısında heç vaxt ruhdan düşüb zəifləməməsi və mübarizələrinə eyni şövq və əzmlə davam etməsidir.

Divanə (Hicr surəsi, 6), dəlilik (Qələm surəsi, 51), yalançı və sehrbaz (Sad surəsi, 4) kimi böhtanlar Quranda bildirilən və peyğəmbərlərə atılan böhtanlardandır. Bu və buna bənzər böhtanlardan inkarçılar üstün əxlaqlı hz. Muhəmmədə (səv) qarşı da istifadə etmişlər və Peyğəmbərimizi (səv) həbs etmək, öldürmək və ya yurdundan qovmaq üçün ona tələ qurmuşlar. (Ənfal surəsi, 30)

Elçilərin yaşadıqlarının bənzərlərini onlarla birlikdə olan və onların yolu ilə gedənlərin də yaşayacağı Quranda belə bildirilmişdir:

**Yoxsa siz elə güman edirdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara elə sıxıntı və xəstəlik üz vermiş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və onunla birlikdə olan möminlər də: “Allah'ın köməyi nə vaxt (gələcək)?”– dedilər. Həqiqətən, Allah'ın köməyi yaxındır.** (Bəqərə surəsi, 214)

İncildə isə hz. İsanın (əs) cinlənməklə (Yəhya, 7/20, 8/48, 8/52), dəliliklə (Yəhya, 10/20), cəmiyyəti yoldan sapdırmaqla (Luka, 23/2), ata-babaların adət-ənənəsinə əməl etməməklə (Mark, 7/5) ittiham edildiyi bildirilir. İncilin müxtəlif hissələrində inanmayanların hz. İsaya (əs) lağ etməyə cürət etdikləri, onun ağır təhqirlərə və hücumlara məruz qaldığı geniş şəkildə izah edilmişdir.

Şübhəsiz, inkar edənlərin çirkin böhtanları onların ağılsızlığının və azğın inanclarının məhsullarıdır. Allah bütün peyğəmbərləri insanlara nümunə olan üstün ağıl, fərasət və əxlaqla yaratmışdır.

Yalnız elçilər deyil, onlarla birlikdə olan inananlar da müxtəlif böhtan, təhqir və hücumlarla qarşılaşmışlar. Bununla belə, nə zəifləmiş, nə də ümidsizliyə qapılmışlar. Bu həqiqət Quranın “Ali-İmran” surəsinin 146-cı ayəsində belə bildirilir:

**Neçə-neçə peyğəmbər (olmuşdur ki,) bir çox dindarlarla birlikdə vuruşmuşlar. Onlar Allah yolunda başlarına gələnlərə görə nə ruhdan düşmüş, nə zəifləmiş, nə də (düşmənə) boyun əymişlər. Allah səbir edənləri sevir.** (Ali-İmran surəsi, 146)

Elçilər inananları bu istiqamətdə məlumatlandırmış və müjdələmişlər. Peyğəmbərimizlə (səv) birlikdə olan möminlərin başlarına gələn çətinliklər qarşısında: **“Bu, Allah'ın və Onun Elçisinin bizə olan vədidir. Allah və Onun Elçisi doğru söyləmişlər!”** (Əhzab surəsi, 22) - dedikləri Quranda bildirilir. Rəbbimiz qətiyyət və üstün əxlaq göstərənlərin imanını və itaətini artıracağını müjdələmişdir.

Peyğəmbərlərin mübarizələri və müxtəlif çətinliklərlə qarşılaşdıqları Tövratda da ətraflı şəkildə bəhs edilir. İncildə isə inananların müxtəlif çətinliklərlə qarşılaşacaqları, ancaq səmimi olaraq iman gətirənlər üçün bunun bir sevinc vəsiləsi olacağı izah edilir:

Salehlik uğrunda əziyyət görənlər necə də xoşbəxtdirlər!.. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz, əslində, xoşbəxt olursunuz. Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Sizdən qabaq peyğəmbərləri də belə təqib ediblər. (Matta, 5: 10-12)

İncildə hz. İsanın (ə.s.), şagirdlərini başlarına gələn zülmlərə qarşı xəbərdar etdiyi və müjdələdiyi bildirilir:

(Hz. İsaya) görə insanlar sizə nifrət edəndə, sizi cəmiyyətdən qovub təhqir edəndə, adınızı bədnam edəndə Siz nə bəxtiyarsınız! O gün sevinin və sevincdən atılıb-düşün. Budur, göylərdə mükafatınız böyükdür. Onların ataları da peyğəmbərlərlə belə davranıb. (Luka, 6: 22-23)

Dar qapıdan girin. Çünki məhvə aparan qapı geniş və yolu enlidir. Bu qapıdan girənlər çoxdur. Amma həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar azdır. (Matta, 7: 13-14)

Mənim adıma görə hamı sizə nifrət edəcək. Amma axıra qədər səbir edən xilas olacaq. (Matta, 10: 22)

# Qorxmamaq və kədərlənməmək

**Onlar Allah'ın risalətini təbliğ edir, Ondan qorxur və Allah'dan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir.** (Əhzab surəsi, 39)

**Onlar dedilər: “Ey Rəbbimiz! Biz onun bizə şiddətli cəza verməsindən və ya həddini aşmasından qorxuruq”. (Allah) buyurdu: “Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!** (Taha surəsi, 45-46)

**(Bəzi) adamlar onlara: “Camaat sizə qarşı (ordu) toplayıbdır, onlardan qorxun!”– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: “Allah bizə yetər. O, nə gözəl qoruyandır!”– dedilər. Onlar özlərinə heç bir pislik toxunmadan, Allah'ın neməti və mərhəməti sayəsində geri döndülər və Allah'ın razılığına tabe oldular. Allah böyük lütf sahibidir. O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın,**

**Məndən qorxun!** (Ali-İmran surəsi, 173-175)

## İncil

Amma əgər salehlik uğrunda əzab çəksəniz belə, siz bəxtiyarsınız. İnsanların hədə-qorxu gəlməsindən qorxmayın və ürkməyin. (1 Peter, 3:14)

Beləliklə, onlardan qorxmayın. Çünki (Allah üçün) elə gizli bir şey yoxdur ki, aşkara çıxmasın və elə sirli bir şey yoxdur ki, bilinməsin... Bədəni öldürüb canı öldürə bilməyənlərdən qorxmayın. Həm canı, həm bədəni Cəhənnəmdə məhv edə bilən Allah'dan qorxun. (Matta, 10: 26-28)

## Tövrat

Cəsarətli və möhkəm olun! Onlardan qorxub çəkinməyin! Çünki Allah'ınız Rəbb sizinlə gedir. O, sizi atmaz, tərk etməz!... Başının üstündə Rəbb gedəcək. O, səninlədir, səni atmaz və tərk etməz. Qorxub çəkinmə! (Qanunun təkrarı, 31: 6-8)

Cəsarətli və möhkəm olun. Aşşur padşahından və onun yanında olan çoxlu qoşundan qorxmayın, ruhdan düşməyin, çünki bizimlə olan onunla olandan böyükdür. (2 Salnamələr, 32: 7)

... Kədərlənməyin, çünki Rəbbin verdiyi sevinc sizin qüvvətinizdir. (Nehemya, 8: 10)

... Mənə tərəf dönüb rahatlıq tapanda xilas olarsınız, sakitləşib inanmaqla qüdrətli olarsınız... (Yeşaya, 30: 15)

Sənə cəsarətli və möhkəm olmağı əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan düşmə, çünki Allah'ın Rəbb gedəcəyin hər yerdə səninlədir. (Yeşua, 1: 9)

# Gecələr hiylə quranlar

**Onlar: “İtaət edirik!”– deyirlər. Sənin yanından çıxıb getdikdə isə onların bir qismi gecələr sənin dediyinin əksinə tədbir görürlər. Allah onların gecələr nə etdiklərini yazır. Onlardan üz döndər və Allah'a təvəkkül et! Qoruyan olaraq Allah yetər.** (Nisa surəsi, 81)

## Tövrat

Öz niyyətlərini Rəbdən gizlətməyə çalışanların vay halına! Qaranlıqda iş görən bu insanlar: “Bizi kim görür, kim tanıyır?” - deyirlər. (Yeşaya, 29: 15)

# Ataların batil dininə itaət etməmək

Allah Quranda bəzi cəmiyyətdə kök salan batil inancları, din adına ortaya qoyulan bəzi anlayışları, vərdişə çevrilmiş bəzi hərəkətləri bəhanə edərək peyğəmbərlərin gətirdiyi haqq dinə qarşı çıxdıqlarını bildirmişdir. Quranda “ataların yolu” kimi bildirilən bu azğın inanc və həeəkətlər İncil və Tövratda “ataların adət-ənənəsi” adlandırılır. Halbuki Allah qatında haqq olan din elçilər tərəfindən təbliğ edilən dindir. İnananlar batil inanclardan və ənənələrdən

deyil, Allah'ın kitabından məsul tutulacaqlar. Kor-koranə atalarından öyrəndikləri batil anlayışları tətbiq edən və bu inancları səbəbindən haqq dindən üz çevirən insanların vəziyyəti Quranda belə bildirilmişdir:

**Onlara: "Allah'ın nazil etdiyinə itaət edin!"– deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!"– deyərlər. Əgər şeytan onları (Cəhənnəm) odunun əzabına doğru sürükləyirsə necə olsun?** (Loğman surəsi, 21)

**Onlara: "Allah'ın nazil etdiyinə və Elçiyə tərəf gəlin", –deyildikdə: "Atalarımızın tutduğu yol bizə bəsdir", –deyirlər. Əgər ataları bir şey bilməyib, doğru yola yönəlməyiblərsə necə olsun?** (Maidə surəsi, 104)

Tövratda da insanlara haqq dinin izah edilməsinə baxmayaraq, atalarından öyrəndikləri adət-ənənələrə yönəldikləri və onun böyük pislik olduğu başa düşülür. Peyğəmbərlərə itaət etmək istəməyən insanların batil inanclarına qayıtmaları və buna görə alacaqları əvəzin necə olacağı belə izah edilir:

Sözlərimə qulaq asmaq istəməyən əcdadlarının günahlarına qayıtdılar, başqa ilahların tərəfdarı olub onlara qulluq etdilər... Mən onların üzərinə bəla gətirəcəyəm və onun içindən çıxa bilməyəcəklər... (Yeremya, 11: 10-11)

İncildə hz. İsanın (əs) və ona tabe olanların atalarının adət-ənənəsindən ayrılmaqla ittiham edildikləri izah edilir. Halbuki doğru olan bu insanların müdafiə etdikləri batil ənənə deyil, hz. İsanın (əs) gətirdiyi din əxlaqına itaət etməkdir. Səmimi olaraq iman gətirənlərin hz. İsanın (əs) gətirdiyi dinə və ona itaət etmələrinin vacib olduğu isə açıq-aşkardır.

Matta İncilində hz. İsanın (əs) təbliğ etdiyi dinə itaət etməməkdə israr edənlərin hz. İsanın (əs) şagirdlərini atalarının ənənələrindən uzaqlaşdıqları üçün qınadıqları belə ifadə edilir:

Onda Yerusəlimdən fariseylər və ilahiyyatçılar İsanın yanına gəlib dedilər: "Nə üçün şagirdlərin ata-babaların adət-ənənəsini pozur?"... (Matta, 15: 1-2)

Mark İncilində isə hz. İsanın (əs) tələbələrini atalarının ənənələrinə itaət etmədikləri üçün qınayanlara belə cavab verilir:

Fariseylər və ilahiyyatçılar İsadan soruşdular: "Nə üçün sənin şagirdlərin ata-babaların dini adət-ənənəsinə əməl etmirlər?.." Siz Allah'ın əmrini atıb insan adət-ənənəsini tutursunuz. Sonra İsa onlara dedi: "Öz adət-ənənələriniz üçün Allah'ın əmrlərini kənara atmağı necə də yaxşı bacarırsınız!" (Mark, 7: 5-9)

İsa cavabında onlara dedi: "Bəs siz nə üçün öz adət-ənənəniz naminə Allah'ın əmrini pozursunuz?" (Matta, 15: 3)

# Göstəriş və riyakarlıqdan çəkinmək

İnananların ortaq əxlaq xüsusiyyətlərindən biri də səmimiyyətdir. Mömin Allah'ın hər şeydən xəbərdar olduğunu, axirətdə bütün düşüncələrinin, söhbətlərinin və davranışlarının hesabını verəcəyini bilir. Bu səbəbdən, həyatı boyu yalnız Allah'ın rizasını əldə etmək üçün çalışır, səmimiyyətsizlikdən çəkinir. Etdiklərinin əvəzini Allah'dan gözlədiyi üçün kiçik mənfəətlərin ardınca qaçmır, insanların sevgisini qazanmaq üçün səmimiyyətsiz davranmır.

Quranda peyğəmbərlərin ixlaslı davranışları möminlərə nümunə göstərilmişdir. Allah'ın **“Tağuta ibadət etməkdən çəkinib Allah'a üz tutanlara müjdə vardır. Qullarımı müjdələ!”** (Zumər surəsi, 17) ayəsində bildirildiyi kimi, səmimi qullar üçün müjdə vardır. İbadətlərini göstəriş məqsədilə edənlər haqqında bəzi ayələr belədir:

**Ey iman gətirənlər! Sədəqələrinizi özünü camaata göstərmək məqsədilə xərcləyən, Allah’a və axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz.** (Bəqərə surəsi, 264)

**Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər. Onlar riyakardırlar.** (Maun surəsi, 4-6)

İncildə inananlara: “Ehtiyatlı olun, özünüzü insanlara göstərmək üçün yaxşılıq etməyin. Yoxsa... Allah'dan mükafat almazsınız” (Matta, 6: 1) -deyə öyüd verilmiş, əməllərinin hamısını insanlar görsün deyə edənlər (Matta, 23: 5) qınanmışdır. Onların riyakarlığı, kənardan parlaq görünən, amma içi hər cür iyrəncliklə dolu ağardılmış məqbərələrə bənzədilərək təsvir edilmişdir:

...Siz ağardılmış məqbərələrə bənzəyirsiniz: bayır tərəfi gözəl görünür, daxili isə ölü sümükləri və hər cür murdarlıqla doludur. Siz də zahirən insanlara saleh görünürsünüz, daxilən isə ikiüzlülük və haqsızlıqla dolusunuz. (Matta, 23: 27-28)

... Sədəqə verdiyin zaman öz önündə car çəkmə. Çünki ikiüzlülər insanların onları tərifləməsi üçün sinaqoqlarda və küçələrdə belə edirlər. Doğrusunu sizə deyirəm ki, onlar mükafatlarını aldılar. Amma sən sədəqə verdiyin zaman sol əlin sağ əlinin nə etdiyini bilməsin. Belə ki, verdiyin sədəqə gizli qalsın. Gizlidə olanı görən Allah səni mükafatlandıracaq. (Matta, 6: 2-4)

Oruc tutduğunuz zaman ikiüzlülər kimi qaşqabaqlı gəzməyin. Onlar oruc tutduqlarını insanlara göstərmək üçün özlərini qəmgin tuturlar... (Matta, 6: 16)

Tövratda da ibadətlərini göstəriş məqsədilə edənlər qınanmış, sözləri ilə insanları razı salmağa çalışan, ancaq izah etdikləri əxlaqı göstərməkdən çəkinən insanların pis yolda olduqları bildirilmişdir. Davranış və sözləri ilə Allah'a yaxın kimi görünməyə çalışan, ancaq qəlbən Allah'ı təqdir etməyən insanların vəziyyəti belə təsvir edilmişdir:

... Sən onların dillərinə yaxınsan, amma ürəklərindən uzaqsan. (Yeremya, 12: 2)

Ya Rəbb, bizə yardım et, mömin insan qalmayıb, bəşər övladları arasında vəfalılar yoxdur artıq. Hər kəs başqasına yalan söyləyir, ağzı yalan danışır, ikiüzlülük edir. (Məzmur, 12: 1-2)

# Din əxlaqında sevginin əhəmiyyəti

**Üstəlik Öz tərəfimizdən bir sevgi həssaslığı və paklıq da (bəxş etdik). O, müttəqi idi.** (Məryəm surəsi, 13)

**İman gətirib yaxşı işlər görənlər üçün ər-Rəhman bir sevgi yaradacaq.** (Məryəm surəsi, 96)

## Tövrat

Qoy səni sevgi və sədaqət tərk etməsin, onları boynuna bağla, ürəyinin lövhəsinə yaz. Onda Allah'ın və insanların gözündə lütfə qovuşub şərəfə nail olarsan. (Süleymanın məsəlləri, 3: 3-4)

Nifrət nifaq yaradar, lakin məhəbbət bütün günahları örtər. (Süleymanın məsəlləri, 10: 12)

Özünüz üçün salehlik toxumları əkin ki, məhəbbət bəhərini biçəsiniz... Çünki Rəbbə yönəlmək vaxtıdır. (Huşə, 10: 12)

Buna görə də sən Allah'ına üz tut, məhəbbətə, ədalətə bağlan, daima Allah'ına ümid bağla. (Huşə, 12: 6)

## İncil

Beləliklə, sizə əmr edirəm: bir-birinizi sevin. (Yəhya, 15: 17)

Məhəbbət Allah'ın əmrlərinə görə yaşamağımızı tələb edir. Əvvəldən bəri eşitdiyiniz kimi əmr budur; gərək bu əmrə görə yaşayasınız. (2 Yəhya, 6)

# Allah, Ona yaxınlaşmaq istəyənə yol göstərər

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.** (Bəqərə surəsi, 186)

**Ey iman gətirənlər! Allah'dan qorxun, Ona (yaxınlaşmaq üçün) vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız.** (Maidə surəsi, 35)

## Tövrat

Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır. (Məzmur, 145: 18)

Məni sevənləri sevirəm, Məni səylə axtaran tapır. (Süleymanın məsəlləri, 8: 17)

## İncil

Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq. (Matta, 7: 7)

Allah'a yaxınlaşın, O da sizə yaxınlaşacaq... (Yaqub, 4: 8)

Amma sən dua etdiyin zaman öz otağına girib qapını ört. Gizlində olan Allah'a dua et. Gizlində etdiyin duanı görən Allah səni mükafatlandıracaq. (Matta, 6: 6)

# Gözəl söz söyləmək

**Allah'ın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz kökü möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O, Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar.** (İbrahim surəsi, 24-25)

## Tövrat

Səbirlə hökmdarı da inandırmaq olar, şirin dil sümükləri belə yumşaldar. (Süleymanın məsəlləri, 25: 15)

Qəlbində hikmət olan dərrakəli adlanar, şirindilli olan müdrikliyi artırar. (Süleymanın məsəlləri, 16: 21)

… Niyyətim budur ki, ağzım öz həddini aşmasın. (Məzmur, 17: 3)

Saleh insan cavab verməzdən əvvəl qəlbində düşünər, şər insanın dilindən pislik tökülər. (Süleymanın məsəlləri, 15: 28)

## İncil

Ağzınızdan heç bir pis söz çıxmasın, amma eşidənlərə xeyir versin deyə lazım olanda başqalarının inkişafına səbəb olan sözlər deyin. (Efeslilərə, 4: 29)

Sözünüz duzlu və hər zaman lütflə dolu olsun. Beləcə, hər insana necə cavab vermək lazım olduğunu biləsiniz. (Koloselilərə, 4: 6)

Ey gürzələr nəsli, siz pis olduğunuz halda, necə yaxşı sözlər söyləyə bilərsiniz? Çünki ağız ürəyi dolduran fikirləri söyləyir. Yaxşı insan yaxşılıq xəzinəsindən yaxşı şeylər çıxarır, pis insan isə pislik xəzinəsindən pis şeylər çıxarır. Mən sizə deyirəm: "İnsanlar söyləyəcəkləri hər boş söz üçün qiyamət günü hesab verəcəklər. Çünki öz sözlərinə görə bəraət qazanacaqsan və öz sözlərinə görə məhkum olunacaqsan". (Matta, 12: 34-37)

Ağızdan çıxan isə ürəkdən çıxar və insanı murdar edər. Çünki ürəkdən pis fikirlər, qatillik, zinakarlıq, əxlaqsızlıq, oğurluq, yalançı şahidlik və küfr çıxar. İnsanı murdar edən şeylər bunlardır... (Matta, 15: 18-20)

# Verilən öyüd-nəsihətləri dinləmək

**Biz sözü onlara çatdırdıq ki, düşünüb ibrət alsınlar.** (Qəsəs surəsi, 51)

**Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? Ancaq ağıl sahibləri düşünüb ibrət alarlar".** (Zumər surəsi, 9)

## Tövrat

Qəlbini tərbiyəyə, qulaqlarını bilik sözlərinə ver. (Süleymanın məsəlləri, 23: 12)

Ya Rəbb, xilasına ümid bəsləmişəm, əmrlərinə əməl etmişəm. Öyüdlərinə ürəkdən bağlanmışam, onları çox sevirəm! (Məzmur, 119: 166-167)

Başçılar yığılıb mənim üçün sui-qəsd qurdular, lakin mən qulun Sənin qaydalarını dərin düşünürəm. Öyüdlərindən zövq alıram, onlardan məsləhət alıram. (Məzmur, 119: 23-24)

Təkəbbürdən ancaq münaqişə yaranar, yaxşı nəsihətə qulaq asanın hikməti var. (Süleymanın məsəlləri, 13: 10)

## İncil

Öz rəhbərlərinizə itaətkar olun və onlara tabe olun... (İbranilərə, 13: 17)

Bu kəlamın icraçısı olun, yalnız eşidənlər olub özünüzü aldatmayın. (Yaqub, 1: 22)

# Yaxşılıq anlayışı

İnsanlar yaxşılıq anlayışı barədə müxtəlif fikrə sahibdirlər. Bunu bəziləri dilənçiyə cüzi miqdarda pul vermək, bəziləri yaşlı insanın yol keçməsinə kömək etmək, bəziləri yalan danışmamaq şəklində başa düşür. Əlbəttə ki, bunlar yaxşı və gözəl davranışlardır, ancaq bunlar yaxşılığın nə demək olduğunu əhatə etmək üçün kifayət deyil. Allah əsl yaxşılığın nə olduğunu Quranda qullarına bildirmişdir:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl (sahibləri) Allah'a, axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır.** (Bəqərə surəsi, 177)

**O kəslər ki, Rəbbinin üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər...** (Rəd surəsi, 22)

İnananlar haqsızlıqdan çəkinən, haqsız qazanca əsla yanaşmayan, dürüstlüyü heç vaxt buraxmayan, yoxsulları qoruyan, insanlara hörmət edən, mərhəmətli və həlim davranan insanlardır. Yaxşılıq edər, insanları da yaxşılıq etməyə təşviq edərlər. Tövratda bəzi yerlərdə inananların yaxşılıq anlayışı belə ifadə edilir:

Amma salehlik yolu ilə gedən, doğru sözlər danışan, haram yolla əldə edilən qazancı rədd edən, əlini rüşvətdən uzaq tutan... (Yeşaya, 33: 15)

Əgər bir insan salehdirsə, ədalətli və saleh işlər görürsə, dağlarda bütlərə gətirilən qurbandan yemirsə, gözlərini İsrail nəslinin bütlərinə dikmirsə... kimsəyə haqsızlıq etmirsə, borclunun girovunu qaytarırsa, soyğunçuluq etmirsə, ac olana çörək verirsə, çılpaq olanı geyindirirsə, sələmlə borc pul vermirsə, pis əməldən çəkinirsə, iki adam arasında ədalətlə mühakimə edirsə, Mənim qaydalarıma görə rəftar edirsə, hökmlərimə sədaqətlə əməl edirsə, bu insan salehdir... (Yezekel, 18: 5-9)

İncildə insanların ancaq iman gətirib yaxşılıq etdikləri zaman dünyada və axirətdə gözəllik qazanacaqları bildirilir. İncildə bildirilən yaxşılıq anlayışını təsvir edən izahlardan biri

belədir:

Yaxşı olan tək Biri vardır. Əgər sən əbədi həyata qovuşmaq istəyirsənsə, Onun əmrlərinə riayət et. O şəxs İsadan: "Hansı əmrlərə?" - deyə soruşdu. İsa da dedi: "Qətl etmə, zina etmə, oğurluq etmə, yalan şahidlik etmə, ata-anana hörmət et və qonşunu özün kimi sev". Gənc adam İsaya dedi: "Bunların hamısına əməl etmişəm, daha nəyim çatışmır?" İsa ona dedi: "Əgər kamil olmaq istəyirsənsə, get nəyin varsa, satıb kasıblara payla…. Sonra qayıt, mənim ardımca gəl". (Matta, 19: 17-21)

Səndən mal istəyən hər kəsə ver və sənin malını aparandan o malı geri istəmə. İnsanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin. Əgər siz ancaq sizi sevənləri sevirsinizsə, hansı tərifə layiqsiniz? Çünki günahkarlar da onları sevənləri sevirlər. Əgər sizə yaxşılıq edənlərə yaxşılıq edirsinizsə, hansı tərifə layiqsiniz? Çünki günahkarlar da elə edirlər. (Luka, 6: 30-33)

# Pisliyi yaxşılıqla dəf etmək

**Səbir etdiklərinə görə onlara mükafatları ikiqat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edir və özlərinə verdiyimiz ruzidən xərcləyirlər.** (Qəsəs surəsi, 54)

**Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar.** (Fussilət surəsi, 34)

## İncil

Pisliyə pisliklə, söyüşə də söyüşlə cavab verməyin, əksinə xeyir-dua edin. Çünki bunun üçün çağırılmısınız ki, xeyir-duaları irs olaraq alasınız. (1 Peter, 3: 9)

Sözüm sizədir, ey Məni dinləyənlər: düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin. Sizi lənətləyənlərə xeyir-dua verin və sizi incidənlər üçün dua edin. Bir üzünə vurana o birini də çevir və üst paltarını aparandan köynəyini də əsirgəmə. (Luka, 6: 27-29)

## Tövrat

Düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver. Belə etməklə sanki başına köz tökərsən, bunun əvəzini Rəbbdən alarsan. (Süleymanın məsəlləri, 25: 21-22)

Heç kəsdən qisas alma, heç kimə kin saxlama... Qonşunu özün kimi sev... (Levililər, 19: 18)

Xeyirxahlıq və sədaqət hər təqsirə kəffarə olar, insan Rəbb qorxusuna görə pislikdən dönər. (Süleymanın məsəlləri, 16: 6)

# Pis əxlaq xüsusiyyətləri

**İtaət etmə hər tez-tez and içənə, alçağa, qeybət edənə, dedi-qodu yayana, xeyrə mane olana, həddi aşana, günahkara, daş ürəkliyə, bunlardan sonra da fırıldaqçıya – o var-**

**dövlət və oğul-uşaq sahibi olsa belə. Ayələrimiz ona oxunduğu zaman: "Bu, keçmişdəkilərin əsatirlərindəndir!"– deyər.** (Qələm surəsi, 10-15)

**Onların arxasınca namazı buraxıb şəhvətə uyan bir nəsil gəldi. Onlar ziyana uğrayacaqlar.** (Məryəm surəsi, 59)

## İncil

Onlar hər cür haqsızlıq, pislik, tamahkarlıq və kinlə doldular; paxıllıq, qatillik, münaqişə ruhu, hiylə və pis niyyətlə dolub-daşdılar. Onlar qeybətçi, böhtançı... söyüşçü, məğrur, təkəbbürlü, pis işlərdə öndə gedən, ata-anaya itaətsiz, axmaq, xain, şəfqətsiz və rəhmsizdir. (Romalılara 1: 29-31)

## Tövrat

Qoy ata-babaları kimi olmasınlar, çünki onlar dikbaş, asi bir nəsil idi. Allah'a ürəkləri dönük, könülləri vəfasız idi. (Məzmur, 78: 8)

Əgər bu oğul zorakılıq edib qan tökürsə, soydaşına qarşı bu işlərdən birini görürsə, dağlarda gətirilən qurbandan yeyirsə, qonşusunun qadınını ləkələyirsə, fəqirə və yoxsula haqsızlıq edirsə, soyğunçuluq edirsə, girovu qaytarmırsa, gözlərini bütlərə dikirsə, iyrənc işlər görürsə. (Yezekel, 18: 10-12)

Əlləri qurğu qurmağı öyrənməsin deyə hiyləgərlərin fəndini pozur. Çoxbilmişi hiylə qurarkən yaxalayır, fəndgirlərin oyununa son qoyur. (Əyyub, 5: 12-13)

Boş xəbər gəzdirməyin. Yalançı şahid olmaq üçün haqsız adamla əlbir olmayın. Şər iş görən izdihama qoşulmayın. Məhkəmədə çoxları ilə birləşərək ədaləti təhrif edib, yalançı şahid olmayın... Möhtac olan adamın məhkəmə işində ona qarşı ədaləti təhrif etmə, yalandan uzaq ol. Günahsıza və salehə ölüm hökmü vermə. Çünki Mən haqsıza bəraət qazandırmayacağam. Rüşvət alma, çünki rüşvət gözüaçıqları kor edər, salehlərin sözlərini isə təhrif edər. (Çıxış, 23, 1-8)

# Əfvedici olmaq

İnsan yanılmağa və xəta etməyə meyillidir. Həyatı boyu dəfələrlə xəta edir, eyni zamanda, dəfələrlə ətrafındakı insanların xətalı davranışları ilə qarşılaşır. Cahiliyyə əxlaqını yaşayan insanların əksəriyyəti isə xətalara qarşı dözümsüzdür, xəta edən insana qarşı səbirli davranmırlar. Xüsusilə də həmin xətadan zərər görəndə daha mərhəmətsiz olurlar. Din əxlaqı isə əfvedici və sevgi ilə yanaşmağı öyrədir. İman gətirənlər aciz qul olduqlarını bilirlər. Qarşılarındakı insanın etdiyi xətanın bənzərini özlərinin də edə biləcəyini düşünərək davranırlar. İnsanlara gözəl söz söyləyir, əfvedici olurlar. Əfv etməyin Rəbbimizin qatında üstün əxlaq olduğu Quranda belə bildirilir:

**Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah zəngindir, Həlimdir.** (Bəqərə surəsi, 263)

**Əgər bir xeyri aşkara çıxarsanız, yaxud onu gizlətsəniz və ya bir pisliyi bağışlasanız,**

**(bilin ki,) Allah əfv edəndir, Qadirdir.** (Nisa surəsi, 149)

**Sən bağışlama (yolunu) tut, yaxşı iş görməyi əmr et və cahillərdən üz döndər**. (Əraf surəsi, 199)

Quranda Allah'ın bağışlamasını istəyən insanın əfvedici olmasının lazım olduğu bildirilmişdir:

**Qoy aranızda olan fəzilət və sərvət sahibləri qohumlara, miskinlərə və Allah yolunda hicrət edənlərə verməyəcəklərinə and içməsinlər. Qoy əfv edib bağışlasınlar. Məgər siz Allah'ın sizi bağışlamasını istəmirsinizmi? Allah bağışlayandır, rəhmlidir.** (Nur surəsi, 22)

Tövratda da iman gətirən insanın mütləq səbirli və əfvedici olmasının lazım olduğu bildirilir. Bir xəta ilə qarşılaşanda onu böyütməmək, insanlara qəzəblənib intiqam almağa çalışmamaq lazımdır. Mövzu ilə bağlı Tövratda belə bildirilir:

Ağıllı insan səbirlidir, başqasının günahını bağışlamaq ona şərəf gətirər. (Süleymanın məsəlləri, 19: 11)

Sevgi istəyən günahları bağışlayar, sözgəzdirən əziz dostları ayırar. (Süleymanın məsəlləri, 17: 9)

Demə: "Mənə etdiyini mən də ona edəcəyəm, onun əməlinin əvəzini verəcəyəm". (Süleymanın məsəlləri, 24: 29)

İncildə insanın qarşısındakını bağışladığı zaman özünün də bağışlanacağı (Luka, 6: 37) bildirilmiş, inananların: "Bizə qarşı günah edənləri bağışladığımız kimi Sən də bizi bağışla" (Matta, 6: 12) - deyərək Allah'a dua etmələri tövsiyə edilmişdir. İnananların insanlara qarşı sevgi ilə və əfvedici davranması İncildə başqa bir yerdə belə bildirilmişdir:

...Mərhəmət, xeyirxahlıq, təvazökarlıq, həlimlik və səbir libasını geyinin. Bir-birinizə qarşı səbirli olun və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi, siz də bir-birinizi bağışlayın. (Koloselilərə, 3: 12-13)

"Qonşunu sev və düşməninə nifrət et", -deyildiyini eşitmisiniz. Mən isə sizə deyirəm ki, düşmənlərinizi sevin, sizə zülm edənlər üçün dua edin... Çünki O (Allah) günəşini həm pislərin, həm yaxşıların üzərinə doğdurur. Yağışını isə həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır. Əgər siz yalnız sizi sevənləri sevirsinizsə, artıq nə mükafatınız olacaq?.. (Matta, 5: 43-46)

Sözüm sizədir, ey Məni dinləyənlər: düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin. Sizi lənətləyənlərə xeyir-dua verin və sizi incidənlər üçün dua edin. (Luka 6: 27-28)

...Siz isə düşmənlərinizi sevin, onlara yaxşılıq edin və onlardan heç bir qarşılıq gözləmədən borc verin. Alacağınız mükafat böyük olacaq... (Luka, 6: 35)

Əgər başqalarının təqsirlərini bağışlasanız, Allah da sizi bağışlayar. (Matta, 6: 14)

# Xəsislikdən çəkinmək

Xəsislik Quranda bildirilən pis əxlaq xüsusiyyətlərindəndir. Malın və mülkün əsl sahibinin Allah olduğunu qavraya bilməyən insanlar sahib olduqları imkanlara həvəslə bağlanır və onların sonsuza qədər özlərində qalacağını zənn edirlər. Ya da sahib olduqları var-

dövlətə görə heç bir zərər görməyəcəklərini, maddi imkanlarının onları qoruyacağını zənn edirlər. Halbuki mal-dövlətə güvənib etibar etmək böyük yanılmadır. Çünki insanın sahib olduğu hər şeyin əsl sahibi uca Allah'dır. Allah istədiyi insanı varlı, istədiyi insanı da kasıb edər. Varlı olan insanın sahib olduğu imkanlara görə lovğalanması, kasıb olan şəxsin də bu səbəbdən ümidsizliyə düşməsi Quranda qadağan edilmişdir. İman gətirənlər Rəbbimizin verdiyi nemətlər qarşısında Ona könüldən şükür edir və verilən nemətləri Allah yolunda ən gözəl şəkildə qiymətləndirirlər. İmkanı olmayanlar da bu vəziyyətin bir xeyir və hikmətinin olduğunu bilərək gözəlliklə səbir edirlər.

Cahiliyyə əxlaqını yaşayan insanların bir qismi isə olduqca xəsisdirlər. Malları ilə öyünür, ehtiyacı olanlara kömək etmək istəmirlər. Şübhəsiz, bu, Allah'ın razı olmadığı bir davranışdır. Unutmamaq lazımdır ki, Allah hər cür əskiklikdən münəzzəhdir, heç nəyə ehtiyacı olmayandır. Zəkat verib əcr qazanmağa möhtac olan isə insandır. Xəsislik edən insanın bu rəftarı öz əleyhinə olacaq. Bir ayədə belə bildirilir:

**Budur, siz Allah yolunda xərcləməyə dəvət edilirsiniz. Aranızda isə simiclik edənlər də tapılır. Kim simiclik etsə, ancaq öz əleyhinə etmiş olar. Allah zəngin, siz isə kasıbsınız. Əgər üz çevirsəniz, yerinizə sizin tayınız olmayan başqa insanlar gətirər.** (Muhəmməd surəsi, 38)

Malın, mülkün onu əbədi edəcəyini zənn edən insan böyük xəta edir. Bunların Allah qatında heç bir dəyərinin olmadığı bəzi Quran ayələrində belə izah edilir:

**Biz hansı bir məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, onun cah-calal içində yaşayan sakinləri ona sadəcə olaraq: "Biz sizinlə göndərilənləri inkar edirik!"– dedilər. Onlar: "Bizim mal-dövlətimiz də, övladlarımız da daha çoxdur və bizə əzab verilməyəcəkdir", –dedilər. De: "Həqiqətən, Rəbbim istədiyinin ruzisini bol edər, (istədiyininkini də) azaldar. Lakin insanların çoxu bilmir". Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onların mükafatları etdikləri əməllərə görə qat-qat artırılacaq və onlar (Cənnətdəki) mənzillərində asudə yaşayacaqlar.** (Səba surəsi, 34-37)

Tövratın "Yeşaya" hissəsində: "Yer qalmayana qədər evi evə, tarlanı tarlaya birləşdirənlərin vay halına! Yaşamağa yer qoymamısınız, məgər bu ölkədə tək siz yaşayırsınız?" (Yeşaya, 5: 8) -deyə bildirildiyi kimi, mal toplamaq və bu mövzuda həvəsə düşmək pis əxlaq xüsusiyyətidir. Tövratda xəsisliyin qınandığı, comərdliyin təriflındiyi yerlərdən bir qismi belədir:

…Məzlum soydaşınıza qarşı əliniz bağlı olmasın. Əksinə, əliaçıq olun, nəyə ehtiyacı varsa, ona lazımi qədər verin. (Qanunun təkrarı, 15: 7-8)

Könlü rahatlıq nədir bilməz, zövq aldığı şeylər onu xilas etməz. Yeməyindən artıq qalmayacaq, ona görə, firavanlığı çox davam etməyəcək. Bolluq içində əzaba düçar olacaq, ona fəlakət toxunacaq. Qarnını dolduranda... üzərinə qəzəb göndərəcək. (Əyyub, 20: 20-23)

Əliaçıq insanın bərəkəti artar, başqasının qazancını yeyən ehtiyaca düşər. Comərd bolluğa qovuşar, su verənə su verilər. (Süleymanın məsəlləri, 11: 24-25)

İncildə də bu mövzuya diqqət çəkilmiş, bəzən var-dövlətin insanları din əxlaqını yaşamağa mane olduğu bildirilmişdir. (Matta, 19: 23) İnsanlara: "Siz həm Allah'a, həm də

var-dövlətə qulluq edə bilməzsiniz", - deyə bildirilmişdir. (Allah'ı tənzih edirik ) (Luka, 16: 13) Malını yığaraq rahatlığa qovuşacağını düşünən ağılsız insanın qissəsi İncildə belə izah edilir:

Bir varlının torpağı bol məhsul verdi. Bu adam ürəyində düşündü:... Axı nə edim? Sonra dedi: "Belə edərəm: anbarlarımı söküb daha böyüklərini tikərəm. Bütün taxılımı və malımı oraya yığaram. Canıma deyərəm ki, ey canım, illərlə kifayət qədər var-dövlət yığmısan. İndi dincəl, ye-iç, kef elə". Amma Allah ona dedi: "Ey axmaq, bu gecə canını səndən alacaqlar. Bəs hazırladığın kimə qalacaq? Özü üçün xəzinə toplayan, amma Allah'ın önündə varlı olmayan hər bir insanın axırı elə olacaq". (Luka, 12: 16-21)

# Zəkat vermək

**Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından xərcləyin. Özünüzə verildiyi təqdirdə ancaq göz yumub alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah zəngindir, tərifəlayiqdir. Şeytan sizi yoxsulluqla qorxudur və yaramaz işlər görməyi əmr edir. Allah isə sizə Öz tərəfindən bağışlanma və mərhəmət olunacağını vəd edir. Allah (hər şeyi) əhatəedəndir, biləndir.** (Bəqərə surəsi, 267-268)

**Sevdiyiniz şeylərdən xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir.** (Ali-İmran surəsi, 92)

**Mallarını gecə və gündüz, gizli və aşkar xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər.** (Bəqərə surəsi, 274)

**Mallarını Allah'ın razılığını qazanmaq və nəfslərini möhkəmləndirmək üçün xərcləyənlərin məsəli təpə üzərindəki bağın məsəlinə bənzəyir ki, ona şiddətli yağış düşdükdən sonra o, öz bəhrəsini iki qat verər. Hərgah ona şiddətli yağış düşməzsə, narın yağış da (bəs edər). Allah sizin nə etdiklərinizi görür.** (Bəqərə surəsi, 265)

## İncil

İsa məbədin ianə qutusunun qarşısında oturub xalqın oraya necə pul atmasına baxırdı. Bir çox varlı adam oraya böyük məbləğdə pul atırdı. Bir kasıb dul qadın da gəlib bir kodrant məbləğində iki lepton atdı. İsa şagirdlərini yanına çağırıb onlara dedi: "Sizə doğrusunu deyirəm: bu kasıb dul qadın ianə qutusuna hamıdan çox pul atdı. Çünki əvvəlkilərin hamısı varlarının artıqlığından verdi, bu qadın isə kasıblığına baxmayaraq, dolanmaq üçün əlində nə varsa, hamısını verdi. (Mark, 12: 41-44)

...İki köynəyi olan, birini köynəyi olmayana versin. Həmçinin yeməyi olan adam da olmayanla bölüşsün... (Luka, 3: 11)

Ehtiyac içində olan müqəddəslərə kömək edin. Qonaqpərvər olmağa səy edin. (Romalılara, 12: 13)

...Müftə aldınız, müftə verin. (Matta, 10: 8)

## Tövrat

Üzüm bağında da tənəkləri büsbütün təmizləyib yerə düşən salxımları yığmayın. Qalan məhsul kasıblara və qəriblərə qalsın. Allah'ınız Rəbb Mənəm. (Levililər, 19: 10)

Torpağınızda məhsul biçəndə tarlanın kənarlarını biçməyin və biçindən düşən məhsulu yığmayın. Qoy qalan məhsul kasıblara və qəriblərə qalsın... (Levililər, 23: 22)

Yediyiniz çörəyi acla bölüşmək, evsiz-eşiksiz kasıbları evinizə gətirmək deyilmi? Mənim istədiyim oruc bu deyilmi? Çılpaq görəndə geyindirmək, yaxınlarınızdan köməyinizi əsirgəməmək deyilmi? (Yeşaya, 58: 7)

Kimsəyə haqsızlıq etmirsə, borclunun girovunu qaytarırsa, soyğunçuluq etmirsə, ac olana çörək verirsə, çılpaq olanı geyindirirsə. (Yezekel, 18: 7)

# Başqalarını xəbərdar edib özünü unutmamaq

İnananlar başqa insanları Allah'ın istədiyi kimi yaşamağa təşviq edirlər, xətalarını düzəltmək üçün onlara kömək edirlər. İnananlar bunu ancaq Allah'ın razılığını qazanmaq üçün edirlər. Riyakar və səmimiyyətsiz insanlar isə xəbərdarlıqları dünyəvi mənfəət güdərək edirlər. Onlar Allah'ın dininə xidmət etmək üçün hərəkət etmirlər, etibar görmək, cəmiyyətdəki məqamlarını qorumaq və ya insanların razılığını və hörmətini qazanmaq kimi boş və şeytani məqsədlər güdürlər.

Səmimiyyətsiz insanlar Quranda da belə xəbərdar edilmişlər:

**Siz kitab oxuyub insanlara xeyirxahlığı əmr etdiyiniz halda, özünüz (bunu) unudursunuz? Məgər anlamırsınız? (Bəqərə surəsi, 44)**

İncildə hz. Musanın (əs) ardınca getdiklərini iddia edən, ancaq onun öyrətdiyi əxlaqı yaşamayan şəxslər qınanmışdır. Onların bu xüsusiyyəti belə izah edilir:

... Söyləyərlər, amma riayət etməzlər. Ağır və çətin daşına bilən yükləri bağlayıb insanların çiyninə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə tərpətmək istəməzlər. (Matta, 23: 3-4)

Əgər insanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin. Çünki Qanun və peyğəmbərlərin söylədiyi budur. (Matta, 7: 12)

Sən nə üçün qardaşının gözündəki çöpü görürsən, amma öz gözündəki tiri seçmirsən? Öz gözündə tir ola-ola qardaşına necə deyə bilərsən ki, icazə ver, gözündəki çöpü çıxarım. Ey ikiüzlü, əvvəlcə öz gözündən tiri çıxar, sonra qardaşının gözündəki çöpü çıxarmaq üçün cəhd elə. (Matta, 7: 3-5)

# Şükür etmək

Şükür etmək Allah'ın verdiyi nemətlərin qarşılığında, Ona olan dərin sevgi hisslərini dilə gətirməkdir. Hər cür nemətin Allah'dan gəldiyini ifadə etməkdir. İnsan diqqətli olsa, bu qədər saysız-hesabsız neməti ona verənin Allah olduğunu və O istədiyi üçün bunlara sahib olduğunu anlaya bilər. Əlinizdəki kitabı oxuduğunuz anda bədəninizdə yüz trilyon hüceyrənin

hər birinin sizin üçün çalışması və vəzifələrini axsatmadan yerinə yetirməsi Allah'ın üzərinizdəki nemətlərinin çox kiçik hissəsidir.

İnananlar hansı vəziyyətdə olmalarından və hansı hadisəni yaşamalarından asılı olmayaraq, Allah'a şükür edirlər. İnkar edənlər isə şükür etməyi düşünmürlər belə. Şübhəsiz, bu, böyük nankorluqdur.

Şükür etmək Quranın müxtəlif ayələrində bildirilən və möminlərin həssaslıqla yerinə yetirməli olduğu bir ibadətdir. Bu mövzudakı bəzi ayələr belədir:

**Sən yalnız Allah'a ibadət et və şükür edənlərdən ol!** (Zümər surəsi, 66)

**Allah'ın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allah'a ibadət edirsinizsə, Onun nemətinə şükür edin.** (Nəhl surəsi,114)

Bununla yanaşı, Quranda şükür edənlərin daha çox nemətə qovuşacağı, nankorluq edənlərin isə Allah'ın şiddətli əzabına layiq olacağı xəbər verilmişdir:

**O zaman Rəbbiniz bildirmişdi: "Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram, yox əgər nankorluq etsəniz, (bilin ki,) Mənim əzabım şiddətlidir".** (İbrahim surəsi, 7)

İncildə "hər vəziyyətdə şükür edin" yazılmışdır. (1 Saloniklilərə, 5: 18) Hz. İsanın (əs) həyatının təsvir edildiyi hissələrdə də müxtəlif vəsilələrlə onun Allah'a şükür etdiyi bildirilir. Əlbəttə, bu gözəl davranış inananlar üçün nümunədir.

İsa onlardan soruşdu: "Neçə çörəyiniz var?" Onlar dedilər: "Yeddi və bir neçə kiçik balığımız var". Onda İsa camaata əmr etdi ki, yerdə otursunlar. Yeddi çörəklə balıqları götürdü və şükür duası edərək bölüb şagirdlərə verdi. Şagirdlər də camaata payladılar. Hamı yeyib-doydu. Artıq qalan tikələri yığdılar, yeddi səbət doldu. Yeyənlər isə qadınlar və uşaqlardan başqa, dörd min nəfər idi. (Matta, 15: 34-38)

Tövratda da inananlara şükür etmələri bildirilir. Bununla bağlı bəzi izahlar bu şəkildədir:

Ey Rəbbin möminləri, Onu tərənnüm edin, müqəddəsliyini yada salın, Ona şükürlər edin. Ona görə susmayacağam, Səni ucadan tərənnüm edəcəyəm. Ya Rəbb Allah'ım, Sənə daim şükür edəcəyəm! (Məzmur, 30: 4, 12)

Bütün ürəyimlə Rəbbə şükür edəcəyəm, bütün xariqələrini deyəcəyəm. Sənə görə fərəhimdən sevinib cuşa gələcəyəm, ey Haqq-Təala, adını tərənnüm edəcəyəm! (Məzmur, 9: 1-2)

Dərgahına şükürlərlə, həyətlərinə həmdlərlə gəlin. Ona şükür edin, adına alqış söyləyin. (Məzmur, 100: 4)

Rəbbə həmd edin! Ey Rəbbin qulları, həmd edin, Rəbbin adına həmd edin! (Məzmur, 113: 1)

...Sənə şükür və həmd olsun... (Daniel, 2: 23)

Ey Allah, biz Sənə şükür edirik... (Məzmur, 75: 1)

"Rəbbə şükür edin, adları ilə Onu çağırın, əməllərini xalqlar arasında elan edin! Onu ən gözəl şəkildə tərənnüm edin, bütün xariqələrini bəyan edin! Onun müqəddəs adı ilə fəxr edin, ey Rəbbi axtaranlar, ürəkləriniz qoy sevinsin! (1 Salnamələr, 16: 8-10)

Ya Rəbb, bütün yaratdıqların Sənə şükür edəcək, möminlərin Sənə alqış edəcək.

(Məzmur,  145: 10)

# Qəzəbi boğmaq

Qəzəb insanın hadisələri sağlam şəkildə və ağılla qiymətləndirməsinə, düzgün və ədalətli qərar verməsinə mane olur. Qəzəb insanı Allah'ın istədiyi şəkildə davranmaqdan, anlayışlı və mərhəmətli olmaqdan çəkindirir. Məhz bu səbəbdən, mömin qəzəbini boğmalıdır. Beləliklə, qəzəb və hiddət hisslərinin səbəb olacağı xətalı davranışlardan və müxtəlif zərərlərdən də qorunurlar. Quranda qəzəblərini boğanların əxlaqı təriflənmişdir:

**O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da  xərcləyir, qəzəblərini boğur və insanları bağışlayırlar. Allah yaxşı iş görənləri sevir.** (Ali-İmran surəsi, 134)

İncildə qəzəbin pis xüsusiyyət olduğu, qardaşına qəzəblənənlərin mühakimə olunacaqları bildirilmişdir:

Qoy hər cür kinlə birlikdə, hiddət, qəzəb, böhtan büsbütün sizdən uzaq olsun. (Efeslilərə,  4: 31)

Mən isə sizə deyirəm ki, qardaşına və bacısına hirslənən hər kəs mühakimə olunacaq... (Matta,  5: 22)

Tövratda da inananlara qəzəblənməmək tövsiyə edilir:

Səfeh dərhal qəzəbini büruzə verər, uzaqgörən şərəfsizliyin üstünü örtər.  (Süleymanın məsəlləri,  12: 16)

Hövsələsizlik ağılsızlıq gətirər... (Süleymanın məsəlləri,  14: 17)

...Səbirlə gözlə. Yolunda uğur qazanan hiyləgər insan üçün narahat olma. Qəzəbi at, hiddətdən çəkin, narahat olma, bunlar insanı şərə salar. (Məzmur,  37: 7-8)

Qəzəblənməyə tələsmə, çünki qəzəb ağılsızların ürəyində yuva salar. (Vaiz,  7: 9)

# Dua etmək

İnsanlar müxtəlif səbəblərlə müxtəlif zamanlarda Allah'a dua edirlər. Duanın mənasını bilməyən insan yox kimidir. İnananların duası müşriklərin duasından tamamilə fərqlənir. İnananlar yalnız Allah'a yönələrək, içdən və daima dua edirlər. Ancaq insanın göstəriş etmək, mənfəət əldə etmək və ya bir problemlə qarşılaşdığı zamanlarda sıxıntıdan qurtulmaq üçün etdiyi dualar Allah qatında məqbul olmaya bilər.

Duanın izah edildiyi bəzi Quran ayələri belədir:

**O, (əbədi) yaşayandır, Ondan başqa məbud yoxdur. Dini yalnız Ona məxsus edərək, dua edin...** (Mömin surəsi, 65)

**Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin.** (Əraf surəsi, 55)

**Səhər və axşam çağı Rəbbinin Üzünü diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar...** (Kəhf surəsi, 28)

**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən  yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə**

**iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.** (Bəqərə surəsi, 186)

Duanın vacibliyi və inananların etdikləri duaların nümunələri İncil və Tövratda da verilir. İncildə dua ilə bağlı izahlar belədir:

Hər cür dua və yalvarışla... Allah'a yaxınlaşın. Bu məqsəd uğrunda güclü və qətiyyətli olun və bütün müqəddəslər üçün dua edin. (Efeslilərə, 6: 18)

Dua etdiyiniz zaman ikiüzlülər kimi olmayın... (Matta, 6: 5)

Dua etdiyiniz zaman bütpərəstlər kimi boş sözlər söyləməyin... (Matta, 6: 7)

İmanla dua edərək hər nə istəsəniz, alacaqsınız. (Matta, 21: 22)

Özünüzü duaya həsr edin və duada şükür edin. (Koloselilərə, 4: 2)

İstəyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün, sizə açılacaq. Çünki hər istəyən alar, axtaran tapar, qapı döyənə açılar. (Matta, 7: 7-8)

Tövratda da duanın vacib bir ibadət olduğu, iman gətirənlərin duasının necə olacağı, Allah'ın dualara cavab verdiyi bildirilir:

Sənə sarı əllərimi açmışam, bir quraq torpaq kimi Sənin üçün susamışam. Ya Rəbb, mənə tez cavab ver... hər səhər məhəbbətini mənə hiss etdir, çünki Sənə güvənirəm. Gedəcəyim yolu mənə öyrət, çünki varlığımı Sənə verirəm. Ya Rəbb, məni düşmənlərdən qurtar, Sənə pənah gətirirəm. Mənə Sənin iradənə təslim olmağı öyrət, çünki mənim Allah'ım Sənsən... Doğru yolu mənə göstər... Salehliyin naminə canımı dardan qurtar. (Məzmur, 143: 6-11)

...Təvazökar olsa, dua edib Məni axtarsa və pis yollardan qayıtsa, o vaxt... onların günahını bağışlayacağam və torpaqlarını bərəkətləndirəcəyəm. (2 Salnamələr, 7: 14)

Ya Rəbb... Səni çağırıram... Ya Rəbb, ...Məni atma, tərk etmə, ey məni qurtaran Allah'ım!.. Ya Rəbb, yolunu mənə öyrət... Mənə düz yolda rəhbərlik et. (Məzmur, 27: 7-11)

Dua edəndə Allah ondan razı qalar, sevinərək Allah'ın üzünü görər, Allah onun vəziyyətini düzəldər. (Əyyub, 33: 26)

# Tövbə etmək

Hər insan həyatı boyu müxtəlif xəta və səhvlər edə bilər. Ona görə də səhvini başa düşüb qəti şəkildə onu düzəltməyə qərar verməli və Allah'dan bağışlanma diləməlidir. İnsan dəfələrlə tövbə etsə də, bəzən tövbəsini poza bilir. Bu, bir daha tövbə etməyəcəyi demək deyil. Allah hər şeyi görür, eşidir və bilir. İnsanın qəlbində gizlədiklərini də bilir. Yəni Allah'ı aldatmağa çalışanlar (Allah'ı tənzih edirik), əslində, özlərini aldadırlar.

İnsan sonsuz şəfqət və mərhəmət sahibi olan Allah'ın mərhəmətinə sığınmalı və tövbəni gecikdirməməlidir. Çünki ölüm anındakı tövbəsi qəbul edilməyə bilər. İnsanların tövbə etməyə çağırılmaları bəzi Quran ayələrində belədir:

**...Hamınız Allah'a tövbə edin ki, bəlkə nicat tapasınız.** (Nur surəsi, 31)

**Hər kim haqsızlıq etdikdən sonra tövbə edib (əməllərini) islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir.** (Maidə surəsi, 39)

**Ancaq tövbə edib iman gətirən və saleh əməllər edənlərdən başqa. Allah onların pis**

**əməllərini yaxşı əməllərlə əvəz edər. Allah bağışlayandır, rəhmlidir!** (Furqan surəsi, 70)

İncildə tövbəyə dair bəzi ifadələr belədir:

Mən salehləri deyil, günahkarları tövbəyə çağırmaq üçün gəlmişəm. (Luka, 5: 32)

Xeyr, Mən sizə deyirəm: tövbə etməsəniz, hamınız onlar kimi məhv olacaqsınız. (Luka, 13: 5)

...Allah'ın Səltənəti yaxınlaşıb. Tövbə edin və Müjdəyə inanın. (Mark, 1: 15)

Tövratda tövbə ilə bağlı belə bildirilir:

Tövbə edən sakinləri də salehliklə xilas olacaq. (Yeşaya, 1: 27)

Qulaqlarıma sorağın çatmışdı... Ona görə, özümdən zəhləm gedir, torpağın, külün içində tövbə edirəm. (Əyyub, 42: 5-6)

# Sadəcə Allah'ın razılığını axtarmaq

İnsanlardan: “Allah üçün nə etmisən?” - deyə soruşanda müxtəlif cavablar verirlər. Bəziləri kasıbları doyurduğunu, bəziləri müxtəlif ibadətlər etdiyini, bəziləri də dua etdiyini söyləyir. Bunlar, şübhəsiz, gözəl davranışlardır. Ancaq insan yalnız müəyyən vaxtlarda Allah üçün gözəl davranışlar edib, digər vaxtlarında Allah'ın varlığından və hesab gününün yaxınlığından qafil olmamalıdır. İman gətirən insan Allah'ın onu əhatə etdiyini unutmur və həyatının hər anında Allah'ın razılığını və sonsuz Cənnəti qazanıb sonsuz Cəhənnəmdən xilas olmaq üçün əlindən gələni edir.

Quranda iman gətirənlərin ibadətlərinin, yaşayışlarının və ölümlərinin yalnız aləmlərin Rəbbi olan Allah üçün olduğu bildirilmişdir (Ənam surəsi, 162). Bu, möminin bütün həyatının yeganə məqsədə - Allah'ın razılığını qazanmağa yönəlməsi deməkdir. Allah Quranda Özünün razılığını qazanmağa çalışanların xilas olacağını bildirmişdir:

**Binasını Allah qorxusu və (Onun) rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa binasını dağılmaqda olan uçurumun lap kənarında quran və onunla birlikdə Cəhənnəm oduna yuvarlanan kəs? Allah zalım qövmü doğru yola yönəltməz.** (Tövbə surəsi, 109)

Quranda hz. Süleymanın (əs) duasında Allah'dan Onun razılığını qazana biləcəyi işləri ona ilham etməsini istədiyi bildirilir. Hz. Süleymanın (əs) bu duası bütün möminlər üçün gözəl nümunədir:

**...”Ey Rəbbim! Mənə həm mənim özümə, həm də valideynlərimə əta etdiyin nemətə şükür etmək üçün, Sənin razı qalacağın yaxşı əməl etmək üçün ilham ver və məni öz mərhəmətinlə əməlisaleh qullarına qovuşdur!”** (Nəml surəsi, 19)

Tövratda da iman gətirənlərin Allah'a: “Mənə Sənin iradənə təslim olmağı öyrət”, - deyə dua etdikləri ifadə edilir:

Ya Rəbb, məni düşmənlərdən qurtar, Sənə pənah gətirirəm. Mənə Sənin iradənə təslim olmağı öyrət, çünki mənim Allah'ım Sənsən... (Məzmur, 143: 9-10)

Rəbb... təmiz düşüncələrdən razı qalar. (Süleymanın məsəlləri, 15: 26)

Rəbb… Həqiqəti yerinə yetirənlərdən razı qalar. (Süleymanın məsəlləri, 12: 22)

Rəbb… yolu kamil olanlardan razı qalar. (Süleymanın məsəlləri, 11: 20)

Dua edəndə Allah ondan razı qalar, sevinərək Allah'ın üzünü (rizasını) görər, Allah onun vəziyyətini düzəldər. (Əyyub, 33: 26)

...Rəbb mənə dayaq oldu. O, məni genişliyə çıxardı, Məndən razı qalıb məni qurtardı. (Məzmur, 18: 18-19)

Rəbbi, Onun qüvvətini axtarın, daim hüzurunu (rizasını) axtarın. Yaratdığı xariqələri, möcüzələri və hökmləri xatırlayın... Allah'ımız Rəbb Odur, hökmü bütün yer üzərindədir. (Məzmur, 105: 4-7)

İncildə də hz. İsanın (əs) ona tabe olanları Allah'ın rizasını qazanmaq üçün çalışmağa çağırdığı bildirilir. Hz. İsanın (əs) hər zaman yalnız Allah'ın razı olacağı üstün əxlaq göstərdiyi ifadə olunmuş və bütün inananların hz. İsa (əs) kimi davranmaları əmr edilmişdir. İman gətirənlərin harada hansı işlə məşğul olmalarından asılı olmayaraq, gördükləri bütün işləri yalnız Allah üçün etmələrinin vacib olduğu İncildə belə bildirilir:

Beləliklə, nə yeyirsinizsə, nə içirsinizsə, nə edirsinizsə, hər şeyi Allah'ın İzzəti üçün edin. (1 Korinflilərə, 10: 31)

...İtaət edin. Bunu insanları razı salmaq üçün... deyil, səmimi qəlbdən, Allah'dan qorxaraq edin. Gördüyünüz hər işi insanlar üçün deyil, Rəbb üçün canla-başla edin. (Koloselilərə, 3: 22-24)

...Allah'ın iradəsinə təslim olan oraya (Cənnətə) girəcək. (Matta, 7: 21)

# Səbirli olmaq

İnsan hövsələsiz yaradılmışdır, hər arzusunun tezliklə həyata keçməsini istəyir. Halbuki hər iş üçün Allah qatında müəyyən edilmiş bir zaman var. Heç kim bunu önə keçirməyə və ya təxirə salmağa qadir deyil. Yəni mömin səbir etməyi bacarmalıdır. İstər elçilər, istərsə də inananlar qarşılarına çıxan çətinliklərə ölənə qədər səbir ediblər.

Quranda **“Rəbbin üçün səbir et”** (Müddəssir surəsi, 7) hökmü bildirilmişdir. Yəni səbir etmək bir ibadətdir. Möminlərin səbri təmkinli səbirdir (Məaric surəsi, 5). Qısa dünya həyatında səbir edənlər belə müjdələnmişlər:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver.** (Bəqərə surəsi, 155)

Üstəlik, səbir möminlərə maddi və mənəvi qüvvət qazandıran gözəl əxlaq xüsusiyyətidir. Allah Quranda Peyğəmbərimizin (səv) dövründə cəhd edən möminlərdən 20 səbirli insanın 200 nəfəri məğlub edə biləcəyini bildirmişdir. 100 səbirli mömininin isə 1000 insanı məğlub edə biləcəyini xəbər vermişdir. Bu müqayisə göstərir ki, səbir iman gətirənlərə böyük güc qazandırır:

**...Əgər aranızda iyirmi səbirli kişi olsa, (kafirlərdən) iki yüzünə qalib gələr; əgər aranızda yüz (səbirli kişi) olsa, kafirlərdən mininə qalib gələr... (Ənfal surəsi, 65)**

Tövratda da səbrin əhəmiyyəti vurğulanmış və səbir edənlərin üstün olduqları bildirilmişdir:

İgid olmaqdan səbirli olmaq yaxşıdır... (Süleymanın məsəlləri, 16: 32)

Ağıllı insan səbirlidir, başqasının günahını bağışlamaq ona şərəf gətirər. (Süleymanın məsəlləri, 19: 11)

Rəbbin hüzurunda sükut et, Onu səbirlə gözlə. Yolunda uğur qazanan hiyləgər insan üçün narahat olma. (Məzmur, 37: 7)

Kəmhövsələ dava yaradar, səbirli münaqişəni sovuşdurar. (Süleymanın məsəlləri, 15: 18)

İncildə də inananların səbirli olmaları müxtəlif izahlarla bildirilmişdir. Bunlardan bəziləri belədir:

Rəbbin qulu davakar olmamalıdır. Əksinə, hamı ilə mülayim rəftar etməli, gözəl əxlaqı öyrətməyə qadir, səbirli olmalıdır. (2 Timoteyə, 2: 24)

...Tamamilə təvazökar və həlim, səbirli olub bir-birinizə məhəbbətlə... (Efeslilərə, 4: 2)

...Zəiflərə kömək edin, hamıya qarşı səbirli olun. (1 Saloniklilərə, 5: 14)

Amma sonadək səbir edən xilas olacaq. (Matta, 24, 13)

# Düşünmək

Quranın bir çox ayələrində insanlar düşünməyə dəvət edilirlər. Allah Quranda insanlara Quran ayələri, insanın yaradılışı, təbiət hadisələri, verilən nemətlər, digər canlılar üzərində dərin düşünməyi tövsiyə etmişdir. Bu şəkildə, insanlar Allah'ın varlığının dəlillərini və yaradılış həqiqətlərini dərin şəkildə qavraya bilər. Bu həqiqət bir ayədə belə bildirilir:

**Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-biri ilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə (yüklənmiş halda) dənizdə üzən gəmilərdə, Allah'ın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, (Onun) bütün heyvanatı (yer üzünə) yaymasında, küləklərin (istiqamətinin) dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda başa düşən insanlar üçün dəlillər vardır.** (Bəqərə surəsi, 164)

Möminlərin dərin düşünən və düşündüklərindən nəticə çıxaran insanlar olduğu Quranda belə bildirilmişdir:

**Doğrusu, göylərin və yerin xəlq edilməsində, gecə ilə gündüzün bir-birini əvəz etməsində ağıllı adamlar üçün dəlillər vardır. O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allah'ı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür (və deyirlər:) "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi odun əzabından qoru!** (Ali-İmran surəsi, 190-191)

İnsan hara baxırsa-baxsın, hara gedirsə-getsin, Allah'ın sonsuz elminin, tayı-bərabəri olmayan sənətinin, sərhədsiz qüdrətinin, ucalığının və böyüklüyünün əsərləri ilə qarşılaşar. Ancaq insan bu həqiqəti qavramaq üçün ön mühakimələrdən qurtulmalı, əhatəsindəki varlıqları və hadisələri diqqətli şəkildə araşdırmalıdır. Səmimi düşünən insan qarşılaşdığı hadisələrdən məna çıxarar və ibrət alar. Beləliklə, Allah'ın gücünü və əzəmətini daha yaxşı təqdir edər, Ona olan sevgisi, hörməti və bağlılığı artar.

İncildə səmimi iman gətirənlərin düşünmələri və gördüklərindən ibrət almaları ifadə edilmişdir. Düşünməyə dəvət edən bəzi İncil ifadələri belədir:

... Hələ dərk etmirsinizmi, başa düşmürsünüzmü? Ürəyiniz hiss etmirmi? (Mark, 8: 17)

Qardaşlar, aldığınız çağırış barəsində düşünün... (1 Korinflilərə, 1: 26)

Dediklərimə fikir ver. Rəbb söylədiyim hər şeydə sənə anlayış verəcək. (2 Timoteyə, 2: 7)

Tövratda Allah'ın yaratma sənətini və qüdrətini düşünməyin vacib olduğu bildirilmiş, iman gətirənlər dərin düşünməyə dəvət edilmişlər. Tövratda dərin düşünmə ilə bağlı bəzi izahlar belədir:

Gecə-gündüz bu təlimatı dərin düşünər. (Məzmur, 1: 2)

Yatanda belə Səni xatırlayıram, gecə növbələrində Səni düşünürəm. (Məzmur, 63: 6)

Öyüdlərinin ardınca gedərkən sevinirəm, sanki, bolluca var-dövlətə qovuşmuşam. Qayda-qanunlarını dərindən düşünürəm, Sənin yollarından gözümü çəkmirəm. Qaydalarından zövq alıram, sözünü unutmuram. (Məzmur, 119: 13-16)

Sənin bütün işlərini dərindən düşünürəm, əməllərin barədə təfəkkür edirəm. (Məzmur, 77: 12)

# Gözəl əxlaqa çağırmaq

Elçilər və inananlar tarix boyu insanları Allah'ın yoluna və gözəl əxlaqa dəvət etmişlər. Allah'ı, axirəti, Cənnət və Cəhənnəmi, gözəl əxlaqı izah edərək onları Allah'ın istədiyi kimi yaşamağa çağırmışlar. Bir Quran ayəsində: **"Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et"** (Nəhl surəsi, 125) -deyə əmr edilmişdir. Müxtəlif Quran ayələrində uca Allah'a çağıran və gözəl əxlaqın tətbiq olunmasına çalışanlar təriflənmiş və müjdələnmişlər:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır.** (Ali-İmran surəsi, 104)

**Tövbə edən, ibadət edən, həmd edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işlər görməyi buyurub pis əməlləri qadağan edən və Allah'ın hüdudlarını qoruyan o möminləri müjdələ.** (Tövbə surəsi, 112)

"Ali-İmran" surəsinin 113-114-cü ayələrində kitab əhlinin, yəni Allah qatından kitab verilmiş yəhudi və xristianların içindəki topluluğa diqqət çəkilir. Gözəl əxlaqa dəvət edən səmimi, saleh yəhudi və xristianlardan ibarət olan bu topluluq ayələrdə belə təsvir edilir:

**Hamısı eyni cür deyillər. Kitab əhli içərisində haqdan möhkəm yapışan bir camaat vardır ki, onlar gecələri səcdəyə qapanıb Allah'ın ayələrini oxuyurlar. Belələri Allah'a, axirət gününə iman gətirir, yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edir və xeyirxah işlər görməyə tələsirlər. Məhz onlar əməlisalehlərdəndirlər.** (Ali-İmran surəsi, 113-114)

**Həqiqətən, kitab əhlindən elələri də var ki, Allah'a müti olaraq həm Allah'a, həm sizə nazil edilənə, həm də özlərinə nazil edilənə iman gətirir, Allah'ın ayələrini ucuz qiymətə satmırlar. Onların öz Rəbbi yanında mükafatları vardır. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir.** (Ali-İmran surəsi, 199)

Hz. İsanın (əs) və tələbələrinin həyatı buna gözəl nümunədir. Mövzu ilə bağlı İncildəki

bəzi ifadələr belədir:

Biz isə özümüzü duaya və Allah kəlamını yaymağa həsr edək. (Həvarilərin işləri, 6: 4)

Qardaşlarım, əgər aranızdan biri yolunu həqiqətən azsa və kimsə onu doğru yola qaytarsa, qoy bilsin ki, günahkarı azdığı yolundan qaytaran onun canını ölümdən qurtarar və bir çox günahın üstünü örtər. (Yaqub, 5: 19-20)

Tövratda da insanlar gözəl əxlaqa belə dəvət edilirlər:

Qoy şərdən çəkinib yaxşılıq etsin, qoy sülhü axtarıb ardınca getsin! (Məzmur, 34: 14)

Dul qadına, yetimə, qəribə və yoxsula zülm etməyin. Ürəyinizdə bir-birinizə qarşı pis niyyətlər bəsləməyin. (Zəkəriyyə, 7: 10)

Pislikdən yaxşılığa qayıdın ki, sağ qalasınız! Beləcə, iddia etdiyiniz kimi, Rəbb həqiqətən, sizə yar olacaq. Pisliyə nifrət edin, yaxşılığı sevin... (Amos, 5: 14-15)

# Möcüzə gözləməmək

Tarix boyu bütün insanlar iman gətirmək üçün onlara göndərilən elçilərdən möcüzələr istəmişlər. Hz. İsa (əs) bunu: “Siz əlamətlər və möcüzələr görməsəniz, iman gətirməyəcəksiniz” (Yəhya, 4: 48) -deyə ifadə etmişdir.

İnkarda israr edənlərin hz. Muhəmmədən (səv) də möcüzə istədikləri Quranda belə bildirilmişdir:

**Onlar dedilər: “Bizə yerdən bir bulaq çıxarmayınca sənə iman gətirməyəcəyik və ya ortasından şırıl-şırıl çaylar axıdacağın xurma və üzüm bağın olmayınca; yaxud iddia etdiyin kimi, göyü parça-parça üstümüzə yağdırmayınca və ya Allah'ı və mələkləri qarşımıza gətirməyincə, yaxud qızıldan bir evin olmayınca və ya göyə qalxmayınca (biz sənə inanmayacağıq). Əgər bizə oxuyacağımız bir kitab endirməsən, göyə qalxmağına da inanmayacağıq”.**

**De: “Rəbbim pak və müqəddəsdir! Mən isə yalnız elçi (göndərilmiş) bir insanam”**. (İsra surəsi, 90-93)

Halbuki ağıllı və vicdanlı insanlar Allah'a inanmaq üçün möcüzə görməyə ehtiyac duymurlar. Çünki ağıllı bir insan üçün hər şey Allah'ın dəlilidir. Atomlardan qalaktikalara qədər kainatın hər hissəsi Allah'ın varlığının və yaratmasının dəlilləri ilə doludur. İsrarla möcüzələr görmək istəyənlərin əsl niyyəti isə qaçmağa yol axtarmaqdır. Bu insanlar elçilərin Allah'ın lütfü ilə göstərdikləri möcüzələr qarşısında Allah'a iman gətirmək əvəzinə, onları günahlandırır, cadugərlik və ya təxribatçılıqda ittiham edirlər.

İncildəki “Əgər onlar Musaya və peyğəmbərlərə qulaq asmırlarsa, ölülərdən biri dirilsə belə, inanmazlar” (Luka, 16: 31) ifadəsi möcüzə istəyən inkarçıların səmimiyyətsizliyinə nümunədir.

Bu insanların möcüzə görsələr belə, iman gətirməyəcəkləri bir Quran ayəsində də belə izah edilir:

**Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah istəməyincə, onlar iman gətirməzdilər. Lakin onların**

**çoxu (bunu) bilmir.** (Ənam surəsi, 111)

**(Kafirlər) Allah'ın adı ilə möhkəm and içdilər ki, əgər onlara bir ayə gəlsə, mütləq ona inanacaqlar. De: "Ayələr ancaq Allah'ın yanındadır. Siz haradan biləsiniz ki, o (ayələr) gəldikdə onlar yenə də iman gətirməyəcəklər?"** (Ənam surəsi, 109)

Tövratda da inkarçıların bu münasibəti hz. Musanın (əs) qissəsi ilə izah edilir:

Rəbb Musaya və Haruna dedi: "Firon sizə: "Məni inandırmaq üçün bir möcüzə göstərin", - deyəndə Musa Haruna desin: "Öz əsanı götürüb fironun önündə yerə at ki, ilana çevrilsin"". Musa və Harun fironun yanına gəlib Rəbb necə əmr etmişdisə, elə də etdilər. Harun öz əsasını fironun və onun əyanlarının qarşısında yerə atdı və əsa ilana çevrildi. Firon isə müdrik adamları və cadugərləri çağırdı. Misir sehrbazları da öz sehrləri ilə belə etdilər. Hər biri öz əsasını yerə atıb ilana çevirdi, ancaq Harunun əsası onların əsalarını uddu. Lakin Rəbbin söylədiyi kimi, fironun ürəyi inadkar oldu və onlara qulaq asmadı. (Çıxış, 7: 8-13)

# Göz, qəlb və qulaqların möhürlənməsi

**Onlar deyirlər: "Sənin bizi dəvət etdiyinə qarşı qəlbimiz qapalıdır, qulaqlarımızda tıxac vardır, bizimlə sənin arana pərdə çəkilmişdir. Sən işində ol, biz də öz işimizdə olacağıq!"** (Fussilət surəsi, 5)

**Allah onların qəlblərini və qulaqlarını möhürləmiş, gözlərinə də pərdə çəkmişdir. Onlar üçün böyük bir əzab vardır.** (Bəqərə surəsi, 7)

**Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.** (Əraf surəsi, 179)

## İncil

Çünki bu xalqın ürəyi kütləşdi, qulaqları kar oldu, gözlərini yumdular ki, gözləri ilə görməsinlər, qulaqları ilə eşitməsinlər, ürəkləri ilə anlamasınlar və Mənə sarı gəlməsinlər ki, Mən onlara şəfa verim. (Matta, 13: 15)

Gözləriniz ola-ola görmürsünüzmü? Qulaqlarınız ola-ola eşitmirsinizmi? Məgər yadınızdan çıxıb? Mən beş çörəyi beş min nəfərin arasında bölüb paylayanda yemək tikələrindən neçə zənbil doldurdunuz?... (Mark, 8: 18-19)

## Tövrat

Mənə Rəbbin bu sözü nazil oldu: "Ey bəşər oğlu, sən asi bir xalqın arasında yaşayırsan. Onların görmək üçün gözləri var, ancaq görmürlər, eşitmək üçün qulaqları var, ancaq eşitmirlər, çünki onlar asi bir xalqdır. (Yezekel, 12: 1-2)

Ey karlar, eşidin! Ey korlar, baxın, görün!.. Siz çox şey gördünüz, amma nəzərə almadınız, qulaqlarınız açıq idi, amma eşitmədiniz! (Yeşaya, 42: 18, 20)

O, dedi: "Get bu xalqa bunu çatdır: "Eşitdikcə eşidəcəksiniz, amma anlamayacaqsınız, gördükcə görəcəksiniz, amma qanmayacaqsınız". (Yeşaya, 6: 9)

# Özünü uca tutmamaq

Qüsursuzluq yalnız Allah'a məxsusdur. Mömin qəsdən, ya da bilməyərək səhv edə bilər, hər dəfə qəlbən Allah'a yönələrək tövbə edər, bir daha eyni səhvi təkrar etməməyə diqqət edər. Özünü səhvsiz və günahsız göstərməyə, başqalarını əskik görərək özünü ucaltmağa çalışmaz. Səmimiyyətsiz şəkildə gördüyü işlərin özlərini xilas edəcəyini zənn edərək təkəbbürlənənlər Allah'ın razılığını və rəhmətini qazana bilməyəcəklər:

**Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki tel qədər haqsızlıq edilməz.** (Nisa surəsi, 49)

Quranda bu əxlaqa sahib olan şəxslərin səmimiyyətsiz səylərinin onları qurtarmayacağı və ziyana uğrayacaqları bildirilmişdir:

**De: "Sizə əməlləri baxımından ən çox ziyana uğrayanlar barəsində xəbər verimmi? O kəslər haqqında ki, onların dünya həyatındakı səyləri boşa çıxmışdır. Çünki onlar özlüyündə yaxşı işlər gördükləri gümanında idilər**. (Kəhf surəsi, 103-104)

Tövratda da öyünmənin pis əxlaq göstəricisi olduğu bildirilmişdir:

Rəbb belə deyir: "Müdrik müdrikliyi ilə öyünməsin, igid öz gücü ilə öyünməsin, varlı öz sərvəti ilə öyünməsin. Ancaq öyünən onunla öyünsün ki, Mən Rəbbin dünyada məhəbbət, ədalət və salehlik yaratdığını dərk edir və Məni tanıyır. Çünki Mən bunlardan xoşlanıram". Rəbb belə bəyan edir. (Yeremya, 9: 23-24)

Məğrurlara dedim: "Daha məğrurluq etməyin", pislərə dedim: "Gücünüzü göstərməyin... Dikbaş-dikbaş danışmayın". İnsanı yüksəltmək nə şərqdən, nə qərbdən, nə də çöllərdən gəlir. Hökm verən Allah isə həm alçaldır, həm yüksəldir. (Məzmur, 75: 4-7)

Pis insan könlünün istəkləri ilə fəxr edir... Təkəbbürlü, pis insan Allah`ı axtarmaz ... (Məzmur, 10: 3-4)

İncildəki bir çox izahda isə qürurlanıb özünə ucaltmaq istəyənin, əslində, alçaldığı ifadə edilmişdir. "Luka" İncilində keçən aşağıdakı cümlə buna nümunədir:

...Çünki öz-özünü ucaldan hər kəs alçaldılacaq, öz-özünü alçaldan isə ucaldılacaq. (Luka, 18: 14)

Allah'ın qarşısında heç bir insan öyünməsin… Buna görə yazıldığı kimi, öyünən Rəblə öyünsün. (1 Korinflilərə, 1: 29, 31)

Heç bir işi xudbinliklə və ya şöhrətpərəstliklə etməyin. Qoy hər biriniz təvazökarlıqla digərini özündən üstün saysın. (Filiplilərə, 2: 3)

Məhəbbət səbirli, xeyirxahdır. Məhəbbət paxıllıq etməz, öyünməz, lovğalanmaz. (1 Korinflilərə, 13: 4)

# Salamlamaq

Salam vermək və ya xeyir-dua diləmək insanların bir-birinə ən gözəl dilək və arzularını ifadə etmə formasıdır. İnananlar bir yerə toplanarkən və evlərə girərkən bu gözəl davranışı

göstərirlər. İşlərinin çox və ya təcili olması onları salamlamaq və ya xeyir-dua diləməkdən yayındırmır. Quranda salam verilən şəxsin o salama daha gözəl şəkildə və ya eynilə cavab verməsi və inananların evlərə girərkən salam vermələri əmr edilmişdir:

**Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya (verilən salamı olduğu kimi) qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir.** (Nisa surəsi, 86)

**...Evlərə daxil olduğunuz zaman özünüzü Allah tərəfindən mübarək və çox xoş bir salamla salamlayın. Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz.** (Nur surəsi, 61)

İncildəki ifadələr isə belədir:

Evə girərkən ev sakinlərini salamlayın. (Matta, 10: 12)

...İsa içəri girdi. O, ortada durub onlara: “Salam!” dedi... İsa yenə onlara dedi: “Salam!” (Yəhya, 20: 19, 21)

Tövratda isə belə bəhs edilir:

Harun və oğullarına belə de: “...Qoy Rəbb xeyir-dua verib sizi qorusun… lütf versin… sizə sülh versin”. (Saylar, 6: 23-26)

...“Qoy səni sevənlər dinc həyat yaşasın! Qoy qala divarlarının içində sülh olsun! Qoy saraylarındakılar dinc yaşasın! Yoldaşlarıma, dostlarıma görə: “Səndə sülh olsun!” - deyirəm. (Məzmur, 122: 6-8)

…Dünyada yaşayan xalqlara, millətlərə və dillərə mənsub olan insanlara belə yazdı: “Sülhünüz bol olsun!” (Daniel, 6: 25)

# Qısqanclıqdan çəkinmək

**...Ancaq nəfslərdə xəsislik (qısqanclıq) həmişə mövcuddur. Əgər siz yaxşı dolanıb (dava-dalaşdan, kobud rəftardan) çəkinsəniz, (bu sizin üçün daha yaxşı olar). Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbərdardır!** (Nisa surəsi, 128)

**De: “Sığınıram sübhün Rəbbinə!... və həsəd aparan zaman paxılın şərindən!”** (Fələq surəsi, 1,5)

## İncil

Cismani təbiətin əməlləri isə bəllidir. Bunlar əxlaqsızlıq, murdarlıq, pozğunluq, bütpərəstlik, sehrbazlıq, düşmənçilik, münaqişə, qısqanclıq, qəzəb, xudbinlik, nifaq, təfriqələr, paxıllıq, sərxoşluq, eyş-işrətlər və buna bənzər şeylərdir... (Qalatiyalılara, 5: 19-21)

...Həsəd aparırsınız, istədiyinizə nail olmayınca çəkişib dava edirsiniz. Əldə edə bilmirsiniz, çünki istəmirsiniz. (Yaqub, 4: 2)

Məhəbbət səbirli, xeyirxahdır. Məhəbbət paxıllıq etməz, öyünməz, lovğalanmaz. (1 Korinflilərə, 13: 4)

Madam ki, biz Allah sayəsində yaşayırıq... Şöhrətpərəst olmayaq, bir-birimizi hirsləndirməyək, bir-birimizə paxıllıq etməyək. (Qalatiyalılara, 5: 25-26)

## Tövrat

Səfehi qəzəb öldürər, nadanı həsəd məhv edər. (Əyyub, 5: 2)

Qısqanclıq... coşdurar, ondan amansızcasına qisas alar. (Süleymanın məsəlləri, 6: 34)

# Yalan danışmamaq

**...yalan sözlərdən də çəkinin.** (Həcc surəsi, 30)

**Ey iman gətirənlər! Allah'dan qorxun və doğru söz söyləyin!** (Əhzab surəsi, 70)

## İncil

Çünki ürəkdən pis fikirlər... yalançı şahidlik və küfr çıxar. (Matta, 15: 19)

Bir-birinizə yalan danışmayın... (Koloselilərə, 3: 9)

## Tövrat

...Bir-birinizə yalan satıb aldatmayın... Adıma yalandan and içməyin... (Levililər, 19: 11-12)

Boş xəbər gəzdirməyin. Yalançı şahid olmaq üçün haqsız adamla əlbir olmayın. Şər iş görən izdihama qoşulmayın. Məhkəmədə çoxları ilə birləşərək ədaləti təhrif edib, yalançı şahid olmayın. (Çıxış, 23: 1-2)

Yalan işdən uzaq ol. Günahsıza və salehə ölüm hökmü vermə. Çünki Mən haqsıza bəraət qazandırmayacağam. (Çıxış, 23: 7)

# Zina etməmək

**Zinaya yaxınlaşmayın. Çünki bu, iyrənc bir əməl və murdar bir yoldur!** (İsra surəsi, 32)

## Tövrat

Zina etmə. (Çıxış, 20: 14)

... Ölkə zinakarlarla doludur... İnsanlar pis yola düşüb... (Yeremya, 23: 10)

## İncil

İsa sözünə davam etdi: "İnsanı murdar edən insandan gələndir. İnsanın daxilindən, insanın ürəyindən gələn bunlardır: pis fikirlər, əxlaqsızlıq, oğurluq, qatillik, zinakarlıq, tamahkarlıq, şər əməllər, hiylə, şəhvət, paxıllıq, küfr, lovğalıq və ağılsızlıq. (Mark, 7: 20-22)

# Oğurluq etməmək

**Ey Peyğəmbər! Mömin qadınlar Allah'a heç bir şərik qoşmayacaqlarına, oğurluq və zina etməyəcəklərinə, uşaqlarını öldürməyəcəklərinə, əlləri ilə ayaqları arasından olanı yalanla ört-basdır etməyəcəklərinə və heç bir yaxşı işdə sənə qarşı çıxmayacaqlarına dair sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allah'dan onlar üçün bağışlanma dilə. Həqiqətən, Allah bağışlayandır, rəhmlidir.** (Mümtəhinə surəsi, 12)

## Tövrat

Oğurlamayın, bir-birinizə yalan satıb aldatmayın. (Levililər, 19: 11)

...Evlərə oğru girir, küçədə quldur soyğunçuluq edir. Ürəklərində düşünmürlər ki, Mən onların bütün pisliklərini yada salıram. İndi günahları onları əhatəyə alıb və gözümün önündədir. (Huşə, 7: 1-2)

## İncil

...Qətl etmə, zina etmə, oğurluq etmə, yalan şahidlik etmə, kimisə aldatma, ata-anana hörmət et. (Mark, 10: 19)

# Ana və ata ilə ən gözəl şəkildə davranmaq

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" -belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!** (İsra surəsi, 23)

## İncil

...Ata-anana hörmət et. (Luka, 18: 20; Matta, 19: 19)

Ey övladlar, Rəbbə məxsus olduğunuza görə ata-ananıza itaət edin. Bu, haqdandır. İçində vəd olan ilk əmr budur: ata-anana hörmət et... (Efeslilərə, 6: 1-3)

Sən Onun əmrlərini bilirsən: qətl etmə, zina etmə, oğurluq etmə, yalan şahidlik etmə, kimisə aldatma, ata-anana hörmət et. (Mark, 10: 19)

## Tövrat

Ata-anana hörmət et... (Çıxış, 20: 12)

Allah'ın Rəbbin əmr etdiyi kimi ata-anana hörmət et ki, ömrün uzun olsun. Qoy Allah'ın Rəbbin sənə verəcəyi torpaqda xoş güzəranın olsun. (Qanunun təkrarı, 5: 16)

# VI HİSSƏ
# ORTAQ FİKRİ MÜBARİZƏ

Bu gün insanların həyat tərzi və yaşayış səviyyəsi araşdırılanda inanclı insanların birləşərək fikri mübarizə aparmasının vacib olduğu aydın görünür. Qarşıdurmalar, müharibələr, qırğınlar, yoxsulluq, aclıq, əxlaqi degenerasiya, sosial ədalətsizlik kimi problemlər fərqli səviyyələrdə olmaqla yanaşı, bu gün bir çox ölkədə çətinliklərə səbəb olur və dünyanın müxtəlif bölgələrində bu vəziyyətdən zərər görən günahsız insanlar özlərinə uzanan bir kömək əli gözləyirlər. Əlbəttə, dünyanın müxtəlif bölgələrində vicdanlı insanlar öz imkanları daxilində bu insanlara kömək etməyə çalışırlar. Aclıq çəkən bölgələrə yardım paketləri çatdırılır, müharibə və qarşıdurmaların yaşandığı yerlərdə sülh elçiləri zərərçəkmişləri qorumağa çalışır, hər ölkədə cinayətə və əxlaqi degenerasiyaya qarşı tədbirlər görürlər. Ancaq bu cəhdlər regional fəaliyyətlərlə və mövcud problemlərin həll edilməsi ilə məhdudlaşır. Halbuki insanlara ağrı və çətinlik verən hər cür problemin tamamilə aradan qaldırılması, bütün dünyanın rahatlığa, təhlükəsizliyə və rifaha qovuşması mümkündür.

Bunun üçün problemlərin əsl səbəbləri təsbit edilməli və bunlara zəmin hazırlayan fikri mühit aradan qaldırılmalıdır. Cəmiyyətlərdə yaşanan çətinliklərin təməlinə baxanda əsas problemin insanların din əxlaqından uzaqlaşdığından qaynaqlandığını görürük. Şəfqəti, sevgini, anlayışı, mərhəməti, yardımlaşmağı aradan qaldıran, bunun yerinə güclü olanın haqlı olduğu, hər kəsin yalnız öz mənfəətini düşündüyü, mənfəətçi, mübahisəçi və davakar bir cəmiyyət modelinin yaradılmasında insanların Allah qarşısında məsul olduğu və axirətdə hesab verəcəkləri həqiqətinə laqeyd yanaşılmasının böyük rolu olmuşdur.

XIX əsrdə dünya düşüncə tarixində yaşanan dəyişikliklər sonrakı əsrlərdə yaşanacaq mənəvi böhranın təməlini qoymuşdur. Bu dövrdə o zamana qədər dünyaya hakim olan deist (Allah'ın varlığını qəbul edən) inanclara və dinlərə qarşı ateizm (Allah'ı inkar) azğınlığı güc qazandı. XVIII əsrdə Diderot, Baron d'Holbax kimi materialistlərin kainatın sonsuzdan bəri var olduğu və maddədən başqa bir varlıq aləmi olmadığı fikirləri Avropada yayılmağa başladı. Feyerbax, Marks, Engels, Nitşe, Durkheym, Freyd kimi mütəfəkkirlərin təsiri ilə XIX əsrdə ateizm daha da yayıldı.

Ateizmə ən böyük dəstəyi təmin edən şəxs isə yaradılışı inkar edən və buna qarşı təkamül nəzəriyyəsini qarşıya qoyan Çarlz Darvin oldu. Darvinizm ateistlərin əsrlərdir cavab verə bilmədiyi "canlılar və insan necə yarandı?" sualına "elmi" cavab gətirdi. Təbiətin cansız maddəni canlandıran və sonra da ondan milyonlarla fərqli canlı növü meydana gətirən bir mexanizm olduğunu iddia etdi və bir çox insanı buna inandırdı.

XIX əsrin sonlarında ateistlər hər şeyi açıqladığını zənn etdikləri bir dünyagörüşü meydana gətirmişdilər: kainatın yaradıldığını inkar edir, buna qarşı: "Kainat sonsuzdan bəri mövcuddur, başlanğıcı yoxdur", - deyirdilər. Kainatdakı nizam və tarazlığın təsadüfən ortaya

çıxdığını irəli sürür, kainatda heç bir məqsədin olmadığını iddia edirdilər. İnsanın və digər canlıların necə var olduğu sualının darvinizm tərəfindən açıqlandığını zənn edirdilər. Tarix və sosiologiyanın Marks və Durkheym, psixologiyanın isə Freyd tərəfindən ateist təməllərdə açıqlandığını zənn edirdilər. Halbuki bu fikirlərin hər biri XX əsrdəki elmi, siyasi və ictimai yeniliklərlə darmadağın edildi. Astronomiyadan biologiyaya, psixologiyadan sosial əxlaqa qədər bir çox fərqli sahədəki tapıntı, təsbit və nəticələr ateizmin bütün fərziyyələrini çökdürdü.

Ancaq bu müddət ərzində darvinist və materialist düşüncəyə əsaslanan cərəyanlar bəşəriyyətə böyük fəlakətlər gətirdilər. Kommunizm, faşizm, anarxizm, irqçilik, nihilizm, ekzistensializm kimi fəlsəfə və ideologiyalar insanları, cəmiyyətləri və millətləri böyük böhranlara, qarşıdurmalara, müharibələrə sürüklədi və böyük fəlakətlərə səbəb oldu. Hal-hazırda da bu dağıdıcı ideologiyaların təsirləri azalsa da, davam edir. Darvinist ideologiya bəzi şəxslər tərəfindən hələ də elmi nəzəriyyə kimi müdafiə olunur. Darvinizmin cəmiyyətlərə necə qəbul etdirilməyə çalışıldığını və bunun nəticələrini sonrakı sətirlərdə qısaca izah edəcəyik. Ancaq bundan əvvəl çox vacib həqiqətə yenidən diqqət çəkmək istəyirik.

Din əxlaqına qarşı olan ideologiyaların dünyanı sürüklədiyi vəziyyət qarşısında ən böyük məsuliyyət iman gətirən vicdanlı insanların üzərinə düşür. Din əxlaqına qarşı olanların fəaliyyətləri yalnız xristianları, yəhudiləri, ya da yalnız müsəlmanları maraqlandırmır. Dünyanın hansı bölgəsində olursa-olsun, bu ideologiyaların səbəb olduğu zərərlər hər üç dinin mənsubları üçün ortaq təhlükədir və bütün inanclı insanların vicdanlarını narahat edir, Allah`a iman gətirən hər kəsin üzərinə böyük məsuliyyətlər qoyur. Bu vəziyyət qarşısında Allah'a inanan və Rəbbimizin bizə öyrətdiyi gözəl əxlaqı yaşamağı qəbul edən kitab əhlinin və müsəlmanların əməkdaşlıq etməli olduqları aydındır. Hər üç dinin mənsubları əl-ələ verərək heç bir elmi əsası olmayan, yalnız materialist fəlsəfəyə dəstək olmaq istəyən darvinizmin yanlışlığını bütün dünyaya izah etməlidirlər. İnancsızlıqdan qaynaqlanan bütün digər ideologiyalara (kommunizmə, faşizmə, irqçiliyə və s.) və əxlaqi degenerasiyaya qarşı da əməkdaşlıqla fikri mübarizə aparmalıdırlar. Bunun nəticəsində, dünya çox qısa zamanda sülh, rahatlıq və ədalətə qovuşar. Yer üzündəki acılar, qırğınlar, bəlalar və ədalətsizliklər sona çatar və aydınlıq, rahatlıq, zənginlik, bolluq və bərəkət gələr.

# Yanlış dəyər mühakimələrinin mənşəyi: darvinizm

Təkamül nəzəriyyəsi “canlılar təsadüfən və həyat mübarizəsi nəticəsində ortaya çıxmış və inkişaf etmişdir” cümləsi ilə yekunlaşdırıla bilər. Bunun təbii nəticəsi olaraq, darvinizm insana: “Heç kimin qarşısında məsuliyyət daşımırsan, həyatını təsadüflərə borclusan, yaşamaq üçün mübarizə aparmalı, lazım gəldikdə digərlərini əzməlisən, bu dünya qarşıdurma və mənfəət dünyasıdır”, -deyir. “Təbii seleksiya”, “həyat mübarizəsi”, “güclülərin həyatda qalması” kimi darvinist anlayışların əxlaqi əksi budur. Bu darvinist təlqin, şübhəsiz, din əxlaqına tamamilə ziddir.

Darvinist təlqinlərin nə qədər dağıdıcı təsirlərə malik olduğunu görmək üçün cəmiyyətin dəyər mühakimələrini müşahidə etmək kifayətdir. Dövrümüzün cəmiyyətlərinə baxsaq, insanların çoxunun yalnız yaşamaq, yaxşı peşə sahibi olmaq, mal-mülk əldə etmək, daha çox pul qazanmaq, əylənmək və "həyat mübarizəsində qalib gəlmək" üçün yaşadıqlarını görərik. Əlbəttə, hər insanın dünya həyatında yaxşı və gözəl həyat əldə etmək üçün səy göstərməsi normaldır. Ancaq din əxlaqına görə insanlar özlərinə gözəl bir həyat qurmağa çalışarkən, ehtiyac içində olanları da qorumalı, köməkləşməli və eqoist olmamalıdırlar. Darvinist həyat modelində isə insan digər insanların yaxşılığını düşünmədiyi kimi, öz mənfəəti üçün onların pis vəziyyətə düşməsindən də çəkinmir. Xüsusilə də gənclərin arasında lüks ev və avtomobillərə sahib olmaq, çoxlu pul xərcləmək, şöhrət, var-dövlət və güc əldə etmək ən böyük ideala çevrilmişdir. Bu anlayışa sahib olan insanlar nə üçün var olduqlarını və Allah'ın varlığını və qüdrətini demək olar ki, heç düşünmürlər. Niyə yaradıldıqlarına, özlərini yaradan üstün Yaradıcımıza qarşı hansı məsuliyyətlərinin olduğuna tamamilə laqeyd yanaşırlar. Hər insan üçün olduğu kimi, özləri üçün də dünya həyatının bir sonunun olduğunu, ölümlə birlikdə qazandıqları hər şeyi bu dünyada buraxacaqlarını xatırlamaq istəmir, ölümdən sonra yenidən dirilib etdiklərinin hesabını verəcəklərini qəbul etmirlər. Əlbəttə, onların bunlara laqeyd yanaşmaları, ya da qəbul etmək istəməmələri həqiqəti dəyişdirmir. Həyatı boyu heç düşünməsələr də, həqiqətlər hər xatırladılanda üz çevirsələr də, onlar yaradılmış aciz qullardır, hər canlı kimi bir gün öləcək və etdiklərindən hesaba çəkiləcəklər.

Əslində, yuxarıda təsvir etdiyimiz kimi yaşayan insanların, bəlkə də, əksəriyyəti təkamül nəzəriyyəsinin təsiri altında olduğunu anlamır. Hətta bir qismi bu nəzəriyyənin biologiyanın bir qolu olduğunu və özlərinin mövzu ilə heç bir əlaqələrinin olmadığını zənn edirlər. Özləri bunun şüurunda olmasalar da, daima təbliğatına məruz qaldıqları təkamül nəzəriyyəsi onların dünyagörüşlərinə dərindən təsir edir.

Özlərini və ətraflarındakı insanları bir növ inkişaf etmiş heyvan kimi qiymətləndirən şəxslər hərəkətlərində və aldıqları qərarlarda bu azğın dünyagörüşlərini əks etdirirlər. Darvinist anlayış insanlara eqoist, mənfəətpərəst, mərhəmətsiz və zalım olmağı öyrədir, şəfqət, mərhəmət, fədakarlıq, təvazökarlıq kimi üstünlükləri isə yox edir, bunu da həyatın qanunu kimi göstərir. Bu vəziyyət, təbii ki, cəmiyyətdəki nizamı pozur, həm əxlaqi, həm də ictimai çöküntüyə səbəb olur.

Darvinist anlayışın başqa bir mənfi təsiri də bir çox cəmiyyətdə insanların yalnız şəxsi mənfəətlərini güdmələrinin ümumi qaydaya çevrilməsidir. Belə cəmiyyətlərdə qarşılıqsız fədakarlıq və kömək etmək, sevgi, hörmət və şəfqət göstərmək unudulmuşdur. Belə bir quruluş insanları təkliyə və böhrana aparır. Stress, bədbəxtlik, narahatlıq bir çox insanın həyatını qorxulu yuxuya çevirir. Mənəvi boşluqdan xilas olmaq istəyənlərin bəziləri içki, narkotik və ya qumar bataqlığına düşür, bəziləri intihar edir, bəziləri də əxlaqsızlığa qurşanır.

Mənəvi dəyərlərə laqeyd yanaşan cəmiyyətlərdə əxlaqi degenerasiyanın ölçüləri də çox sürətli şəkildə genişlənir. Homoseksuallığın, fahişəlik ticarətinin, cinsi zorakılığın, təcavüz hadisələrinin və xəstəliklərin artımı əxlaqi çöküşün əhəmiyyətli göstəriciləridir. Fahişəlik səbəbindən ailələr dağılır, özünə hörmətini itirmiş insanlar ortaya çıxır. Bəzi əxlaqi pozğunluq və homoseksuallıq artıq dünyanın bir çox yerində normal qarşılanır, bu əxlaqsızlıqlara qarşı çıxanlar isə geridə qalmış adlanaraq ittiham edilir. Bu gün

homoseksualların bəzi ölkələrdə rəsmi şəkildə evlənə bilməsi, dünya səviyyəsində mütəşəkkil aksiyalar keçirməsi, din əxlaqına qarşı təcavüzkar olması düşündürücüdür.

Lakin bu böhran yalnız sosial ölçüdə deyil, eyni zamanda, siyasi ölçüdədir. Geridə qoyduğumuz XX əsr insanlıq tarixinin ən böyük, ən dəhşətli, ən dağıdıcı müharibələrinə səhnə olmuşdur. Anarxiya və terror hadisələrində bir çox insan həyatını itirmiş, yaralanmış və ya şikəst qalmışdır. Vəhşilik təməlində darvinizmin yer aldığı kommunizm, faşizm, irqçilik kimi ideologiyaların əsəridir. Regional müharibələr, qarşıdurmalar və qanlı terror aksiyaları hələ də dünyanın müxtəlif bölgələrində davam edir.

Hal-hazırda dünya əhalisinin böyük hissəsi çətinlik və yoxsulluq içində yaşayır. Statistikalara baxsaq, aclığın və kasıblığın olduqca böyük nisbətlərə çatdığını görərik. Əlbəttə, bu mənfi hadisələr eqoizm, mənfəətpərəstlik və materialist dəyərlər üzərində qurulmuş bir dünya nizamının təbii nəticələridir.

Sosial böhranla bağlı mühüm bir ünsür də cinayət nisbətlərindəki fövqəladə artımdır. Dünyada qeyri-qanuni hərəkətlər sayca olduğu kimi, fərqlilik baxımından da artır. Əslində, bu, mənəvi və vicdanı dəyərləri tərk etməyin nəticəsidir. Dinin insana öyrətdiyi əxlaqdan uzaq olan fərdlər oğurluq, fırıldaqçılıq, qəsb, təhdid, qısası, hər cür qeyri-qanuni hərəkəti adi qarşılayır, bu cinayətlərin tamamilə aradan qaldırıla biləcəyinə ehtimal da vermirlər.

Bunlar son iki əsrdir ki, əvvəl Qərb dünyasında, sonradan isə bütün dünyada yüksələn materialist fəlsəfənin nəticələridir. İnsanlara Yaradıcımızın varlığını inkar etdirən, “heç kimin qarşısında məsuliyyət daşımırsınız, vəhşi bir meşədə həyat və mənfəət mübarizəsi aparan təkmilləşmiş heyvanlarsınız” düşüncəsini təlqin edərək onları din əxlaqından uzaqlaşdıran təbliğatın məhsullarıdır.

# İki seçim

Bura qədər izah edilənlər hər gün ətrafımızda şahid olduğumuz hadisələrin, qəzetlərdə oxuduğumuz və televiziyada izlədiyimiz xəbərlərin xülasəsidir. Əslində, hər kəs haqqında danışılan bu tablonu çox yaxşı görür. O halda, səmimi olaraq iman gətirənlər özlərinə bu sualı verməlidirlər: dünyadakı vəziyyət qarşısında ən doğru və ən gözəl davranış hansıdır?

Yaşadığımız əsrdə cəmiyyətləri dağıntıya aparan pislikləri, əxlaqsızlıqları, haqsızlıqları və degenerasiyanı görən hər kəsin qarşısında iki seçim vardır:

Birincisi, gördüklərini görməzlikdən gələnlərin seçdiyi yoldur. Bu yolu seçənlər olanları yalnız izləməklə kifayətlənir, yaşanan hadisələrə qarşı maraqsız və əhəmiyyətsiz rəftar göstərirlər. “Dünyanı qurtarmaq mənəmi qaldı?” və ya “mən nəyi dəyişdirə bilərəm?” kimi bəhanələrlə özlərini aldadırlar. Söhbətlərində insanların vəziyyətinə nə qədər kədərləndiklərini deyir, bəzən ehtiyacı olanlara kiçik yardımlar edir, ancaq bu pisliklərin tamamilə aradan qaldırılması üçün səy göstərmirlər. Halbuki unutmaq olmaz ki, acılara, çətinliklərə, pisliklərə qarşı səssiz qalan, ya da əlindən gələn ən çox səyi göstərməyən də bu tablodan məsuldur.

İkinci yol isə mövcud imkanların hamısını səfərbər edərək insanları olduğu vəziyyətdən qurtarmaq üçün fikri mübarizə aparmaq, bu mövzuda əsla ümidsizliyə düşməmək, şövqlə və

əzmlə səy göstərməkdir. Səmimi, vicdanlı, məsuliyyətli insanlar, əlbəttə, ikinci yolu seçərlər. Zalımların, pislərin, əxlaqsızların və din əxlaqına qarşı olanların ittifaq qurduğu kimi, kitab əhlindən səmimi olaraq iman gətirənlər və səmimi müsəlmanlar da bu şər ittifaqına qarşı birləşməli, hər cür maddi və mənəvi imkanı toplayaraq ortaq fikri mübarizə aparmalıdırlar. Hər bir inanclı yəhudi, xristian, müsəlman bu istiqamətdə əlindən gələn səyi göstərməlidir. Beləliklə, dürüst, hörmətli, sevgi dolu, anlayışlı, incə düşüncəli, gözəl əxlaqlı insanlarla bərabər rahatlığın, sülhün, təhlükəsizliyin, xoşbəxtliyin və rifahın hakim olduğu bir mühitdə yaşamaq mümkün olar.

İndi kitab əhli və müsəlmanlar bir-birinə qarşı hər zamankından daha anlayışlı olmalı və kömək etməlidirlər. Unutmaq olmaz ki, birlik, bərabərlik və əməkdaşlıq müvəffəqiyyət gətirir. Çəkişmə, mübahisə və ixtilaf isə gücsüzlüyə səbəb olur. Üstəlik, yaşadığımız dövr bu əməkdaşlığın təcili surətdə təsis edilməsini tələb edir. İman gətirənlər din əxlaqına qarşı olanlarla fikri mübarizə aparmaqla yanaşı, dünya tarixinin ən müqəddəs dövrlərindən birinə, hz. İsanın (əs) yer üzünə ikinci dəfə gəlişinə də hazırlıq görməlidirlər.

# VII HİSSƏ

# İLAHİ DİNLƏRDƏ MƏSİH (əs) VƏ MEHDİ (əs) İNANCI

Axırzaman dünyanın son dövrlərini ifadə edən bir anlayışdır. İslam inancına görə, qiyamətdən əvvəlki dövrdə bəşəriyyət böyük bir pozulma və degenerasiya ilə qarşı-qarşıya qalacaq. Haqsızlığın, zülmün, aclıq və yoxsulluğun, əxlaqi çöküntünün, müharibə və qarşıdurmaların, qarışıqlıq və anarxiyanın artdığı bu qaranlıq dövr insanların Allah'a və din əxlaqına yönəlmələri ilə sona çatacaq. Yoxsulluğun yerini bolluq, haqsızlığın yerini ədalət, anarxiya və qarışıqlığın yerini isə rahatlıq və güvənlik mühiti alacaq. İnsanlar gözəllik və bərəkət içində yaşayacaqlar. Allah dünyanın nura və bərəkətə qovuşması üçün hz. İsanın (əs) yenidən dünyaya gəlişini və Mehdi (hidayətə çatmış, hidayət tapmış) sifətini daşıyan müqəddəs bir şəxsi vəsilə edəcək. Bütün bunlar bizə Peyğəmbərimiz (səv) tərəfindən müjdələnən, Quranda da işarə edilən çox qiymətli müjdələrdir.

Axırzamanın əlamətlərini, bu dövrdə gələcək hz. Mehdinin (əs) xüsusiyyətlərini, hz. Mehdi (əs) gəldikdən sonra yer üzündəki dəyişiklikləri və hz. İsanın (əs) yer üzünə gəlişini daha əvvəl nəşr etdiyimiz kitablarımızda ətraflı araşdırmışdıq. *(Ətraflı məlumat üçün baxın: Hz. Mehdinin (əs) çıxış əlamətləri və xüsusiyyətləri, Hz. Mehdi (əs) və Qızıl əsr, Peyğəmbərimizin (səv) dilindən hz. Mehdi (əs), Qiyamət əlamətləri, Qızıl əsr, Axırzaman və dəbbətül-ərz, Hz. İsanın (əs) gəliş əlamətləri, Axırzamanı Bədiüzzaman ilə anlamaq, Hz. İsa (əs) və hz. Mehdi (əs) bu əsrdə gələcək)*

Bu kitabımızda isə xristianların və müsəlmanların həyəcanla gözlədiyi hz. İsanın (əs) yer üzünə ikinci dəfə gəlişini, Tövrat və islami qaynaqlarla bənzərlik təşkil edən hz. Mehdinin (əs) zühurunu qısaca açıqlayacağıq.

## Hz. İsa (əs) və hz. Mehdi (əs) bu əsrdə gələcək

*Hər yüz ildə bir din əxlaqını bidətlərdən qurtarmaq və yeniləmək üçün Allah tərəfindən bir şəxsin göndərildiyi "Sünəni-Əbu Davud", "Məktubati-Rəbbani" kimi böyük və mötəbər əhli-sünnə alimlərinin əsərlərində açıq şəkildə ifadə edilmişdir:*

Əbu Hüreyrənin rəvayətinə görə, Rəsulullah (səv) belə buyurmuşdur: **Həqiqətən Əziz və Cəlil olan Allah hər yüz ilin əvvəlində bu ümmətin dinini bidətdən (dinə sonradan qarışmış batil tətbiqlərdən) ayıran, yeniləyən (elm sahibi) bir şəxsi göndərər.** *(Sünəni-Əbu Davud, 5/100)*

Peyğəmbərimizdən (səv) rəvayət edilən hədislərdə axırzamanda zühur edəcəyi müjdələnən hz. Mehdinin (əs) çıxış zamanı isə hicri 1400-cü il verilmişdir:

"İnsanlar 1400-cü ildə hz. Mehdinin (əs) yanında toplanacaqlar". (Risalətül-xürucul-Mehdi, səh. *108)*

Bu əsrdə İslam əxlaqı müəyyən müddət ərzində bütün dünyaya hakim olacaq, din əxlaqına qarşı mübarizə aparan dəccaliyyət sistemi isə tamamilə ortadan qalxacaq. Ancaq təxminən 100 ilə qədər davam edən bu yüksəliş dövründən sonra, yəni hicri 1500-cü illərdə dünya yenidən böhran dövrünə girəcək. Əhli-sünnənin böyük hədis və fiqh alimlərindən biri olan İmam Əhməd İbni Hənbəl kimi bir çox alimin bir-birlərindən nəql etdikləri bir hədisdə Peyğəmbərimiz (səv) özünə qədər dünyada keçən zamanın 5600 il olduğunu bildirərək bəşər tarixinin başlanğıcı haqqında əhəmiyyətli bir məlumat vermişdir:

Əhməd İbni Hənbəl "İləl"ində nəql etdi. İsmayıl bin Əbdülkərim Əbdüssəməddən, O da Vəhbdən rəvayət etdi: **DÜNYADAN BEŞ MİN ALTI YÜZ İL KEÇMİŞDİR.** *(Əli bin Hüsaməddin əl-Müttəqi, Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 89)*

Digər tərəfdən, bir çox hədisdə isə dünyanın ömrünün 7000 il olduğuna dair açıq izahlar var:

Ənəs Malikdən nəql etdi. O dedi ki, Rəsulullah (səv) buyurdu: **DÜNYANIN ÖMRÜ AXİRƏT GÜNLƏRİNDƏ YEDDİ GÜNDÜR.** Allah-Təala buyurdu ki: **RƏBBİN QATINDA BİR GÜN SİZİN SAYDIQLARINIZDAN MİN İL KİMİDİR.** Kim bir din qardaşının Allah yolunda bir ehtiyacını ödəsə, Allah-Təala onun üçün gündüzlərini orucla, gecələrini də ibadətlə keçirmişcəsinə **BU DÜNYANIN YEDDİ MİN İLLİK ÖMRÜ QƏDƏR SAVAB YAZAR.** *(Əli bin Hüsaməddin əl-Müttəqi, Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 88)*

Dəqqaq bin Zeydi Cühənidən rəvayət etdilər: Mən gördüyüm bir yuxunu Rəsulullaha (səv) danışdım. Bu yuxuda Peyğəmbər (səv) yeddi pilləli bir minbərin ən üst pilləsində idi: **O buyurdu ki, YEDDİ PİLLƏLİ GÖRDÜYÜN MİNBƏR BU DÜNYANIN ÖMRÜ OLAN YEDDİ MİN İLDİR.** *(Əli bin Hüsaməddin əl-Müttəqi, Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 89)*

Hicri 1300-cü ilin və son min ilin ən böyük mücəddidi olan Ustad Səid Nursi isə İslam əxlaqının hakimiyyət dövrü üçün hicri 1500-cü illəri vermişdir. Ustad bu tarixlərə qədərki dövrün müsəlmanların açıq və aşkar qalibiyyət dövrləri olacağını ifadə etmişdir. Bundan sonrakı illərdə isə İslam əxlaqının dünyadakı yüksəliş dövrünün sona çatacağı və inkarçılar üçün qiyamətin qopmasının hicri 1545-ci ildən etibarən olacağını söyləmişdir (doğrusunu Allah bilir).

**"Ümmətimdən bir taifə Allah'ın əmri gələnə qədər (qiyamətə qədər) haqq üzərində olacaq".**

**"Ümmətimdən bir taifə..."** hədisinin (hissəsinin) məqami-cifrisi (cifr hesabına görə olan nəticə, ədədi dəyər) 1542 (2117) edərək nəhayəti-davamına (varlığının sonuna) işarə edir. **"Haqq üzərində olacaq" (şəddə ədədlər) hədisinin də məqami-cifrisi 1506 (2082), bu tarixə qədər zahir və aşkaranə (açıq və aşkar), bəlkə qalibanə,** sonra da 1542-yə (2117) qədər gizli və məğlubiyyət içində vəzifeyi-tənviriyyəsinə (açıqlama vəzifəsinə) davam edəcəyinə rəmzə (işarəyə) yaxın eyham edir. **"Allah'ın əmri gələnə qədər" (şəddə ədədlər) hədisinin də məqami-cifrisi 1545 (2120) kafirin başında QİYAMƏT QOPMASINA işarə edir.** *(Qastamonu əlavəsi, səh. 33)*

Böyük əhli-sünnə alimi Bərzənci də dünyanın ömrünün hicri 1600-cü ilə çatmayacağını, yəni hicri 1500-cü illərdə qiyamətin qopmasının Allah'ın izni ilə gözlənildiyini bildirir. (Doğrusunu Allah bilir).

**BU ÜMMƏTİN ÖMRÜ MİN İLİ KEÇƏCƏK, LAKİN MİN BEŞ YÜZ İLİ KEÇMƏYƏCƏK...** *(Qiyamət əlamətləri, Mədinəli Əllamə Muhəmməd bin Rəsul əl-Hüseyni əl-Bərzənci, Pamuk Nəşriyyatı, İstanbul, 2002, səh. 299)*

Peyğəmbərimizdən (səv) rəvayət edilən hədisə əsaslanaraq Suyuti isə izahında belə deyir:

*"MƏNİM ÜMMƏTİMİN ÖMRÜ 1500 İLİ ÇOX KEÇMƏYƏCƏK". (Suyuti, əl-Kəşfi ən mücavəzəti Həzihil-ümməti əl-Əlfu, əl-havi lil fətavi, Suyuti. 2/248, təfsiri Ruhül-bəyan. Bursəvi (ərəbcə) 4/262, Əhməd bin Hənbəl, Kitabül-İləl, səh. 89)*

Bu anda hicri 1430-cu ildə olduğumuzu və hicri 1500-cü ilə qədər də hicri XIV əsrdə olduğumuzu nəzərə alsaq, o zaman hz. Mehdinin (əs) mütləq bu əsrdə zühur etməli olduğu ortaya çıxır. Çünki hz. Mehdinin (əs) çıxa biləcəyi başqa bir əsr qalmır.

Hicri 1400-cü ilin əvvəlindən etibarən Peyğəmbərimizin (səv) hədislərində bildirdiyi axırzaman əlamətlərinin hamısının ard-arda çıxması da axırzamanda olduğumuzu və hz. Mehdinin (əs) bu əsrdə zühur edəcəyini göstərir.

Xülasə, Peyğəmbərimizin (səv) hədislərindən və böyük İslam alimlərinin izahlarından aydın olduğu kimi, hicri 1400-cü illər hz. İsanın (əs) yenidən dünyaya gəlişi və hz. Mehdinin (əs) zühur çağıdır. Bu əsrdə hz. İsa (əs) yenidən yer üzünə gələcək, hz. Mehdi (əs) zühur edəcək və İslam əxlaqı yer üzünə hakim olacaq.

# Quranda hz. İsanın (əs) yer üzünə ikinci dəfə gəlişi

Quranda hz. İsa (əs) ilə bağlı xəbər verilən məlumatlardan biri də onun (əs) ölmədiyi və öldürülmədiyi, Allah qatına yüksəldildiyi və Rəbbimizin təqdir etdiyi vaxtda yenidən dünyaya gələcəyidir. Bu hissədə mövzu ilə bağlı Quranda göstərilən dəlillər araşdırılacaq. (Ətraflı baxın: Harun Yəhya, *Hz. Məsih müjdəsi*)

Allah inkarçıların hz. İsanı (əs) öldürməsinə icazə verməmiş, onu Öz qatına yüksəltmiş və yenidən yer üzünə qayıdacağını insanlara xəbər vermişdir. Hz. İsanın (əs) yer üzünə qayıdışı ilə bağlı Quranda bu xəbər verilir:

1- İsa Peyğəmbəri (əs) öldürmək üçün tələ quran inkarçılar onu qətiyyən öldürməmişlər. Onların bu mövzudakı iddiaları yalnızca zəndən ibarətdir:

**Bir də: "Həqiqətən, biz Allah'ın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!"– dediklərinə görə (lənətə düçar edildilər). Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq (İsanın) bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. Onlar onu öldürdüklərinə yəqinliklə əmin deyillər.** (Nisa surəsi, 157)

2- Hz. İsanın (əs) ölmədiyi, insanların yaşadığı zaman və məkan ölçüsündən alınaraq

Allah qatına yüksəldildiyi bir ayədə belə bildirilir:

**Əksinə, Allah onu Özünə tərəf qaldırmışdır. Allah qüdrətlidir, müdrikdir.** (Nisa surəsi, 158)

3- Quranda hz. İsanın (əs) qiyamət saatı üçün bir əlamət olduğu bildirilir:

**Şübhəsiz ki, o, (İsanın zühuru) qiyamət saatı üçün bir əlamətdir. Ona şəkk etməyin və Mənə tabe olun. Bu, doğru yoldur!** (Züxruf surəsi, 61)

Bu ayənin hz. İsanın (əs) axırzamanda yer üzünə qayıtmasına açıq bir işarə olduğunu söyləyə bilərik. Çünki hz. İsa (əs) Quranın endirilməsindən təxminən 6 əsr əvvəl yaşamışdır. Dolayısilə, ilk həyatını qiyamət saatı üçün bir əlamət, yəni bir qiyamət əlaməti kimi anlaya bilmərik. Ayənin işarə etdiyi məna hz. İsanın (əs) axırzamanda, yəni qiyamətdən əvvəlki zamanda, yəni hal-hazırda olduğumuz dövrdə yenidən yer üzünə gələcəyi və bunun da bir qiyamət əlaməti olacağıdır.

4- "Ali-İmran" surəsinin 55-ci ayəsində hz. İsaya (əs) itaət edənlərin qiyamətə qədər inkar edənlərdən üstün olacağı xəbər verilir.

**O vaxt Allah dedi: "Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də ixtilafa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm.** (Ali-İmran surəsi, 55)

Allah qiyamətə qədər inkar edənlərə üstün gələn və hz. İsaya (əs) həqiqətən tabe olan bir qrupun varlığından danışır. Hz. İsa (əs) həyatda ikən ona itaət edənlərin sayı çox az idi. Onun Allah qatına qaldırılmasından sonra da haqq din təhrif edildi. Sonrakı iki əsr boyu da hz. İsaya (əs) iman gətirənlər (İsəvilər) şiddətli təzyiqə məruz qaldılar. Üstəlik, İsəvilərin heç bir siyasi gücü də yox idi. Bu vəziyyətdə keçmişdə yaşayan xristianların inkar edənlərə üstün gəldiklərini və bu ayənin onlara baxdığını söyləyə bilmərik.

Hal-hazırda isə xristianlığın özündən uzaqlaşdığını, hz. İsanın (əs) izah etdiyi haqq dindən fərqli bir dinə çevrildiyini görürük. Bu vəziyyətdə **"sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm"** ifadəsi açıq bir işarədir. Hz. İsaya (əs) itaət edən və qiyamətə qədər yaşayan bir birlik olmalıdır. Belə bir birlik, şübhəsiz, hz. İsanın (əs) yer üzünə yenidən gəlişi ilə ortaya çıxacaq və bu gəliş əsnasında bu müqəddəs peyğəmbərə tabe olanlar Qiyamətə qədər inkar edənlərdən üstün olacaq.

5- Quranda verilən başqa bir məlumat da hz. İsanın (əs) ölümündən əvvəl bütün kitab əhlinin ona iman gətirəcəyidir:

**Kitab əhlindən elə kimsə yoxdur ki, ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə (İsa) onların əleyhinə şahid olacaqdır.** (Nisa surəsi, 159)

Bu ayədən aydın olur ki, hz. İsa (əs) ilə bağlı hələ reallaşmamış üç İlahi vəd vardır. Birincisi, İsa Peyğəmbərin (əs) hər insan kimi yaşadıqdan sonra öləcəyi bildirilir. İkinci vəd bütün kitab əhlinin ona o yaşayarkən itaət edəcəyidir. Şübhəsiz, bu iki xəbər də hz. İsanın (əs) Qiyamətdən əvvəlki gəlişi ilə reallaşan hadisələrdir. Ayədəki üçüncü xəbər isə hz. İsanın (əs) kitab əhli haqqındakı şahidliyinin Qiyamət günündə reallaşacağıdır.

6- Hz. İsanın (əs) yer üzünə ikinci dəfə gəlişinə işarə edən başqa bir ayə isə "Məryəm" surəsində keçir:

**Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!** (Məryəm surəsi, 33)

Bu ayə "Ali-İmran" surəsinin 55-ci ayəsi ilə birlikdə araşdırılanda vacib bir həqiqətə işarə edir. "Ali-İmran" surəsindəki ayədə hz. İsanın (əs) Allah qatına yüksəldildiyi ifadə edilir. Bu ayədə ölmə, ya da öldürülmə ilə bağlı məlumat verilmir. Ancaq "Məryəm" surəsinin 33-cü ayəsində hz. İsanın (əs) öləcəyi gündən bəhs edilir. Bu ikinci ölüm isə ancaq hz. İsanın (əs) ikinci dəfə dünyaya gəlişi və bir müddət yaşadıqdan sonra vəfat etməsi ilə mümkün ola bilər.

7- Hz. İsanın (əs) yer üzünə gəlişinə işarə edən digər ayə belədir:

**Allah ona kitabı, hikməti, Tövratı və İncili öyrədəcək**. (Ali-İmran surəsi, 48)

Bu ayədə keçən "kitab" sözünün nəyi ifadə etdiyini anlamaq üçün digər Quran ayələrinə baxaq: Tövrat və İncillə birlikdə eyni ayədə kitab Quran mənasını daşıyır. "Ali-İmran" surəsinin 3-cü ayəsi buna nümunə ola bilər:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi.** (Ali-İmran surəsi, 3)

Bir çox ayədə hz. Muhəmmədə (səv) Kitabın və hikmətin endirildiyi bildirilir. Bu ayələrdən biri belədir:

**... Allah sənə Kitabı və hikməti nazil etdi və bilmədiyin şeyləri sənə öyrətdi. Allah'ın sənə olan lütfü böyükdür.** (Nisa surəsi, 113)

Hz. Muhəmmədə (səv) endirilən kitabın Quran olduğunu hamı bilir. Buna görə də "Ali-İmran" surəsinin 48-ci ayəsində bildirilən hz. İsanın (əs) öyrənəcəyi kitab da ancaq Quran ola bilər. İsa Peyğəmbərin (əs) bundan təxminən 2000 il əvvəlki həyatında Tövrat və İncil barədə məlumatı var idi. Quranı öyrənməsinin isə yer üzünə yenidən gəlişində reallaşacağı aydındır.

8- "Ali-İmran" surəsinin 59-cu ayəsində **"Allah yanında İsa da Adəm kimidir..."** -deyə bildirilir. Bu ifadə ilə iki peyğəmbər arasındakı bəzi bənzərliklərə diqqət çəkilə bilər. Məlumdur ki, həm hz. Adəm (əs), həm də hz. İsa (əs) atasızdır. Həmçinin yuxarıdakı ayədə hz. Adəmin (əs) Cənnətdən yer üzünə endirilməsi hz. İsanın (əs) axırzamanda Allah qatından yer üzünə endirilməsinə də bənzədilə bilər.

9- Hz. İsanın (əs) yenidən dünyaya gələcəyi ilə əlaqədar başqa bir dəlil də "Maidə" surəsinin 110-cu ayəsində və "Ali-İmran" surəsinin 46-cı ayəsində keçən "kəhlən" sözüdür. Ayələrdə belə buyurulur:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin (kəhlən) çağında insanlarla danışırdın…"** (Maidə surəsi, 110)

**O, (həm) beşikdə ikən, (həm də) yetkin (kəhlən) çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır.** (Ali-imran surəsi, 46)

Hz. İsanın (əs) yetkin halını ifadə etmək üçün istifadə edilən "kəhlən" sözünün lüğəvi mənası "otuz ilə əlli yaşları arasında, gənclik dövrünü bitirib qocalığa ayaq basan, kamillik yaşına çatan kimsə" deməkdir. Bu söz İslam alimləri arasında 35 yaşdan sonrakı dövr kimi qəbul edilir.

Hz. İsanın (əs) isə otuz yaşında Allah qatına yüksəldildiyini, yer üzünə endikdən sonra qırx il qalacağını ifadə edən və İbn Abbasdan rəvayət edilən hədisə əsaslanan İslam alimləri hz. İsanın (əs) yaşlılıq dövrünün dünyaya yenidən gəlişindən sonra olacağını, bu səbəbdən, bu ayənin hz. İsanın (əs) gəlişinə dair bir dəlil olduğunu söyləyirlər.[24]

Bütün peyğəmbərlər insanlarla danışıb, onları dinə dəvət etmişlər. Hamısı da yetkin yaşlarında təbliğ vəzifəsini yerinə yetirmişlər. Ancaq Quranda heç bir peyğəmbər haqqında belə ifadə keçmir. Bu vəziyyət "kəhlən" ifadəsinin hz. İsanın (əs) yer üzünə möcüzəvi qayıdışına işarə edir. Çünki ayələrdə bir-birinin ardınca gələn "beşikdə" və "yetkin ikən" sözləri iki böyük möcüzəvi zamana diqqət çəkir.

Hz. İsanın (əs) beşikdə ikən danışması bir möcüzədir. Bu adi bir hadisə deyil və ayələrdə bu möcüzəvi hadisə dəfələrlə zikr edilir. O halda, bu sözdən sonra gələn "yetkin ikən də insanlarla danışması" şəklindəki ifadənin də bir möcüzə olduğu aydın olur. Əgər "yetkin ikən" ifadəsi hz. İsanın (əs) Allah qatına alınmadan əvvəlki həyatına işarə etsəydi, o zaman hz. İsanın (əs) danışması möcüzə olmayacaqdı. Ancaq ayədə iki böyük möcüzəvi zamana işarə edilir. Bunlardan birincisi beşikdə ikən danışması, ikincisi isə yetkin ikən danışmasıdır. Bu səbəbdən, möcüzəvi bir dövrə işarə edən "yetkin ikən" ifadəsi hz. İsanın (əs) möcüzəvi şəkildə yer üzünə qayıtdıqdan sonrakı dövrdə yetkin ikən insanlarla danışmasına aid ola bilər.

# İncildə İsa Məsihin Yer üzünə qayıdışı

Hz. İsanın (əs) dünyaya ikinci gəlişi İncildə ətraflı şəkildə izah edilmişdir (Matta, 24: 36; Mark, 13: 32-33). Bu vaxtın gözlənilmədən gələcəyi, bu səbəbdən, inananların hazır və ayıq olmaları bildirilmişdir (Matta, 24: 44, 25: 13; Mark, 13: 35-37; Luka, 12: 40).

Bununla yanaşı, hz. İsanın (əs) dünyaya qayıdışından əvvəl ortaya çıxan əlamətlər ətraflı şəkildə araşdırılmışdır. Buna görə, dünyanın son dövrü kimi məlum olan bu dövrdə qarışıqlıq və anarxiya artacaq, müharibələr və qarşıdurmalar yaşanacaq, əxlaqi degenerasiya yayılacaq, insanlar arasında güvən və sevgi aradan qalxacaq, xəyanət, sədaqətsizlik, vəfasızlıq, mərhəmətsizlik yayılacaq, insanların əksəriyyəti din əxlaqından uzaqlaşacaqlar. Bu dövrün əhəmiyyətli xüsusiyyətlərindən biri də hz. İsadan (əs) əvvəl bir çox saxta məsihin ortaya çıxmasıdır. İncildə bu dövrün xüsusiyyətləri belə təsvir edilir:

İsa onlara cavab verib dedi: "Ehtiyatlı olun, qoy sizi heç kim tovlamasın. Çünki mənim adımla çox adam gəlib: "Məsih mənəm", - deyərək çoxlarını tovlayacaq. Siz müharibələr və müharibə xəbərləri eşidəcəksiniz. Amma təlaşa düşməyin. Bunlar baş verməlidir, amma bu hələ son demək deyil. Çünki millət millətə, səltənət səltənətə qarşı çıxacaq. Yerbəyer aclıq və zəlzələlər olacaq. Bütün bunlar sanki doğuş ağrılarının başlanğıcıdır".

...O zaman bir çoxu imandan büdrəyərək bir-birinə xəyanət edəcək və bir-birinə nifrət edəcək. Bir çox yalançı peyğəmbər törəyib bir çox insanı tovlayacaq. Pislik çoxalanda bir çoxunun sevgisi soyuyacaq. Amma axıracan səbir edən xilas olacaq.

Səmavi səltənətin bu müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada təbliğ ediləcək. O zaman son gələcək. (Matta, 24: 4-14)

İncildə axırzamanda İsa Məsihin gəlişindən əvvəl cəmiyyətlərin vəziyyəti belə təsvir edilmişdir:

Bunu bil ki, axırzaman çətin dövr olacaq. Çünki insanlar xudbin, pulpərəst, lovğa, təkəbbürlü, təhqir edən, valideynlərinə itaət etməyən, nankor, müqəddəs dəyərlərdən məhrum, şəfqətsiz, kinli, böhtançı, nəfsini saxlamayan, rəhmsiz, yaxşılığın düşməni, xain, ehtiyatsız, qürurlu olacaq, Allah'dan çox zövqü sevəcək. Allah yolunda olan kimi görünüb, bu yolun gücünü inkar edəcəklər. Bu cür insanlardan uzaq dur. (2 Timoteyə, 3: 1-5)

İncilə görə bu hadisələr yaşananda hz. İsanın (əs) gəlişi də yaxınlaşmışdır (Matta, 24: 33). İncildə bildirilən İsa Peyğəmbərin (əs) gəlişi ilə bağlı əlamətlər yuxarıdakılarla məhdudlaşmır. Məsihin gəlişinin bəzi insanlar tərəfindən inkar edilməsi də onun gəlişinin bir əlamətidir. İncildə belə bildirilir:

Hər şeydən əvvəl bunu bilməlisiniz ki, axırzamanda öz həvəslərinə görə hərəkət edən rişxəndçilər gələcək və rişxəndlə deyəcək: "Rəbbin vəd etdiyi gəlişi haradadır? Axı ata-babalarımız vəfat edəndən bəri, yaradılışın başlanğıcından da hər şey eyni cür olaraq qalır". (2 Peter, 3: 3-4)

Hz. Muhəmmədin (səv) hədislərində bildirilən axırzaman (son dövr) xüsusiyyətləri də yuxarıda sadalananlarla bənzərlik təşkil edir. Peyğəmbərimiz (səv) də möminlərə dünyanın Qiyamətdən əvvəlki son dövründə olan hadisələri ətraflı təsvir etmiş və hz. İsa Peyğəmbərin (əs) bu dövrdə yer üzünə yenidən göndəriləcəyini bildirmişdir. Hz. Muhəmmədin (səv) hədislərində bildirilən bəzi axırzaman xüsusiyyətləri bunlardır:

Dünya hərc-mərc içində qalanda, fitnələr zühur edəndə, yollar kəsiləndə, bəziləri bəzilərinə hücum edəndə, böyük-kiçiyə mərhəmət etməyəndə, böyüyə təmkinlə davranmayanda...[25]

İnsan öz qardaşını öldürmədikcə Qiyamət qopmaz.[26]

Dünyanızda pisləriniz varis olmadıqca Qiyamət qopmaz.[27]

Qiyamətə çox yaxın anarxiya və qarışıqlıq günləri vardır.[28]

Haram olan şeylərin halal sayılması… Qiyamət əlamətlərindəndir.[29]

Böyük şəhərlər dünən sanki yoxmuş kimi dağılar.[30]

Axırzamanda elə adamlar peyda olacaq ki, dinlərini dünya mənfəətləri əvəzində satacaqlar. Onlar yumşaq görünmək üçün qoyun dərisinə bürünəcəklər, dilləri şəkərdən şirin, lakin ürəkləri qurd ürəyi kimi sərt olacaq.[31]

Qiyamətdən öncə iki böyük hadisə vardır… və sonra da zəlzələli illər.[32]

Aldadıcı illər gələcək. O illərdə… xainə etimad ediləcək, doğru insan xain sayılacaq.[33]

Böyüyə hörmət, kiçiyə mərhəmət olmayacaq. Zina uşaqları çoxalacaq. O qədər ki, kişilər küçənin ortasında qadınlarla zina edəcək.[34]

Aclıq və bahalıq çox yayılacaq.[35]

Yaxşılıq tərk ediləndə, pislik geniş yayılanda… Qiyamət yaxınlaşmış olacaq.[36]

Pislərin çoxaldıqca çoxalması, yalançıların doğru qəbul edilib, doğruların yalançı sayılması, xainlərin etibarlı, etibarlı insanların xain sayılması… Qiyamət əlamətlərindəndir.[37]

Diqqət yetirsək, bu əlamətlər hal-hazırda bir-birinin ardınca ortaya çıxmışdır. Dünyanın müxtəlif yerlərindən hər gün yeni bir qarşıdurma xəbəri gəlir, insanlar rüşvət, ədalətsizlik və haqsızlıq başda olmaqla, sosial gərginlikdən böyük narahatlıq keçirir, yalançılıq, fırıldaqçılıq, saxtakarlıq, fahişəlik, cinsi azğınlıqlar hər gün daha da artır. Əxlaqi dəyərlərə qiymət verilməməsi insanlar arasında gerçək sevgi və mərhəmətin yaşanmasına mane olur, hər kəsin narahatlıq və etibarsızlıq duyduğu mühit yayılır. Bununla yanaşı, böyük qıtlıqlar yaşanır, zəlzələlər artır, təbii fəlakətlər çoxalır, insanları heyrətə salan böyük hadisələr baş verir. Bir daha qeyd etmək lazımdır ki, keçmişdə, bəlkə də, bu hadisələrdən bəzisi yaşanmışdır və insanlar bu əlamətlərin bənzərləri ilə qarşılaşmışlar, amma tarixin heç bir dövründə bu əlamətlər bu qədər açıq və hamısı bir yerdə meydana gəlməmişdir. Bu vəziyyət hz. İsa Məsihin (əs) yer üzünə gəlişinin, Allah'ın izni ilə, bu dövrdə olduğunun açıq işarəsidir. Şübhəsiz, Allah'ın elçisinin yenidən dünyaya gəlməsi bütün iman gətirənlərin böyük həyəcan və sevinc duyacağı tarixi hadisədir.

# Hz. İsanın (əs) Quranda bildirilən xüsusiyyətləri

Quranda hz. İsa (əs) haqqında bir çox məlumat verilir. Hz. İsa (əs) Allah'ın hz. Məryəmə göndərdiyi Cəbrayılın müjdələməsi ilə atasız dünyaya gəlmişdir. Doğulduqdan dərhal sonra isə insanlarla danışaraq Allah'ın ilhamı ilə körpə yaşında möcüzələr göstərmişdir. Həyatı boyu da Allah'ın nümunəvi bir qulu və elçisi olmuş, insanları Rəbbimizə səmimi qul olmağa dəvət etmişdir.

Hz. İsa (əs) peyğəmbər haqqındakı Quran ayələrində bildirilən xüsusiyyətlər bunlardır:

❖ Hz. İsa (əs) Allah'ın elçisi və kəlməsidir:

**Ey kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allah'ın elçisi, Onun Məryəmə göndərdiyi ("Ol!") kəlməsi və Onun tərəfindən (göndərilən) bir ruhdur...** (Nisa surəsi, 171)

❖ Ona İsa Məsih adı verilmişdir:

**O zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni Öz tərəfindən, adı Məryəm oğlu İsa Məsih olan bir kəlimə ilə müjdələyir...** (Ali-İmran surəsi, 45)

❖ Allah qatında seçilmiş mübarək insandır:

**...O, bu dünyada və axirətdə şan-şöhrətli və (Allah'a) yaxınlaşdırılmışlardan olacaqdır.** (Ali-İmran surəsi, 45)

❖ Aləmlərə bir möcüzədir:

**İsmətini qoruyan (Məryəmi də yada sal!) Biz Öz ruhumuzdan ona üfürdük, onu və onun oğlunu aləmlərə bir möcüzə etdik.** (Ənbiya surəsi, 91)

❖ Anası hz. Məryəm Allah'ın seçdiyi və aləmlərin qadınlarından üstün etdiyi insandır:

**Bir zaman mələklər dedilər: "Ey Məryəm! Həqiqətən, Allah səni seçdi, təmizlədi və seçib aləmlərin qadınlarından üstün etdi.** (Ali-İmran surəsi, 42)

❖ Hələ beşikdə ikən insanlarla danışmışdır:

**O, (həm) beşikdə ikən, (həm də) yetkin çağında insanlarla danışacaqdır və salehlərdən olacaqdır.** (Ali-İmran surəsi, 46)

❖ Allah'ın izni ilə bir çox möcüzələr göstərmişdir:

**(Allah onu) İsrail oğullarına bir elçi edəcəkdir. (O deyəcəkdir:) "Mən sizə Rəbbinizdən (elçi olduğumu təsdiqləyən) bir əlamət gətirdim. Mən sizin üçün palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürərəm, o da Allah'ın izni ilə quş olar. Allah'ın izni ilə anadangəlmə koru, cüzam xəstəliyinə tutulanı sağaldar və ölüləri dirildərəm. Evlərinizdə yediyiniz və saxladığınız şeyləri sizə xəbər verərəm. Əgər möminsinizsə, şübhəsiz ki, bunda sizin üçün dəlil vardır.** (Ali-İmran surəsi, 49)

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm beşikdə ikən, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə koru və cüzam xəstəliyinə tutulanı sağaldır və Mənim iznimlə ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq-aydın dəlillərlə gəldikdə Mən onları səndən dəf etmişdim. Onlardan kafir olanlar isə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir".** (Maidə surəsi, 110)

❖ Tövratı təsdiqləyən, yol göstərici və öyüd-nəsihət olan İncili təbliğ etmişdir: (Ancaq İncil sonradan insanlar tərəfindən təhrif edilmişdir)

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün doğru yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik.** (Maidə surəsi, 46)

**Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq. Rahibliyi isə onlar özlərindən icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq. Onlar bunu Allah'ın razılığını qazanmaq üçün etdilər, lakin ona lazımınca riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir.** (Hədid surəsi, 27)

❖ Müqəddəs ruhla dəstəklənmişdir:

**Biz Musaya kitab verdik və ondan sonra bir-birinin ardınca elçilər göndərdik. Biz Məryəm oğlu İsaya da açıq-aydın dəlillər verdik və onu müqəddəs ruhla (Cəbrail ilə) qüvvətləndirdik. Məgər hər dəfə sizə elçi ürəyinizə yatmayan bir şey gətirəndə siz təkəbbür göstərmədinizmi? (Onların) bir qismini yalançı hesab edib, bir qismini də öldürmədinizmi?** (Bəqərə surəsi, 87)

**Biz o elçilərin bəzisini digərlərindən üstün etdik. Onlardan bəzisi ilə Allah danışmış, bəzisini isə dərəcələrə yüksəltmişdir. Biz Məryəm oğlu İsaya açıq-aydın dəlillər verdik və onu müqəddəs Ruh (Cəbrail) ilə qüvvətləndirdik. Əgər Allah istəsəydi, onlardan sonra gələnlər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra bir-biriləri ilə vuruşmazdılar. Lakin onlar ixtilaf etdilər. Onlardan kimisi iman gətirdi, kimisi də inkar etdi. Əgər Allah istəsəydi, onlar bir-biriləri ilə vuruşmazdılar. Lakin Allah istədiyini edir.** (Bəqərə surəsi, 253)

❖ Həvarilər ona yardım etmişlər:

**Ey iman gətirənlər! Allah'ın köməkçiləri olun. Necə ki, Məryəm oğlu İsa həvarilərə: “Allah yolunda kimlər mənə köməkçi olacaq?”– demiş, həvarilər də: “Bizik Allah'ın köməkçiləri!”– demişdilər. İsrail oğullarından bir zümrə iman gətirdi, digər bir zümrə isə kafir oldu. Biz də iman gətirənləri düşmənlərinə qarşı qüvvətləndirdik və onlar üstün gəldilər.** (Səf surəsi, 14)

❖ İsrail oğullarına nümunə edilmişdir:

**O, yalnız və yalnız Bizim nemət verdiyimiz və İsrail oğullarına nümunə etdiyimiz bir quldur.** (Züxruf surəsi, 59)

❖ İnkarçılar onu öldürmək üçün hiylə qurmuşlar, amma Allah onların hiyləsini pozmuş, hz. İsanı (əs) Öz Qatına yüksəltmişdir:

**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. O vaxt Allah dedi: “Ey İsa! Mən sənin həyatına son qoyub Özümə tərəf qaldıracağam, səni kafirlərdən təmizləyəcək və sənin ardınca gedənləri Qiyamət gününə qədər kafirlərdən üstün edəcəyəm. Sonra sizin dönüşünüz Mənə olacaq. Mən də ixtilafa düşdüyünüz şeylər barəsində sizin aranızda hökm verəcəyəm.** (Ali-İmran surəsi, 54-55)

# Hz. İsanın (əs) tanınması

Hz. İsanın (əs) ikinci dəfə yer üzünə gəlişi ilə əlaqədar maraqlı bir mövzu isə hz. İsanın (əs) kim olduğunun necə aydın olacağı və onun hansı xüsusiyyətlərindən tanına biləcəyidir. Məlumat, ağıl, bədən və əxlaqi cəhətdən üstün edilmiş bir insan kimi hz. İsanın (əs) üzündə peyğəmbərlərə xas olan ifadə olacaq.

Sahib olduğu güclü Allah qorxusunun və dərin imanın nuru üzündə əks olunacaq və peyğəmbərlərə xas olan nurlu ifadə o dərəcədə açıq olacaq ki, onu görənlər digər insanlarla müqayisə edəndə çox üstün bir insanla qarşılaşdıqlarını dərhal anlayacaqlar.

Allah hz. İsanın (əs) həm dünyada, həm də axirətdə şan-şöhrətli və Allah'a yaxınlaşdırılmışlardan (Ali-İmran surəsi, 45) olduğunu bildirmişdir. Allah'ın ayəsinin bir təcəllisi olaraq bütün peyğəmbərlər kimi hz. İsa (əs) da ətrafındakı insanlar arasında möhtərəmliyi ilə, seçilmiş və şərəfli olması ilə tanınacaq. Görənlər onu baxan kimi tanıyacaq, ürəklərində bu mövzuda heç bir şübhə olmayacaq. Bu müqəddəs insanın gəlişini inkar edən insanlar da etdiklərinin məntiqsizliyini dərhal qavrayacaqlar.

Hz. İsa (əs) Quranda keçən peyğəmbər xüsusiyyətləri ilə tanınacaq. Ancaq bundan başqa, onu insanlara tanıdan başqa əlamətləri də olacaq. Şübhəsiz, bunlardan ən əhəmiyyətlilərindən biri hz. İsanın (əs) dünyada ailəsinin, heç bir qohumunun və tanışının olmamasıdır.

# Hz. İsa (əs) gələndə onu əvvəldən tanıyan heç kim olmayacaq

Hz. İsanı (əs) necə tanıyacağıq? Əlbəttə, peyğəmbərlərin ortaq xüsusiyyətlərinə sahib olması onun ən diqqət çəkən əlaməti olacaq. Bununla yanaşı, onun gerçək İsa Məsih olduğunun əhəmiyyətli bir əlaməti vardır. Hz. İsanın (əs) ikinci gəlişində onu əvvəllər görən, tanıyan, keçmişini bildiyini söyləyən heç kim olmayacaq. Onun fiziki xüsusiyyətlərini, simasını, ya da səs tonunu bilən bir şəxs belə olmayacaq. Dünyada bir insan "mən onu tanıyıram, filan vaxt görmüşdüm, onun ailəsi və yaxınları bunlardır" kimi sözlər deyə bilməyəcək, olsa da, buna dəlil gətirə bilməyəcək. Çünki onu tanıyan bütün insanlar bundan təxminən 2000 il əvvəl yaşamış və ölmüşlər. Anası hz. Məryəm, hz. Zəkəriyyə (əs), onunla illərini keçirmiş həvariləri, dövrün öncül yəhudiləri və şəxsən hz. İsanın (əs) təbliğ etdiyi insanlar vəfat etmişlər. Bu səbəbdən, ikinci dəfə yer üzünə gəlişində onun doğulmasına, uşaqlığına, gəncliyinə və yetkinliyinə şahid olan kimsə olmayacaq və onun haqqında heç kim heç nə bilməyəcək.

Kitabın əvvəlki hissələrində də açıqladığımız kimi, hz. İsa (əs) Allah'ın: "Ol", -əmri ilə atasız dünyaya gəlmişdir. Aradan əsrlər keçdikdən sonra isə heç bir qohumunun olmaması təbiidir. Allah hz. İsanın (əs) bu vəziyyətini Quranda hz. Adəmin (əs) yaradılışına bənzətmiş və belə buyurmuşdur:

**Həqiqətən, Allah yanında İsanın məsəli Adəmin məsəli kimidir. (Allah) onu torpaqdan yaratdı, sonra isə ona "Ol!"– dedi, o da oldu.** (Ali-İmran surəsi, 59)

Ayədə də bildirildiyi kimi, Allah hz. Adəmə (əs): "Ol", -demişdir və hz. Adəm (əs) yaradılmışdır. Hz. İsanın (əs) ilk yaradılışı da Allah'ın: "Ol", -deməsi ilə reallaşmışdır. Hz. Adəmin (əs) ata-anası yoxdur, hz. İsanın (əs) dünyaya ilk gəlişində isə yalnız anası hz. Məryəm vardı, lakin yer üzünə yenidən gələcəyi ikinci səfərdə onun anası da həyatda olmayacaq.

Şübhəsiz, bu vəziyyət arada bir ortaya çıxan "saxta Məsih" təhlükəsini də aradan qaldırır. Hz. İsanın (əs) yer üzünə yenidən gəlişində onun hz. İsa (əs) olduğuna şübhə yaradan bir vəziyyət meydana gəlməyəcək. Heç kim: "Bu şəxs hz. İsa (əs) ola bilməz", - deyə bilməyəcək. Çünki hz. İsa (əs) dünyadakı bütün insanlardan fərqlənəcək, yəni yer üzündə onu tanıyan bir insan belə olmayacaq.

Bununla bərabər, Allah'ın seçilmiş qullarına xas olan gözəl əxlaq, ağıl, kübarlıq, hikmət, bəsirət, təvazökarlıq kimi üstün xüsusiyyətlərlə də hz. İsa (əs) bütün saxta Məsihlərdən fərqlənəcək, gerçək imana sahib insanlar imanın nuru ilə onu tanıyacaq və tabe olacaqlar.

Hz. İsa (əs) gəlişi ilə xristianlıqdakı yanlış inanc və üsulları aradan qaldıracaq, xristian dünyasını yanlış tətbiqlərdən qurtaracaq, bütün insanları haqq dini və üstün əxlaq modelini yaşamağa çağıracaq, hz. Mehdi (əs) ilə birlikdə İslam əxlaqının yer üzünə hakim olmasına vəsilə olacaq.

Hz. Muhəmmədin (səv) bir çox hədisində də hz. İsanın (əs) gəlişi müjdələnilmişdir. Bu hədislərdən bəziləri belədir:

Siz on əlaməti görmədikcə heç vaxt Qiyamət qopmaz... Biri də İsanın (əs) enməsi...[38]

Vallah, Məryəm oğlu (hz. İsa əleyhissalam), Fəccur-Ravhanam mövqeyində, həcc etmək və ya ümrə etmək, yaxud da hər ikisini də etmək üçün zühur edəcək.[39]

Qiyamət on əlamət görülmədikcə qopmaz: Tüstü, Dəccal, dəbbətül-ərz, Günəşin qərbdən doğulması, İsanın yer üzünə enməsi...[40]

Nəfsim qüdrət əlində olan Allah'a and içirəm ki, Məryəm oğlu İsanın ədalət sahibi olaraq enməsi yaxındır...[41]

Hədislərdə bildirilən əhəmiyyətli bir həqiqət də hz. İsanın (əs) yer üzünə qayıtmasından sonra Qızıl əsr adlandırılan bir dövrün başlayacağıdır. Qızıl əsr bolluq, rahatlıq, sülh, xoşbəxtlik, var-dövlət mühitinin hakim olacağı, sənət, tibb, istehsal, nəqliyyat və s. kimi həyatın bütün sahələrində dünya tarixində yaşanmamış hadisələrin baş verəcəyi, gözəl əxlaqın yaşanacağı bir əsr olacaq. Bu dövr hədislərdə belə təsvir edilmişdir:

Qab su ilə dolduğu kimi, yer üzü sülhlə dolacaq. Heç kim arasında düşmənçilik qalmayacaq. Bütün düşmənçiliklər, çəkişmələr, şübhəsiz, yox olub gedəcək.[42]

... Mal da o qədər çoxalacaq ki, heç kim mal qəbul etməyəcək.[43]

Qab su ilə dolduğu kimi, yer üzü din birliyi ilə dolacaq. Allah'dan başqasına ibadət edilməyəcək. Hərb, müharibə adına heç nə qalmayacaq… Yer üzü gümüş süfrəsi kimi olacaq. Bitkisini Adəmin zamanındakı kimi bitirəcək. Bir salxım üzümlə bir nəfər doyacaq. Bir qrup insan bir narla doyacaq. Bir öküzün qiyməti bu qədər olacaq, bir neçə dirhəmlə bir at satın alınacaq.[44]

# Hz. İsanı (əs) gözləmək

Hz. İsanın (əs) yer üzünə yenidən gəlməsi müsəlmanlar üçün çox vacibdir. O, Allah`ın bir möcüzəsi ilə atasız doğulmuş, İsrail oğullarını doğru yola dəvət etmiş, onlara bir çox möcüzələr göstərmiş bir peyğəmbərdir. Məsihdir və Qurana görə Allah'ın sözüdür (Nisa surəsi, 171). Onun yenidən yer üzünə gəlməsi ilə birlikdə Allah'a inanan, eyni əxlaqi dəyərləri paylaşan və Qurana görə bir-birlərinə ən yaxın dost olan (Maidə surəsi, 82) xristianlar və müsəlmanlar arasındakı anlaşılmazlıqlar aradan qaldırılacaq və dünyanın bu ən böyük iki dini ittifaq quracaq. Yer üzündəki üçüncü İlahi dinin mənsubları, yəni yəhudilər də gerçək məsihləri olan hz. İsaya (əs) iman gətirərək hidayət tapacaqlar (Nisa surəsi, 159). Beləliklə, üç İlahi din birləşəcək, yer üzündə uca Allah'a iman və Onun peyğəmbəri hz. İsaya (əs) itaət üzərində qurulan bir din qalacaq. Bu din Allah'ı inkar edən fəlsəfələri və bütpərəst inancları fikirlə məğlub edəcək və dünya müharibələrdən, qarşıdurmalardan, irqçilikdən və etnik düşmənçiliklərdən, zülm və haqsızlıqlardan xilas olacaq, insanlar sülh, xoşbəxtlik və hüzur içində Qızıl Əsrdə yaşayacaq.

Bu, şübhəsiz, dünya tarixinin ən böyük hadisələrindən biridir. Üç İlahi dinin birləşəcəyi bu mühit bütün Amerika qitəsinin, Avropanın, İslam dünyasının, Rusiyanın, İsrailin ortaq inancla ittifaq qurması deməkdir ki, belə birlik tarixdə heç vaxt olmayıb. Bu birliyin dünyaya gətirəcəyi sülh, hüzur, sabitlik, xoşbəxtlik heç bir dövrdə təmin edilməmiş, bunun bənzəri də görünməmişdir.

Üstəlik, hz. İsanın (əs) yer üzünə gəlməsi dünya tarixinin ən böyük möcüzələrindən biridir.

Allah'ın dilədiyi peyğəmbərlər, Allah'ın təqdiri ilə, müxtəlif möcüzələr göstərirlər. Hz. İsa (əs) Allah'ın lütfü ilə bundan 2000 il əvvəl Fələstin torpaqlarında ölülərin dirildilməsi,

korların və cüzamlı xəstələrin sağaldılması, cansız maddələrə can verilməsi kimi (Maidə surəsi, 110) möcüzələr göstərmişdir.

Hz. İsanın (əs) 2000 ildən sonra yenidən dünyaya qayıtması, anasız və atasız olaraq yetkin yaşında həyata yenidən başlaması isə çox böyük möcüzə olacaq. Beləliklə, elmi və fəlsəfi səviyyədə çökən materialist fəlsəfə bütün dünya insanlarının gözü qarşısında tamamilə darmadağın ediləcək, insanlar Allah'ın varlığının və qüdrətinin açıq-aşkar dəlillərini görəcəklər.

Allah'ın Quranda bildirdiyi işarələr, Peyğəmbərimizin (səv) hədisləri və İslam alimlərinin izahları işığında biz bu müqəddəs dövrün çox yaxın olduğuna inanırıq. Biz müsəlman olaraq hz. İsanın (əs) yaxın zamanlarda gələcəyindən həyəcanlanır, özümüzü və dünyanı bu müqəddəs qonağa hazırlamaq üçün əlimizdən gələni edirik.

Xristianlara çağırışımız isə onların da bu mövzuda mümkün qədər həssas, şüurlu və şövqlü olmalarıdır.

# Xristian dünyası hz. İsanın (əs) gəlişinə hazırdırmı?

Hz. İsa (əs) sevgisi xristianlara tarix boyu gözəl əxlaq qazandırmışdır. Allah Quranda xristianları dostluq baxımından iman gətirənlərə ən yaxın olanlar kimi təsvir edir və ayənin davamında belə buyurur:

**...Çünki onların arasında keşişlər və rahiblər vardır və onlar təkəbbürlük göstərmirlər.** (Maidə surəsi, 82)

Digər ayədə isə xristianların gözəl əxlaqı haqqında belə deyilir:

**Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq...** (Hədid surəsi, 27)

Tarix boyu xristianlar müxtəlif zülmlərə dözmüş, dünya zövqlərindən əllərini çəkərək əziyyət dolu həyatı seçmiş, böyük fədakarlıqlar etmişlər. Bunlar səmimiyyətin göstəriciləridir. Ancaq hz. İsanın (əs) gəlişinin yaxın olduğu bu əsrdə bu səmimiyyəti daha da güclü göstərməlidirlər.

• Xristian mənbələrinə görə də hz. İsa (əs) yer üzünə qayıdacaq.

Əhdi-Cədiddə dəfələrlə hz. İsanın (əs) yer üzünə yenidən gələcəyi xəbər verilir. İbranilərə məktubda belə yazılır: “Məsih... ikinci dəfə... xilas etmək üçün Onu gözləyənlərə zühur edəcək” (9: 28). Əhdi-Cədidin bir çox yerində hz. İsanın (əs) yenidən gələcəyi müjdələnir. Bu vəd qəti olduğuna görə, bütün xristianlar bunu əsas fikrə çevirməli, ikinci gəlişi gözləməli və buna əsasən fəaliyyət göstərməlidirlər.

• Xristian qaynaqlarına görə də hz. İsanın (əs) gəlişi yaxındır.

Bir çox xristian ikinci gəlişin çox yaxın olduğunu düşünürlər. Çünki Əhdi-Cədiddə və Əhdi-Ətiqdə Məsihin gəlişi ilə əlaqədar məlumatların hamısı, demək olar ki, reallaşmışdır. Bütün dünyada din əxlaqının yayılması, ateist fəlsəfələrin çökməyə başlaması, insanların

Allah inancına yönəlməsi də əhəmiyyətli bir əlamətdir. Vəziyyət belə ikən heç bir xristianın hz. İsanın (əs) ikinci gəlişi mövzusunda laqeyd qalması doğru deyil.

• Xristian mənbələrinə görə də hz. İsanın (əs) qayıdışı tarixin ən böyük hadisəsi olacaq.

İkinci gəliş xristian mənbələrinə görə də qəti və yaxın bir gerçək olduğundan bu, bütün xristianlıq aləmində ən əhəmiyyətli hadisə olmalıdır. Hz. İsa (əs) kimi Allah'ın üstün etdiyi müqəddəs peyğəmbər yaxında dünyaya gələcəyinə görə, onun üçün hazırlıq görülməli, bu mövzu daim gündəmdə tutulmalıdır.

• Hz. İsa (əs) gələndə bütün inananları birləşdirəcəyindən onsuz da yaxında heç bir mənası qalmayacaq xristianlararası mübahisələri, ayrılıq və ixtilafları bir kənara qoymaq lazımdır.

• Hz. İsa (əs) gələndə ona inanan bütün xristian və müsəlmanlar ortaq inancda birləşəcəyinə görə, xristian və müsəlmanlar arasındakı ön mühakimə və qarşıdurma mühitini aradan qaldırmaq üçün indidən çalışmaq lazımdır.

İncilin son hissəsi "Vəhy" kitabında belə yazılır: *"...Rəbbimiz və Onun Məsihi dünya üzərində padşahlığa sahib oldu! O, əbədi olaraq padşahlıq edəcək!" (Vəhy,11:15)*

Bütün xristianlar yaxınlaşan böyük müjdəyə görə həyəcanlı və şövqlü olmalıdırlar.

Bu həyəcan və şövqü yaşayan müsəlmanlar kimi xristianlara səslənirik:

Gəlin hz. İsanın (əs) yaxınlaşan gəlişinə birlikdə hazırlaşaq. Hz. İsanın (əs) bizə doğrunu öyrədəcəyini bilərək aramızdakı inanc fərqliliklərinə hörmət göstərək. Onun görmək istədiyi kimi dünyanı sülh, qardaşlıq, mərhəmət və sevgi ilə doldurmağa çalışaq. Ona düşmən olan, uca Rəbbimiz Allah'ı inkar edən fəlsəfə və ideologiyalara qarşı birlikdə fikri mübarizə aparaq.

Gəlin dünya tarixinin yaxınlaşan ən böyük möcüzələrindən və müjdələrindən birini birlikdə gözləyək.

# Hz. Mehdinin (əs) çıxışı bütün müqəddəs kitablarda müjdələnir

Dünyanın sonundan əvvəlki dövr, yəni axırzaman Allah'ın bütün müqəddəs kitablarında bildirdiyi silsilə əlamətlərlə özünü büruzə verir. Fitnə və qarışıqlığın şiddətli şəkildə yaşandığı, din əxlaqının ortadan qalxdığı və degenerasiya həyatın ən üst səviyyəsinə çatdığı bu xüsusi dövrdə Rəbbimiz hidayət verici sifəti ilə hz. Mehdini (əs) göndərəcək. Allah'ın bu əhəmiyyətli vəzifə üçün göndərdiyi hz. Mehdi (əs) imanındakı səmimiyyət, güclü Allah sevgisi və qorxusu ilə bütün dünyanın hidayətinə vəsilə olacaq. Allah'ın diləməsi ilə hz. Mehdi (əs) qədərində yazılmış bu üstün vəzifədə mütləq müvəffəqiyyətli olacaq, Allah'a imanı və din əxlaqını bütün dünyada hakim edəcək.

Məhz bu səbəbdən, hz. Mehdinin (əs) zühuru dünya tarixinin ən böyük hadisəsidir və bu böyük hadisəyə bütün müqəddəs kitablarda işarə edilir. Hz. Mehdinin (əs) gəlişi yalnız Peyğəmbərimizin (səv) dövründən deyil, minlərlə ildən bəri bilinən və gözlənilən bir müjdədir. Peyğəmbərimizin (səv) hədislərində hz. Mehdinin (əs) zühurunun Allah'ın vəhyi olan bütün kitablarda xəbər verildiyi belə bildirilir:

Nuaym buyurdu ki: **“**Mən hz. Mehdini (əs) Peyğəmbərlərin sühufunda (səhifələrdə: Adəm, Şit, İdris və İbrahim Peyğəmbərlərə endirilən səhifə şəklindəki kitablarda) belə tapıram: *“Hz. Mehdinin (əs) əməlində nə zülm, nə də eyib vardır””. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 21)*

Peyğəmbərlərə aid olan kitablarda “hz. Mehdinin (əs) işi zülm və pislik deyil” kimi işarə edilmişdir. *(Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 49)*

İbni-Münavi deyir ki: “Danyalın (əs) kitabında belə yazılmışdır: “...Hz. Mehdi (əs) çıxacaq və Allah-Təala əvvəl fəsada məruz qalanları və iman əhlini onunla qurtaracaq. Sünnələr onunla canlandırılacaq... *(Bu hədis Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman adlı kitabın Süleymaniyyə kitabxanasında olan əlyazmasında mövcuddur)*

Bu hədislərdən aydın olur ki, Mehdiyyət mövzusu bütün haqq dinlərin kitablarında mövcuddur. Tövrat və İncildə də hz. Mehdinin (əs) gələcəyi, onun xüsusiyyətləri, fəaliyyətləri və vəsiləsi ilə Allah'a iman və din əxlaqının hakimiyyət dövrünün reallaşması minlərlə il əvvəldən bildirilmişdir. Hal-hazırda nə qədər təhrif olunsa da, Tövrat və İncilin təhrif olunmamasına hüsnü-zənn etdiyimiz hissələrində, Quran ayələrində və Peyğəmbərimizin (səv) hədislərində bu izahlar görünür.

Kitablarda minlərlə il əvvəldən hz. Mehdinin (əs) çıxışı ilə əlaqədar təsvirlərin olması bu hadisənin əhəmiyyətinin dəlilidir. Axırzamanda, qiyamətə yaxın bu dövrdə Allah'ın son xəbərdar edici və müjdə verici kimi göndərdiyi elçisi hz. Mehdinin (əs) xüsusiyyətlərini və fəaliyyətlərini bilmək çox əhəmiyyətlidir. Bu həyati mövzudan hər kəsi xəbərdar etmək və o mübarək şəxsə mənəvi cəhətdən dəstək olmaq bütün iman gətirənlərin üzərinə düşən əhəmiyyətli məsuliyyətdir.

# Yəhudilərin “Məsih”, müsəlmanların “Mehdi” adı ilə gözlədiyi şəxs eyni mübarək şəxsdir

İlahi dinlərdə gözlənilən, xilaskar kimi də adlanan “Məsih” termini müsəlmanlarda Mehdi inancının təzahürüdür. İslamiyyətdəki Mehdiyyət yəhudilərin müqəddəs qəbul edilən qaynaqlarında Məsih dövrü kimi keçir. Yəhudilərin axırzamanda bəşəriyyətin qurtuluşu üçün zühurunu gözlədikləri Məsih müsəlmanların gözlədiyi hz. Mehdidir.

Ancaq xristianların Məsih kimi yer üzünə ikinci gəlişini gözlədikləri hz. İsa (əs) Mehdi (əs) deyil. Müsəlmanlar da hz. İsanın (əs) axırzamanda yenidən dünyaya gələcəyinə inanırlar, ancaq hz. İsa (əs) gələndə Mehdiyə (əs) tabe olacaq, Allah'ın izni ilə yeganə haqq din olan İslam əxlaqının yer üzünə hakim olmasına bu iki mübarək şəxs birlikdə vəsilə olacaqlar.

Peyğəmbərimizdən (səv) edilən səhih rəvayətlərə görə hz. İsa hz. Mehdinın arxasında namaz qılacaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 24)

Bu rəvayət digər hədislərdə belə xəbər verilir:

Hz. İsa (əs) səmadan nüzul edəcək və onun əmirliyini qəbul edəcək. Hz. İsaya (əs): “Bizə namaz qıldır”, - deyiləcək, ancaq o: “Əmir sizin içinizdədir”, - cavabını verərək: “Bu, Allah'ın Muhəmməd ümmətinə bir ikramıdır”, - deyəcək. *El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, s. 24)*

Hz. Mehdi (əs) möminlərlə birlikdə Beytül Məqdisdə səhər namazı qılarkən, o anda nüzul edən hz. İsanı (əs) təqdim edəcək və hz. İsa (əs) əllərini onun çiyninə qoyaraq: "Namazın iqaməti (namaz üçün səslənilməsi) sənin üçün gətirildi, buna görə sən qıldır", - deyəcək və nəhayət hz. Mehdi (əs) hz. İsa (əs) və möminlərə imam olaraq namaz qıldıracaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 25)

Peyğəmbərimizin (səv) səhih hədislərində hz. İsa (əs) və hz. Mehdinin (əs) eyni dövrdə ortaya çıxacağı və İslam əxlaqını bütün dünyaya hakim etmə məqsədi ilə birlikdə mübarizə aparacaqları bildirilmişdir. Bir çox səhih hədisdə olan bu məlumatlar hz. İsa (əs) ilə hz. Mehdinin (əs) axırzamanda bir yerə gələcəyini və mübarizələrini birlikdə davam etdirəcəklərini göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, yəhudilərin gözlədiyi Məsih, əslində, hz. Mehdidir (əs). Yəhudi qaynaqlarında Məsih krallara və həmçinin yüksək rahiblərə aid edilir. Bu səbəbdən, Məsih anlayışı Allah'a xidmət vəzifəsi üçün seçilmiş və Ona yaxın şəxsləri xarakterizə edən bir sifət kimi istifadə edilir. Ancaq yəhudilərin gözlədiyi Məsih Allah tərəfindən axırzamanda yer üzünə göndərilən və yer üzünü hakimiyyəti altına alaraq insanları Allah'a, Onun doğru yoluna yönəldən bir elçi, bir dini liderdir ki, bu təsvir İslamda hz. Mehdiyə (əs) aiddir.

Tövrata və yəhudilərin digər müqəddəs mənbələrinə baxsaq, Məsih kimi təsvir edilən şəxsin hz. Mehdinin (əs) xüsusiyyətlərinə sahib olduğunu, hər iki mübarək şəxsin fəaliyyətlərinin və dünyada vəsilə olacaqları dəyişikliklərin eyni olduğunu görərik. Bu səbəbdən, yəhudilərin axırzamanda gözlədiyi Məsih, əslində, hz. Mehdidir (əs).

Peyğəmbərimizin (səv) hədislərində hz. Mehdinin (əs) Peyğəmbər nəsli olan İsrail oğullarına bənzədilməsi bu baxımdan mənalıdır. Hədislərdən bir qismi belədir:

Hz. Mehdi (əs) boyuna görə sanki Bəni-İsraildir. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 36-29)

Hz. Mehdinin (əs) vücudu İsrail bünyəsi kimidir. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 24)

Hz. Mehdi (əs) sanki Bəni İsraildən bir adamdır. (Rəftarı onlara bənzər, yəni heybətli və ağıllıdır) (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axırzaman, səh. 23-30)

Hz. Mehdinin (əs) bədəni israilidir. Hz. Mehdi (əs) sanki Bəni-İsrailin öndə gələnlərindəndir. (İbn Həcər əl-Məkki)

Hz. Mehdinin (əs) vücudu İsrail bünyəsi kimidir. (Məriy bin Yusif bin Əbubəkr bin Əhməd bin Yusif əl-Məqdisi "Fəvaidu-fəvaidil-fikr fil-İmam əl-Mehdi əl-Müntəzər")

(Hz. Mehdinın (əs) xarici görünüşü) sanki İsrail oğullarından bir insana bənzəyir. (Ukaylı "Ən-Nəcmüs-saqib fi Bəyani ənnəl-Mehdi min evladi Əli bin Əbu Talib ələt-tamam vəl-kamal")

Sanki o (hz. Mehdi (əs)) İsrail oğullarından bir şəxs kimidir. (Nuaym bin Həmmad, vr. 52a; Məriy bin Yusif bin Əbubəkr bin Əhməd bin Yusif əl-Məqdisi "Fəvaidu-fəvaidil-fikr fil-İmam əl-Mehdi əl-Müntəzər")

Quranda Allah hz. İbrahimi (əs) və onun soyundan gələnləri seçdiyini və onları mübarək etdiyini bildirir (Bəqərə surəsi, 130; Ali-İmran surəsi, 33). Bu məlumat yəhudilərin müqəddəs kitabı Tövratda da var (Yaradılış, 22:17; 12:2). (Mövzu ilə əlaqədar ətraflı məlumat üçün baxın: Hz. Mehdi (əs) hz. İbrahimin (əs) soyundandır, Harun Yəhya)

# Allah hz. İbrahimin (əs) nəslinə hakimiyyət vəd edir

Tövratda keçən bəni-İsrail, bəni-İshaq, bəni-İsmayıl hamısı bəni-İbrahimin nəslidir. Hamısı Allah'ın mübarək etdiyi nəsil olan hz. İbrahimin (əs) nəslidir. İbrahimi dinlərdə hidayət verən sifəti ilə axırzamanda gələn və din əxlaqının dünyaya hakimiyyətinə vəsilə olan mübarək şəxs də hz. İbrahimin (əs) nəslindəndir. Bu səbəbdən, hz. Mehdi (əs) hz. İbrahimin (əs) nəslindəndir. Allah hakimiyyətini reallaşdırmaq üçün hz. İbrahim (əs) nəslinin iki qolundan gələn nümayəndələri qorumuşdur. Axırzamanda əmrinin reallaşması üçün İmam əl-Mehdi (əs) və hz. İsanı (əs) bir yerə gətirəcək. Quranda və Peyğəmbərimizin (səv) hədislərində bildirilən bu hakimiyyət dövrü Tövratda hz. İbrahimin (əs) nəslindən gələn bir birliyə vəd edilir və belə bildirilir:

Mən sənə böyük xeyir-dua verəcəyəm, nəslini göydəki ulduzlar və dəniz kənarındakı qum qədər artırıb çoxaldacağam. Sənin nəslin öz düşmənlərinin şəhərlərinə sahib olacaq. Dünyanın bütün millətləri sənin nəslinin vasitəsi ilə xeyir-dua alacaq, çünki sən Mənim sözümə qulaq asdın. (Yaradılış, 22:17-18)

Rəbb İbrama dedi: "... Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm. Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq". (Yaradılış, 12:1-3)

Nəslini göydəki ulduzlar qədər çoxaldacağam və bütün bu ölkələri nəslinə verəcəyəm. Yer üzünün bütün millətləri sənin nəslinin vasitəsi ilə xeyir-dua alacaq. (Yaradılış, 26:4)

Sənin nəslin yerin tozu kimi çox olacaq; qərbə, şərqə, şimala və cənuba yayılacaq. Yer üzünün bütün qəbilələri sənin və nəslinin vasitəsilə xeyir-dua alacaq. (Yaradılış, 28:14)

Tövratda dünyanın son dövründə Allah'a könüldən iman gətirənlərin yer üzündə lider olacağını və din əxlaqının yer üzünə hakim olacağını izah edən hissələrdən bir qismi belədir:

Məzlumlar ölkəni mülk olaraq alacaq, əmin-amanlığın bolluğundan zövq tapacaq. Çünki pislərin qol-qanadı qırılacaq, Rəbb isə salehlərin dayağıdır. Rəbbə kamillərin gündəlik qayğıları məlumdur, onların irsi əbədi qalacaq. (Məzmur, 37:11, 17-18)

Yer üzündə yaşayan bütün insanlar Rəbbi xatırlayacaq, Ona tərəf dönəcəklər. Bütün millətlərin nəsilləri Onun hüzurunda səcdə edəcək. Çünki hökmranlıq Rəbbindir... (Məzmur, 22:27-28)

Çünki şər insanlar məhv olacaq, Rəbbə ümid bağlayanlar ölkəni mülk olaraq alacaq. Bir az gözlə, pis yox olacaq, axtarsan belə, tapılmayacaq. Məzlumlar ölkəni mülk olaraq alacaq, əmin-amanlığın bolluğundan zövq alacaq. (Məzmur, 37:9-11)

Çünki pislərin qol-qanadı qırılacaq, Rəbb isə salehlərin dayağıdır... pislər həlak olacaq, Rəbbin düşmənləri çəmənin təravəti kimi solacaq, tüstü kimi çəkilərək yox olacaq. (Məzmur, 37:17-20)

Rəbbi gözlə, Onun yolunu tut... Pislərin məhv olacağı zamanı görəcəksən. Salehlərin

qurtuluşu Rəbbdəndir... Rəbb onların imdadına çatır, onları qurtarıb pislərin əlindən alır, çünki onlar Rəbbə pənah aparır. (Məzmur, 37:34, 39-40)

Bu hissələrdən də aydın olur ki, Tövratda xəbər verilən hakimiyyət müəyyən qrupun və ya soyun digər cəmiyyətlər üzərində güc və iqtidar sahibi olması deyil, Allah'a səmimi imanın və bütün insanlara əmr etdiyi əsl din əxlaqının yer üzünə hakim olmasıdır. Bununla bərabər, Tövratda imanlı yəhudilərlə əlaqədar təsvirlər Tövratın endirildiyi dövrdə yaşayan səmimi möminlərə xəbər verilən müjdələrdir. Bu səbəbdən, Tövratda bəni-İsrailə vəd edilən hakimiyyətlə bağlı qisimlərin səmimi Allah inancını əsas götürmədən, yalnız müəyyən bir xalqın üstünlüyü kimi izah olunması doğru deyil.

Belə ki, İslamiyyətdə və yəhudilikdə mövcud olan din əxlaqının hakimiyyəti anlayışı yer üzündə din əxlaqının yaşanmamasından qaynaqlanan pislik və çətinliklərin din əxlaqının yaşanmağa başlanması ilə aradan qalxması və gözəl əxlaqın yayılmasıdır. Müsəlmanların xahişi odur ki, uca Rəbbimizin əmr etdiyi əxlaq, yəni yardımlaşma, ədalət, dürüstlük, sədaqət, təvazökarlıq, əfvedicilik, mərhəmət insanlar arasında geniş yayılsın, hər kəsin Allah'ın razılığını qazanmaq üçün ən gözəl əxlaqı göstərməklə yarışdığı mühit formalaşsın. Belə bir mühitin təmin edilməsi, şübhəsiz, bu dəyərlərin çatışmazlığından qaynaqlanan hər cür problemi aradan qaldırar. Bu anlayışa sahib olan müsəlmanların məqsədi güc və iqtidar sahibi olmaq deyil, Allah özlərinə belə bir nemət lütf etsə, bu neməti din əxlaqını daha çox yaymaq üçün ən yaxşı şəkildə istifadə etməkdir. Möminlərin gözəl xüsusiyyəti bir Quran ayəsində belə xəbər verilmişdir:

**Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allah'a aiddir.** (Həcc surəsi, 41)

# VIII HİSSƏ

# GƏLİN BİRLƏŞƏK

Bura qədər izah etdiyimiz bütün həqiqətlər kitab əhli ilə müsəlmanların oxşar inanc və düşüncəyə sahib olduqlarını göstərir. Hər üç dinin mənsubları Allah'ın varlığına, birliyinə, bütün kainatı və canlıları Onun yaratdığına, insanların həyatlarını Allah'dan gələn vəhyə görə tənzimləməli olduğuna inanır. Tövrat və İncildə təhrif edilməmiş hissələrdəki əxlaq anlayışı ilə Quranda təsvir edilən əxlaq anlayışı və ideal cəmiyyət modeli də bir-birinə bənzəyir. Şübhəsiz, bu bənzərliklərlə yanaşı, bəzi inanc fərqlilikləri də vardır. Bu inanc fərqlilikləri tarixdə üç dinin mənsubları arasında mübahisə və hətta qarşıdurma səbəbi olmuşdur və hələ də davam edir. Ancaq dinsiz, ateist ideologiyaların mövcud olduğu bir dövrdə üç din arasındakı fərqliliklər deyil, bənzərliklər ön plana çıxarılmalıdır.

Fərqlilikləri ixtilaf mövzusuna çevirməməliyik. Televiziya xəbərlərində bəzən böyük bir zəlzələ və ya sel fəlakətindən sonra aparılan xilas işlərini izləyirik. Bu görüntülərdə ortaq cəhət diqqətimizi çəkir. Təbii fəlakətdən sonra müxtəlif ölkələrdən fərqli millətlərə və dinlərə mənsub insanlar səfərbər olur, heç bir fədakarlıqdan qaçmır, zərər görən insanları xilas etmək üçün əl-ələ verirlər. Hətta aralarında düşmənçilik olan ölkələr də belə çətin zamanlarda düşmənçiliyi bir kənara buraxırlar. Heç tərəddüd etmədən fəlakətdən sarsılan ölkənin köməyinə qaçırlar. Belə bir vəziyyətdə, dağıntı altında qalan və ya boğulmaq təhlükəsi olan insanlar təcili kömək gözləyərkən keçmişdən qaynaqlanan problemləri, müharibələri, çəkişmələri, mübahisələri, ön mühakimələri gündəmə gətirmək böyük vicdansızlıq olar. Bir də cəmiyyətlərin yaşadığı vəziyyəti gözümüzün önünə gətirək: ateizmi və materializmi qanuna çevirən ideologiyaların fəaliyyətləri, sosial degenerasiya, əxlaqi çöküntü, yoxsulluq, aclıq, artan pisliklər, dağılan ailələr, mənəvi boşluq içindəki insanlar, qeyri-qanuni hərəkətlər, cinayətlər, müharibələr, qarşıdurmalar, narahatlıqlar...

Şübhəsiz, bunlar və buna bənzər pisliklər cəmiyyətləri  sürətlə maddi və mənəvi dağıntıya sürükləyir. Digər tərəfdən, ateist-materialist, dağıdıcı fəlsəfələr insanların həm dünya, həm də axirət həyatı üçün təhdiddir.

İnanclı, səmimi, vicdanlı və sağlam düşüncəli xristian, yəhudi və müsəlmanlar pislərə qarşı köməkləşib ortaq fikri mübarizə aparmalı, birlikdə çalışmalıdırlar. Bu birlik sevgi, hörmət, şəfqət, mərhəmət, anlayış və əməkdaşlıq prinsipləri əsasında yaradılmalıdır. Vəziyyətin nə qədər təcili olduğunu diqqət mərkəzində saxlamalı, çəkişmə, mübahisə və ayrılığa gətirib çıxaran ünsürlərdən qaçmalıyıq.

Yəhudiliyin kitabı Əhdi-Ətiqə, xristianlığın əsası olan Əhdi-Cədidə və Qurani-kərimə baxanda qarşılıqlı əlaqələrdə ən gözəl söz və davranışların tövsiyə edildiyini görürük. Xristianların digər insanlara qarşı davranış üslubu İncildə belə izah edilir:

...Bir-birinizə və bütün insanlara həmişə yaxşılıq etməyə çalışın. (1 Saloniklilərə, 5: 15)

Heç kimə şər atmasınlar, davakar deyil, mülayim olsunlar və bütün insanlarla həlim davransınlar. (Titusa, 3: 2)

Tövratda isə yəhudilərin insanlara yaxşı davranması belə tövsiyə edilir:

Pislikdən yaxşılığa dönün ki, sağ qalasınız! Beləcə, iddia etdiyiniz kimi ordular Allah'ı Rəbb, həqiqətən, sizə yar olacaq. Pisliyə nifrət edin, yaxşılığı sevin... Ədalətə üstünlük verin. (Amos, 5: 14-15)

Quranda isə Rəbbimiz bir çox ayəsində gözəl əxlaqın, yaxşılığın, pisliyə yaxşılıqla cavab verməyin əhəmiyyətini bildirmiş, yəhudi və xristianlara qarşı müsəlmanların yaxşı niyyətlə və şəfqətlə yaxınlaşmasını buyurmuşdur. Quranda yəhudi və xristianların müşriklərdən (yəni bütpərəst və ya dinsizlərdən) müsəlmanlara daha yaxın olduğu açıq şəkildə ifadə edilir.

Kitab əhli Allah'ın vəhyinə əsaslanan əxlaqi meyarlara, haram və halal anlayışlarına malikdir. Bunun üçün kitab əhlindən olanların bişirdiyi yemək müsəlmanlar üçün halal edilmişdir. Eyni şəkildə, müsəlman kişilərə kitab əhlindən qadınlarla evlənmə icazəsi verilmişdir. Bu mövzu ilə bağlı olaraq ayədə Allah belə buyurur:

**Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli mömin qadınlar da, sizdən əvvəl kitab verilənlərin ismətli qadınları da, namuslu olub zinakarlıq etməmək və aşna saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır. İmanı inkar edənin əməlləri boşa çıxar və o, axirətdə ziyana uğrayanlardan olar**. (Maidə surəsi, 5)

Bu hökmlər müsəlmanlarla kitab əhli arasında nikahın qurula biləcəyini, hər iki tərəfin bir-birinin yemək dəvətinə gedə biləcəyini göstərir ki, bunlar mehriban insani əlaqələr, dinc və ortaq həyat qurulmasını təmin edən əsaslardır. Quranda bu mülayim və mehriban düşüncə tövsiyə edilərkən müsəlmanların əksinə davranması doğru deyil.

Müsəlmanlar bu əsaslar üzərində yəhudi və xristianlara hörmət və nəzakətlə yaxınlaşmalı və onlara Quranın eyni kəlməyə çağırışını ən gözəl şəkildə çatdırmalıdır. Müsəlmanlarla kitab əhlinin ittifaqının sirri bu çağırışdadır:

**De: "Ey kitab əhli! Bizim və sizin aranızda olan eyni bir kəlməyə gəlin ki, Allah'dan başqasına ibadət etməyək, Ona heç bir şeyi şərik qoşmayaq və Allah'ı qoyub bir-birimizi ilahiləşdirməyək"...** (Ali-İmran surəsi, 64)

# Gəlin Allah'ın varlığını, yaradılışı izah etmək üçün birləşək

Kainatın hər tərəfi inkarçıların yanlış və azğın fəlsəfələrini yerlə-yeksan edən dəlillərlə doludur. Vicdanının səsini dinləyən, səmimi və ön mühakimələrdən uzaq olaraq kainatı və təbiəti araşdıran hər kəs ətrafındakı yaradılış dəlillərini dərk edir. Canlı-cansız hər varlıq Allah'ın üstün yaratma sənətini bizə tanıdan mesajlar daşıyır, ətrafımız Onun varlığını və birliyini açıq ortaya qoyan işarələrlə əhatə edilmişdir.

Allah'ı inkar edənlərin qarşıya qoyduğu ən böyük cəfəngiyat canlı-cansız hər şeyin təsadüf nəticəsində meydana gəlməsi iddiasıdır. İnkarçıların yaymağa çalışdığı bu batil

inancın aradan qalxması üçün ətrafımızdakı yaradılış dəlillərini müasir elmin işığında araşdırmaq və bunları insanlara izah etmək lazımdır. Canlılardakı möhtəşəm quruluşu və mükəmməl sistemləri, kainatdakı fövqəladə nizamı və milyardlarla həssas tarazlığı bütün açıqlığı ilə görən vicdanlı insanlar bu sayədə bunların təsadüfən meydana gələ bilməyəcəyini və hər şeyi üstün güc sahibi olan Allah'ın yaratdığını anlayarlar. Beləliklə, inkarçıların yaymağa çalışdığı təsadüf yalanı yerlə-yeksan olar.

Yaradılış dəlilləri Allah'ın varlığını və birliyini, Onun üstün qüdrətini, elm və sənətini göstərən hər cür məlumatı və həqiqəti əhatə edir. Bunlar insanların Allah'ın varlığını dərk etməsinə və Ona yönəlməsinə vəsilə olur.

Qəflətdəki insanların hər gün ətraflarında şahid olduğu, lakin görə bilmədiyi bir çox yaradılış dəlillərini, mükəmməllikləri bütün xüsusiyyətləri ilə onlara göstərmək bu şəxslərin qəflətinin dağılmasında çox təsirli olar. İllərdir hər kəsin görməyə alışdığı və bir çox insanın düşünmədiyi bir çox iman həqiqəti vardır. İnsanın təkcə öz bədəni böyük yaradılış dəlilidir. Sahib olduğumuz gözlər dünyanın ən inkişaf etmiş kameralarından daha üstündür. Bədənimizdəki hər sistem böyük uyğunluq və tarazlıq içində çalışır, ancaq nəhəng laboratoriyalarda reallaşa bilən kimyəvi proseslər daxili orqanlarımız tərəfindən daha mükəmməl şəkildə icra edilir. Allah qidalanmağımız üçün minlərlə nemət yaratmışdır. Hamısı eyni quru torpaqdan çıxır, buna baxmayaraq, möcüzəvi dadlara, qoxulara, görüntülərə və ehtiyacımız olan vitamin və minerallara sahib olan meyvə, tərəvəz və digər qidaların hər biri bizə Allah'ın yaratmasının dəlilini təqdim edir. Hal-hazırda bir çox insan bu gerçəklər üzərində heç düşünmədən Allah'ın nemətlərindən istifadə edir, Ona şükür etməyi ağıllarına belə gətirmədən qəflət içində yaşayır. Bu qəfləti aradan qaldırmaq üçün Allah'a və axirət gününə iman gətirən səmimi dindarlar əl-ələ verməlidirlər.

Quranın bir çox ayəsində insanlar yuxarıda sadaladığımız həqiqətlər üzərində düşünməyə, Allah'ın varlığını və böyüklüyünü göstərən bu dəlilləri görüb qavramağa dəvət edilmişlər. Bu mövzudakı ayələrdən bir neçəsi belədir:

**Məgər Allah'ın yeddi göyü təbəqə-təbəqə necə yaratdığını görmürsünüz? Ayı bir nur, günəşi də çıraq etmişdir. Allah sizi torpaqdan bir bitki kimi bitirmişdir. Sonra O, sizi ora qaytaracaq və yenidən çıxardacaqdır. Allah yeri sizin üçün xalı təki döşədi. (Belə etdi) ki, orada geniş yollarla hərəkət edəsiniz.** (Nuh surəsi, 15-20)

Yuxarıdakı ayələrdə diqqət çəkilən mövzular haqqında cildlərlə kitab yazıla bilən məlumatlar vardır. Məsələn, səmanın yeddi laydan ibarət olması və bunların dünyadakı ekoloji sistemə və canlılara verdiyi faydalar, Ay və Günəşin mövsümlərə, iqlimlərə, gecə-gündüzün meydana gəlməsinə və insan həyatına olan təsirini düşünmək insanın düşüncə üfüqünü genişləndirən, imanını artıran vasitədir. Bu sistemlərdə meydana gələn ən kiçik bir dəyişikliyin necə təhlükəli nəticələr doğuracağını düşünmək də eyni şəkildə təsirlidir. Bütün kainat bunun kimi saysız-hesabsız dəlillərlə doludur. Lakin insanların bir qismi gündəlik həyatda bu möcüzələr üzərində, demək olar ki, heç düşünmür. Bu səbəbdən, yaradılış dəlillərini insanların düşünmədiyi yönləri ilə izah etmək qarşı tərəfi düşünməyə sövq edər və Allah'ın gücünü və qüdrətini tanıyıb təqdir etməsinə gətirib çıxarar.

Allah'ı təqdir edən bir insanın həyatında, əxlaqında, ümumi rəftar və davranışlarında müsbət dəyişikliklərin olacağı da aydındır. Rəbbimizin gücünü və qüdrətini dərk edən bir

insan Onun əmrlərini əskiksiz yerinə yetirmək üçün səy göstərər və Allah'ın razı olacağı əxlaqı yaşamağa cəhd edər. Beləliklə, təvazökar, səbirli, vəfalı, fədakar, mərhəmətli, cəsur, dürüst və ədalətli insanların sayı artar və Allah'ın bildirdiyi gözəl əxlaqın yayılması ilə dünya gözəl bir məkana çevrilər.

O halda, gəlin birləşək. Yaradılış həqiqətlərini araşdıraq, bunları bütün insanlara izah edək və onları Rəbbimiz olan Allah'ı sevməyə, Ona şükür etməyə, Onun əmr etdiyi əxlaqı yaşamağa və Onun razılığı üçün ibadət etməyə dəvət edək.

# Gəlin darvinizmə qarşı birləşək

Əvvəlki səhifələrdə toxunduğumuz kimi ateist, materialist və din əleyhdarı güc mərkəzləri din əxlaqına qarşı əvvəlki dövrlərdən daha çox mübarizə aparırlar. İnsanları Allah'ın yolundan azdırmaq, onlara Allah'ın varlığını və birliyini inkar etdirmək, din əxlaqını aradan qaldırmaq üçün son iki əsrdir dünyada sistemli bir iş görülür.

Burada diqqət çəkici məqam ondan ibarətdir ki, bütün azğın və yanlış sistemlər elmilik iddiasındadır və bu iddianı da darvinizmə əsaslandırırlar. Darvinizm insanlara yaradılışı inkar etdirərək onları ateizmə sürükləyir. Məqsəd dünyanı güclülərin ayaqda qaldığı bir həyat mübarizəsinin arenası kimi təsvir edərək, insanları İlahi dinlərin gətirdiyi əxlaqi üstünlüklərdən uzaqlaşdırıb eqoist və mərhəmətsiz heyvanlara çevirməkdir.

Məşhur ateist təkamülçü professor R.Dokinz (Richard Dawkins): “Darvindən əvvəl ateist olmaq elmi cəhətdən mümkün deyildi, Darvin bizə bu imkanı verdi”, - deyərək təkamül nəzəriyyəsinin missiyasını yekunlaşdırır.

Halbuki təkamül təlimi ateistlərə bu imkanı verməmişdir. Çünki nəzəriyyə elmi tapıntılarla ziddiyyət təşkil edir. Paleontologiya, biokimya, müqayisəli anatomiya, biofizika kimi bir çox elm sahəsi canlıların meydana gəlməsinin təkamül nəzəriyyəsinin iddia etdiyi kimi təbii müddətlər və təsadüflərlə açıqlana bilməyəcəyini göstərir. Qısası, təkamül elmlə əlaqəsiz şəkildə müdafiə olunur.

Bununla birlikdə, hələ də elm dünyasında və bəzi mətbuat səhifələrində təsirli mövqelər təkamül nəzəriyyəsinin fanatik tərəfdarlarının əlindədir. Onlar darvinizmi nəyin bahasına olursa-olsun, dəstəkləməyi hədəf alır, bu səbəbdən, həqiqətləri gizlədir və ya təhrif edirlər. Təkamül nəzəriyyəsini tənqid edən əsərləri və elm adamlarını kənarlaşdırmağa çalışırlar.

Elm və düşüncə dünyasındakı darvinist diktatorluğa qarşı Allah'a inanan insanların birləşərək etiraz etməsi olduqca vacibdir.

O halda, gəlin birləşək. XXI əsrin elmi və texnoloji imkanlarından istifadə edərək darvinizmin böyük yalan və saxtakarlıq olduğunu bütün dünyaya izah edək, həyatın həqiqi mənşəyinin yaradılış olduğunu bütün insanlara eşitdirək.

# Sülh naminə birləşək

Allah iman gətirənlərə yer üzündə sülhü təmin etməsini və sülhün qoruyucuları olmasını əmr etmişdir. Yer üzündə təxribat törədənləri, haqlı səbəbi (müdafiə və ya məzlumları qurtarma məqsədi) olmadan müharibə çıxaranları, nizamı pozanları, günahsız insanları qətl edənləri lənətləmişdir. Rəbbimizin əmr etdiyi əxlaqı yaşayan möminlərin vəzifələrindən biri də insanlar üçün sülhü və təhlükəsizliyi təmin etmək, bütün insanların rahat yaşaya biləcəyi bir dünya meydana gətirməkdir.

Daha çox torpaq əldə etmək, öz irqinin və ya xalqının üstünlüyünü sübut etmək, digər millətləri hakimiyyəti altına almaq kimi səbəblərlə başlayan müharibə və qarşıdurmalar həyatını itirmiş günahsız insanlar, şikəstlər, yetimlər, ruhi tarazlığını itirmiş insanlar, yandırılıb dağıdılmış şəhərlər, dağıdılmış mədəniyyətlər, yoxluq, qorxu və aclıq yaradır, həmçinin böyük dağıntılar meydana gətirir.

Müharibənin, qarşıdurmaların və hər cür qan tökməyin əsasında insanların əsl din əxlaqından uzaqlaşması dayanır. Bəzən də din adı altında ortaya çıxan bəzi şəxslərin azğın açıqlamaları əsl din əxlaqı haqqında kifayət qədər məlumatı olmayanlara təsir edir, onları din əxlaqına uyğun olmayan hərəkətlər etməyə yönləndirir. Anlaşılmazlıqların və problemlərin şiddət yolu ilə həll edilməsinə inananlar, təzyiq və despot üsulları ilə insanlara zülm edənlər, zülmlərinə qanuni don geyindirməyə çalışanlar qarşısında iman gətirənlərin əməkdaşlığı əhəmiyyətlidir.

O halda, gəlin birləşək.

İnsanlara əsl din əxlaqını izah edərək onları qarşıdurma və müharibəyə sürükləyən hər cür səbəbin aradan qalxmasına vəsilə olaq.

Fərqli inanclar arasında heç bir şəkildə qarşıdurma olmasına ehtiyac olmadığını birlik halında hərəkət edərək rəftar və davranışlarımızla insanlara göstərək.

Sevginin, anlayışın və mərhəmətin yayılması üçün insanlara Allah sevgisini izah edək.

# NƏTİCƏ

Möminlərin dostu, köməkçisi və qoruyucusu Allah'dır. Allah hər şeydən xəbərdar olan, hər şeyə qadir olan, möminlərin işlərini asanlaşdıran, onları üstün və güclü edəndir. Bu səbəbdən, ümidsizlik, kədər, zəiflik iman gətirənlərə əsla yaraşmayan xüsusiyyətlərdir.

Allah Öz yoluna itaət edənlərə kömək edəcəyini bir Quran ayəsində belə vəd etmişdir:

**Onlar ancaq: "Rəbbimiz Allah'dır", –dediklərinə görə haqsız yerə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, içərisində Allah'ın adı çox zikr olunan monastırlar, kilsələr, sinaqoqlar və məscidlər dağılıb gedərdi. Allah Ona yardım edənlərə, mütləq yardım edər. Şübhəsiz ki, Allah qüvvətlidir, qüdrətlidir.** (Həcc surəsi, 40)

Quranda bir həqiqət də müjdələnmişdir: pislərin tədbirləri, qurduqları tələlər nə qədər böyük görünsə də, cəhdləri boşa çıxacaq, nəticə verməyəcək. Pisliyin, əxlaqsızlığın yayılması üçün qurulan hər bir tələ, qurulan hər plan əvvəl-axır pozulacaq. Pislik və əxlaqsızlığı quranların hazırladıqları öz əleyhlərinə çevriləcək. Bu həqiqət bəzi ayələrdə belə xəbər verilmişdir:

**(Zalımlar) öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allah'a bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir. Allah'ın Öz elçilərinə verdiyi vədə xilaf çıxacağını sanma. Həqiqətən, Allah qüdrətlidir, intiqam almağa qadirdir.** (İbrahim surəsi, 46-47)

**(Bütün bunlar) onların yer üzündə təkəbbür göstərmələrinə və yaramaz hiyləgərliklər törətdiklərinə görə idi. Yaramaz hiylələr isə ancaq öz sahiblərini qaplayar. Onlar əvvəlkilərin başlarına gələn aqibətdən başqasınımı gözləyirlər? Sən Allah'ın qayda-qanununa heç bir əvəz tapa bilməzsən, Allah'ın qayda-qanununda heç bir dəyişiklik də tapa bilməzsən.** (Fatir surəsi, 43)

İstər müsəlman, istərsə də xristian və ya yəhudi olsun, bütün inananlar yuxarıdakı həqiqətləri unutmadan, sülhün, hüzurun, rifahın, gözəl əxlaqın, yaxşılığın, xoşbəxtliyin, təhlükəsizliyin hakim olduğu cəmiyyətlərdə yaşamaq üçün əl-ələ verməlidirlər. Belə bir məqsəd uğrunda birlik içində hərəkət etsək, Allah bizə müvəffəqiyyət nəsib edər.

İman gətirən hər xristian, hər müsəlman, hər yəhudi bu istiqamətdə əlindən gələni etməklə mükəlləfdir. Bir olan Allah'a iman gətirən, Onun məmnuniyyətini qazanmağa çalışan, Ona tam təslim olan, Ona könüldən bağlı olan, Onu ucaldan və eyni dəyərləri müdafiə edən müsəlman, yəhudi və xristianların birlikdə hərəkət etməsi ən doğru olandır.

Yəhudi, xristian və müsəlmanlar aralarındakı tarixi problemlərə, ön mühakimələrə, yanlış fikir və ya fanatizmə əsaslanan mübahisələrə və çəkişmələrə tamamilə son qoymalıdırlar. İtiriləcək bir günün belə olmadığı unudulmamalıdır. Hər üç dinin mənsubları bir-birinə anlayış və sevgi ilə yaxınlaşmalıdır. Fərqlilikləri deyil, ortaq cəhətləri gündəmə gətirmək, çətinləşdirmək deyil, asanlaşdırmaq, dağıtmaq deyil, qurmaq, mane olmaq deyil, kömək etmək, bölmək deyil, birləşdirmək lazımdır.

Məlumatsızlıqdan və ya din əxlaqına qarşı olanların təxribatlarından qaynaqlanan ön mühakimələr aradan qaldırılmalıdır. Bilinməlidir ki, xristianlıq, yəhudilik və İslam arasında qurulmağa çalışılan divarlar yalnız inkarçıların və din əxlaqına qarşı olanların işinə fayda verir. Bu kitabla kitab əhlinə əhəmiyyətli çağırış edirik: **darvinizm başda olmaqla, dinsizliyə və əxlaqsızlığa zəmin hazırlayan bütün ideologiyalara qarşı ortaq fikri mübarizə aparaq.** Texnoloji imkanlarımızı, məlumatlarımızı, təcrübələrimizi və işlərimizi birləşdirək. Elmi araşdırmalarla bunların yanlışlığını bütün dünyaya izah edək. Kainatı bütün canlı və cansız varlıqlarla birlikdə üstün güc sahibi Allah'ın yaratdığını, yaradılış dəlillərini və möcüzələrini dünyanın hər tərəfindəki insanlara izah etmək üçün birlikdə çalışaq.

Şübhəsiz, xeyirlərə çağıranlar, yaxşılığı əmr edib pisliklərdən çəkinməyi tövsiyə edənlər və uca məqsəd yönündə birlikdə hərəkət edənlər, Allah'ın izni ilə, qurtuluşu və sonsuz xoşbəxtliyi ümid edə bilərlər. Əksini edən insanlar ziyanda ikən, yalnız onlar əbədi qazanc əldə edərlər:

**And olsun axşam çağına! Həqiqətən, insan ziyan içərisindədir. Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbirli olmağı məsləhət edənlərdən başqa.** (Əsr surəsi, 1-3)

## ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən

mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi

inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün

dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

> "Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya

ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil

etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> "Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda,

təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı

üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir.

Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur

genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman**

**gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini

heyrətlə qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**
**Həqiqətən, Sən bilənsən, müdriksən!**
**(Bəqərə surəsi, 32)**

# Mənbələr


1. ( El-Cami's Sağir, 1. 427)

2. (El-Cami's Sağir, 1. 427)

3. (Esbahani: Hz Aişe)

4. Buhari ve Müslim

5. (Ramuz El Hadis 1. cilt )

6. (Kütübi Sitte Muhtasarı Tercüme ve Şerhi, 7. cilt)

7.(Huccetül İslam İmam Gazali, İhya'u Ulum'id-din, 2.cilt)

8. İbn Hişam, Ebu Muhammed Abdulmelik, Es-Siretü'n-Nebeviyye, Daru't-Türasi'l-Arabiyle, Beyrut, 1396/1971, II/141-150; Yrd. Doç. Dr. Orhan Atalay, *Doğu-Batı Kaynaklarında Birlikte Yaşama*, Gazeteciler ve Yazarlar Vakfı Yayınları, İstanbul, 1999, s. 95

9. (Majid Khoduri, İslam'da Savaş ve Barış, Fener Yayınları, İstanbul, 1998, s. 209-210)

10. Majid Khoduri, *İslam'da Savaş ve Barış*, Fener Yayınları, İstanbul, 1998, s. 223

11. Levent Öztürk, *Asr-ı Saadetten Haçlı Seferlerine Kadar İslam Toplumunda Hıristiyanlar*, İz Yayıncılık, istanbul, 1998, s. 114-115

12. Frend, 289; Hamidullah, İslam Peygamberi, II. 920; Levent Öztürk, *Asr-ı Saadetten Haçlı Seferlerine Kadar İslam Toplumunda Hıristiyanlar*, İz Yayıncılık, istanbul, 1998, s. 55

13. Mark Cohen, *Haç ve Hilal Altında Ortaçağlarda Yahudiler*, Sarmal Yayınevi, İstanbul, Nisan 1997, s.185

14. Osman Turan, *Türk Cihan Hakimiyeti Mefkuresi Tarihi*, İstanbul 1969, s. 193

15. Abrahom Danon, Yossef Daath Dergisi, sayı 4; Naim Güleryüz, *Türk Yahudileri Tarihi I*, Gözlem Gazetecilik Basın ve Yayın A.Ş, İstanbul, 1993

16. Felipe Torroba, Bernaldo de Quiros, *Les Juifs Espagnols*, Madrid, 1964, s. 17

17. İlhan Bardakçı, *"Biz Hiç Irk Olmamışız"*, Tercüman, 7 Mayıs 1983

18. Levent Öztürk, *Asr-ı Saadetten Haçlı Seferlerine Kadar İslam Toplumunda Hıristiyanlar*, İz Yayıncılık, istanbul, 1998,s. 437

19. Levent Öztürk, *Asr-ı Saadetten Haçlı Seferlerine Kadar İslam Toplumunda Hıristiyanlar*, İz Yayıncılık, istanbul, 1998, s.188

20. Majid Khoduri, *İslam'da Savaş ve Barış*, Fener Yayınları, İstanbul, 1998, s. 214

21. Majid Khoduri, *İslam'da Savaş ve Barış*, Fener Yayınları, İstanbul, 1998, s. 216

22. Ebu Yusuf 139; el-Belazuri, Fütuhu'l Budan, 187

23. (Buhari, Rudani, Büyük Hadis Külliyatı Cem'ul-fevaid, cilt 5, No: 9704, İz Yayıncılık, İstanbul, s.324)

24. Muhammed Halil Herras, *Faslu'l-Makal fi Ref'I İsa Hayyen ve Nüzulihi ve Katlihi'd-Deccal*, Mektebetü's Sünne, Kahire, 1990, 20

25. Kitab-ül Burhan Fi Alameti-il Mehdiyy-il Ahir Zaman, s. 12

26. Muhammed B. Resul al-Huseyni, *Kıyamet Alametleri*, Pamuk Yayınları, İstanbul, 1991, s. 141

27. Muhammed B. Resul al-Huseyni, *Kıyamet Alametleri*, Pamuk Yayınları, İstanbul, 1991, s. 141

28. Suyuti, Cami'üs Sagir, 3/211; Ahmed bin Hanbel, Müsned, 2/492

29. *Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri*, s. 454

30. Kitabül Burhan Fi Alametil Mehdiyyil Ahir Zaman, s. 38

31. Tirmizi, Zühd, 60

32. Ramuz-El Ehadis, 187/2

33. İmam Şarani, *Ölüm, Kıyamet ve Diriliş*, Pamuk Yayınları, İstanbul, 1990, s. 476

34. İmam Şarani, *Ölüm, Kıyamet ve Diriliş*, Pamuk Yayınları, İstanbul, 1990, s. 476

35. *Ölüm-Kıyamet-Ahiret ve Ahir Zaman Alametleri*, s. 440

36. İmam Şarani, *Ölüm, Kıyamet ve Diriliş*, Pamuk Yayınları, İstanbul, 1990, s. 480

37. *Son Zamanlarla İlgili Hadisler*, s. 92

38. Müslim, Kitabü-l Fiten: 39

39. Müslim, Hacc 216, 1252

40. Huzeyfe bin Esid el-Gifari r.a., *Büyük Hadis Külliyatı*, Rudani, 5. cilt, s. 362

41. Ebu Hureyre r.a. / Buhari, Büyu 102, Mezalim 31, Ənbiya 49; Müslim, İman 242 (155); Ebu Davud, Melahim 14 (4324); Tirmizi, Fiten 54 (2234)

42. Sahih-i Müslim, 1/136

43. Sünen-i İbn-i Mace, 10/340

44. Ibn Mace benzerini Ebu Ümame'den nakletti; *Büyük Hadis Külliyatı*, Rudani, 5. cilt, s. 370-371-372